**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

# "İNTEQRASİYA MÜHİTİNDƏ AZƏRBAYCAN ELMİNİN QARŞISINDA DURAN VƏZİFƏLƏR" MÖVZUSUNDA GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRANT VƏ DOKTORANT)RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

**Lənkəran-21 dekabr, 2018-ci il**

## TƏŞKİLAT KOMİTƏSİ

| | | |
|---|---|---|
| **Natiq İbrahimov** | - | Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsini icra edən, riyaziyyat üzrə elmlər doktoru, professor |
| **Aydın Kazımzadə** | - | Bakı Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü |
| **Mikayıl Məhərrəmov** | - | Lənkəran Dövlət Universitetinin rektorunun müşaviri, texnika elmləri doktoru, professor |
| **Məsud Məmmədov** | - | Lənkəran Dövlət Universitetinin professor məsləhətçisi, filologiya elmləri doktoru, professor |
| **Rafiq Novruzov** | - | Bakı Slavyan Universitetinin elmi işlər üzrə prorektoru, filologiya elmləri doktoru, professor |
| **Yusif Qasımov** | - | Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru, riyaziyyat üzrə elmlər doktoru, professor |
| **Sifariz Səbzəliyev** | - | Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu və audit kafedrasının müdiri, professor |
| **Ədalət Axundov** | - | AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun şöbə müdiri, professor |
| **Vidadi Bəşirov** | - | Azərbaycan Dillər Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru |
| **Kamran Kazımov** | - | Lənkəran Dövlət Universitetinin Sosial məsələlər üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent |
| **Arif Məmmədov** | - | Lənkəran Dövlət Universitetinin Tarix və onun tədrisi metodikası kafedrasının müdiri, professor |
| **Elvin Əliyev** | - | Lənkəran Dövlət Universitetinin Elm şöbəsinin müdiri, dosent (məsul katib) |

## MÜNDƏRİCAT

## RİYAZİYYAT VƏ TƏBİƏT BÖLMƏSİ


**1. Ağayev Ziyafət, Abbaszadə Aytən**
Coğrafiyanın tədrisi prosesində təbii zona və landşaft bölməsinin öyrənilməsinin təlim-tərbiyəvi əhəmiyyəti........ 9

**2. Ağayev Ziyafət, Muradova Anaxanım**
Dünyanın içməli su problemi........ 10

**3. Ağayev Ziyafət, Orucov Rakif**
Tədris prosesində xəritə və digər kartoqrafik vasitələrlə işin təşkili........ 12

**4. Ağayev Ziyafət, Rəcəbli Afaq**
Lənkəran-astara iqtisadi-coğrafi rayonunun kənd təsərrüfatı........ 13

**5. Ağayev Ziyafət, Gülümov Ruzbeh**
Nəqliyyat və xarici iqtisadi əlaqələr........ 15

**6. Axundov Ədalət, Fərəcli Elmar**
Orta məktəbin VI-IX siniflərində riyaziyyat kursunda “cəbr və funksiyalar” məzmun xətti ilə “həndəsə” məzmun xətti arasında əlaqənin öyrədilməsi yolları.... 16

**7. Axundov Ədalət, Hüseynova Pərvin**
Həndəsənin əsas anlayışlarının məktəb kursunda yeri........ 18

**8. Babayeva Ülkər**
Təbii ehtiyatların mənimsənilməsində ekocoğrafi tədqiqatların rolu........ 19

**9. Ələskərov Nadir**
Lənkəran iqtisadi regionu üzrə sənaye məhsulu istehsalının investisiyalardan asılılıq funksiyasının qiymətləndirilməsi........ 20

**10. Əliyev Elvin, Atayeva Günel**
Orta ümumtəhsil məktəblərində biologiya dərslərində laboratoriya işlərinin aparılmasının müasir metodları........ 22

**11. Əliyev Nihan, Əlizadə Şəbnur**
Orta məktəbdə məntiq elementlərinin öyrədilməsinin yolları........ 23

**12. Əliyev Nihan, İbrahimov Natiq, Məmmədzadə Aygün**
İkinci tərtib diskret poverativo-multiplikativ törəməli bir tənlik üçün Koşi və sərhəd məsələləri........ 24

**13. Əliyev Nihan, Niftullayeva Şəbinə**
Kvadratda birgə tip üçüncü tərtib tənliklə əlaqədar olan zəruri şərtlərin alınması..... 25

**14. Əliyev Ramiz, Səmidov Bəhruz**
Kiçikyaşlı şagirdlərə informasiyanın alqoritmləşdirilməsinin tədrisi metodikası..... 26

**15. Əmənov Qalib**
Lənkəran təbii vilayətinin oroqrafik xüsusiyyətləri........ 28

**16. Əzizov Sənan, Ələskərzadə İsmayıl**
Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda strateji əhəmiyyətli çayçılıq və sitrus meyvəçiliyinin inkişaf istiqamətləri........ 29

**17. Əzizov Sənan, Çunayev Məhəmməd**
Coğrafiya fənninin tədrisində əyaniliyin əhəmiyyəti........ 31

**18. Əzizov Sənan, Sadıqov Şahin**
Coğrafiyanın tədrisində praktik işlərin təşkili yolları........ 32

**19. Əzizov Sənan, Bağırlı Xalid,**
Coğrafi təsəvvür və anlayışların formalaşdırılması yolları........ 33

**20. Həbibov Şakir, Həbibova Arəstə**
Riyaziyyatın tədrisində problemli təlim texnologiyası təfəkkürün inkişaf etdirilməsi vasitəsi kimi........ 34

21. **Həmidov Ruslan, Cəfərova Fatimə**
Orta məktəbin XI sinif informatika kursunda layihələrinin hazırlanmasının öyrədilməsi metodikası........................................................................................ 36
22. **Hüseynov İsa, Ağayev Kamran**
Kimyada eksperiment və onun metodikası haqqında............................................... 37
23. **Hüseynov Məmmədhüseyn, Əlizadə Alim**
Orta ümumtəhsil məktəblərində biologiyanın tədrisində müasir təlim texnologiyalarından istifadənin metodikası.............................................................. 38
24. **Hüseynov Məmmədhüseyn, Axundova İlahə**
Biologiyanın tədrisində tibbi biliklərlərin mahiyyəti və xarakteristikası................... 39
25. **Hüseynov Məmmədhüseyn, Hacıyev Savalan**
Orta ümümtəhsil məktəblərində biologiya fənninin tədrisində müasir təlim metodlarının tətbiqi imkanları........................................................................................ 40
26. **İsgəndər Elman, Şahverdiyev Murad**
Lənkəran bölgəsində becərilən çay bitkisinin (Camellia sinensis (L.) Kuntze) biomorfoloji xüsusiyyətləri........................................................................................ 41
27. **Məmmədova Gülnarə, Əlizadə Mələk**
Böyük Qafqazın şimal-şərq ərazisində torpaqəmələgətirən amillər.......................... 42
28. **Məmmədova Gülnarə**
Palçıq vulkanlarımız beynəlxalq turizmə cəlb olunmalıdır...................................... 43
29. **Mirzəyeva Səlimə, Hüseynzadə Günel**
Ortaməktəbin X–XI siniflərində qrafik redaktor və onların fərqləndirici xüsusiyyətlərinin öyrədilməsi metodikası............................................................... 45
30. **Mirzəyeva Səlimə, Məlikzadə Tural**
Orta məktəb  informatika kursunda “excel” cədvəl  prosessorunun öyrədilməsi....... 46
31. **Muradov Məmməd, Əliyev Xaliq**
Orta ümumtəhsil məktəblərin X-XI siniflərində informatika fənninin tədrisində kompüterin tətbiqi proqramlarının  öyrədilməsi metodikası.................................... 48
32. **Niftiyev Famil**
Cəlilabad və Yardımlı inzibati rayonlarında turizm infrastrukturunun inkişafı və ərazi təşkili........................................................................................................ 50
33. **Paşayev Nahid, Məmmədova Turanə**
Orta məktəblərin X sinif riyaziyyat dərslərində şagirdlərin alqoritmik mədəniyyətinin inkişaf etdirilməsi.......................................................................... 51
34. **Qədirova Gülbəniz, İbrahimli Əsmət**
Kimya fənnində təlim texnologiyalarının mahiyyəti və struktur  komponentləri....... 53
35. **Qədirova Gülbəniz, Məmmədli Nuranə**
Kimyanin tədrisində qiymətləndirmənin təlim prosesində rolu................................ 55
36. **Qədirova Gülbəniz, Hüseynzadə Cəmalə**
Orta məktəblərdə sagird fəaliyyətinin fəallaşdırılması üsulları................................ 56
37. **Şahqubadbəyli Ənvər, Əliyeva Könül**
Müasir informasiya texnologiyalarının elmdə və təhsildə rolu................................. 57
38. **Salayev Samir**
Lənkəran vilayəti aqrolandşaftlarının tarazlı inkişafının idarə edilməsi məsələləri ... 59
39. **Şəmmədov Ramiz, Abdullayeva  Sədaqət**
Biologiya dərslərində innovativ tədris metodlarının tətbiqi –STEM........................ 60
40. **Şəmmədov Ramiz, Bağırova Aygün**
Orta ümumtəhsil məktəblərinin X sinifində biologiyanın tədrisində interaktiv təlim metodundan istifadə.................................................................................................. 61
41. **Şəmmədov Ramiz, Bayramzadə Nərgiz**
“Biologiyanin tədrisində yerli floranın nadir növlərinin öyrənilməsinin əhəmiyyəti”.......................................................................................................... 62

**42. Şəmmədov Ramiz, Həmidova Suğra**
Orta ümumtəhsil məktəblərində biologiyanın tədrisində ekoloji biliklərin öyrədilməsi imkanları........................................................................................... 63
**43. Şəmmədov Ramiz, Abbasova Sevda**
Biologiyanin dərslərində multimedia texnologiyalarının tətbiq imkanları............... 64
**44. Tağıyev Allarverdi**
Qlobal iqlim dəyişmələrinin su ehtiyatlarına təsiri................................................ 65
**45. Yaqub Qabil, İbrahimov Natiq, Fərzəliyeva Ülkər**
Xüsusi qradiyent hədli xətti kvazioptika tənliyi üçün ikinci başlanğıc-sərhəd məsələsi.................................................................................................................. 66
**46. Yusubova Nərmin**
Coğrafiyanın tədrisi prosesində kartoqrafik biliklərin öyrədilməsinin əhəmiyyəti..... 67
**47. Алиев Джавидан**
Сильнейший снегопад в Баку, наблюдаемый с начала 21 века........................... 68

## İQTİSADİYYAT, AQRAR VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

**48. Abdullayev Kamil, Əzizzadə Əziz**
Xüsusi təyinatlı fondların uçotu.......................................................................... 70
**49. Abdullayev Kamil, Kərimli Nicat**
Beynəlxalq standartlara müvafiq olaraq Azərbaycan hesabatlarının transformasiyasının əsas prinsipləri........................................................................ 72
**50. Bədəlov Əlixan, Ağabağırov Emil**
İnteqrasiya mühitində Azərbaycanda sığorta sisteminin qarşısında duran vəzifələr.. 73
**51. Bədəlov Əlixan, Ağabağırov Emil**
Azərbaycanda kənd təsərrüfatının inkişafında kənd təsərrüfatı sığortasının rolu....... 74
**52. Bədəlov Əlixan, Şahbazova Lalə**
Maliyyə hesabatının beynəlxalq standartlarının tətbiqi şəraitində maliyyə və vergi uçotunun xüsusiyyətləri.......................................................................................... 75
**53. Bədəlov Əlixan, Sultanzadə Məhərrəm**
Müəssisələrdə gəlir və xərclər uçotunun beynəlxalq uçot standartlarının tələblərinə uyğun formalaşması........................................................................................ 77
**54. Bədəlov Əlixan, Sultanzadə Məhərrəm**
Müasir iqtisadi şəraitdə müəssisələrin gəlir və xərclərinin uçotda əks etdirilməsinin beynəlxalq standartlara uyğunluğu.......................................................................... 79
**55. Bədəlov Əlixan, Talıbzadə Aysel**
Müəssisələrdə maliyyə resurslarının idarə edilməsinin nəzəri əsasları...................... 80
**56. Əkbərova Ülkər**
Lənkəran vilayətinin cənub-şərq hissəsində yağış damlası eroziyasının öyrənilməsi... 82
**57. Əliyev Tərbiz, Xankişiyev Fərid**
Azərbaycanda sahibkarlıq fəaliyyətinin sertifikatlaşdırması prosesinin təşkili.......... 83
**58. Əliyeva Gülbəniz, Məmmədəliyev Sadiq**
Kənd təsərrüfatı məhsulları ixracının müasir vəziyyəti problemləri və prespektivləri..................................................................................................... 84
**59. Əsgərov Hikmət, Ramazanov Cəlil**
Azərbaycanda turizm infrasrukturunun turizmin inkişafının əsası kimi.................. 85
**60. İsgəndərov Asəf, Bağırova Şəfa**
Respublikada iqtisadi artıma təsir edən əsas amillərin iqtisadi təhlili........................ 86
**61. Məhərrəmov Mikayıl, Cəlalov Azər**
Xammal və qida məhsullarının təhlükəsizliyinin maddi-texniki və metodiki təminatının bəzi aspektləri........................................................................................ 88
**62. Məmmədova Ülviyyə**
Torpaqdakı elementlərin miqdarının çəltik bitkisinin inkişafına təsiri...................... 90

63. **Mirzəyev Natiq, Əhədova Nübar**
Maliyyə investisiyalarının səmərəliliyinin qiymətləndirilməsi metodologiyası, onun formaları və idarə edilməsinin təşkili........ 91
64. **Mirzəyev Natiq, Fərəczadə Rəşad**
Bank risklərinin formalaşma mənbələri və onların idarə edilməsi........ 93
65. **Mirzəyev Natiq, Qurbanova Nigar**
Bazar iqtisadiyyatı şəraitində maliyyə resurslarının idarə olunmasında maliyyə mexanizminin bir sistem kimi rolu........ 94
66. **Mirzəyev Ruslan**
Aqroparkların yaradılmasının sosial səmərəsi........ 96
67. **Paşayev Tofiq, Həbibi Həbib**
Bazar iqtisadiyyatının formalaşmasında və iqtisadi müstəqilliyin təmin olunmasında innovasiya sahibkarlığının rolu........ 98
68. **Səlimov Hikmət**
Lənkəran iqtisadi regionunun aqrar- emal müəssisələrində marketinq fəaliyyətinin icrasınıləngidən amillər........ 99
69. **Zamanov Füzuli, Həsənov Murad**
Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafı........ 101
70. **Zamanov Fizuli, Əliyev Sərdar**
Lənkəran rayonunun turizm potensialı və onun inkişaf problemləri........ 102
71. **Zamanov Fizuli, Şirinov Səid**
Mehmanxana turizminin regional idarə edilməsində dövlət mexanizmlərinin rolunun artması........ 104
72. **Zamanov Füzuli, Bəşirli Məhəmmmədəli**
Nağdsız hesablaşmaların maliyyə münasibətlərinin tənzimlənməsinə təsiri........ 106
73. **Имамвердиев Эхтибар, Ахмедов Эльшад**
Значение инноваций для развития аграрного сектора........ 107
74. **Имамвердиев Эхтибар, Ахмедов Эльшад**
Роль малого бизнеса в инновационной системе аграрного сектора........ 109

## DİLÇİLİK VƏ ƏDƏBİYYATŞÜNASLIQ BÖLMƏSİ

75. **Abbas Mirhüseyin, Məmmədova Nuranə**
Şifahi xalq ədəbiyyatı nümunələrinin orta məktəblərdə tədrisi........ 111
76. **Ağazadə Yədulla, Adışirinov Tural**
Orta ümumtəhsil məktəblərinin V-X siniflərində M.F.Axundzadə yaradıcılığının yeri və rolu........ 112
77. **Bünyadova Aynur**
Frazeologizmin dil vahidi kimi fərqli xüsusiyyətləri (su və hava komponentli frazeoloji birləşmələr əsasında)........ 113
78. **CavadovaYeganə, MəstiyevaAysel**
Xarici dilin intensiv öyrənilməsindətərcümə, onun metodlarıvərolu........ 114
79. **Dənziyeva Könül, Tağızadə Ülvi**
Bağlayıcı, ədat və şəkilçilərin fərqləndirilməsi yollarının tədrisi........ 115
80. **Əliyeva Sevər**
Azərbaycan ədəbiyyatında postmodernizm Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəri əsasında........ 116
81. **Feyziyeva Ruxsara, Əhmədov İsmət**
Orfoqrafik çalışmalar və onların xarakteri........ 118
82. **Həsənova Könül**
"Tiflis əyalətinin müfəssəl dəftəri" və "Ağcaqala" etnotoponimlərinin tarixi-linqvistik təhlili........ 120

**83. Həsənova Sədaqət, Səfərova Zeynəb**
R.Rza yaradıcılığında poetik dil problemi haqqında........................................................ 121
**84. İbrahimova Leyla**
Atalar sözləri və məsəllərin dilin frazeologiyasının zənginləşməsində rolu.............. 123
**85. İsmayılova Afaq, Cahangirli Məleykəxanım**
Bədii tərcümədə xüsusi adların transpozisiyası.......................................................... 124
**86. İsmayılova Afaq, İmanzadə Turanə**
İngilis dilində toplu isimlərin tədrisi metodikası....................................................... 125
**87. İsmayılova Esmira**
Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması ana dilli yaradıcılığının zirvəsidir.......................................................................................... 126
**88. Kərimova Validə**
Noam Xomskinin sintaktik təlimində üst qat təhlili.................................................. 128
**89. Mehdiyeva Aysel**
Azərbaycan və İngilis dillərində metafora haqqında müxtəlif fikirlər....................... 129
**90. Məmmədova Günel**
Dilçilikdə gender tədqiqatları haqqında..................................................................... 131
**91. Məmmədova Nərmin**
Müstəqillik dövrü Lənkəran ədiblərinin yaradıcılığında uşaq ədəbiyyatı.................. 132
**92. Qəribli İslam, Muradzadə Sevinc**
Ümumtəhsil məktəblərində bədii əsərlərin tədrisi yolları.......................................... 134
**93. Rzayeva Aynur**
Bədii mətnlərdə koherensiya və praqmatika.............................................................. 135
**94. Səfərli Elşad, Ağazadə Söylü**
Abbasqulu Ağa Bakıxanovun maarifçilik ideyaları................................................... 136
**95. Tahirov İlham, Cahangirli Zabitə**
Müxtəlif sistemli dillərdə rəng semantikası.............................................................. 138
**96. Tahirovİlham, Cəfərzadə Nərgiz**
İngilis dilində gələcək zaman məsələsinə dair........................................................... 139
**97. Tahirov İlham, Hüseynova Nigar**
Kütləvi informasiya vasitələrinin insan həyatında rolu............................................. 140

## TARİX, FƏLSƏFƏ VƏ PEDAQOQİKA BÖLMƏSİ

**98. Abduləzizov Mehman, Babayev Araz**
Yeni qiymətləndirmə texnologiyaları......................................................................... 142
**99. Abduləzizov Mehman, Məmmədova Lalə**
Pedaqoji tədqiqatda riyazi metodlardan istifadənin üstün cəhətləri........................... 143
**100. Abduləzizov Mehman, Zərbizadə Nigar**
Optimal təlim mühitinin yaradılmasında müəllim peşəkarlığının rolu...................... 144
**101. Bəşirov Vidadi, Heydərov Fəqan**
Məktəbdaxili idarəetməyə verilən müasir pedaqoji tələblər...................................... 145
**102. Əliyev Afiq, Bayramova Ülkər**
İnteqrasiya mühitində Azərbaycan ali təhsilində innovasiyalar................................ 146
**103. Əliyev Afiq, Paşayeva Şəbnəm**
Pedaqoji prosesdə monitorinq və qiymətləndirmənin əhəmiyyəti............................. 148
**104. Əliyev Afiq, Məhərrəmova Ruhəngiz**
İbtidai sinif şagirdlərinin idrak fəaliyyətinin yüksəldilməsi yolları.......................... 149
**105. Ayəddin Əliyev, Nəzərova Səkinə**
Ana dili dərslərində müasir təlim texnologiyalarından istifadə imkanları................. 150
**106. Əliyev Ayəddin, Qafarlı Asiman**
Nitq inkişafı üzrə işin mahiyyəti................................................................................ 151

**107. Əliyev Ayəddin, Vəliyeva Ruqiyyə**
Oxu təliminin ümumi məsələləri........................................................................ 153
**108. Əliyev Əlirza, Ağazadə Şəlalə**
Ümumitəhsil məktəblərinin Azərbaycan dili dərslərində metaforaların ədəbi-bədii materiallar əsasında şagirdlərə çatdırılması yolları................................................ 154
**109. Əliyeva Kəmalə,**
Xüsusi qayğıya ehtiyacı olan uşaqların yaşıdları ilə birgə təhsilinin vacibliyi........... 155
**110. Feyziyeva Ruxsara, Əlizadə Məhəmməd**
Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində Ana dili dərsində dil qaydalarının qrammatik oyunlarla tədrisi................................................................ 156
**111. Feyziyeva Ruxsara, İbişova Şəhla**
İbtidai siniflərdə rabitəli nitqin inkişafı problemləri................................................ 158
**112. Hüseyn Fəxrəddin, Əbilova Nəzakət**
Şeyx Zahid Gilani və Xəlvətilik........................................................................ 159
**113. Hüseynova Ülkər,**
1920-ci il Gəncə üsyanı Rusiya Dövlət Hərb Arxivinin sənədlərində........................ 161
**114. İsmayılov Arif, Ağayeva Küşvər**
Riyaziyyat dərslərində məntiqi və əyləncəli məsələlərdən istifadənin təlim marağına təsiri........................................................................................ 162
**115. Kazımov Kamran, İbrahimova Cəmilə**
Tətbiq xüsusiyyətləri baxımından didaktik materialların seçim növləri.................... 163
**116. Məmmədov Arif,**
Tarix dərslərində xəritələrlə iş........................................................................ 165
**117. Məmmədov Zaur**
Azərbaycan Respublikasının YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri (1991-2018)........................................................................................ 166
**118. Baxşıyev Əliağa, Səttarov Anar**
Ümumtəhsil məktəblərinin tarix dərslərində tarixi mənbələrdən istifadənin metodları........................................................................................ 167

**Ağayev Ziyafət,**
**dosent**
**Abbaszadə Aytən,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**kreativagayev@gmail.com**
**ayten.abbaszade313@gmail.com**

# Coğrafiyanın tədrisi prosesində təbii zona və landşaft bölməsinin öyrənilməsinin təlim-tərbiyəvi əhəmiyyəti

Təhsil insanın ümumi vətəndaşlıq hazırlığı və formalaşmasını həyata keçirməlidir. Vətəndaş təhsilinin əsas vəzifəsi biliklərə, sosial fəallığa, siyasi, iqtisadi, hüquqi, ekoloji təfəkkürə sahib olan yüksək mənəviyyatlı, yaradıcı-məntiqi təfəkkürlü, təşəbbüskar, müstəqil düşüncəli, ölkəsinin, xalqının ümumbəşəri dəyərlərini qiymətləndirə bilən və öz həyatını bacarıqla qura bilən məsuliyyətli, demokratik ruhlu vətəndaşlar yetişdirilməsinə kömək etməyə şərait yaratmaqdır.

Təhsil-tərbiyə prosesi kompleks prosesdir. Bu o deməkdir ki, təhsil-tərbiyə prosesinin məqsədləri, vəzifələri, məzmunu, forma və metodları vəhdətdədir.Bunların hamısı şəxsiyyətin tam formalaşması ideyasına tabedir.Şəxsiyyətin keyfiyyətlərinin formalaşması növbə ilə yox, eyni zamanda, kompleks halında baş verir.Ona görə də, pedaqoji proses kompleks xarakter daşımalıdır.

Təhsilin məzmununa insan və vətəndaş, insan və ailə, insanlararası münasibətlər, insan və məktəb, insan və dövlət, insan və ətraf mühit, insan və dünya, şəxsiyyət və əxlaq, insan və iqtisadi həyat, ekologiya və digər cəmiyyətdə mühüm əhəmiyyət daşıyan münasibətlər.Təhsil sistemimizin qarşıya qoyduğu əsas məqsədlərdən biri cəmiyyət üçün faydalı olan, insani keyfiyyətlərə malik, ixtisası üzrə peşəkar, savadlı şəxsiyyətlər yetişdirməkdir.

Coğrafiya fənn kurrikulumu şagirdyönümlü olmaqla şagirdlərin maraq və ehtiyaclarına cavab verən ilkin bir sənəddir. Kurrikulumda əksini tapan bütün nəticələr şagirdlərə, onların inkişafını izlənilməsinə yönəldilmişdir. Fənnin ümumi məsələlərindən biri kimi məqsəd və vəzifələrin belə müəyyənləşdirilməsində şagird şəxsiyyətinin formalaşması və inkişafı diqqət mərkəzində saxlanılmışdır. Onların sinifdən-sinifə, bir təhsil pilləsindən digərinə keçməsinin tənzimlənməsi, inkişafının istiqamətləndirilməsi əsas məqsəd kimi saxlanılmışdır.

Kurrikulumun tətbiqi ilə yalnız şagirdlərə fənnlər üzrə biliklər sistemini aşılamaq deyil, eyni zamanda şagirdlərin təlim-tərbiyə məsələlərinə də toxunulur. Ölkəmizdə kurrikulum məzmununa daxil olan əsas komponentlər sırasında azərbaycançılıq keyfiyyətlərinin aşılanması da daxildir. Bu baxımdan orta ümumtəhsil məktəblərində şagirdlərə azərbaycançılığm aşılanması vətən, yurd sevgisinin təbliği ön sırada olmalıdır.

Bu nöqteyi nəzərdən kurrikulumda təbii zona və landşaft bölməsinin öyrənilməsinin təlim-tərbiyəsində böyük əhəmiyyət kəsb edir. Təbii zona və landşaft anlayışları ayrı-ayrı siniflər üzrə müəyyən alt standartlar əsasında verilməlidir. Şagirdlər bu zaman təbiət və orada baş verən hadisələr, təbiət hadisələrinin qanunauyğunluqları, coğrafi təbəqə və orada baş verən hadisələr barədə, təbii zona və landşaftlar anlayışı barədə biliklər əldə edirlər. Şagirdlər bu prosesdə mühakimə yürütmək, öz nöqteyi-nəzərini formalaşdırmaq və ifadə etmək, bu nöqteyi-nəzərləri arqumentlərlə möhkəmləndirmək bacarıqlarına yiyələnirlər.

Belə ki, V-IX siniflərdə coğrafiyanın tədrisində "Təbii zona və landşaft" anlayışlarının formlaşdırılması şagirdlərdə təbiəti mühafizə duyğularının aşılanmasında və bu fəaliyyət imkanlarının yaradılmasında geniş əhəmiyyətə malikdir."Təbii zona və landşaft" anlayışlarının siniflər üzrə tədrisi prosesində insan və təbiətin qarşılıqlı təsirinin tənzimlənməsi və

normallaşdırılması təbiətin səbəb-nəticə əlaqələrinin, qanunauyğunluqlarının mütləq nəzərə alınmasına əsaslanır və müasir elmi-texniki inkişafın vüsət tapmasında öz əksini tapır. Belə halda şagirdlərin təbiəti mühafizə fəaliyyətinin tərbiyə edilməsi planında «Təbiət-insan-cəmiyyət» sistemində təbiətlə qarşılıqlı əlaqələrin təhlili xüsusi əhəmiyyət kəsb edir və məktəbdə coğrafiya elminin ümumtəhsil əsaslarının öyrənilməsi prosesində bu sistem tətbiq edilməlidir.

Təlim-tərbiyə prosesi çoxamilli oldugundan bu prosesdə çoxlu obyektiv və subyektiv amillər özünü biruzə verir. Müəyyən olunmuşdur ki, şəxsiyyətin daxili tələbatını ifadə edən subyektiv amillərin şəxsiyyətin yaşadığı və formalaşdığı obyektiv şəraitə uyğun gəlməsi təlim – tərbiyə vəzifələrini müvəffəqiyyətlə həll etməyə kömək edir. Bu prosesi idarə edən müəllimin fəaliyyəti təkcə obyektiv qanunauyğunluqları deyil, xeyli dərəcədə onun özünün məharəti və ustalığı ilə şərtlənir.

Məsələn,müəllim meşələr barədə şagirdə məlumat verərkən ”Meşələr planetimizin ağ ciyərləridir “deyə qeyd edirsə meşələrin həyatın mövcudluğunda nə qədər əhəmiyətli olduğunu dərk edərək bu tərbiyə ilə silahlanan şagird artıq nəinki meşələrə,ağaclara xətər yetirməz eyni zamanda təbiətə ziyan vuranlarlada mübarizə aparar.

Meşələr haqqında nəzəri biliklərin daha dərindən mənimsənilməsi üçün meşəyətəşkil oluna n ekskursiyalar məktəblilərin təbiətə, ölkənin təbii sərvətlərinə marağının artmasına,vətənpərvərl ik hissinin,ekoloji dünyagörüşünün,ekoloji məsuliyyətin və mədəniyyətin vasitəçisi olur. Ekoloji ekskursiyalar həm maarifləndirici və həm də tərbiyəvi əhəmiyyətə malik olduğuna görə ekoloji təlim-tərbiyə işini kompleks şəkildə həyata keçirməyə kömək edir. Meşələrin əsas inkişaf qanunauyğunluqları,bioloji müxtəlifliyin əsas komponentləri arasında,ətraf mühitlə canlılar arasındakı mürəkkəb qarşılıqlı əlaqələr,ümumillikdə biosenoz barədə nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsinə şərait yaradır. Ekskursiya zamanı meşə eko-sisteminin ayrı-ayrı komponentləri,meşə yarusları,təbiət hadisələri barədə məlumatlar şagirdlərdə biosenozun bütövlüyü və vəhdəti haqqında anlayışın formalaşmasına səbəb olur.Meşənin bitki və heyvanlar aləmi ilə əyani tanışlıq,ayrı-ayrı növlərin təyin olunması,nadir və nəsli kəsilməkdə olan bitkilərin və heyvanların tanınması baxımından da əhəmiyyətlidir.Təbiətlə bilavasitə təmasda olan şagirdlər meşədə düzgün davranış və ekoloji etika qaydalarına yiyələnirlər.Onlar meşənin əvəzolunmaz təbii sərvət kimi əhəmiyyətini, estetik gözəlliyini daha yaxından duyurlar.

Beləliklə, şagirdlərlə aparılan təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsi, onların yaradıcılıq qabiliyyətinin, təfəkkür fəaliyyətinin inkişafı üçün müəllimlər daim axtanşda olmalı, təlim üsullarını təkmilləşdirməli, hər dərsə uyğun optimal üsul və priyomlardan istifadə etməlidirlər. Digər tərəfdən təlim-tərbiyə prosesi ikitərəfli proses olduğundan. o, iki istiqamətdə getməlidir: müəllimdən şagirdə (birbaşa əlaqə) və şagirddən müəllimə (əks əlaqə). Prosesin idarə olunması başlıca olaraq əks əlaqələr, yəni şagirdlərdən gələn informasiya üzərində qurulur.Müəllimin sərəncamında informasiya nə qədər çox olarsa, prosesin tərbiyəvi təsiri də bir o qədər məqsədyönlü olar.

**Ağayev Ziyafət,**
**dosent**
**Muradova Anaxanım,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**kreativagayev@gmail.com**
**mother.lady@inbox.ru**

## Dünyanın içməli su problemi

Yer kürəsi su planetidir. Hal-hazırda planetin hər sakininə 200 milyon ton su düşür. Lakin suyun 97,35%-i Dünya okeanının duzlu sularıdır. Quru suları -göllər, çaylar, yeraltı sular, bataqlıqlar Yer kürəsindəki suyun cəmi 2,65%-ni təşkil edir. Bunun 0,3%-i şirin sulu göl, su

anbarları, çaylar 28,6%-i yeraltı sular, 70,1%-i buzlaqlar, qar örtüyü, 1%-i torpaq və bataqlıqda,daimi donuşluqda olan digər sulardır. Yer kürəsi su ehtiyatları ilə zəngin olsa da içməli su çatışmazlığı qlobal miqyas almaqdadır. İçməli suların çox hissəsi əsasən əhalinin məskunlaşmadığı Antarktida, Qrenlandiya və Arktika adalarında-örtük buzlaqlarında,habelə yüksək dağ zirvələrində buz halındadır. Bu sulardan geniş miqyasda istifadə etmək hələlik mümkün deyil. Təbiətdə istifadə oluna biləcək içməli su resursları bütün hidrosferin cəmi 2%-ni təşkil edir. Tədqiqatçılar içməli su probleminin gələcəkdə digər problemlərdən daha ciddi ola biləcəyini proqnozlaşdırırlar. Hal-hazırda Yer kürəsində 700mln. nəfər insan su qıtlığından əziyyət çəkir. Mütəxəssislər hesab edir ki,10 ildən sonra onların sayı 3mlrd. nəfərə çata bilər. Braziliya, Rusiya, Kanada, Çin, İndoneziya, ABŞ, Banqladeş, Hindistan, Venesuela, Myanma kimi ölkələrin içməli suya olan tələbatı bolsulu çayların hesabına ödənilir. Lakin içməli su ehtiyatının çox olması heç də bu ölkələrdə əhalinin su ilə tam təmin olunmasını göstərmir. Çünki təminolunma il ərzində adambaşına düşən içməli suyun miqdarı ilə ölçülür. İçməli su ehtiyatları cəmiyyətin inkişafında mühüm rola malikdir. Bu ehtiyatlardan səmərəli istifadə edilməsi, ekoloji cəhətdən qorunması, suların mühafizə olunması müasir dünyanın əsas problemlərindən biridir. Bu problemlərin aradan qaldırılması üçün dünyanın bütün ölkələri birgə fəaliyyət göstərməlidir. Çünki, hazırda dünyada təmiz su ehtiyatlarına olan təlabat insanların həyat və təsərrüfat fəaliyyəti nəticəsində ciddi dəyişikliklərə məruz qalmışdır. Əhalinin ümumi sayının artımı və iqtisadiyyatın inkişafı təmiz su qıtlığına səbəb olur. Su qıtlığı bəzi hallarda xüsusilə transsərhəd, yəni eyni su mənbəyindən iki və daha artıq ölkənin istifadə etdiyi hövzələrdə daha kəskin şəkildə özünü göstərir. Bu problem bəzi hallarda siyasi gərginliklərlə nəticələnə bilər. BMT-nin məlumatlarına əsasən, son 50 il ərzində Yer üzündə içməli su ehtiyatlarına nəzarət zəminində 500 münaqişə və 37 silahlı toqquşma baş vermişdir. Bunlara Hindistanla Pakistan, Sudanla Misir, İraqla Suriya, Seneqalla Mavritaniya və s. lokal münaqişələri misal göstərmək olar. XX əsrin 50-ci illərində Suriya ilə İsrail arasında baş verən silahlı toqquşmaya hər iki ölkənin Colan yüksəkliyindəki şirin suehtiyatlarına – İordan çayına nəzarət etmək iddiası səbəb olmuşdur.

Müasir dünyada içməli suya tələbatın çoxalması suyun ölkələrarası ticarət əlaqələrində rolunun artması ilə nəticələnmişdir.Belə ki, hazırda Niderland Norveçdən, Səudiyyə Ərəbistanı Filippindən,Sinqapur Malayziyadan içməli suyu idxaledir.Azərbaycanın çox hissəsi arid zonada yerləşdiyindən onun su ehtiyatları olduqca məhduddur. Suvarma əkinçiliyinin inkişafı, meliorativ tədbirlərin həyata keçirilməsi, iri sənaye qovşaqlarının və şəhər aqlomerasiyalarının formalaşması Azərbaycanda şirin suya olan tələbatın getdikcə artması ilə nəticələnir. Respublikamızda il ərzində istifadə olunan ümumi su ehtiyatlarının 65-70%-i kənd təsərrüfatının, 20-25%-i sənayenin, qalan hissəsi isə əhalinin içməli suya olan tələbatının ödənilməsinə sərf edilir. Kənd əhalisi məişətdə orta hesabla gün ərzində adambaşına 150 litr su istifadə edir. Müasir şəhərlərdə isə bu göstərici 300-500litrə bərabərdir. Azərbaycan çaylarının mövcud su ehtiyatları tələbatı ödəyə bilmir.

Dünyanın bir sıra ölkələri ilə birlikdə Azərbaycan da su ehtiyatlarının mühafizəsi ilə bağlı bir sıra müqavilələrə imza atmışdır. Azərbaycan "Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair konvensiya"ya qoşulmuş və 14 mart 2000-ci il tarixində onu ratifikasiya (beynəlxalq sənədlərin təsdiqlənməsi) etmişdir. Lakin Azərbaycanın transsərhəd çay sularının qonşu dövlətlərin xüsusilə Ermənistanın ərazisində həddən artıq çirklənməsi ölkəmizdə ekoloji gərginliyin artmasına,ekosistemin-canlı və cansız komponentlərin bir-biri ilə sıx əlaqədə olduğu su mənbələrinin korlanmasına səbəb olur. Transsərhəd çaylarda su ehtiyatlarından istifadə edilməsi ilə bağlı Azərbaycanla Gürcüstan hökumətləri arasında ikitərəfli saziş imzalanmışdır. Azərbaycan və İran arasında Araz çayının suyundan birgə istifadə ilə əlaqədar komissiya fəaliyyət göstərir.İşğalçı Ermənistanla hazırda transsərhəd çaylardan istifadə edilməsi və mühafizə olunması ilə bağlı məsələlərin həlli mümkün deyil.

Təbii su ehtiyatlarının qorunub saxlanması üçün bir sıra tədbirlər həyata keçirilməlidir:

- Sənaye müəssisələri və məişətdə istifadə edilmiş çirkli sular yenidən təmizlənməli;
- Sudan az istifadə edən istehsal texnologiyaları tətbiq olunmalı;
- Kənd təsərrüfatında suvarma sistemləri təkmilləşdirilməli;

- Gübrələrdən səmərəli istifadə edilməli;
- Qapalı su dövriyyələri yaradılmalı;
- Dəniz suyu şirinləşdirilməli;
- Aysberqlərdən tam istifadə etməli;
- Artezian quyularından istifadə etməli və s.

**Ağayev Ziyafət,**
**dosent**
**Orucov Rakif,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**kreativagayev@gmail.com**
**orucov.rakif@mail.ru**

## Tədris prosesində xəritə və digər kartoqrafik vasitələrlə işin təşkili

Xəritələr və digər kartoqrafik vasitələr coğrafiyanın tədrisi zamanı öyrənmə obyekti olmaqla yanaşı eyni zamanda çox mühüm informasiya mənbəyi rolunu oynayır. Bu mənbələrin əsas xassələrindən biri olan onun əyaniliyi sayəsində xəritədə toplanmış məlumatlar daha yadda qalan olur.Digər tərəfdən xəritələr bilikləri sistemləşdirir, tədris prosesində düşüncəni təşkil etməklə onların mənimsələnib yadda qalmasını asanlaşdırır.Xəritələr cisim və hadisələrin məkandakı mövqeyi, onların istiqamətləri, sərvətləri və onların ərazi üzrə yerləşməsi haqqında aydın təsəvvür yaradır.

Geoloji, geomorfoloji, hidroloji, torpaq və s. elm sahələrində aparılan xüsusi tədqiqatlar nəticəsində çoxlu faktiki material toplanır. Bu materialların coğrafi xəritələr üzərində təsviri, yerləşməsinin qanunauyğunluğunu,əlaqəsini və s. xüsusiyyətlərini öyrənmək, dərk etmək üçün xəritə böyük əhəmiyyətə malikdir.

Xəritə haqqında ən maraqlı kitablardan birinin müəllifi hollandiyalı Q.Zondervan yazır: “ Bütün coğrafiya vasitələri içərisində, şübhəsiz xəritə birinci yeri tutur. Əgər şagird xəritə oxumağı öyrənmişsə, onun üçün xəritə sözdəndə aydın olur. Yaxşı xəritələr yaxşı coğrafiya kitablarından daha əhəmiyyətlidir.

Xəritələr müxtəlif əlamətlərə görə xarakterizə edilir.Əsasən xəritələrin miqyasına görə, məzmununa vəərazi əhatə etməsinə görə qruplaşdırılmasını şagirdlərbilməlidirlər.

Miqyasınagörə xəritələr 3 qrupa ayrılır:

1. **Böyük miqyaslı xəritələr**. Bu xəritələr miqyası 1:200000 və ondan böyük olan xəritələrdir.
2. **Orta miqyaslı xəritələr**. Bu xəritələr miqyası 1:200000-dən 1:1000000-dək olan xəritələrdir.
3. **Kiçik miqyaslı xəritələr**. Bu xəritələr miqyası 1:1000000-dan kiçik olan xəritələrdir.

Məzmununagörə coğrafiya xəritələri üç qrupa bölünür:

1. **Ümümcoğrafi xəritələr**. Bu xəritələrdə yer səthinin ümumi mənzərəsi əks olunur.
2. **Tematik xəritələr**.Bir və ya bir neçə təbii komponentin təsvir edildiyi xəritələrə tematik xəritələr deyilir.
3. **Kompleks xəritələr**. Bu xəritələrdə bir-biri ilə əlaqəsi olan bir neçə müxtəlifobyekt və hadisə təsvir olunur.

Ərazi əhatə etməsinə görə xəritələr 3 qrupda öyrənilir.

1. Dünya və yarımkürələrin xəritəsi;
2. Materik və okeanların, həmçinin onların böyük hissələrinin xəritələri;
3. Dövlətlərin və onların ayrı-ayrı hissələrinin xəritələri.

Tədris prosesi zamanımüəllimin qarşıya qoyduğu məqsəddən asılı olaraq xəritə və digər kartoqrafik əsərlər seçilir. Xəritələrdən tədris prosesi ərzində səmərəli istifadə etmək üçün şagirdlər bir çox bacarıq və qabiliyyətlərə yiyələnməli, onları başa düşməli, oxumalı və bilməlidirlər.

**Xəritəni başa düşmək-** bunun üçün kartoqrafik bilikləri mənimsəmək, xəritənin məzmununu, xassələrini, vəzifəsini, ondan istifadə qanununauyğunluqlarını və onun əhəmiyyətini bilmək lazımdır.Xəritəni başa düşməkkartoqrafik biliklərin predmetini təşkil edir. Müəyyən kartoqrafik bilik və bacarıqların olması xəritələri başa düşməyə kömək edir. Xəritəni başa düşmək ondan istifadənin səmərəliliyini artırır.

**Xəritəni oxumaq**xəritəni bilməyin daha yüksək mərhələsidir. Xəritəni oxumaq üçün təkcə onun əlifbasını, şərti işarələrini, miqyasını, proyeksiyasını və s. bilmək kifayət deyildir. Bundan ötrü kartoqrafik və coğrafi biliklərlə yanaşı xəritələrin oxunması üzərində çoxlu çalışmalar aparılması zəruridir. Hər bir bacarıq kimi, xəritəni oxumaq bacarığı da ancaq çalışmalar sayəsində yaradılır. Xəritəni oxumaq bacarığı dedikdə, xəritədə leqendadan istifadə edərək obyekt və hadisələri xarakterizə etmək, məkan təsəvvürü yaratmaq, xəritədə əks olunmayan digər əlamətləri araşdırıb tapmaq deməkdir. M.V.Studenik tərəfindən xəritənin oxunuşu üç mərhələyə ayrılır ki, bunlar aşağıdakılardır:

1.Xəritənin elementar oxunuşu; 2. Xəritənin mürəkkəb oxunuşu; 3. Xəritələrin yaradıcı oxunuşu.

**Xəritəni bilmək-**xəritədə ən mühüm obyektlərin bir-birinə nisbətən tutduğu yerini, nisbi ölçüsünü, formasını və adını hafizəyə nisbətən yadda saxlamaq, aydın surətdə təsəvvür etmək deməkdir.Xəritənin yaxşı bilinməsi ilk öncə xəritəni başa düşməkdən, və onu oxumaq bacarığına yiyələndikdən sonra formalaşır. Bu məqsədlə Coğrafiya dərsliklərində xəritəni bilmək qabiliyyətinin təmin edilməsi üçün kifayət qədər tapşırıqlar salınmışdır.

Tədris fünksiyalarına görə isə coğrafiya xəritələri divar və stolüstü xəritələrə bölünürlər.

Məktəb coğrafiya xəritələri qarşısında qoyulan metodiki tələblər məktəb atlaslarına da aiddir. Məktəb atlaslarında tematik, ümümcoğrafi və kompleks xəritələrdən əlavə bir sıra cədvəl, qrafik və diaqramlar da verilir.

Kartoqrafik təsvir olan xəritələrin ən mükəmməl verildiyi variant qlobuslardır. Qlobus təhrifsiz təsvir olduğu üçün ondan tədris prosesində olduqca geniş istifadə edilir.

Kartoqrafik təsvirlərdən olan xəritə və qlobuslar tədris vəsaiti kimi eyni funksiyanı yerinə yetirirlər. Hər biri tədris prosesində tutduğu yerə görə coğrafiyanın tədrisində o cümlədən kartoqrafik biliklərin inkişaf etdirilməsində əvəzsiz əyani vəsaitlərdir.

**Ağayev Ziyafət,**
**dosent**
**Rəcəbli Afaq,**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**kreativagayev@gmail.com**
**afaqrecebli@gmail.com**

## Lənkəran-astara iqtisadi-coğrafi rayonunun kənd təsərrüfatı

İqtisadi-coğrafi rayonunun təbii şəraiti, xüsusilə onun rütubətli subtropik iqlimi və məhsuldar torpaqları çoxsahəli kənd təsərrüfatının ərazi təşkilində və inkişaf etdirilməsində çox böyük rol oynayır. Tarixən yerli əhalinin adət-ənənələrinə uyğun olaraq iqtisadi-çoğrafi rayonda müəyyən kənd təsərrüfatı sahələri formalaşmış və inkişaf etmişdir.

İqtisadi-coğrafi rayon respublikanın ən mühüm çayçılıq, tərəvəzçilik və sitrus meyvəçiliyi zonası hesab edilir. Burada əhali, həmçinin, taxılçılıq, balıqçılıq, heyvandarlıq və s. kimi kənd təsərrüfatı sahələri ilə də məşğuldur.

İqtisadi-coğrafi rayonun 607 min ha torpaq fondunun 288,6 min ha-dan (47,5%) kənd təsərrüfatının müxtəlif sahələrində istifadə edilir. Bu torpaqların 136,5 min ha (47,3%) əkin və dincə qoyulmuş torpaqlar, 9,5 min ha (3,3%) çoxillik əkmələr, 15,2 min ha (5,3%) biçənəklər, 102,4 min ha (35,5%) örüş və otlaqlar, 25,0 min ha (8,6%) həyətyanı sahələrdən ibarətdir. Əkinçilikdə dənli bitkilər əsas yer tutur. İqtisadi-çoğrafi rayon üzrə dənli bitkilərin əkin sahəsi 88,5 min ha-dır. Bu sahənin 77%-ə qədəri təkcə Cəlilabad rayonunun payına düşür. Dənli bitkilərin əkin sahəsinə görə Masallı rayonu ikinci yeri tutur (13%). İqtisadi-coğrafi rayonda taxıl istehsalı 2012-ci ildə 174,3 min ton olmuşdur.

Taxıl istehsalına görə iqtisadi-coğrafi rayonda Cəlilabad yenə də birinci yerdə durur (131,5 min ton). Son illərdə iqtisadi-coğrafi rayonda ( Astara, Lənkəran və Masallı) çəltik becərilməsinə də başlanılmışdır. İqtisadi-coğrafi rayonda ildə 500-600 ton çəltik istehsal olunur.

Sovetlər dövründə iqtisadi-coğrafi rayon ölkənin mühüm faraş tərəvəzçilik rayonuna çevrilmişdir. Belə ki, ilin bütün fəsillərində burada istehsal olunan müxtəlif növ tərəvəz məhsulları ölkənin bir çox sənaye mərkəzlərinə göndərilirdi. Müstəqilliyimiz dövründə də Lənkəran-Astara iqtisadi-coğrafi rayonu respublikamızın ən mühüm tərəvəzçilik regionu olaraq qalır.

İqtisadi-coğrafi rayonda şəkər çuğunduru da becərilir. Onun əkin sahəsi 115 hektar təşkil edir. Respublikamız üçün vacib olan və İmişli Şəkər zavoduna nisbətən yaxınlığı burada onun əkin sahəsinin genişləndirilməsini tələb edir.

İqtisadi-coğrafi rayonda sitrus meyvəçiliyi və üzümçülük təsərrüfatları da inkişaf etdirilir. Təbii-iqlim və torpaq şəraiti burada narıngi, portağal, limon və s. kimi sitrus və digər meyvələrin yetişdirilməsinə imkan yaradır. Meyvə istehsalına görə, Astara(32,3 min ton) və Lənkəran (16,2 min ton) inzibati rayonları fərqlənir. İqtisadi-coğrafi rayonda üzümçülüklə də məşğul olunur.

Cənubi Qafqaz regionunda çay yetişdirilməsinə görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonu Gürcüstanın Qara dəniz sahilindən sonra ikinci yerdə durur. Hər iki respublikanın dənizsahili regionlarının iqlim-torpaq şəraiti çay yetişdirilməsi üçün çox əlverişlidir. Çay kolları Azərbaycanın rütubətli zonası üçün ən qiymətli bitki hesab olunur.

Heyvandarlıq iqtisadi-coğrafi rayonda kənd təsərrüfatının ikinci sahəsidir. İqtisadi-coğrafi rayon ərazisində yem bitkilərinin əkin sahəsi, eləcə də təbii otlaq və biçənəklər nisbətən məhduddur. Lakin, əhalinin ət və süd məhsullarına tələbatı burada çoxsahəli heyvandarlığın intensiv inkişaf etdirilməsinə səbəb olmuşdur.

İqtisadi-coğrafi rayonda heyvandarlığın mühüm sahəsi maldarlıqdır. Respublikanın bütün regionlarında olduğu kimi, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda da iri buynuzlu mal-qaranın sayı ildən-ilə artmağa doğru meyl edir.

Qoyunçuluq iqtisadi-coğrafi rayonun heyvandarlıq təsərrüfatında özünəməxsus yer tutur. Talış dağ yamaclarının çəmənlikləri və yay otlaqları qoyunçuluğun mühüm yem bazasını təşkil edir. Qoyunçuluq üzrə özəl təsərrüfatlar yaradılmışdır. Ət, süd və yun istehsalında onların rolu böyükdür. İqtisadi-coğrafi rayonda ildə orta hesabla 750-850 ton yun istehsal olunur.

Quşçuluq iqtisadi-coğrafi rayonun bütün yaşayış məntəqələrində inkişaf etdirilir. İri şəhərətrafı zonalarda əhalini təzə quş əti və yumurta ilə təmin etmək məqsədilə quşçuluq kompleksi yaradılmışdır. İqtisadi-coğrafi rayonda ildə təqribən 90-100mln. ədəd yumurta istehsal olunur. Arıçılıq əsas etibarilə dağlıq rayonlarda inkişaf etdirlir. Meşəliklər, çəmənliklər, meyvə bağları, bostançılıq və tərəvəzçilik arıçılğın inkişaf etdirilməsinə əlverişli imkan yaradır.

Xəzərsahili zonada, xüsusilə Lənkəran və Masallı rayonlarında balıqçılıq inkişaf edib. Qeyd etmək lazımdır ki, hələ keçmişdə Lənkəran zonasının Xəzər sahillərində çoxlu miqdarda balıqçılıq müəssisələri fəaliyyət göstərmişdir. İqtisadi-coğrafi rayonda balıqçılıq təsərrüfatını inkişaf etdirmək üçün çox böyük potensial imkanlar yaradır.

**Ağayev Ziyafət,**
**dosent**
**Gülümov Ruzbeh,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**kreativagayev@gmail.com**
**ruzbeh-1991@mail.ru**

## Nəqliyyat və xarici iqtisadi əlaqələr

Nəqliyyat sənaye və kənd təsərrüfatından sonra maddi istehsalın üçüncü əsas sahəsdir. Bu sahə məhsul istehsal etməsə də, bu prosesdə yaxından iştirak edir. Nəqliyyat coğrafi əmək bölgüsünün əsasıdır. Ölkələr arasında yaranan bu bölgü, onun nəticəsi kimi formalaşan ixtisaslaşma və komperativləşmə yalnız nəqliyyatın inkişafı nəticəsində mümkün olmuşdur.. Ölkənin təsərrüfat sahələrinin fəaliyyətində nəqliyyatın əhəmiyyəti böyükdür. Bu sahə təsərrüfat sahələrinin ərazi təşkilinə ciddi təsir göstərir, sənaye və kənd təsərrüfatı yüklərinin daşınmasını həyata keçirir.

Müxtəlif rayonlar və təsərrüfat sahələri arasında əlaqə yaradılmasında, əhalinin və təsərrüfatın yerləşdirilməsində, yeni ərazilərin mənimsənilməsində, sərnişinlərin daşınmasında nəqliyyat vasitələri mühüm rol oynayır. Nəqliyyat hasilat və emal sanəayesi, sənaye və kənd təsərrüfatı, istehsalçılar və istehlakçılar arasında əlaqə yaradır. Xarici iqtisadi əlaqələrin intensivliyi və əhatə dairəsi bu sahənin inkişafından, ölkənin iqtisadi-coğrafi mövqeyindən asılıdır.

Yükdaşınmada nəqliyyatın işini müəyyən etmək üçün yük dövriyyəsi göstəricisindən istifadə edilir. Bunun üçün daşınan yüklərin miqdarı hesablanır, tonlarla ölçülür. İkinci göstəricisi kimi daşınan yüklərin miqdarı onun daşındığı məsafyə vurulur. Bu vahid ton/km-lə ölçülür. Sərnişin nəqliyyatın işini müəyyən etmək üçün də sərnişin dövriyyəsi göstəricisindən istifadə edilir.

İqtisadi əhəmiyyətinə, ölkələrarası, regionların və ölkədaxili yüklərin daşınmasında roluna və uzunluğuna görə nəqliyyat yolları bir-birindən fərqlənir. Materikləri kəsib keçən və ən uzun yollar Transkontinental yollar hesab olunur. Ölkələrdaxili və ölkələrarası əsas nəqliyyat xətləri magistral yollar adlanır. Digər nəqliyyat yolları yerli əhəmiyyət kəsb edir.

Nəqliyyat magistrları ilə gedən yüklər yük axınlarını əmələ gətirir. Yükdaşınmaların həcmi və qurluşu təsərüffatın inkişaf səviyyəsindən, onun sahə qurluşundan, ixtisaslaşmasından, istehsal olunan məhsulların miqdarından və çeşidindən asıldır. Məhsuldar qüvvələrin yerləşməsi nəqliyyat şəbəkəsinin yerləşməsi və yükdaşınmlaırın istiqamətini müəyyən edir. Bir neçə nəqliyyat növünün magistral istiqamətlərinin kəsişdiyi məntəqələrdə nəqliyyat qovşaqları formalaşır. Bu məntəqələrdən həm də yollar müxtəlif istiqamətlərdə şaxələnir. Nəqliyyat qovşaqlarında müxtəlif nəqliyyat növləri arasında yük mübadiləsi baş verir. Nəqliyyat yolların sıxlığı hər $km^2$ düşən yolların uzunluğu ilə ölçülür.

Azərbaycanda ÜDM istehsalında nəqliyyat və rabitə sahələrinin payı 1980-ci ildən 2000-ci ilə qədər artmışdır. 1980-ci ildə onların payı 208%,2000-ci ildə 14.5% olmuşdur. 2012-ci ildə bu göstəricisi 9.2 %-ə enmişdir. Bu dövrdə nəqliyyatın sahə strukturunda da mühüm dəyişikliklər getmişdir.

Müstəqillik illərində Azərbaycanın strateji mövqeyi güclənmiş. Avropa ilə Asiya arasında, o cümlədən, Türkiyə ilə Mərkəzi Asiya ölkələri arasında iqtisadi əlaqələrin həyata keçirilməsində onun əhəmiyyəti artmışdır. Qazaxistanda hasil edilən neftin bir hissəsi buradan keçməklə dünya bazarına çıxarılır. Türkmənisatan qazının da bir hissəsinin ölkədən keçməklə Avropa ölkələrinə nəqli nəzərdə tutulur.

Yük dövriyyəsinə görə nəqliyyat sahələri arasında Dəmir yolu nəqliyyatı əsas yer tutur. Dəmir yolu nəqliyyatı yüklərin və sərnişinlərin həm uzaq, həm də ort məsafələrə daşınmasında mühüm rol oynayır. Şəhər daxili sərnişin daşınmasında(metroda), iri şəhərlər və aqlomerasiyalar

ətrafında olan məntəqələrində əlaqə yaradılmasında da dəmir yolu nəqliyyatın rolu böyükdür. O, özünün daimi fəaliyyəti, yüksək sürəti və daşınan yüklərin ucuz olması ilə fərqlənir.

Azərbaycanda nəqliyyat yollarının inkişafına Bakı sənaye rayonun formalaşaması dövründə başlanılmışdır. Abşeronda sənayenin inkişafı ilə eyni vaxtda nəqliyyat şəbəkəsi də yaradılmışdır. Ölkədə nəqliyyat kompleksinə daxil olan bütün növlər inkişaf etmişdir. Daxili və xarici yükdaşımalarda dəmir yolu nəqliyyatı mühüm yer tutur.

Respublika dəmir yollarının ümümi uzunluğu 2120 km-ə çatır. Dəmir yollarının elektirikləşməsi 1926-ci ildə Bakı-Sabunçu xətti ilə (20 km) başlanmışdır. Bu yol Bakını Abşeron yarımadasının sənaye rayonları ilə birləşdirirdi. Hazırda onların 1111 km-də elektrovozlar hərəkət edir. Bakı- Tiblisi, Bakı-Dərbənd xətləri və Abşeron zonasında istifadə edilən dəmir yolu xətləri təmamilə elektrikləşdirilmişdir.

Azərbaycanda avtomobil nəqliyyatında baş verən mühüm dəyişiklik beynəlxalq yükdaşımalarda onun rolunun artmasıdır. Avtomobil nəqliyyatı vasitəsilə qonşu İran və Türkiyə ilə əlaqələr saxlanılır. Bundan başqa, kənd təsərrüfatı məhsullarının daşınmasında onun əhəmiyyəti çoxdur.

Respublikada olan magistral dəmir yolu istiqamətinə uyğun gələn Bakı-Qazax avtomobil yolunun uzunluğu 493 km, Bakı-Yalama avtomobil yolunun uzunluğu 185km, Bakı-Astara yolunun uzunluğu 312 km-dir. Onlardan isə müxtəlif yaşayış məntəqələrinə qollar ayrılır.

Artıq Respublikanın paytaxtı bütün inzibati rayonların mərkəzləri ilə avtomobil yolu vasitəsilə birləşmişdir.

Şəhərdaxili, şəhərətrafı və şəhərlərarası sərnişin daşınmasında avtomobil nəqliyyatının rolu böyükdür. Artıq şəhərlərdə və rayon mərkəzlərindəki avtoparklarda olan taksi və avtobusların əsas hissəsi özəlləşdirilmişdir.

Bakı şəhırində yeni avtovağzalın istifadəyə verilməsi ilə sərnişinlərə göstərilən xidmətlərin səviyyəsi yüksəlmişdir. Nəticədə respublika paytaxtının digər şəhərlərlə avtomobil əlaələri genişlənmişdir.

Neft və neft məhsulları və təbii qaz Boru kəməri nəqliyyatı vasitəsi ilə hasilat rayonlarından istehlakçılara çatdırılır. Neftin boru kəmərləri ilə daşınması dəmir yoluna nisbətən üç dəfə ucuz başa gəlir. Gələcəkdə bərk xammalların da (kömür, filiz) boru kəmərləri ilə daşınması nəzərdə tutulur.

Ölkə daxilində təsərrüfat və əhalinin təbii qazla fasiləsiz təminatı, regionlar arasında onun paylanmasının nizamlanması üçün vahid qaz kəmərləri sistemi yaradılır.

Azərbaycanda boru kəmər nəqliyyatının yaranmasına neft sənayesinin ilkin inkişafı dövründə başlanmışdır. 1878 –ci ildə Balaxanı mədənlərindən Bakının neftayırma zavoduna 12 km uzunluğunda ilk neft kəməri çəkilmişdir.

Respublikanının Abşerondan kənar regionlarında və Xəzərdə neft-qaz yataqlarının istismarının genişlənməsi , neft hasilatının artması və Bakıda iri neftayırma zavodlarının tikilməsi nəticəsində ölkədə boru kəmərləri şəbəkəsi genişlənmişdir.

**Axundov Ədalət,**
**professor**
**Fərəcli Elmar,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**elmarferecli313@gmail.com**

## Orta məktəbin VI-IX siniflərində riyaziyyat kursunda "cəbr və funksiyalar" məzmun xətti ilə "həndəsə" məzmun xətti arasında əlaqənin öyrədilməsi yolları

Məktəb kursunda riyazi materialın şərhində elmiliyə riayət etməklə yanaşı, əyaniliyi və şagirdlərin bilik səviyyəsini nəzərdən qaçırmaq düzgün deyildir. Bununla bərabər, məktəb

kursunda daxil edilən hər bir yeni anlayış şagirdlərin nəzərində inandırıcı olmalı, bu anlayışın əhəmiyyəti və onu daxil etməyin labüd olması şagirdlər tərəfindən dərk edilməlidir.

"Cəbr və funksiyalar" məzmun xətti ilə "Həndəsə" məzmun xətti arasında müəyyən edilmiş həmin ümumi məsələlərin hər birinin öyrənilməsində fəndaxili və fənlərarası əlaqələrin reallaşdırılması yolları və vasitələrini şərh edək.

Əsas məktəbdə formalaşan və sonrakı inkişafını «Cəbr və funksiyalar» kursunda tapan əsas riyazi anlayışlardan biri funksiya anlayışıdır.

Funksiya anlayışı məktəb riyaziyyatının mühüm məsələlərindən biri olmaqla bərabər, bu anlayış elə bir özək olmalıdır ki, ibtidai hesabdan başlayaraq cəbrin, həndəsənin və yuxarı siniflərdə öyrənəcəyimiz triqonometriyanın əsas mövzularının tədrisi bunun ətrafında birləşsin.

Xatırladaq ki, məktəbdə funksiyayatərif vermək üçün müxtəlif misallarla, o cümlədən fiqurun fiqura inikasına aid misallarla nümayiş etdirilə bilər.

Funksiya tərifinin belə daxil edilməsi nəticəsində VII sinif şagirdlərinin əksəriyyəti funksiyaya aid müxtəlif (o cümlədən, həndəsi) misallar göstərirlər. Sonralar cəbr təlimi prosesində şagirdlərin əsas diqqəti ədədi funksiyaların öyrənilməsinə yönəldilir. VII sinifdən IX sinfə qədər şagirdlər elementar funksiyaların çoxunu öyrənirlər: düz mütənasiblik, tərs mütənasiblik, kvadratik, üstlü və loqarifmik funksiyalar.

Şagirdlərin düz mütənasib asılılıq haqqında 6-cı sinif riyaziyyat kursundan məlumatları var. Dərslikdəki fəaliyyəti həyata keçirməklə şagirdlər düz mütanasib asılılığın xətti funksiyanın xüsusi halı olduğunu müəyyən edirlər. Mütənasiblik əmsalına əsasən koordinatları verilmiş nöqtənin funksiyanın qrafikinə aid olub-olmaması aydınlaşdırılır, qrafikin yerləşdiyi rüblərlə k-nın işarəsi arasındakı əlaqə müəyyən edilir.Tapşırıqlar yerinə yetirərkən şagirdlərin yaradıcı tətbiqetmə bacarıqları müəyyən edilir.

7-ci sinifdə verilmiş ədədi ifadələrin qiymətinin tapılmasına müxtəsər vurma düsturlarını tətbiqində düzbucaqli və kvadratın sahələrindən istifadə edilir.Verilmiş hər hansı bir çoxhədlinin qurulmasında və modeləşdirilməsindən istifadə edərək, ikihədlilərin hasilini yaza bilərik. Cəbr və funksiyalar məzmun xətti ilə həndəsə məzmun xətti arasinda əlaqə 9-cu sinif riyaziyyat kursunun bir sıra mövzularında öz əksini tapmışdır. Məsələn, çevrənin tənliyi, iki nöqtə arasindaki məsafə və s.

Vl -lX sinifdə «Cəbr və funksiyaları» dərslərində şagirdlərin diqqəti təbii olaraq yenidən ədədi funksiyalara yönəldilir: ədədi funksiyanın tərifi təkrar edilir, ədədi funksiyaya aid misallar nəzərdən keçirilir, onların təyin oblastı və qiymətlər oblastının tapılmasına aid məsələlər həll edilir. Həmin məsələləri şagirdlər həll edə bilirlər. Lakin şagirdlərin çoxu ədədi olmayan funksiyalara aid misallar göstərməkdə çətinlik çəkirlər. Bu isə şagirdlərin «funksiya», «ədədi funksiya» anlayışlarını kifayət qədər tam mənimsəmədiklərini, ədədi funksiyanın növ əlamətlərini ayırmağı bacarmadıqlarını göstərir. Məhz buna görə X sinifdə «ədədi funksiya» anlayışını daxil etdikdə müəllim işi əsasən iki istiqamətdə aparmalıdır. Birincisi, VII sinifdə iki çoxluğun elementləri arasındakı xüsusi növ münasibət kimi daxil edilmiş funksiyanın tərifini şagirdlərin yaddan çıxarmadıqlarına, müxtəlif növ münasibətlər arasında funksiya olanları tanımağı bacarmasına, bundan başqa, funksiya olan münasibətlərə aid müstəqil misallar gətirə bilməsinə inanmalıdır. Belə iş prosesində IX sinfin həndəsə kursu ilə əlaqənin yaradılması təbii olacaqdır. Həm də, «ədədi funksiya» mövzusunun öyrənilməsi ilə tədricən həndəsədə fiqurun fiqura inikası və fəzanın çevrilməsi anlayışları yəni funksiya anlayışının inkişafı ilə bilavasitə əlaqəli məsələlər nəzərdən keçirilir. Bu zaman həndəsə məzmun xətti ilə şagirdlərin diqqəti inikasların funksiya olan hallarına yönəldilməsi faydalıdır. Hansı çoxluq özünü təyin oblastı, hansı çoxluq isə qiymətlər oblastı kimi göstərir; bu inikaslar dönəndirmi? Həndəsə materiallarının öyrənilməsi ilə əlaqədar cəbr kursundan ən sadə məsələlərin nəzərdən keçirilməsi şagirdlərə «funksiya», «dönən funksiya» və s. kimi mühüm cəbri anlayışları yada salmağa imkan verir, həmçinin, yeni nəzəri materialın izahına kömək edir. Digər istiqamət isə «ədədi funksiya» anlayışı üzərində müəllimin işindən ibarətdir. Bu zaman ədədi funksiyanın növ əlamətini, xüsusilə, təyin və qiymətlər oblastını – ədədi çoxluqları ayırmağı və ifadə etməyi bacarması şagirdlər üçün əhəmiyyətlidir. Nəzərdən keçirilən anlayışların mənimsənilməsinin yoxlanılması

zamanı şagirdin yalnız tələb olunan tərifi söyləməsi kifayət deyil, onlar həm də “Verilmiş funksiyalardan ədədi funksiyaları göstərin”, “Ədədi funksiyalara aid misallar söyləyin” və s. kimi sadə çalışmaları da yerinə yetirməlidirlər.Hər hansı anlayışın formalaşdırılması üçün nəzərə almaq lazımdır ki, yalnız bu anlayışa uyğun misalların gətirilməsi kifayət deyildir, həm də əks misalların gətirilməsi əhəmiyyətlidir. Ədədi olmayan funksiyalara aid misallar kimi fiqurun fiqura müxtəlif inikaslarından da istifadə etmək olar. Məsələn, $\phi_1$ fiqurunun $\phi_2$ fiquruna inikasını nəzərdən keçirərək müəllim şagirdlərin diqqətini ona yönəldir ki, bu funksiyanın təyin oblastı və qiymətlər oblastı ədədi çoxluqlar olmayıb müstəvinin nöqtələri çoxluğudur. Bununla yanaşı, həm də hansı növ əlamətlərinin olmadığı da qeyd olunur. Bu halda hər iki çoxluq (həm təyin oblastı, həm də qiymətlər oblastı) ədədi çoxluqlar deyildir.

Şagirdlərlə çoxluqlardan biri ədədi, digəri isə ədədi olmayan çoxluqlara aid misalları da araşdırmaq olar:

- hər bir kvadratlanan fiqura mənfi olmayan ədəd (bu fiqurun sahəsi) uyğun qoyulur;
- hər bir həqiqi ədədə koordinat düz xəttinin nöqtəsi uyğun qoyulur;
- koordinat düz xəttinin hər bir nöqtəsinə hesablama başlanğıcından olan onun məsafəsi uyğun qoyulur;
- hər vektorlar cütünə bir ədəd – onların skalyar hasili uyğun qoyulur;

Hazırda məktəblərdə cəbr və funksiyalar məzmun xəttinin tədrisində hazırlıq məqsədi ilə əyani-qrafik obrazlardan kifayət qədər istifadə olunmur. Məktəb təcrübəsinə əsaslanan hər hansı ənənənin olmaması səbəbindən şagirdlərdə təsəvvürlərin formalaşmasına təsvir edilən yanaşmanın həyata keçirilməsində mühüm çətinliklər yaranır.Nəhayət, qeyd edək ki, bizi bu halda hər bir anlayış haqqında dayanıqlı təsəvvürlərin formalaşmasının ön plana çəkilməsi çalışmaların həm seçilməsini, həm də xarakterini müəyyən dərəcədə məhdudlaşdırır.

**Axundov Ədalət,**
**professor**
**Hüseynova Pərvin,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**pervinhuseynova555@gmail.com**

**Həndəsənin əsas anlayışlarının məktəb kursunda yeri**

Həndəsənin tədrisi metodikası sahəsində kifayət qədər metodiki ədəbiyyatın olmasına baxmayaraq, hələ də şagirdlərin həndəsə fənni üzrə zəif nəticələr göstərdiyini və ümumiyyətlə, həndəsəni digər dəqiq elmlərə nisbətən aşağı səviyyədə mənimsədikləri məlumdur. Bu isə şagirdlərin həndəsi inkişafinda yeni ideya və metodlardan istifadə edilməsi zərurətini yaradır.

Tədqiqatın məqsədi V-VI siniflərdə həndəsə fənninin tədrisində şagirdlərin planimetriya məsələlərinin həllinin örədilməsi qaydalarını dərinləşdirmək və bununla da fənnin tədrisinin keyfiyyətini artırmaq, alınan nəticələri şagirdlərin bilik və bacarıqlarının artırılmasına yönəltməkdir.

Müəllimin əsas vəzifəsi həndəsə dərslərində riyaziyyatın tədrisi sahəsində əldə olunmuş müsbət naliyyətlərə, təcrübəyə əsaslanaraq, səmərəli olaraq irəliyə baxmaqla çətinliklər üzərində düşünməyi, analitik – sintetik yolla mühakimə və isbatlar aparma qabiliyyətini şagirdlərdə inkişaf etdirməyi bacarmalıdır. Bununla yanaşı hazırki dərsliklərdə verilən hesabalama məsələlərindən yerli - yerində istifadə edərsə, şagirdlərin həmin məsələlərin həllinə dair bilik, bacarıq və vərdişlərini lazımi şəkildə inkişaf etdirə bilər.




Şagirdlər həndəsəyə aid mühazirəni oxuyarkən bu mövzuda

verilmiş həndəsi obrazları dəqiq təsvir etməyi bacarmalıdırlar. Lazım gəldikdə mövzu ilə əlaqədar çertiyojlar qurmalıdırlar. Tutaq ki, isbat edilməli teoremlə bağlı çertiyoj qurulub.Şagird bu çertiyoju təhlil etməyi bacarmalıdır.Yəni təhlil edərkən nəyin verildiyini və nəyin tələb olunduğunu müəyyən etməyi bilməlidir. Çertiyoj mühazirənin rahat qavranılmasına kömək etməlidir. Bu işi aparmaq üçün nə lazımdır? Əvvəlcə şagirdlərə verilmiş mühazirə və ya müəllimin şərti üzrə müəyyən ardıcıllıqla tələb olunan qurma yerinə yetrilir. Əsas anlayışlardan biri olan bucaq anlayışını aydınlaşdıraq. Əvvəlcə bucağın necə bir fiqur olduğuna nəzər salaq. Bucaq- ortaq başlanğıclı iki şüanın əmələ gətirdiyi həndəsi fiqurdur. Ortaq başlanğıca bucağın təpə nöqtəsi, şüalara isə onun tərəfləri deyilir. V-VI siniflərdə bucaq anlayışını daxil etmək üçün pərgarın qollarından, qapı ilə divar arasındakı bucaqlardan istifadə edib, şagirdlərə nümayiş etdirərək onlarda uyğun təsəvvür yaradaraq , yeni terminin (bucaq) öyrədilməsinə daha asan nail olmaq olar. Çünki bu zaman müşahidələrim nəticəsində şagirdlərin təfəkküründə bir nöqtədən çıxan iki müxtəlif şüadan ibarət olan həndəsi fiqurun bucaq olması fikri asanlıqla formalaşır. V-VI siniflərdə bəzi həndəsi anlayışlar və fiqurlarla ilk tanışlıqda əyanilikdən və ya konkret təəssuratdan istifadə etməyə üstünlük vermək lazımdır. Çünki şagirdlər ilk tanışlıqda, gözlə görmədikləri həndəsi anlayışlar və fiqurlar haqqında təsəvvür yaratmaqda olduqca çox çətinlik çəkirlər. Aşağıdakı məsələni nəzərdən keçirək.

$MON$ bucağının tərəfləri üzərində bərabər $OA$ və $OB$ parçaları ayrılmışdır. $\angle AOB$-nin $OD$ tənböləni üzərində yerləşən $C$ nöqtəsi $A$ və $B$ nöqtələri ilə birləşdirilmişdir (şəkil).

$\Delta AOC \cong \Delta BOC$ olduğunu göstərir.

Şəkil-də verilmiş $AOC$ və $BOC$ üçbucaqlarına baxaq. Şərtə görə $OA = OB$ - dir, $OC$ hər iki üçbucağın orta tərəfidir və $\angle AOC = \angle BOC$ ($OC$ tənbölən olduğuna görə). Onda üçbucağın konqruyentliyinin I əlamətinə görə $\Delta AOC \cong \Delta BOC$ olar.

Bütün yuxarıda göstərilənlərlə yanaşı, müasir informasiyalı cəmiyyətdə, İKT-nin bütün didaktik imkanlarını müəyyənləşdirmək və onlardan geniş istifadə etmək də lazımdır.

**Babayeva Ülkər,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**babayevauka@gmail.com**

## Təbii ehtiyatların mənimsənilməsində ekocoğrafi tədqiqatların rolu

Müasir dövrdə cəmiyyətin davamlı inkişafını təmin etmək üçün ekocoğrafi tədqiqatların aparılması olduqca vacibdir. Çünki təbiətdən istifadə zamanı ekoloji tələblərin nəzərə alınması əsas şərtdir. Bunun üçün təbiət elmlərindən və onların sintezindən daha bacarıqla istifadə etməyi bilməliyik. Əks halda yeni texnika və texnologiyaların tətbiqi ilə iqtisadi səmərəlilik əldə etmək istəyimiz mümkün olmaz.

Təbii mühit təbii ehtiyatların mənimsənilməsi üçün zəruri olan coğrafi mühitin elementləridir. Bura insanın nəfəs alması üçün oksigen, günəş istiliyi və işığı, rütubətlilik, yağıntılar, göllər, çaylar, relyef, bioloji varlıqların inkişafı üçün torpaq örtüyü və s. aiddir. Əhalisinin artım dinamikası bu nemətlərdən istifadəni daha intensiv edir ki, nəticə etibarilə ekocoğrafi baxımdan gərgin zonalar yaranır. Bu zonalar yüksək dərəcədə antropogen təsirlərə məruz qalır və bəzən "ölü zona" kimi də adlandırılır.

V.İ.Vernadski hesab edir ki, ekoloji problemlər yaranmasına səbəb təbiətdən düzgün istifadə edilməməsidir . Ekocoğrafi problemlərin yaranmaması üçün təbii şəraitin mühafizəsi həyata keçirilməli, təbii ehtiyatlar istismar olunan zaman onlardan səmərəli və kompleks istifadə edilməli, təbii sistemlərin ekoloji balansı saxlanmalıdır.

İnsanların əməyi, məişəti və istirahətinin daim təsiri altında olan ətraf mühitin təbii və antropogen strukturlardan ibarət bir sistem olduğunu qeyd edən Ş.Göyçaylı onun mühafizəsini

təbii və sosial şəraitin optimallaşdırılması, eləcə də, mühəndis texniki və texnoloji proseslərin təkmilləşdirilməsi kimi vurğulayır. Hesab edirik ki, bu halda təbii ehtiyatların mənimsənilməsi tamamilə elmi əsaslara söykənməlidir. Bu zaman iqlim, su, torpaq, bitki və rekreasiya ehtiyatlarının təsərrüfata cəlb edilməsinin iqtisadi-coğrafi problemləri öyrənilməli, təbiətdən istifadənin əsas istiqamətləri müəyyən edilməli, regionun ekocoğrafi xüsusiyyətləri nəzərə alınmalıdır.

Təbii ehtiyatların kəmiyyət-keyfiyyətinin vəziyyətini və ekoloji iqtisadi durumu düzgün qiymətləndirməklə, təbiətdən istifadənin şüurlu qorunması mümkündür. Çünki insanın təbiətlə qarşılıqlı əlaqəsi təbii-təsərrüfat sistemlərinin komleks funksiyalarının pozulması, onların çirklənməsi,məhsuldarlığın azalması və digər neqativ təsirlərə gətirib çıxara bilər ki, onların da həlli elmi cəhətdən əsaslandırılmış idarəetmə və onlardan istifadə kimi başa düşülür. Bu zaman regional qorunma prinsipi əsas götürülməlidir.

V.V.Dokuçayev qeyd etdiyi kimi, hər bir ərazidə landşaftın xüsusiyyətlərini nəzərə almaqla təsərrüfat sahələri arasında düzgün nisbət seçilməlidir. Çünki təbii komplekslər yüklənmələrinə və dayanıqlığına görə də fərqlənirlər. Hər bir regionda yaranan ekocoğrafi problemləri həll etmək üçün ilk növbədə ərazi haqqında kompleks məlumatlar əldə edilməli və onların təhlili aparılmalıdır.

Təbii ehtiyatların mənimsənilməsində ekocoğrafi tədqiqatların rolu olduqca böyükdür. Bu tədqiqatlar təbii ehtiyatlardan səmərəli istifadə ilə yanaşı, onların gələcək nəsillər üçün qorunub saxlanılmasında da effektiv bir vasitədir. Bununla da davamlı inkişaf konsepsiyasına nail olmaq mümkündür.

**Ələskərov Nadir,**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**nadir.alaskarov@gmail.com**

## Lənkəran iqtisadi regionu üzrə sənaye məhsulu istehsalının investisiyalardan asılılıq funksiyasının qiymətləndirilməsi

Lənkəran iqtisadi rayonunda 1990-2016-ci illəri əhatə edən dövr üçün əsas kapitala yönəldilən investisiya və sənayə məhsulun həcminin statistik verilənləri aşağıda cədvəl 1-də verilmişdir.

**Lənkəran iqtisadi rayonu üzrə əsas kapitala yönəldilən investisiya və sənaye məhsullarının həcminin 1990-2016-cı illər üzrə dinamikası, (min manatla)**

| **İllər** | **Əsas kapitala yönəldilən investisiya** | **Sənayə məhsullarının həcmi** |
|---|---|---|
| **Modeldə işarələmələr** | **Sənaye məhsulunun həcmi** | **Əsaskap. inv** |
| 1990 | 2.2 | 5.8 |
| 1991 | 2.7 | 9.9 |
| 1992 | 20.5 | 47.4 |
| 1993 | 172 | 414.8 |
| 1994 | 5687.4 | 3040.4 |
| 1995 | 7808.1 | 3968.8 |
| 2003 | 13214.4 | 11059 |
| 2004 | 10566.4 | 14299.3 |
| 2005 | 92654.8 | 18169.8 |

| | | |
|---|---|---|
| 2006 | 102934.7 | 23512.5 |
| 2007 | 83512.3 | 34762.8 |
| 2008 | 139979.4 | 40983 |
| 2009 | 63737.7 | 42616.6 |
| 2010 | 133763.3 | 49510.5 |
| 2011 | 201988.8 | 65920.2 |
| 2012 | 224007.7 | 65844.2 |
| 2013 | 286427.2 | 65170.2 |
| 2014 | 318333.3 | 70994.5 |
| 2015 | 340834.1 | 74708.9 |
| 2016 | 433730.5 | 101144.6 |

**Mənbə: ADSK məlumatları**

Bu komandanı verdikdən sonra Eviews 9 (Econometrik Views) Əsas kapitala investisiyaların sənaye məhsulun həcminə təsirini aşagıdakı kimi xətti funksiya şəklində axtarır. Eviews tətbiqi proqram paketi Yəni sənayə məhsulun həcminin əsas kapitala investisiyalardan asılılığını aşağıdakı şəkildə axtarmaq lazımdır.

Sənaye məhsulun həcminin əsas fondlardan asılılığının funksiyonal şəkli isə aşağıdakı şəkildə olur.

Sənaye məhsulunun həcmi = 19019.0816626 +0.1387124192*Esaskapinv (3) (3) modelinə əsasən deyə bilərik ki, baxılan dövrə Lənkəran iqtisadi rayonunda əsas kapitala investiyiların 1 vahid artması (yəni hər min manat artmasına) Sənaye məhsulunun həcminin təxminən 0,14 vahid (140 manat) artırır.

İndi isə bu modelin adekvatliğın yoxlayaq. İlk olaraq parametrlərin statistik əhəmiyyətliliyinə baxaq. Əsas fondlara investisiyalar üçün tapılmış parametrin t-Statistic qiymətinə və eyni zamanda parametrin səhv olma ehtimalının qiymətinə əsasən deyə bilərik ki, Əsas fondlara investisiyalar üçün tapılmış parametr statistik əhəmiyyətlidir.

Determinasiya əmsalının (R-squared) təqribən 0,95 olması göstərir ki, (3) şəklində verilmiş reqressiya funksiyasında Sənaye məhsulun həcminin təxminən 95% dəyişməsi Əsas kapitala investiyilarının dəyişməsindən, 5% dəyişməsi isə modeldə nəzərə alınmayan dəyişənlərdən asılıdır. Dəqiqləşdirilmiş determinasiya əmsalının determinasiya əmsalına çox yaxın olması determinasiya əmsalının doğru olduğunu göstərir.

Ümumiyyətlə, ekonometrik modelin adekvatlığını yoxlamaq üçün qurulan modeldə Qaus-Markov şərtlərini yoxlamaq lazımdır. Bu şərtlətdən biri qalıqlar arasında avtokorrelyasiyanın olmaması şərtidir ki, bu da Darbin-Uotson statistikası ilə yoxlanılır. Darbin-Uotson statistikası qalıqların avtokorrelyasiyaya malik olub-olmadığını göstərir. Kobud qiymətləndirməyə görə DW 2 ədədi ətrafında olduqda (0<DW<4) avtokorrelyasiya olmur. Darbin-Uotson statistikasının 2-yə bərabər olması ideal haldır. Bizim modeldəilkin statistik xarakteristikalar təhlil olunduqda qalıqların 1-ci tərtib avtokorrelyasiyası olduğu aşkarlanmış və bu avtokorrelyasiyasını aradan qaldırmaq üçün modelə (Ar(1) amili daxil edilmişdir və nəticə etibari ilə Darbin-Uotson statistikasının qiyməti 1.804852-a bərabər olmuşdur ki, bu da 2-yə çox yaxın olduğundan model üçün yaxşı göstərici hesab olunur və qalıqlar arasında avtokorrelyasiyanın olmadığını göstərir. Qalıqlar arasında avtokorrelyasiyanın olmadığını Correlogram Q-statistikasına baxmaqla da bilmək olar.

Yuxardaki cədvəldən görunur ki, qalıqlar arasında avtokorrelyasiya yoxdur.

İndi isə modelin adekvatlığını yoxlmaq öcön Qauss-Markovun qalıqların varyansının (disperiyasının) sabit olmasışərtini yoxlayaq. Qeyd edək ki, qalıqların varyansının (dispersiyasının) sabit olmasıöcön modelin adekvatlığını göstərən şərtlərdirən biridir. Qalıqların sabitliyi halı homoskedastiklik, qeyri-sabitliyi isə heteroskedastiklik adlanır. Bu halı yoxlamaq

bir neçə test var, onlardan biri Breuş-Paqan-Qodfrey testidir. (Heteroskedasticity Test: Breusch-Pagan-Godfrey). Breuş-Paqan-Qodfrey testinin nəticəsi cədvəldə verilmişdir.

Cədvəldən göröndöyö kimi, Fişerin F-statistikasının ehtimal qiyməti 0,05 əhəmiyyətlilik səviyyəsindən böyök olduğu öcön qalıqların heteroskedastiklik fərziyyəsi rədd edilir və 95%-dən yuxarı etibarlılıqla homoskedastiklik halı qəbul edilir.

Modelin adekvatlığının digər şərti olan qalıqların stasionarlığı şərtini yoxlamaq üçün Dikki-Füler testinə baxaq.

Aparılan testlərə əsasəsən reqresiyya modelinin adekvat olduğunu deyə bilərik.

**Nəticə**

Lənkəran iqtisadi rayonunun sosial-iqtisadi inkişafında sənaye sahəsi kənd təsərrüfatına nisbətən zəif mövqeyə malikdir. Belə ki, baxılan dövr ərzində əsas kapitala investisiyaların bir vahid artımı Sənaye məhsullarının həcmində 0,14 vahid artıma səbəb olur. Bu isə çox aşağı göstəricidir.

**Əliyev Elvin,**
**dosent**
**Atayeva Günel,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**elvinaliyev1989@hotmail.com**
**ggunelatayeva2@gmail.com**

## Orta ümumtəhsil məktəblərində biologiya dərslərində laboratoriya işlərinin aparılmasının müasir metodları

Müasir təhsil sistemində orta ümumtəhsil məktəblərində biologiya dərslərində laboratoriyaların işlərinin aparılması tədrisi yüksək səviyyədə aparmaqda, praktik işləri yerinə yetirməkdə və şagirdlərin öyrəndikləri bilikləri tətbiq etməsində mühüm rol oynayır. Biologiya laboratoriyasında zəruri olan bütün avadanlıq, cihaz, maket və təlim prosesində istifadə olunacaq bütün anatomik plakatlar, akvarium, eyni anda bütün sinifin birgə işləməsi üçün təcrübə avadanlıqları, ən müasir işıq mikroskopları, çox zəngin hazır mikroskopik preparatlar dəsti, bitki və heyvan orqanlarından hazırlanmış preparatlar, insan və müxtəlif canlıların skelet nümunələri, elektrik və qazpaylayıcı sistemlər, biologiya dərslərinin tədrisi üçün nəzərdə tutulan bütün kimyəvi maddələr və reagentlərin toplusu, proyektor, ağıllı lövhə və kompüterlə təchiz olunması dərsin yüksək səviyyədə təşkili üçün zəruridir.

Tədris ili boyunca şagirdlərin mikroskopik nümunələrdən istifadəsi, mikrobioloji və digər kulturaların yaradılması və öyrənilməsi, təbii bioloji proseslərin-fotosintez, tənəffüs, buxarlanma, böyümə, maddələr mübadiləsinə aid olan təcrübələrin qoyulması və izlənilməsi təmin edilməlidir.

Bioloji obyektlərin müşahidə və təsvir edilməsi, həmçinin onların ölçülərinin müəyyən olunması canlı orqanizmlərin öyrənilməsində əsas üsullardandır. Buna görə də VII - VIII siniflərdə keçirilən biolgiya dərslərində şagirdlərə - balıq, quş, qurbağa və s. kimi əyani vəsaitlərdən istifadə, təbii heyvan ürəyi və onun iş prinsipi anatomik və fizioloji və digər cəhətlərdən öyrənmək, qurbağanın reflekslərinin yoxlanmaq üçün təcrübələrin aparılması və təbiətdən toplanmış onurğasızların kolleksiyası şagirdlərdə böyük marağa və onlarda praktik bacarığı formalaşmasına səbəb olur.

Nəticə olaraq orta ümumtəhsil məktəblərində biologiyanın tədrisində praktik işlərin əhəmiyyəti çox böyükdür. Bu zaman şagirdlər yeni biliklər qazanmaqla yanaşı, tədqiqat aparmaq vərdişlərinə də yiyələnirlər. Biologiya dərslərində praktik işlər şagirdlərin fəallığını stimullaşdırır, və eyni zamanda fənnə olan marağı artırır.

**Əliyev Nihan,**
**professor**
**Əlizadə Şəbnur,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**nur.elizade622@gmail.com**

## Orta məktəbdə məntiq elementlərinin öyrədilməsinin yolları

Təlimin yeniləşdirilməsi məntiqi biliklərə xüsusi diqqət verilməsinin əsas səbəblərindəndir. Məntiqi mədəniyyət tərbiyəsi sistemi yaradılmasının gələcəyi olan əsas yolu belə olmalıdır: şagirdlər üçün zəruri olan minimum məntiqi bilik və bacarıqlar müəyyən edilir, bunlar riyaziyyatda daha aşkar şəkildə göründüyündən bu fənnin daxilində verilərək digər fənlərdə də istifadə olunur. İşin belə təşkili lazımsız təkrara yol vermədən tədris vaxtına qənaət etməyə, məntiqi istilahların müxtəlif formalarda istifadəsinin qarşısını almağa, məntiqi konkret məzmunla bağlamağa gətirən psixoloji maneəni aradan götürməkdə, məntiqin ümumi əhəmiyyətini, onun metodlarının universallığını hiss etməkdə, bu biliklərin tətbiqini öyrənməkdə, onun təfəkkürün mühüm aləti olmasını başa düşməkdə şagirdlərə kömək etməyə imkan verər.

Məntiq Formal məntiq və Riyazi məntiq olmaqla iki hissədən ibarətdir. Formal məntiq ənənəvi məntiqə əsaslanaraq qurulmuşdur, riyazi məntiq isə formal məntiqin qaydalarına istinad olunur. Bu fənnin gedişatının mülahizələr bölməsi məntiq əməliyyatlarından ibarətdir ki, bu da aşağıdakılardır: inkar, konyunksiya, dizyunksiya, implikasiya, ekvivalensiya. İlk üç əməliyyat tam sistem təşkil edir,yerdə qalan iki əməliyyat isə onların vasitəsilə ifadə oluna bilir. Bu səbəbdən məktəb kursunda əsasən ilk üç əməliyyat - konyunksiya, dizyunksiya və inkar terminlərinindən istifadə olunması vacib hesab olunur ki, bu da aşağı siniflərdə məsələ və misalların həllində "və" , "və ya", "inkar" məntiqi ifadələrlə ifadə olunur.

Hazırda ali məktəblərdə məntiq elementlərinin öyrədilməsi məcburi ya da seçmə bir fənn kimi həyata keçirilir. Belə ki, məntiq elementlərinin mövzusunun yaxşı başa düşülməsi üçün onun aşağı siniflərdə tədrisi vacibdir. Orta məktəblərdə xüsusi metodla tədris olunan məntiq elementlərinin tədris edilməsinin üstün cəhətləri kimi aşağıdakıları verə bilərik.

1. Məntiq elementlərinin bu cür tədrisindən sonra orta məktəb şagirdlərinin riyazi bilikləri mənimsənilməsində müəyyən irəliləyişlərin görülməsi.
2. Orta məktəblərdə məntiq elementlərinin öyrədilməsi şagirdlərin riyazi biliklərinin öyrədilməsində uğurlu nəticələr əldə etməsinə xidmət edir.
3. Məntiq elementlərinin orta məktəblərdə xüsusi yollarla tədrisi məntiqi təfəkkürün inkişaf etdirilməsini sürətləndirir.
4. Mühakimələr arasında fərqləri görə bilmək, doğru ilə yalanı fərqləndirə bilmək xüsusiyyətlərinin formalaşması.

Biz yaşadığımız əsrdə, riyaziyyatın tədrisində, qavrama prosesində, problem həllində yeni yanaşmalar və strategiyalar sürətli bir dəyişmə prosesini başlatmışdır. Riyaziyyatın tədrisində tələbələrin fərdi bacarıq və qabiliyyətlərini inkişaf etdirməsi, məsələn, problemlərin həlli, müstəqil düşüncə, qərar qəbul edilməsi, həmçinin konseptual öyrənmə kimi xüsusiyyətləri vardır. Başqa sözlə riyaziyyatın tədrisi şagirdlərdə aşağıdakı xüsusiyyətləri formalaşdırılır:

1. Məntiqi münasibətləri öyrənib, onların mənasını başa düşmək;
2. Bu münasibətləri siniflərə ayırmaq və onların doğruluğunu isbat etmək;
3. Doğruluğu isbat olunan bu münasibətləri ümumiləşdirmək və onu real aləmə gətirərək tətbiq etmək.

Məntiq üç məqsədlə öyrədilir:

1. Şagirdlərin fəlsəfi yaxud digər məsələlərdə öz fikirlərinin olması və onları irəli sürə bilməsi;

2. Bəzi mürəkkəb məsələ və fikirlərin doğruluğunu axtarmaq və onun isbatını göstərə bilmək;
3. Məntiq qanunlarının özünü elmi cəhətdən bilmək.

Məntiqin öyrənilməsi özü bir bacarıqdır və digər elm sahələrində də istifadə olunur. Məntiqi qaydaların öyrənilməsindəki böyük problem onun reallığa oxşamaması deyil, məntiq proseslərinin nece düşünülməsinin öyrədilməsidir. Məntiq elementlərinin öyrədilməsi və dərk edilməsi üçün şagirdlərdə ən uyğun yaş "14-17" yaş hesab olunur. Elə bu səbəbdəndir ki, məntiq elementlərinin tədrisi aşağı siniflərdən başlanılmalıdır. Belə ki, təsnifat anlayışını yalnız daxil etmək deyil, onun öyrənilməsini elə təşkil etmək lazımdır ki, bu ümumi məntiqi əməliyyatı şagirdlər şüurlu yerinə yetirsinlər və digər tədris fənlərinə köçürə bilsinlər. Aşağıdakı mühakimə tipli misalla baxaq.

1) Üçbucaq bərabəryanlıdırsa, onun oturacağına bitişik bucaqları bəradərdir; ABC üçbucağı bərabəryanlıdır. Beləliklə ABC üçbucağında oturacağa bitişik bucaqlar bərabərdir.

2) Söz – xüsusi ad bildirirsə, onda o, böyük hərflə yazılır. Bu mühakimələr məzmunca müxtəlifdir, lakin eyni bir formadadır: "A-dırsa onda B-dir; A; deməli B ". Bu ümumi sxem üzrə qurulan bütün mümkün mühakimələrdən şərt doğru olduqda doğru nəticələr alınır. Beləliklə, aşağı siniflərdən başlayaraq, riyaziyyatın təlimi zamanı bu kursun əsasında qoyulan məntiqi elementləri müəyyənləşdirmək və riyaziyyatın özündə, habelə digər fənlərin tədrisində onları tətbiq etmək lazımdır. Məktəb riyaziyyatının digər fənlərlə əlaqəli öyrənilməsi zamanı bu fənn üçün ümumi olan tərif, təsnifat, nəticə çıxarma, əqli nəticələrin və isbatların qurulması kimi məntiqi əməliyyatlardan istifadə etmək faydalıdır.

**Əliyev Nihan,**
**professor**
**İbrahimov Natiq,**
**professor**
**Məmmədzadə Aygün,**
**dissertant**
**Bakı Dövlət Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**mammadzada.aygun@mail.ru**

## İkinci tərtib diskret poverativo-multiplikativ törəməli bir tənlik üçün Koşi və sərhəd məsələləri

Burada diskret poverativ törəmənin diskret multiplikativ törəməsindən alınan ikinci tərtib bir tənlik üçün Koşi və sərhəd məsələsinə baxılmışdır.

Məqsəd qoyulmuş məsələnin həlli üçün analitik ifadə almaqdan ibarətdir.

Beləliklə, aşağıdakı kimi Koşi məsələsinə baxaq:

$$\left(y_n^{\{I\}}\right)^{[I]} = f_n,\ n \geq 0, \tag{1}$$

$$y_0 = \alpha,\ y_1 = \beta, \tag{2}$$

burada $f_n$ , n≥ 0, verilmiş ardıcıllıq $\alpha$ və $\beta$ verilmiş sabit ədədlərdir. Törəmələrin tərifindən istifadə etsək, (1) tənliyi aşağıdakı kimi qeyri-xətti fərqlərlə tənliyə gətirilmiş olar.

$$y_{n+2} = \left(f_n \sqrt[y_n]{y_{n+1}}\right)^{y_{n+1}}, n \geq 0. \tag{3}$$

Bu ifadədən:
n=0 olduqda,

$$y_2 = \left(f_0 \sqrt[y_0]{y_1}\right)^{y_1} = \left(f_0 \sqrt[\alpha]{\beta}\right)^{\beta}, \qquad (4)$$

n=1 olduqda isə

$$y_3 = \left(f_1 \sqrt[y_1]{y_2}\right)^{y_2} = \left(f_1 f_0 \sqrt[y_0]{y_1}\right)^{\left(f_0 \sqrt[y_0]{y_1}\right)^{y_1}} = \left(f_1 f_0 \sqrt[\alpha]{\beta}\right)^{\left(f_0 \sqrt[\alpha]{\beta}\right)^{\beta}}, \qquad (5)$$

ifadəsi alınmış olur.
Bu prosesi davam etdirməklə (1), (2) Koşi məsələsinin həlli addım-addım alına biləcəyi görünür.
**Sərhəd məsələsi:** İndi isə (1) tənliyi üçün aşağıdakı sərhəd şərtləri daxilində məsələyə baxaq:

$$y_0^{\{I\}} = \alpha, \ y_N = \beta. \qquad (6)$$

Asanlıqla görünür ki, (1) tənliyini

$$y_{n+1}^{\{I\}} = f_n y_n^{\{I\}}, \qquad (7)$$

şəklində yazıb, onun

$$y_n^{\{I\}} = \alpha \prod_{k=0}^{n-1} f_k = \alpha \cdot \prod_{0}^{n} f_k \equiv \alpha F_n, \qquad (8)$$

şəklinə sala bilərik. Buradan da (8)-in həlli üçün

$$y_n = \left(\alpha F_{n-1}\right)^{\left(\alpha F_{n-2}\right)^{\cdot^{\cdot^{\cdot^{(\alpha F_0)^{y_0}}}}}}, \qquad (9)$$

ifadəsi alınmış olur. İkinci sərhəd şərtini (9) - da nəzərə alsaq, $y_0$ üçün

$$\beta = \left(\alpha F_{N-1}\right)^{\left(\alpha F_{N-2}\right)^{\cdot^{\cdot^{\cdot^{(\alpha F_0)^{y_0}}}}}}, \qquad (10)$$

tənliyini alırıq. Bu (10) tənliyinin həlli isə

$$y_0 = log_{\alpha F_0} log_{\alpha F_1} \cdots log_{\alpha F_{N-1}} \beta, \qquad (11)$$

şəklində alınmış olur. Onda (1), (6) sərhəd məsələsinin həlli

$$y_n = log_{\alpha F_n} log_{\alpha F_{n+1}} \cdots log_{\alpha F_{N-1}} \beta, \qquad (12)$$

ifadəsi vasitəsilə verilmiş olur.
**Teorem.** Verilmiş (1) – (2) Koşı məsələsinin həlli (3) – dən addım-addım alındığı halda, (1), (6) sərhəd məsələsinin həlli (12) ifadəsi vasitəsi ilə təyin olunur.

**Əliyev Nihan,**
**professor**
**Niftullayeva Şəbinə,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**sebineniftullayeva_90@mail.ru**

## Kvadratda birgə tip üçüncü tərtib tənliklə əlaqədar olan zəruri şərtlərin alınması

Məlumdur ki, adi differensial tənliklər üçün verilən şərtlərin sayı onun tərtibi ilə nizamlanır. Belə ki, Koşi məsələsində başlanğıc şərtlərin sayı, sərhəd məsələsində isə sərhəd şərtlərinin sayı verilmiş tənliyin tərtibinə bərabər olur.

Xüsusi törəməli tənliklər üçün başlanğıc şərtlərin sayı verilmiş tənliyin zamana görə törəməsinin tərtibinə bərabər olduğu halda lokal sərhəd şərtlərinin sayı (Drixle, Neyman və ya Puankare) tənliyin fəza koordinatlarına nəzərən yüksək tərtibli törəmənin tərtibinin yarısı qədər verilmiş olur. Ona görə də, fəza dəyişənlərinə nəzərən cüt tərtibli tənliklər üçün sərhəd məsələlərinə baxırlar.

Biz isə qeyri-lokal sərhəd şərtlərinə (sərhəd iki yerə bölünməklə) baxdığımızdan sərhəd şərtlərinin sayı verilmiş tənliyin tərtibinə bərabər olur. Bu şərtlərə zəruri şərtlər (istənilən sayda)

əlavə oluna bilər. Burada üçüncü tərtib iki ölçülü birgə tip tənlik üçün kvadratda aşağıdakı kimi sərhəd məsələsinə baxılmışdır.

$$\frac{\partial^3 u(x)}{\partial x_2^3}+\frac{\partial^3 u(x)}{\partial x_1^3}=0, \quad x_k \in (0,1)\ k=1,2; \quad (1)$$

$$\begin{cases} u(t,0)+u(0,t)=a_0, & \left.\frac{\partial u(x)}{\partial x_2}\right|_{\substack{x_2=0\\ x_1=t}}+\left.\frac{\partial u(x)}{\partial x_1}\right|_{\substack{x_1=0\\ x_2=t}}=a_1, \quad \left.\frac{\partial^2 u(x)}{\partial x_2^2}\right|_{\substack{x_2=0\\ x_1=t}}+\left.\frac{\partial^2 u(x)}{\partial x_1^2}\right|_{\substack{x_1=0\\ x_2=t}}=a_2, \\ u(t,1)+u(1,t)=a_0+a_1+\frac{a_2}{2}, & \left.\frac{\partial u(x)}{\partial x_2}\right|_{\substack{x_2=1\\ x_1=t}}+\left.\frac{\partial u(x)}{\partial x_1}\right|_{\substack{x_1=1\\ x_2=t}}=a_1+a_2, \quad \left.\frac{\partial^2 u(x)}{\partial x_2^2}\right|_{\substack{x_2=1\\ x_1=t}}+\left.\frac{\partial^2 u(x)}{\partial x_1^2}\right|_{\substack{x_1=1\\ x_2=t}}=a_2 \end{cases} \quad (2)$$

burada $a_0, a_1$ və $a_2$ verilmiş həqiqi sabitlərdir. Sərhəd şərtlərinin sağ tərəfləri elə seçilmişdir ki, (1) tənliyi üçün kvadratda alınan bütün zəruri şərtlər ödənilir.

Qeyd edəki ki, üçüncü tərtib olan (1) tənliyi üçün üç şərt kifayət olduğu halda üç dənə də xətti asılı olmayan zəruri şərtlər mövcuddur.

Bu zəruri şərtləri almaq üçün əvvəlcə (1) tənliyini $(ox_1)\times(ox_2)$düzbucaqlısında inteqrallayıb, alınan

$$\int_0^{x_1}\left[\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_2^2}\right|_{\xi_2=x_2}-\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_2^2}\right|_{\xi_2=0}\right]d\xi_1+\int_0^{x_2}\left[\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_1^2}\right|_{\xi_1=x_1}-\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_1^2}\right|_{\xi_1=0}\right]d\xi_2=0, \quad (3)$$

ifadəsində $x_1=x_2=1$yazmaqla birinci zəruri şərti, həmin hadisəni bir də təkrar etməklə, yəni (3) –ü $(ox_1)\times(ox_2)$ də inteqrallamaqla alınan

$$\int_0^{x_1}(x_1-\xi_1)\left[\left.\frac{\partial u(\xi)}{\partial \xi_2}\right|_{\xi_2=x_2}-\left.\frac{\partial u(\xi)}{\partial \xi_2}\right|_{\xi_2=0}-\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_2^2}\right|_{\xi_2=0}x_2\right]d\xi_1+$$

$$+\int_0^{x_2}(x_2-\xi_2)\left[\left.\frac{\partial u(\xi)}{\partial \xi_1}\right|_{\xi_1=x_1}-\left.\frac{\partial u(\xi)}{\partial \xi_1}\right|_{\xi_1=0}-\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_1^2}\right|_{\xi_1=0}x_1\right]d\xi_2=0, \quad (4)$$

ifadəsində $x_1=x_2=1$ yazmaqla ikinci zəruri şərti, nəhayət (4) üzərində bu əməliyyatı bir daha təkrar etməklə alınan

$$\int_0^{x_1}\frac{(x_1-\xi_1)^2}{2}\left[u(\xi_1,x_2)-u(\xi_1,0)-\left.\frac{\partial u(\xi)}{\partial \xi_2}\right|_{\xi_2=0}x_2--\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_2^2}\right|_{\xi_2=0}\frac{x_2^2}{2}\right]d\xi_1+$$

$$+\int_0^{x_2}\frac{(x_2-\xi_2)^2}{2}\left[u(x_1,\xi_2)-u(0,\xi_2)-\left.\frac{\partial u(\xi)}{\partial \xi_1}\right|_{\xi_1=0}x_1--\left.\frac{\partial^2 u(\xi)}{\partial \xi_1^2}\right|_{\xi_1=0}\frac{x_1^2}{2}\right]d\xi_2=0, \quad (5)$$

ifadəsində $x_1=x_2=1$yazmaqla üçüncü zəruri şərti almış oluruq.

**Əliyev Ramiz,**
**dosent**
**Səmidov Bəhruz,**
**magistr**
**behruzsamidov@gmail.com**

## Kiçikyaşlı şagirdlərə informasiyanın alqoritmləşdirilməsinin tədrisi metodikası

Elm və texnikanın müasir inkişaf səviyyəsi şagirdlərin təhsilin ilk pillələrindən başlayaraq alqoritmləşdirmə elementlərindən istifadə etməsi zərurətini yaratmışdır. Bunun üçün şagirdlərdə ətraf aləmdə - məişət avadanlıqlarından istifadədə, yol hərəkəti qaydalarında və s. alqoritmləri görmək və onların mənasını dərk etmək vərdişləri yaradılmalıdır.

Alqoritm anlayışının daxil edilməsi zamanı şagirdlərin diqqətini ona yönəltmək lazımdır ki, alqoritm tərtib edərkən əsas obyekt olaraq alqoritmin icraçısı götürülür. İcraçı elə bir obyekt və ya subyektdir ki, alqoritm onun üçün qurulur. Daha sonra alqoritmin icrası anlayışını daxil edərkən şagirdlərin diqqətini belə bir istiqamətə yönəltmək lazımdır: alqoritmi icra etmək üçün icraçıya nələr lazımdır (ilkin verilənlər – pul, ərzaq, ədədlər və s.). Məsələn, riyazi məsələni həll etmək üçün icraçı ədədlərdən istifadə edir. Sizə lazım olan insanın telefon nömrəsini tapmaq üçün isə onun adı, soyadı, ata adı, ünvanı, telefon kitabçası və s. kimi ilkin verilənlər lazımdır. Bütün bu məlumatları daxil etdikdən sonra müəllim şagirdlərə alqoritmin nə olduğunu və daha sonrakı dərslərdə alqoritmin xassələrini, növlərini, qurulmasını, blok –sxemlərlə təsvirini və s. öyrədir.

İnformatikanın ikinci sinif dərsliyində şagirdlərə ilkin olaraq alqoritm haqqında məlumat verilir. Real həyatda insanların yaşayışında baş verən əsas alqoritmlər izah olunur.

Bu mövzunun təlim məqsədi aşağıdakı kimidir:

- Alqoritm anlayışı izah edilir;
- Gündəlik həyatda alqoritmlər tanınır;
- Məqsədə çatdıran hərəkətlərin ardıcıllığı müəyyən edilir;
- Verilmiş sadə məsələlərin alqoritminin qurulması.

İlkin olaraq alqoritm anlayışı başa salınır. Qeyd edilir ki, lazım olan nəticəyə çatmaq üçün müəyyən addımlarla yazılan hərəkətlər ardıcıllığı alqoritm adlanır. Hər bir alqoritm addımlarla yazılır. Alqoritm anlayışı ümumi şəkildə izah edildikdən sonra müəllim şagirdlərin bu anlayışı daha yaxşı qavraması üçün onlara şəkil nümunələri göstərir. Şəkil nümunələri göstərilən zaman şagirdlərə nümunədə göstərilən addımların necə yerinə yetirilməsi ilə bağlı ətraflı məlumat verilir və qeyd edilirki, bu addımlar ardıcıl olaraq yerinə yetirilməlidir, əks halda yerinə yetirilən proses yanlış yerinə yetirilə bilər.

Müəllim şagirdlərin alqoritmini hansı səviyyədə öyrəndiklərini yoxlamaq üçün sinfi qruplara bölür və hər bir qrupa kartoçkalar paylayır. Qruplara tapşırılır ki, hər biri qarşısındakı hərəkətlər ardıcıllığının baş vermə ardıcıllığı ilə yazsın.

Masa arxasında əyləş
Dərsliyi və dəftəri aç
Tapşırığı gündəlikdən oxu
Tapşırığı yerinə yetir
Dərslikləri,dəftərləri və gündəliyi çantadan çıxar
Dərsi hazırladıqdan sonra dəftərləri,dərslikləri və gündəliyi çantaya qoy
Çantanı aç

Hər bir qrupun nümayəndəsi iş vərəqi ilə lövhəyə çıxır. Vərəqlər lövhədən asılır. Hər qrup öz variantını təqdim edir. Bu zaman müəllim "tapşırıq gündəliyə yazılmayıbsa nə baş verər" – kimi suallar verə bilər.

Həmçinin müəllim şagirdlərə "bananın yeyilməsi" alqoritmini blok sxemlə qurulmasını da göstərə bilər. Müəllim "bananın yeyilməsi" alqoritminin blok sxemini aşağıdakı kimi qurur və şagirdlərdən buraxılan addımda hansı əməliyyatın yerinə yetirilməli olduğunu soruşur:




Şagird buraxılmış addımı aşağıdakı kimi təyin etməlidir: "bananın qabığının soyulması".

Sonda müəllim şagirdlərin cavablarını dinləyib bunları sistemləşdirir və şagirdlərlə birlikdə aşağıdakı nəticələri çıxarır:

Hər hansı məqsədə çatmaq üçün hərəkətlər müəyyən ardıcıllıqla yerinə yetirilir. Bu ardıcıllığa hərəkətlər planı və ya alqoritm deyilir. Alqoritmi tərtib etmək üçün görüləcək iş ardıcıl yerinə yetirilən hissələrə bölünür. Bu hissələr alqoritmin addımları adlanır. Düzgün tərtib edilmiş alqoritm addım-addım icra olunmaqla

bizi lazım olan məqsədə çatdırır. Bəzən alqoritmdə addımların yerini dəyişəndə nəticədə də dəyişə bilər. Ona görə də addımları ardıcıl yerinə yetirmək lazımdır.

**Əmənov Qalib,**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**75winner@mail.ru**

## Lənkəran təbii vilayətinin oroqrafik xüsusiyyətləri

Azərbaycanın cənub-şərq hissəsində yerləşən Lənkəran təbii vilayəti şimaldan Bolqarçayla, qərbdən və cənubdan Talış dağlarının suayırıcısı ilə, şərqdən Xəzər dənizi sahilləri ilə əhatə olunmuşdur. Şimalda və şimal-şərqdə Kür-Araz ovalığının Muğan və Salyan düzənlikləri ilə birləşən təbii vilayətin sərhəddi cənubda və qərbdə dövlət sərhədləri boyunca keçir. Bu təbii vilayət özünəməxsus relyef əmələğətirici amillər kompleksinə, neotektonik və morfostruktur xüsusiyyətlərə, iqlimə, hidroloji proseslərə malikdir.

Talış dağları əsas etibarilə morfostruktur tabaşir və poleogenin vulkanogen-çökmə və vulkanogen süxurlarından təşkil olunmuşdur. Neotektonik hərəkətlərin diferensial xarakteri ilə əlaqədar burada ortadağlıq Talış antiklinoriumu, alçaqdağlıq Peştəsər və Burovar antiklinorium silsilələri və onlar arasında yerləşən Lənkərançay, Yardımlı, Diabar, Qosmalyan, Lerik və başqa sinklinal dərə və çökəkliklər əmələ gəlmişdir. Talış dağları Kiçik Qafqaz dağlarından cənub-şərqdəƏlburs (İran) dağlarına keçid həlqəsini təşkil edir və qərbdə isə Savalan dağları ilə birləşir. Vilayətin Lənkərançay (Bəşəru), Vazaru, Sadaşaru, Astaraçay, Təngərüd, Pensərçay,Ləkər,Veravulçay, Qumbaşıçay, Viləş, Mişarçay, Göytəpəçay, Bolqarçay və b. çayları öz başlanğıclarını Talış dağlarından götürürlər.

Oroqrafik xüsusiyyətlərinə görə Lənkəran təbii vilayəti - düzənlik (Lənkəran ovalığı - 55%) və dağlıq (Talış dağları - 45%) ərazilərinə ayrılır.

Lənkəran ovalığı-şimal tərəfdən Kür-Araz düzənliyinə, şərqdən Xəzər dənizinin sahil xətti ilə, qərbdən isə relyefdə aydın müşahidə olunan pillələr vasitəsilə dağlıq ərazinin aşağı hisəsə ilə hududlanır. Cənuba doğru getdikcə ovalığın eni 25-30 km-dən 9-5 km-ə qədər azalır. Ovalığın əsas hissəsi dünya okeanı səviyyəsindən 26-27 m aşağıda yerləşir. Xəzər dənizinin abrazion-akkumulyativ fəaliyyəti nəticəsində formalaşan Lənkəran ovalığı terraslaşmış maili düzənlikdir. Xəzər dənizinin müxtəlif səviyyəli terrasları, çay dərələri, gətirmə konusları və bir sıra kiçik relyef formaları ovalığın müasir səthini təşkil edir.

Şimal-şərqdən cənub-qərbə doğru uzanan dağlıq ərazi bir-birinə paralel üç silsilədən ibarət olub, onları bir-birindən dağarası çökəkliklər ayırır.

Talış silsiləsi -Respublikamızın ərazisının cənub-qərb sərhəddində yerləşərək (uzunluğu 100 km, eni isə 10-15 km) bu ərazinin oroqrafik vahidləri arasında mühüm yer tutur və əsas suayırıcını təşkil edir. Talış meqantiklinorium silsiləsi şərqdə Cənubi Xəzər çökəkliyinə pilləli alçalır və bu çökəklikdən dərinlik qırılması ilə ayrılır. Peştəsər və Burovar silsilələri isə dərinlik qırılmasına diaqonal istiqamətdə uzanır və onların cənub-şərq davamı bu qırılma ilə kəsilir. Bununla da Burovar silsiləsi Astaraçaya qədər, Peştəsər isə ondan bir qədər cənubda Cənubi Xəzər çökəkliyinə keçir. Talış antiklinorium silsiləsi cənub-şərqdə cənuba dönür və Boqrovdağ antiklinorium silsiləsinə keçir. Bu silsilə asimmetrik quruluşa malik olub sıldırım yamaclıdır. Ərdəbil çökəkliyinə baxan qərb yamacları qısa və az maili olmaqla, əsasən müvəqqəti axar suların erozion formaları ilə, geniş şərq yamacları isə çoxsaylı dərin çay dərələri ilə parçalanmışdır. Silsilənin şimal-şərq yamacı az meyillidir, intensiv denudasiya proseslərinə məruz qaldığından ana süxurlar səthə açılaraq sıldırım qayalıqlar əmələ gətirir. Hal-hazırda da həmin yamacda sürüşmə prosesləri davam edir. Talış dağları cənub-şərqdə İran İslam Respublikası ərazisində Əlbürs, qərbdə isə Savalan dağları ilə birləşir. Talış silsiləsinin

Azərbaycan Respublikası ərazisindəki ən hündür zirvələri Kömürgöy (2493) və Qızyurdudur (2433). Şindanqalası (1817m), Kalaputi (2095m), Divaşı (2013m), Ləji (2000m) sönmüş vulkan mənşəli zirvələrdir. Yüksəkliyinə görə şimal-şərqdə yerləşən Burovar (maksimum 1000 m) və Peştəsər (maksimum 2230 m) silsilələri isə Talış silsiləsinə nisbətən alçaq silsilələrdir. Bu silsilələr cənub-şərqə doğru düzənliyə açılır və bir neçə yerdə köndələn dərələrlə kəsilir. Şimal-şərq istiqamətində Talış silsiləsinə doğru Dəvəboynu, Qızqalası, Mistan və s. tirələri ayrılır.

Peştəsər silsiləsi -Şimal-qərbdə Quludaş zirvəsindən başlayaraq cənub-şərqə Qəbilbənd dağına və onun davamı olan Dəbavənd, Siokəş yüksəkliklərinə qədər Talış silsiləsinə şimalda 7-10 km, cənuba doğru isə 15 km məsafədə paralel uzanır. Burada Paşaqol (2236m), Saxlabaran (2230m), Uzunbaşı (2200m) ən yüksək zirvələrdir. Viləşçay, Lənkərançay, Təngərud çayları və onların qolları bu silsiləni bir neçə yerdə köndələninə kəsir. Silsilənin yamacları cənub-qərb istiqamətində dik, şimal-şərqdə isə az meyilli olub asimmetrik quruluşa malikdir. Cənub-qərb yamacı daha çox parçalanmış meşəsiz və çılpaq ərazilərdir.

Burovar silsiləsi –Şimal-qərbdə Qazanqoş zirvəsindən başlayaraq cənub-şərqə Barzavu yüksəkliyinə qədər (70 km) davam edir. Burovar (914 m) və Rişov (787 m) ən yüksək zirvələridir. Girdədo (821 m) zirvəsindən isə Poçqon qolu ayrılır. Bolqar və Viləş çaylarının yuxarı axınının suayırıcısını təşkil edən adsız tirələr Vəlidağ zirvəsindən başlayaraq Qızılqaya silsiləsi ilə birləşir. Bu silsilə Viləşçay, Seyden və Veravul çay dərələri ilə köndələninə kəsilir. Silsilənin şimal-şərq yamacı Lənkəran ovalığına, cənub-qərb yamacı isə Yardımlı və Lerik çökəkliklərinə keçir.

Yardımlı çökəkliyi - şimal-şərqdən Burovar qalxması, simal-qərbdən Qızılqaya silsiləsi, cənub-qərbdən Peştəsər silsiləsi ilə əhatələnir. Çökəkliyin ən aşağı hissəsi mütləq yüksəkliyi 900 m olan Alaşa çayının Lənkərançaya qovuşduğu hissədə yerləşir.

Qosmalian çökəkliyi - Şimalda Talış, şərqdə Peştəsər silsilələri ilə əhatə olunaraq Koncavu çayının mənsəbində yerləşir. Cənubda və cənub-qərbdə isə Ərdəbil çökəkliyinə açılır. Mütləq hündürlüyü 1400 m olan ən alçaq hissəsi şimal-şərqdədir.

Dıman çökəkliyi - Talış silsiləsinin şimal-qərbində yerləşən bu çökəkliyin ən aşağı hissəsi (1500 m) Viləşçayın mənbəyində yerləşir.

**Əzizov Sənan,**
**dosent**
**Ələskərzadə İsmayıl,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**i.aleskerzade@yahoo.com**

## Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda strateji əhəmiyyətli çayçılıq və sitrus meyvəçiliyinin inkişaf istiqamətləri

Ölkə iqtisadiyyatında əhəmiyyətli yer tutan məhsullardan biri də çaydır. Çay əkinləri əsasən Lənkəran ovalığının rütubətli iqlim şəraitinə malik olan sahələrində yerləşir. Çay plantasiyaları Lənkəran, Astara və Masallı inzibati rayonlarında geniş yayılmışdır. Çay plantasiyalarının 23%-nin Astara rayonunda olmasına baxmayaraq, ümumi iqtisadi-coğrafi rayon üzrə istehsalın 62%-i bu rayonun payına düşür. Çay əkinlərinin suvarma suyuna tələbatının ödənilməsi məqsədi ilə 1976-cı ildə Lənkəran inzibati rayonunda tutumu 52 milyon kubmetr olan Xanbulançay, 1986-cı ildə Masallı rayonunda tutumu 46 milyon kubmetr olan Viləşçay su anbarları tikilərək istifadəyə verilmişdir.

Statistikaya nəzər salsaq görünür ki, 2000-2010-cu illəri əhatə edən dövr ərzində çayçılıqda geriləmə müşahidə edilmişdir. Belə ki, 1980-1990-cı illər ərzində iqtisadi-coğrafi rayonda 10 min hektardan artıq ərazini əhatə edən çay plantasiyalarından yaşıl çay yarpağı yığımı 24-25 min ton

təşkil edirdi. 2017-ci ilin statistik göstəricisinə əsasən isə 1054,3 hektar ərazidən 720,7 ton yaşıl çay yarpağı toplanmışdır ki, bunun da 476,7 ton məhsulu Astara inzibati rayonunun payına düşür. Müstəqilliyimizin ilk illərində bazar iqtisadiyyatı şəraitində çayçılıq təsərrüfatı üzrə də aqrar islahatı aparıldı, çay plantasiyaları tamamilə özəlləşdirildi. Sahibkarlar ilk illərdə çay emalı sənayesinin zəifləməsi ilə əlaqədar olaraq çay plantasiyalarının xeyli hissəsini məhv edərək yerində taxıl, kartof, tərəvəz və s. kimi özlərinə xeyirli və dövrün tələbatına uyğun bitkilərin becərilməsinə üstünlük verirdilər.

Beləliklə, 2000-ci ildə iqtisadi-coğrafi rayonda çay əkmələrinin ümumi sahəsi 5309 hektara qədər azaldı, 2010-cu ildə isə 9,2 dəfə azalaraq 527 hektar təşkil etmişdir. Sonrakı dövrdə bu sahədə canlanma müşahidə edilmiş və əkilən ərazilərin sahəsi 2010-cu ilə nisbətən 73% artmışdır.

Qeyd edilməlidir ki, hər il ölkəyə orta hesabla 18-20 milyon dollar həcmində çay idxal edilməkdədir. Bu, ölkədə çaya olan tələbatı göstərir və sahənin inkişaf etdirilməsinin zəruriliyini bir daha sübut edir.

“Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı” ölkəmizdə çayçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, çay istehsalına marağın artırılmasına yönəldilmişdir. “Azərbaycan əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda digər ərzaq məhsulları ilə yanaşı strateji ərzaq məhsulu sayılan çayla təminat da ön plana çəkilmişdir. Bu baxımdan 2017-ci ildə Lənkəran Regional Elmi Mərkəzində Azərbaycanda çay plantasiyalarının məhsuldarlığının və məhsulun keyfiyyətinin yaxşılaşdırılması, Lənkəran-Astara bölgəsinin özünəməxsus torpaq-iqlim şəraitində çayın yeni sort və kollarının yaradılması, onların təsərrüfatlara təqdim edilməsi əsas elmi məqsəd kimi qarşıya qoyulmuşdur. Dövlət Proqramının maliyyələşmə mənbəyi dövlət büdcəsi və büdcədənkənar fondlar, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu, “Azərbaycan İnvestisiya Şirkəti” ASC, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin vəsaitləri, həmçinin yerli və xarici investisyalardır.

**Lənkəran-Astara iqtisadi coğrafi rayonu üzrə yaşıl çay yarpağı istehsalı**

| **İl** | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Məhsulun miqdarı (ton)** | 276,9 | 380,5 | 478,5 | 498,1 | 514,3 | 513,8 | 420,3 | 525,0 | 961,6 | 720,7 |

**Mənbə: DSK-nin statistik məlumatlarına əsasən**

Sitrus meyvəçiliyinin inkişaf etdiyi ərazidə şaxtasız dövrün uzunluğu 240-260 gün, iyulun orta temperaturu 24°-25°C, yağıntı 1000 mm-dən çox olur. Ona görə də iqtisadi-coğrafi rayonda sitrus meyvəçiliyinin inkişafı üçün potensial imkanlar vardır. Sitrus meyvəçiliyi Lənkəran, Astara və qismən də Masallı inzibati rayonları ərazisində geniş yayılmışdır. 2009-cu ildə iqtisadi rayonda mövcud olan meyvə bağlarının 56%-ni sitrus meyvə bağları təşkil etmişdir. Sitrus meyvə bağlarının 41,2%-i Astarada, 48,5%-i Lənkəranda, 11,3%-i isə Masallı inzibati rayonunda becərilir. Sitrus meyvələri içərisində daha çox becərilən limon, naringi və portağaldır. Feyxoa əsasən Astara inzibati rayonunda, qismən Lənkəran və Masallı inzibati rayonunda becərilir.

Azərbaycanda sitrus meyvəçiliyinin inkişafının əsası 1930-cu ildə Astara inzibati rayonunda ümumi sahəsi 800 hektar olan Subtropik Bitkilər Sovxozunun yaradılması ilə qoyulmuş və onun 500 hektara yaxın ərazisində limon, naringi, portağal, feyxoa, çay, nəcib dəfnə və s. bitkilərin becərilməsinə başlanılmışdır.

90-cı illərin əvvəllərində kənd təsərrüfatının digər sahələrində olduğu kimi, sitrus meyvəçiliyi sahəsində də tənəzzül yaşanmış, sitrus meyvə bağlarının bir qismi ləğv edilərək yerində dənli-taxıl, tərəvəz və digər bitkilərin becərilməsinə başlanılmışdır. Bununla belə, mövcud bağların konstruksiyasının dəyişdirilməsi hesabına məhsul istehsalının kəskin azalması baş verməmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə sitrus meyvəçiliyinin inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, sitrus meyvələrinin istehsalının stimullaşdırılmasına yönəldilmişdir.

2017-ci ildə ölkəmizə 18,9 milyon ABŞ dolları dəyərində 30,6 min ton sitrus meyvələri, o cümlədən 12,6 min ton portağal, 11,9 min ton limon, 4,6 min ton naringi, 1,5 min ton qreypfrut və digər sitrus meyvələri idxal edilmişdir. Sitrus meyvəçiliyinin inkişafına yönələn tədbirlərin əsas məqsədlərindən biri də məhsuldarlığın yüksəldilməsi ilə sitrus meyvələri idxalını azaltmaq, yerli tələbatı tam təmin etmək və iqtisadi-coğrafi rayonda məşğulluğun artırılmasına nail olmaqdır.

**Əzizov Sənan,**
**dosent**
**Çunayev Məhəmməd,**
**magistr**
**Lənkaran Dövlət Univesiteti**
**senan.azizov.58@mail.ru**
**maga.chunaev@mail.ru**

## Coğrafiya fənninin tədrisində əyaniliyin əhəmiyyəti

Məktəbdə tədris olunan fənnlər içərisində coğrafiya daha əyləncəli olması və əyani vasitələrin daha çox istifadə edilməsi imkanları ilə seçilir. Coğrafiya fənninin məzmunu əyanilik tələb etməklə yanaşı bu vasitələrin tətbiqi üçün də böyük metodik imkanlar yaradır.Tədris olunan mövzunun şagirdlər tərəfindən tam başa düşülməsi üçün əşyalardan və ya hadisələrdən yararlanması onu daha anlaşıqlı edir, onun barəsindəki informasiyaları mərkəzləşdirir və onun dərk edilməsini asanlaşdırır. Buna isə əyanilik deyilir. Əyanilik dedikdə tədris prosesi zamanı istifadə edilə biləcək, dərsin izahını sadələşdirəcək onlarda sərbəst fikirləşməyi formalaşdıracaq vasitə və alətlərdən istifadə olunması başa düşülür. Bu şagirdlərdə müşahidəçiliyi, təsəvvürü inkişaf etdirir, fənnə marağı artırır və tədris prosesində şagirdlərin dərketmə fəaliyyətini inkişaf etdirir.

Psixoloqların gəldiyi qənaətə görə şagirdlərin tədris prosesi zamanı qavradıqları biliklərin orta qavrama mövcuddur. Əyani vəsaitlərin payı burada ortalama 20-30%-dir. Digər faiz göstəricilərinə nəzər saldıqda oxuma – 10 % müzakirə -50% praktik iş – 75% başqasına öyrətmə 90% qavramaya səbəb olur. Bu baxımdan coğrafiya dərslərində istifadə olunan əyani vasitə və vəsaitlər aşağıdakı kimi qruplaşdırılır:

1. Natural obyektlər: sinif şəraitinfdə öyrənilən təbiət və təsərrüfat obyektləri məhsulları
2. Coğrafi obyekt və hadisələrin təsvir edildiyi
3. Şərti işarələrlə göstərildiyi obyekt və hadisələr ( sözlə rəqəmlə işarələrlə )
4. Təbiətdə baş verən hadisələrin nümayişi və təhlili məqsədi ilə istifadə edildiyi

Qeyd olunmuş bu qruplara ayrı-ayrılıqda daha məqsədəuyğundur. İlk öncə natural obyektlər haqqında məlumat verək. Bunlara sinifdənkənar tədris zamanı şagirdlər tərəfindən yığılmış bitki, faydalı qazıntı nümunələri, heyvan qalıqları və s. daxildir. Dərs prosesi zamanı bunlardan istifadə edilməsi şagirdlərdə əyani olaraq tədqiq olunan obyekt barəsində düzgün fikir

formalaşdırır, onlar üzərində laboratoriyalarda aparılan tədqiqat nəticəsində onların tərkibini müəyyənləşdirirlər, alınan nəticələrin növbəti illərdə də istifadə olunması mümkündür. Bu vasitələrdən istifadə olunması şagirdlərin sinifdən kənara çıxmadan təbiətdə yayılmış bitki, süxur və digər bioaləmlə yaxından tanış ola bilərlər.

Coğrafi obyekt və hadisələrin təsvir edildiyi təlim vasitələrinə coğrafi modellər, divar şəkilləri, diafilmlər diapozitivlər və s. aiddir. Bunlardan istifadə etməklə şagirdlər təbiətdə birbaşa müşahidə edə bilməyəcəyi təbii obyekt və hadisələrlə tanış olurlar, bunlar haqqında şagirdlərdə təsəvvür formalaşır. Bu vasitələrdən istifadə etməzdən əvvəl müəllim şagirdlərlə məqsədyönlü iş aparmalıdır. Bəzən bu vasitələrin tətbiqi digər vasitələrlə qarşılıqlı surətdə yerinə yetirilir. Müəllim hər hansı bir şəklin nümayişi zamanı yönəldici suallar vasitəsi ilə bu vasitələrin qavranılmasını həyata keçirir. Misal olaraq: şəkildəki birinci dərəcəli obyektlər hansılardır? şəkildəki 2-ci dərəcəli obyektləri göstərə bilərsinizmi? və s.

Coğrafiyada ən geniş istifadə olunan əyani vəsaitlər 3-cü qrupa aiddir. Bura dərsliklər, xəritələr, xəritə-sxemlər, kontur xəritələr, qrafiklər cədvəllər və s. daxildir. Statistik cədvəl, qrafik və diaqramlarla iş qaydaları demək olar ki eynidir. Onlarda informasiyaların alınması və təhlili ilk öncə müəllimin yardımı ilə yerinə yetirilsə də növbəti mərhələdə şagirdlər müstəqil şəkildə bilik əldə etməyi bacarmalıdırlar. Bu şagirdlərdə təhlil etmək ümumiləşdirmə aparmaq kimi bacarıqlar formalaşdırır.

Bildiyimiz kimi, xəritə coğrafiyanın ikinci dilidir, xəritədə verilmiş məlumatları görməklə beyində qavranılır. İnformasiyaların dərk edilməsində və ötürülməsində xəritələrin rolu çox böyükdür. Xəritədə olan informasiyalar daha cəlbedici, hamı üçün anlaşılandır və daha tez yadda qalır. Sonuncu qrupda cəmləşdirilən əyani vəsaitlər daha çox çöl müşahidələri zamanı istifadə olunan cihaz və alətlərdir. Bunlara barometr (barometr-aneroid), yağıntıölçən, termometrlər, kompas, ruletka, telluri, kurvimetr, nivelir və s. daxildir.

**Əzizov Sənan,**
**dosent**
**Sadıqov Şahin,**
**magistr**
**Lənkaran Dövlət Univesiteti**
**senan.azizov.58@mail.ru**
**sahinsadiqov993@gmail.com**

## Coğrafiyanın tədrisində praktik işlərin təşkili yolları

Coğrafiyanın tədrisində praktik işlər mühüm rola malikdir. Praktik işlər nəzəri biliklərin möhkəmləndirilməsi və coğrafi bacarıqların formalaşdırılması məqsədi ilə yerinə yetirilir. Praktik işləri yerinə yetirməklə şagirdlər səbəb-nəticə əlaqələrini müəyyən edir, təbii kompleks daxilindəki komponentlər arasında qarşılıqlı əlaqəni təyin edir. Tədris prosesində məhəldə aparılan praktik işlərin yerinə yetirilməsinin əsas məqsədi nəzəri materialların mənimsənilməsinə xidmət etməkdir. Fənnin tədrisi prosesində məktəbin həyətində, coğrafiya meydançasında və ətraf məhəllədə çalışmalarla bağlı olan bir sıra praktik işlər icra olunur. Praktik işlər vasitəsilə şagirdlər üçün həyati əhəmiyyəti olan praktik bacarıq və vərdişlər aşılanır. Bu praktik işlər arasında əsas yeri topoqrafik və morfometrik xarakterli çalışmalar üstün yer tutur. Praktik işlərə aşağıdakıları daxildir:

1. Kompasla, qütb ulduzuna, günəşə və yerli əlamətlərə görə cəhətlərin təyini
2. Addımla gözəyarı və ruletka ilə məsafələrin ölçülməsi və addım miqyasının təyin edilməsi
3. Yolun plana alınması, düz və geriyə kəsdirmə üsulu ilə sahənin gözəyarı plana alınması

4. Məhəllənin profilinin tərtibi, nisbi hündürlükləri (yamac, təpə ,çökəklik) gözəyarı nivelirlə təyin edilməsi
5. Yamacların meyilliliyinin təyini
6. Çayın eninin, orta dərinliyinin, orta axın sürətinin, canlı en kəsiyinin sahəsinin, su sərfinin hesablanması və en kəsiyinin profilinin tərtibi
7. Torpaq qatlarından nümunələrin götürülməsi
8. Hava üzərində müşahidələr zamanı meteoroloji cihazlarla praktik iş

Çay üzərində praktik iş aparılarkən çay yatağının morfometrik elementlərinin, çayın enini, dərinliyi, canlı en kəsiyinin sahəsini təyin etmək mühüm amillərdir. Bunun üçün çayın üzərində axına perpendikulyar istiqamətdə metrlərə bölünmüş kəndir məftil çəkilir. Dərinliyi ölçülür. Yatağının kələ-kötürlüyü nəzərə alınır və çayın en kəsiyinin profili çəkilir. Çayın orta axın sürəti təyin edilir. Təpənin və çökəkliyin plana alınması və horizantallarla təsviri zamanı nivelirləmə üçün dörd istiqamət müəyyən edilir və onlar işarələnir. Hündürlüklər ölçülür və qeydlər aparılır. Ölçülmüş nöqtələr səlis əyri xətlə birləşdirilir və horizantal alınır. Gözəyarı planaalma üçün əvvəl miqyas seçilir. Sonra planaalma zamanı keçilən məsafə ölçülür, planşetdə qeydlər aparılır. Gözəyarı planaalma zamanı çıxış nöqtəsindən başlanılır. Buna görə çıxış nöqtəsi elə seçilməlidir ki, burdan baxanda plana alınacaq sahə bütünlüklə və ya çox hissəsi görünsün. Çıxış nöqtəsində əvvəlcə planşet kompasla cəhətləndirilir. Məhəlin torpaq örtüyünün öyrədilməsi üçün dayanacaq nöqtəsində çala qazılır. Belə bir yeri müəllim şagirdlə bir yerdə seçir. Əgər planaalınacaq sahənin səthi və bitki örtüyü müxtəlifdirsə xarici görünüşə görə bir-birindən fərqlənən və xeyli aralı olan 2-3 xəndək qazılır. Əldə edilən torpaq kəsiyinin nəzərdən keçirilib təsvir olunması sxeminin çəkilməsi qat nümunələrinin götürülməsi ilə baş çatır. Bütün bunlar şagirdlərin maraq dairəsini genişləndirir, coğrafiya fənninə marağı artırır, gələcəyə stimul yaradır.

**Əzizov Sənan,**
**dosent**
**Bağırlı Xalid,**
**magistr**
**Sadıqov Şahin,**
**magistr**
**Lənkaran Dövlət Univesiteti**
**senan.azizov.58@mail.ru**
**bagirlix@gmail.com**

## Coğrafi təsəvvür və anlayışların formalaşdırılması yolları

Orta məktəb coğrafiyasında şagirdlər əvvəllər gördükləri obyekt və hadisələr haqqında öz fikirlərini ifadə edə bilmir və ya çətinlik çəkir. Dərs zamanı şagirdlərin əvvəllər tanış olduqları obyekt və hadisələrlə yanaşı hətta onların əvvəllər tanış olmadıqları obyekt və hadisələr haqqında məlumat vermək lazım gəlir. Bu zaman müəllim şagirdlərə elə yanaşmalı və elə yollardan istifadə etməlidir ki, şagirdlər bəhs edilən obyekt və ya hadisələri (Yer kürəsinin ayrı-ayrı ölkələri və rayonları, müxtəlif relyef formaları, müxtəlif təbiət hadisələri haqqında) ilkin təsəvvür və anlayışlar formalaşsın. Təsəvvür və anlayışların formalaşdırılması lazım gələrkən müəllim şagirdlərin dünya görüşünə istinad etməli, onlarla gəzintiyə getdikləri ərazilər, qarşılaşdıqları hadisələr, çətinliklər haqqında söhbət edir, onlara bu haqda məlumatlar verir, şagirdlərdə hərtərəfli təsəvvür formalaşdırır.

Anlayışların formalaşdırılması zamanı müəllim bu işin ardıcıllığını və anlayışları qruplaşdırmağı bilməli, hər fikri anlayış kimi qeyd etməkdən çəkinməli, şagirdlərdə anlayışları sistem şəklində əlaqələndirmək, anlayışların möhkəmliyini təmin etməyi əsas tutmalıdır. Anlayışlar üçün şagirdlərdə baza yaradılması ekspedisiyalar, çöl tədqiqatları, müşahidələr

vacibdir. Anlayışın formalaşdırılması zamanı müəllim dərslik və proqrama əsaslanmalı, anlayışların bölgüsünə əməl etməlidir, digər fikirlərlə anlayışları fərqləndirməlidir.

Təsəvvürlərin formalaşdırılması coğrafiyanın tədrisində mühüm rol oynayır. Təsəvvürlər nəzəri və təcrübi biliklərin mərkəzində durur və anlayışların formalaşdırılmasında bünövrə rolu oynayır. Təsəvvürlərin formalaşdırılması zamanı şagirdlərin təfəkkürü inkişaf edir, şagird obyekt və hadisələri təsəvvüründə canlandırır və baş verən hadisələri əlaqələndirir, səbəb nəticə əlaqələrini qeyd edir, gələcəyə dair proqnozlar verir. Müəllim Tornado küləyi haqqında məlumat verdikdən sonra şagirdlərdən "Tornado küləyinin Azərbaycanda baş vermə ehtimalı varmı? Baş vermə ehtimalı yoxdursa səbəbi nədir?" Bu suala cavab vermək üçün şagirdlər Azərbaycanın və Şimali Amerikanın relyefini, coğrafi mövqeyini bilməli və aralarındakı fərq və ya oxşarlıqları müəyyən etməyi bacarmalıdır. Daha sonra şagirdlər tornado küləyinin yaranma səbəbini bilməli bu küləklərin fərqli xüsusiyyətlərini qeyd edərkən bunun mümkünsüz olmasını qeyd edir. Təsəvvürlərin formalaşdırılmasında dərsliklərin əhəmiyyəti böyükdür. Müəllim yalnız dərsliyə deyil, həmçinin digər əyani(şəkillər, plakatlar, xəritələr, kinofilmlər və s.) vasitələrdən istifadə etməlidir. Dağ haqqında təsəvvürlərin formalaşdırılması üçün müəllim mümkünsə yaxın dağlıq əraziləri, coğrafiya meydançasında hazırlanmış hündürlük maketi, şagirdlərin iştıraki ilə dərsdə plastilin ilə dağ maketinin hazırlanması şagirdlərdə daha uzun müddətli təsəvvür formalaşdırılmasına kömək edir, onlarda dağın hissələrini ayırmağa, onların ardıcıllığını müəyyən etməyə, onları fərqləndirməyə kömək edir. Hər hansı bir dərsin izahı zamanı müəllim yalnız əyani vasitələrdən asılı deyildir, dərsi hər zaman yeni formada keçirilməsi şagirdin marağını daha da yüksəldə bilər. Müxtəlif xalqlar, irqlər mövzusunda şagirdlərdə təsəvvür formalaşdırmaq üçün müəllim şəkillər, video fraqmentlər və digər əyani vasitələrdən istifadə edə bilər və ya yalnız bir şagirdi nümunə göstərə bilər.

Digər şagirdlərə həmin şagirdin xarici görnüşünü hansı əlamətləri qeyd edə biləcəklərini sual vermək mümkündür. Daha sonra şagirdlərə yay vaxtı dəriniz qaralır, qışda isə ağardığını hiss etmisinizmi? Bunun səbəbi nədir deyə soruşur və şagirdlərin səbəb olaraq istilik və günəşi qeyd etməsinə istiqamətləndirir, istənilən cavab alındıqdan sonra irqlərin yaranmasındakı əsas səbəbin təbii şərait olmasını vurğulayır. Müəllim bu zaman təkcə irqlər haqqında təsəvvür formalaşdırmaqla qalmır, həmçinin qarışıq irqlərin fərqləndirməsi və yaranması haqqında baza formalaşdırır. Bu zaman müəllim mövzu haqqında ilkin təsəvvür yaradır.

**Həbibov Şakir,**
**baş müəllim**
**Həbibova Arəstə,**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**arasta.h@mail.ru**

## Riyaziyyatın tədrisində problemli təlim texnologiyası təfəkkürün inkişaf etdirilməsi vasitəsi kimi

Problem elə məsələyə deyilir ki, bu məsələni mövcud biliklər və fəaliyyət üsulları vasitəsi ilə həll etmək olmur. Problem adətən, dərketmə prosesində ziddiyyət kimi görünür.

Problemli təlim–müəllim tərəfindən sistemli şəkildə problemli situasiyanın yaradılması, şagirdlərin problemi həll etməkdən ötrü fəaliyyətlərinin təşkil olunması, onların müstəqil fəaliyyəti ilə elmin hazır nəticələrinin mənimsənilməsinin optimal əlaqələndirilməsi ilə müşaiyyət olunan təlim texnologiyasıdır (Lerner.I.Y).

Problemli təlimin mahiyyəti ondan ibarətdir ki, müəllim bilikləri hazır şəkildə təqdim etmir. Şagirdin qarşısına problem məsələ qoyulur. Şagird isə məsələnin həlli yollarını və vasitələrini tapır. Şagirdin təkcə dinləməklə bilik qazanması çox azdır. O, həm də bu biliklərə yiyələnmək

üsullarını öyrənməlidir. Ona görə də tədris prosesində, həmçinin riyaziyyatın tədrisində müasir pedaqoji texnologiyalardan, o cümlədən problemli təlim texnologiyasından istifadə olunması aktuallıq kəsb edir.

Problemli situasiyaları muxtəlif əsaslar üzrə növlərə ayırmaq olar. Şagirdlərin təfəkkürünün inkişafına təsiri baxımından problemli situasiyanı üç növə ayırmaq olar:

1 Öyrədici problemli situasiya;
2 Düşündürücü problemli situasiya;
3 Qiymətləndirici problemli situasiya.

Öyrədici problemli situasiya şagirdlərin nəzəri təfəkkürünün inkişafına təsir edir.

Problem müqayisə etməklə, hipotezlər irəli sürməklə həll olunur. Nəticədə yeni anlayışlar, yeni qanunlar yaranır.

Düşündürücü problemli situasiya şagirdlərin məntiqi təfəkkürünün inkişafına təsir edir. Bu zaman irəli sürülən hipotezlərin doğruluğunu əsaslandırmaq lazım gəlir.

Qiymətləndirici problemli situasiya şagirdlərin tənqidi təfəkkürünün inkişafına təsir edir. Bu zaman problemin həlli hipotezlərə tənqidi qiymət verilməsini tələb edir.

Hər bir istiqamət üzrə aparılan işi ayrıca təhlil edək:

1. Öyrədici problemli situasiyada şagirdlər anlayışlara müstəqil tərif verməyə cəlb olunurlar. Anlayışın formalaşması məlum mərhələlər üzrə aparılır:

a) Anlayışın cinsinin təyin olunması;
b) Anlayışı digərlərindən fərqləndirən növ əlamətlərinin tapılması;
c) Anlayışının tərifinin verilməsi .

Məsələn, “Paraleloqram” mövzusu tədris olunduqdan sonra “Düzbucaqlı” mövzusunun tədrisinə keçmək üçün lövhədə bir neçə paraleloqram, o cümlədən düzbucaqlı çəkilir. Fiqurlar ölçüsünə, vəziyyətinə və rənginə görə müxtəlif şəkildə çəkilir. Lövhədə hansı fiqurların çəkilməsi şagirdlərdən soruşulur. Bütün fiqurların paraleloqram olduğu şagirdlər tərəfindən söylənir (Anlayışın cinsi). Sonra müəllim düzbucaqlı paraleloqramları şagirdlərə göstərərək onların digər paraleloqramlardan hansı əlamətinə görə fərqləndiyini soruşur. Şagirdlər bu paraleloqramların bucaqlarının düzbucaq olduğunu deyirlər (Növ əlaməti). Müəllim belə paraleloqramların “Düzbucaqlı” adlandığını qeyd edir. Daha sonra müəllim:

- Deməli, hansı paraleloqram düzbucaqlı adlanır? - deyə soruşur.
- Şagirdlər:
- Bucaqları düz bucaq olan paraleloqram düzbucaqlı adlanır-deyə cavab verirlər.

2. Düşündürücü problemli situasiya

Əslində irəli sürülən hər bir hipotezə qarşı “niyə?” sualını qoymaq olar. Bununlada şagird üçün düşündürücü problemli situasiya yaradılmış olar. Şagird problemin doğruluğunu əsaslandırmağa çalışır və nəticədə onun üçün yeni olan qanunauyğunluqlar “kəşf edir”. Mütəmadi olaraq yaradılan düşündürücü problemli situasiyalar şagirdin riyazi təklifləri isbat etmək bacarığını artırır və onun məntiqi təfəkkürünü inkişaf etdirir.

3. Qiymətləndirici problemli situasiya

Adətən müəllim şagirdlərə elə məsələlər təklif edir ki, bu məsələdə səhv olmur. Nəticədə şagirddə məlumatlara, göstərişlərə, məsələlərə kortəbii inam yaranır. Bu isə şagirddə tənqidi təfəkkürün inkişafına mənfi təsir göstərir. Şagirdlərə analiz etmək, səhvləri tapmaq və əsaslandırmaq bacarığını aşılamaq lazımdır. Bu iş aşağıdakı mərhələlərdən ibarətdir:

a) Şagird səhv olan təklifi tapır;
b) Səhvi sübut etməkdən ötrü arqumentlər axtarır;
c) Təklifin yalan olduğunu isbat edir.

Problemli təlim texnologiyasından istifadə etməklə dərsin təşkili kifayət qədər çətin və ağır iş olmasına baxmayaraq, təcrübə göstərir ki, belə dərslərdə şagirdlər təlim prosesinə aktiv qoşulur və dərsi daha yaxşı mənimsəyirlər, nəticədə, onların yaradıcı təfəkkürü inkişaf edir.

**Həmidov Ruslan,**
**baş müəllim**
**Cəfərova Fatimə,**
**magistr**
**ffatya30@gmail.com**

## Orta məktəbin XI sinif informatika kursunda layihələrinin hazırlanmasının öyrədilməsi metodikası

Layihələrin yerinə yetirilməsi orta məktəbdə informatkanın tədrisinin tərkib hissəsi olub böyük təhsil, tərbiyəvi və praktiki əhəmiyyətə malikdir.İnformatikanın tədrisində layihələrin yerinə yetiriməsi əhəmiyyəti aşağıdakılardan ibarətdir:

Layihələrin yerinə yetirilməsi informatika anlayışlarının daha aydın formalaşmasına, öyrənilən proqramların yaxşı başa düşülməsinə, onların şüurlu və möhkəm mənimsənilməsinə kömək edir.

Layihələrin yerinə yetirilməsi şagirdlərin bilik dairəsini genişləndirir və dərinləşdirir.

Layihələrin yerinə yetirilməsi informatikadan təbiət hadisələrinin izahına və praktiki məsələlərin həllinə tətbiq etmək üzrə şagirdlərə bacarıq və vərdişlər aşılayır.

Layihələrin yerinə yetirilməsi nəzəriyyə ilə praktikanın vəhdətini, elm ilə texnikanın əlaqəsinin möhkəmlətməyə kömək edir ki, bu da öz növbəsində məqsədəuyğun təlimin həyata keçirilməsinə imkan verir.

Layihə metoduşagirdlərə bilik və bacarıqları müstəqil fəaliyyət nəticəsində əldə etməyə imkan verir. Layihə metodunda nəzəri biliklərin praktik tətbiqi şagirdlərin motivə olunmasında çox ciddi əhəmiyyət daşıyır. Layihə metodunun şagird üçün əsas faydası belədir: “Mən bilirəm ki, nəyi və nə üçün öyrənirəm; öyrəndiklərimi harada tətbiq edəbil.ərəm”

Layihə metodu həm yeni bilik və bacarıqların qazanılması, həm də onların genişləndirilməsi məqsədilə istifadə oluna bilər. Layihələrin icrasında üsulların seçimi konkret mövzudan asılıdır. Bir çox pedaqoqlar layihələrin aşağıdakı növlərini qeyd edirlər.

XI sinifdə layihələrin məzmunu aşağıdakı kimidir.

I bölmə üzrə layihələrin məzmunu

İnformasiya cəmiyyətinin əlamətləri haqqında layihə

Bu mövzu şagirdlərə IX və Xsiniflərdən tanışdır. Ona görə də dərsi diskussiya formasında aparmaq məqsədəuyğundur. Dərsin əvvəlində şagirdlərə suallarvermək olar.

- "İnformasiya cəmiyyəti" anlayışı nəyi ifadə edir? (Elə cəmiyyət var ki, orada insanların əksəriyyəti informasiyanın istehsalı, saxlanması, emalı və onun istifadəsi ilə məşğul olur)
- "Elektron hökumət" nədir və onun daxilində münasibətlərin hansı modelləri var?(Elektron hökumət dedikdə informasiyanın elektron emal, ötürmə və yayılma vasitələri əsasında dövlət idarəetməsinin təşkili başa düşülür. 3 modeli mövcuddur: G2C, G2B, G2G)
- "Yaşadığımız cəmiyyət informasiya cəmiyyəti adlandırıla bilərmi?"  bu mövzuda diskussiya aparmaq olar. Hər şagird öz fikrini bildirir və cavabı əsaslandırır.

Şagirdlərə dərsi izah edərkən informasiya cəmiyyətinə aid videomateriallardan istifadə etmək məqsədəuyğundur. "İnformasiya cəmiyyətinin əsas əlamətləri" mövzusunda təqdimatın hazırlanması addımları göstərilir. Elektron təqdimat proqramlarında şagirdlər artıq işləyə bildikləri üçün tapşırığın bu proqramların birində yerinə yetirilməsi tapşırmaq olar.

Bu layihənin məzmununa diqqət yetirsək, görərik ki, şagirdləri müstəqil işləməyə sövq etməklə aşağıdakı bilik, bacarıq və vərdişlər formalaşdırır:

Layihələrin yerinə yetirilməsi şagirlərin yaradıcılıq bacarıqlarını, fiziki və riyazi təfəkkürünü inkişaf etdirir.

Layihələrin yerinə yetirilməsi informatika kursunu təkrar etmək, şagirdlərin biliklərini yoxlamaq və müvəffəqiyyəti uçota almaq üçün ən yaxşı vasitə hesab olunur.

Layihələr şagirdlərə müstəqil işləmək vərdişləri aşılayır.

Layihələr şagirdlərin biliyində formalizimlə mübarizəyə kömək edir.

Layihələr şagirdlərdə iradə keyfiyyətlərini inkişaf etdirir.

Layihələr şagirdlərədə estetik hisslərin inkişafına müsbət təsir göstərir.

Layihələr şagirdləri əməyə alışdırır və onlara əməyə şüurlu münasibət və məhəbbət hissi tərbiyə edir.

**Hüseynov İsa,**
**dosent**
**Ağayev Kamran,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**cemalesd@gmail.com**

## Kimyada eksperiment və onun metodikası haqqında

Əvvəlcə görək eksperiment nədir və kimyadan necə həyata keçirilir. “Eksperiment” yunan sözü olub sınaqdan keçirmə deməkdir. Onun 3 növü vardır:

1. Müəllimin göstərdiyi təcrübələr
2. Şagirdin laborator işləri
3. Praktik məşğələlər

Şagirdlərin laboratoriyada yerinə yetirdikləri təcrübələrdən çıxarılan nəticlərə əsasən yeni bilik verilərsə, belə təcrübələrə laborator işləri deyilir. Əgər şagirdlərin hamısına ayrı-ayrılıqda cihaz, reaktiv, kimyəvi qablar və s verilərsə və hər şagird proqramda nəzərdə tuutlmuş eyni təcrübəni təklikdə aparırsa, buna frontal laboratoriya işləri deyilir. Əgər üç, dörd nəfər şagirdin birgə iştirakı ilə aparılırsa, buna briqada üsulu deyilr. Laboratoriyada aparılan təcrübələrdən bilik və bacarığı möhkəmləndirmək üçün istifadə olunarsa, bu cür təcrübələr praktik məşğələ deyilir. Məktə kimya kursunda təcrübə məşğələrinin keçirilməsi zamanı aşağıdakı ardıcılıq gözlənilməlidir.

a) Şagirdlərin məşğələyə hazırlanması
b) Tələb edilən reaktiv, qab və cihazların hazırlanması
c) Təcrübə məşğələsinin keçirlməsi
d) Məşğələnin yekunlaşdırılması

Eksperimental məsələlər iki qrupa ayrılır: birinci qrupa sırf təcrübə ilə əlaqədə olan, ikinci qrupa isə həm təcrübə edilməsi, həm də hesablama aparılması lazım gələn məsələlər daxildir.

Orta məktəblərdə şagirdlərin kimya biliyinə əməli əhəmiyyəti olan bacarıq və vərdişlərə yiyələnməsində mövcud təlim üsullarının təkmilləşdirilməsi və müasir kimya dərslərini şagirdlərin müstəqil işlərində kənarda təsəvvür etmək olmaz.

Mühüm vasitələrdən biri qarşıya qoyulmuş məqsədə uyğun olaraq müəyyən fikri , idraki fəaliyyətin təşkili və yerinə yetirilməsidir. Şagirdlər elmi idrakın metodlarına o vaxt yiyələnirlər ki, müstəqil işləri yerinə yetirsinllər, proqramda nəzərdə tutulmuş materialı mənimsəsinlər, muvvafiq biliklər, yeni bacarıq və vərdişlər əldə etsinlər, özlərinin yaradıcılıq qabiliyyətlərini inşaf etdirmiş olsunlar.

Bildiyimiz kimi kimya eksperimenti şagirdlərin müstəqil iş üsullarının əsasını təşkil edir. İngilis alimi M.Faradey demişdir: Heç bir elm kimyada olduğu qədər eksperimentə ehtiyacı yoxdur. Oun əsas qanunları, mühüm nəzəriyyə və nəticələri ancaq faktlara əsaslanır. Orta məktəblərdə kimya eksperimenti təlim-tərbiyə prosesininn mühüm hissələrindən biri hesab

olunur. Düzgün təşkil edilən eksperimentlər müəlimə bir sıra təlim - tərbiyə məsələlərini müvəffəqiyyətlə həll etmək işində böyük kömək göstərir.

Kimya dərslərində problemli vəziyyət yaratmatq üçün geniş imkanlar, problemli suallar sinif qarşısında qoyula bilər, bu zaman motivasiya problemin qoyuluşundan aslıdır. Ona görədə müvvafq suallarla mötivasiya yaradılaraq dərsin mövsuzu açıqlanır. Sonra isə şagirdlərin tədqiqat aparmaları üçün problem qoyulur və tədqiqat sualı müəyyənləşir. Tədqiqat sualları elə olmalıdır ki, şagirdlər əvvəlki dərslərdə əldə etdikləri biliklərdən istifadə etsinlər, axtarış aparsınlar, idrak fəallığı göstərsinlər. Prof. Ə.Əbdürəhimovun fikrincə orta məktəbdə kimya eksperimentinin əsas növləri məüllimin göstərdiyi təcrübələr şagirdlərin icra etdikləri laborator işləri və praktik məşğələlərdir. Bunların birinci növü müəllimin şifahi şərhi və ya izahı ilə əlaqədardır. İkinci, üçüncü növ təcrübələr isə, şagirdlərin müstəqil iş üsullarına daxildir. Bundan başqa şagirdlərin müstəqil iş üsullarına kimya məsələlərinin həlli, şagirdlərin kitab üzərində işləmələri, onların qrafik və yazı işləri nəhayət biliyi möhkəmləndirməyin bəzi üsulları daxildir.

Müəllim öz işini yüksək səvviyyədə qurmaq, şagirdlərin marağını artırmaq üçün praktik eksperimentinin əsas xüsusiyyətlərini bilməlidir. Bu səciyyəvi xüsusiyyətlərə aiddir.

Praktik eksperimentin təşkili və keçirilməsinə xüsusi dərs ayrılması, kimya eksperiment xarakterli məşğələ zamanış agirdlərin müstəqilliyi daha çox olur, onar təcrəbələri sərbəst yerinə yetriməsi, praktik məşğələyə şagirdlərin hazır vəziyyətdə gəlməsi və s.

Praktik məşğələyə şagirdlər tərəfindən dərslik materialı əsasında müstəqil yerinə yetirilən şagird eksperimentidir. Praktik məşğələdə qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı prinsiplər təmin edilməlidir.

1. Şagirdlər məşğələyə ciddi hazırlaşmalıdır.
2. Dərslikdə nəzərdə tutlmuş bütün təcrübələrin şüurlu surətdə yerinə yetirməlidir.
3. Kimya eksperimentinə texnikasına diqqətlə əməl olunmalıdır, kimyəvi prosesə aid aparılan təcrübi əməliyyatı və müşahidəni düzgün izah etməyi etməyi bacarmalıdır.

Beləliklə,konkret faktlardan ümumi əhətə keçmək nəticə çıxarmaq bacarığına malik olmalıdır. Kimyanın nəzəri konsepsiyasının hər biri məktəb kimya kursunun əsasını təşkil edir. Problem xarakterli eksperimentin mərhələlərinin həyata keçirlməsi də tədqiqatla problemin qoyulması ilə başlayır. Müasir şəxsiyyətyönümlü təlim prosesinin mərkəzində problemin qoyulması ilə başlanan tədqiqatın dayanmasını məqbul hesab edir.

**Hüseynov Məmmədhüseyn,**
**dosent**
**Əlizadə Alim,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**mamed.h@mail.ru**
**alimalizade630@gmail.com**

## Orta ümumtəhsil məktəblərində biologiyanın tədrisində müasir təlim texnologiyalarından istifadənin metodikası

Orta ümumtəhsil məktəblərində geniş yayılmış, lakin şəxsiyyətin hərtərəfli inkişaf etməsində imkanları məhdud olan ənənəvi təlim texnologiyalarından fərqli olaraq tədris prosesində təhsil alanın hərtərəfli şəxsiyyət kimi formalaşması üçün yeni pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə edilməsi daha yüksək nailliyyətlər əldə etməyə imkan verir. Burada mövzuya, məqsədə və təlimin məzmununa uyğun texnologiyalar seçilməsi və onların ardıcıl, qabaqcadan müəyyənləşdirilmiş vaxtda yerinə yetirilməsi məqsədəmüvafiqdir. Tədris prosesində şagirdlərdə idraki qabiliyyətin inkişafına səbəb olan texnologiyaların tətbiqi mövzusu aktuallığı ilə həmişə diqqəti cəlb edib.

Tədqiqat işimizdə muasir pedaqoji praktikada daha geniş tətbiq olunan şəxsiyyətyönumlu-inkişafetdirici pedaqoji texnologiyaların imkanları, üstünlükləri və tətbiqi yolları araşdırılmışdır. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində əməkdaşlıqla (kollektiv) təlim texnologiyasının dərsin keyfiyyətinə təsiri böyükdür. Bu təlim texnologiyasında əsas ideya nəyisə birlikdə yerinə yetirmək yox, birlikdə öyrənməkdir. Apardığımız müşahidələr göstərir ki, kollektiv qarşılıqlı təlim texnologiyasının aşağıdakı üstünlükləri vardır:

- Müntəzəm şəkildə təkrar olunan çalışmalar nəticəsində şagirdlərdə məntiqi təfəkkur və anlama vərdişləri təkmilləşir;
- Şifahi nitq prosesində və görülmüş işlərin müzakirəsi zamanı şagirdlərin fəaliyyət vərdişləri inkişaf edir, əvvəllər qazandığı təcrübə və bilikləri aktuallaşır;
- Uşaqda öz şəxsi keyfiyyətlərini, imkan və qabiliyyətlərini qiymətləndirmək bacarığı formalaşır;

Bu metodda qrupun əsas üzvləri mövzu üzərində yoldaşları ilə əlaqəli şəkildə işləyirlər. Birlikdə qarşıya qoyulmuş məqsədə nail olmağa çalışırlar. Tapşırıqlar, onların yerinə yetirilməsi üçün ayrılan vaxt muxtəlif olur. Komandalar bir-birilə yarışmırlar, onlar müxtəlif müddətdə müxtəlif tapşırıqlara cavab hazırlayırlar. Hər bir qrupun müvəffəqiyyəti onun üzvlərinin fərdi məsuliyyəti və çalışqanlığı ilə bağlıdır. Buna gorə də qrupun bütün üzvləri çalışırlar ki, verilən tapşırığı, materialları yaxşı mənimsəyə bilsinlər. Kollektivlə iş zamanı müəllimin əsas vəzifəsi uşaqları bilməməkdə, bacarmamaqda gunahlandırmaq və bunları sinifdə elan etmək deyil, onları bilmədiklərini və bacarmadıqlarını öyrənməyə, istiqamətləndirməyə yol gostərməkdir. Onların fəaliyyəti müddətində müəllim uşaqların gördükləri işləri izləməli, lazım gəldikdə ehtiyacı olan qrupa kömək etməlidir.

Təlimdə şəxsiyyətyönumlu konsepsiyanın reallaşdırılması, inkişafetdirici pedaqoji texnologiyaların layihələşməsi və praktikada tətbiqi onların müxtəlif şəraitdə, müxtəlif mövzular üzrə sınaqdan çıxarılmasını, bu sahədə pedaqoji təcrübənin öyrənilməsini tələb edir.

**Hüseynov Məmmədhüseyn,**
**dosent**
**Axundova İlahə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**mamed.h@mail.ru**
**ilawka_b@ mail.ru**

## Biologiyanın tədrisində tibbi biliklərlərin mahiyyəti və xarakteristikası

Ətaf mühitin davamlı çiklənməsi nəticəsində ekoloji tarazlığın pozulması, yer üzündəki normal, sağlam yaşayışa real təhlükə yaratmışdır. Fiziki cətdən sağlam, mənəvi cəhətdən zəngin, yüksək intelektual səviyyəli insanın yetişdirilməsi təhsilimizin qarşısında duran əsas vəzifələrdəndir. Fənnyönümlü təhsil sistemindən nəticəyönümlü, şəxsiyyətyönümlü təhsilə keçilməsi, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insanın yetişdirilməsinə imkan verir. Qloballaşan dünyada yeni texnologiyalardan istifadə etməyi bacaran, məntiqi düşünən, çevik və düzgün qərqarlar qəbul edən mütəxəsislərin yetişdiriməsi günün, zamanın ən aktual problemlərindəndir. Ermənistanın ölkəmizə təcavüzü, bir milyonadək insanın, o cümlədən minədək şagirdin məcburi köçkün düşməsi, erməni terrorizmi, uşaqların əksəriyyətinin psixoloji reabilitasiyaya ehtiyacının olması, infeksiyalar və yeniyetmələr arasında zərərli vərdişlərin artması orta ümumtəhsil məktəblərində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri etmişdir. Problemin həllinə kömək edəcək əsas addımlardan biri uşaqları tibbi biliklərlə silahlanlırmaq ola bilər. Sağlam yaşamağın əsas şərtlərindən biri tibbi

biliklərə yiyələnməkdir. Ixtisasından, peşəsindən asılı olmayaraq hamının tibbi biliklər əldə etməsi zəruridir.

Bu işi daha yaxşı ümumtəhsil məktəbləri müvəffəqiyyətlə həyata keçirə bilər. Problemin orta ümumtəhsil məktəblərində fənlərin tədrisi prosesində həll edilməsi mümkündür. Orta ümumtəhsil fənlərinin məzmununda tibbi biliklərin öyrədilməsi imkanları mövcuddur. Biologiyanın məzmununda isə imkanlar daha genişdir. Bitkilər kursunda müalicə əhəmiyyətli dərman və zəhərlənmə verən zəhərli bitkilərin xüsusiyyətləri, onlardan qorunma qaydaları, bakteriya və göbələklərin sağlamlığa müsbət təsiri, bakterial və göbələk xəstəliklərinin profilaktika və müalicəsi kimi tibbi biliklərin öyrədilməsi mümkündür.Zoologiyanın tədrisində infeksion xəstəlikləri törədən, yayan heyvanların xüsusiyyətləri, xəstəliklərdən qorunma yolları, zərərli və zəhərli heyvanlarla təmas qaydaları, heyvanların insan sağlamlığında rolu kimi tibbi məsələlər öyrədilə bilər. Insan və onun sağlamlığı ilə bağlı mövzuların tədrisində şagirdlərə sağlamlığı möhkəmləndirən və pozan amillər, zərərli vərdişlərdən qorunma tədbirləri, onların profilaktika və müalicəsi, həyat təhlükələrində ilk tibbi yardımların göstərilməsi kimi tibbi bilik və bacarıqlar aşılamaq imkanları vardır.

Ümumi biologi mövzuların tədrisində isə virus və iris xəstəliklərin profilaktikasını, müalicəsini öyrətməklə aşağı siniflərdən öyrəndikləri tibbi bilikləri daha da inkişaf etdirmək, genişləndirmək mümkündür. Biologiyanın tədrisində tibbi biliklərin öyrədilməsi

imkanlarının geniş olmasına baxmayaraq o şagirdlərə necə gəldi öyrədilə bilməz. Tibbi biliklər şagirdlərin yaşına, psixoloji inkişaf səviyyəsinə, pedaqoji-psixoloji tələblərə uyğun

olmalı, planlı şəkildə, sistemlə öyrədilməlidir.

**Hüseynov Məmmədhüseyn,**
**dosent**
**Hacıyev Savalan,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**mamed.h@mail.ru**
**savalanhaciyev03@gmail.com**

## Orta ümümtəhsil məktəblərində biologiya fənninin tədrisində müasir təlim metodlarının tətbiqi imkanları

Orta ümümtəhsil məktəblərində biologiya fənninin tədrisində əsas diqqət şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşməsinə deyil, həm də onların təfəkkürünün, şəxsi keyfiyyət və qabiliyyətinin inkişafına, həyat bacarıqlarının qazanılmasına xidmət etməlidir. Müasir biologiya kurikulumları şagirdyönümlü, nəticəyönümlü, şəxsiyyətyönümlü, tələbyönümlü olduğundan tələbləri ödəyir. Bu sahədə aparılan tədqiqatlar spesifikliyi və akuallığı ilə diqqəti cəlb edir.

Tədqiqat işində məqsəd biologiya fənninin tədrisində müasir təlim metodlarının tətbiqi imkanlarının araşdırılmasıdır. Müşahidələr göstərir ki, biologiya dərslərində müxtəlif fəal təlim metodlarından geniş istifadəyə daha çox imkanlar var. Fəal təlimi həyata keçirən metodlar müxtəlif olduğu kimi, hər bir metodunda öz texnikası vardır. Mövzudan asılı olaraq metodların düzgün seçilməsi dərsin keyfiyyətinə təsir göstərir. Yuxarı siniflərdə (IX və X siniflərdə) əsasən "Əqli hücum" və ya "Beyin həmləsi" metodlarının (BİBO; auiksion; klaster (şaxələnmə); anlayışların çıxarılması; söz assosiasiyası ) tətbiqi yaxşı nəticə verir. Ona görədə tədqiqat işində kollektivlə iş zamanı "Əqli hücum" və ya "Beyin həmləsi" metodlarından istifadəyə üstünlük verilmişdir. Bu zaman şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsəd kimi qarşıya qoyulur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər.

Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər. Biologiya fənninin tədrisində müasir təlim metodlarının tətbiqi zamanı şagird "kəşf edən", "tədqiqatçı" mövqeyində, müəllim isə "bələdçi" mövqeyində çıxış edir. Bu zaman dərsin məqsədini, tədris materialının xüsusiyyətlərini, sinfin hazırlıq səviyyəsinin nəzərə alınmasına xüsusi diqqət yetirilmək lazımdır. Bundan başqa müəllim dərsin iki növünü əvvəlcədən özü üçün aydınlaşdırmalıdır. Məlumdur ki, dərsin tədrisinin yolu məlumdur: İnduktiv və deduktiv tədqiqat. İndukti yol xüsusi biliklərdən ümumi biliklərədoğru irəliləyir, dedukti yol isə əksinə. Dərsin induktiv və ya deduktiv yolunun seçilməsi dərsin məqsədindən asılıdır. Müasir təlim metodlarından istifadə müəllimlə şagird arasında və şagirdlərin öz aralarında və məktəblə valideyn arasında qarşılıqlı əlaqələr qurmağa imkan yaradır. Biologiya dərslərində müasir təlim metodlarından istifadə müəllimə bir sıra imkanlar yaradır.Bunlardan təlim-tərbiyə prosesinin gedişində şagirdlərin şüurlu fəaliyyətinin təşkil edilməsi, təlim prosesində fərdi yanaşma üsulunun tətbiqinə daha böyük imkanlar yaradılmasını misal göstərmək olar.

Tədqiqat işində orta ümümtəhsil məktəblərində biologiya fənninin tədrisində fəal təlim metodları tətbiqi imkanları araşdırılmış, dərs nümunələri əsasında istifadə olunmuş metodlar müəyyənləşdirilmişdir.

**İsgəndər Elman,**
**professor**
**Şahverdiyev Murad,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**muradshahverdi@mail.ru**

## Lənkəran bölgəsində becərilən çay bitkisinin (Camellia sinensis (L.) Kuntze) biomorfoloji xüsususiyyətləri

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçrilən tədbirlər bir sıra kənd təsərrüfatı sahələrinin dirçəldilməsi ilə yanaşı çayçılığın inkişaf etdirilməsinidə nəzərdə tutur. Çayçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahədə potensial imkanlardan səmərəli istifadə edilməsi, çay istehsalına marağın artırılması və elmi-tədqiqat işlərinin daha da genişləndirilməsinə imkanlar açmışdır.

Tədqiqat işimizdə məqsəd Lənkəran bölgəsinin torpaq-iqlim şəraitinə uyğun rayonlaşdırılmış çay bitkisinin (Camellia sinensis (L.) Kuntze) ex situ şəraitdə biomorfoloji xüsusiyyətlərinin öyrənilməsidir. Müşahidələrimiz Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun Lənkəran çay filialının sınaq təcrübə zonasında becərlən bir neçə seleksiya sortu (Azərbaycan №2, Azərbaycan №4 və b)üzərində aparılmışdır.

Morfoloji xüsusiyyətlərinə görə Camellia sinensis (L.) Kuntzenin ədəbiyyat materiallarında 3 yarımnövünün olduğu qeyd olunur (Whight, 1962): Camellia sinensis var. Sinensis (Çin çayı), Camellia sinensis var. Assamica (Assam çayı), Camellia sinensis var. Cembodiensis (Kambodca çayı). Lənkəran bölgəsində daha çox Çin növmüxtəlifliyi becərilir və bu sahədə seleksiya işləridə Çin növmüxtəlifliyi üzərində aparılmışdır. Bölgə ərazisində becərilən həmişəyaşıl Camellia sinensis budanmadığı şəraitdə 3 (bəzən 5 m) metr hündürlüyədək inkişaf edən, yarımdağınıq sıx çətirli, oval və ya uzunsov küt uclu yarpaqları ilə səciyyələnən kol bitkisidir. Yerli şəraitdə becərilən çay bitkisində iyun ayından başlayaraq ilk çiçək tumurcuqlarının əmələ gəldiyini müşahidə etmişik. Sentyabr ayının əvvəlindən isə tək-tək halda açılmış çiçək taclarının əmələ gədiyi müəyyən edilmişdir. Oktyabr ayının sonlarına doğrü kütləvi şəkildə müşahidə etdiyimiz çiçəklənmə prosesi dekabr ayının əvvələrində sona çatmışdır. Təzə əkilmiş fidanlarda ilk

çiçəklərin əmələ gəlməsi bitkinin ömrünün 2-ci və ya 3-cü (ən geci 5-ci və ya 6-ci ildən) ilindən başlandığı müşahidə etmişik. Çiçklənmə prosesi daha çox zoğların aşağı hissəsindən başlayaraq yuxarı hissələrinə doğru davam edir. Müşahidələrimiz zamanı İkincinsli çiçəklərə malik Camellia sinensisdə 5-7 ədəd yaşıl rəngli kasacıqlar və eyni sayda ağ rəngli ləçəklər sayılmışdır. Erkəkciklər çoxlu sayda, dişicik isə bir ədəd olub saçaqlı ağızcığa malikdir. Kollar üzərində iyul ayının əvvəlindən az sayda qutucuq meyvələr müşahidə olunmuşdur. Yetişməmiş meyvələr əvvəl yaşıl rəngli, yetişdikdən sonra isə qəhvəyi rəngə çalır. Yetişmiş üçyuvalı meyvələr tədqiq edilərkən onlarda toxumların sayı yuvaların sayına uyğun 3 ədəd olduğu müşahidə edilmişdir (bəzən toxumlar yuvalarda cüt-cüt yerləşərək daha çox sayda olur).

Ex situ şəraitdə fenoloji müşahidələr zamanı çay bitkisinin kök sistemi bir ana kökdən və ondan çıxan çoxlu sayda yan köklərdən ibarət olduğu və yan köklərin əsasən torpağın üst hissələrinə doğru şaxələndiyi məlum olmuşdur. Zərif kök sisteminin inkişfı üçün torpağın rütübətliliyi daha əlverişlidir. Müşahidələrimiz zamanı quraq torpaqlarda rütübətlə təmin edilmiş torpaqlara nisbətdə köklərin inkişafında zəifləmələrin olması müəyyən edilmişdir. Bölgədə becərilən plantasiyalardan daha bol məhsul əldə edilməsi üçün kollar bir metr hündürlükdən budanır və budanmış kollarda, budanmamışlara nisbətədə yeni fleşlərin əmələ gəlməsi daha intensiv gedir. Gövdə və budaqlar tünd qəhvəyi rəngli olub, üzərində çoxlu sayda tumurcuqlar müşahidə olunur.

Yerli şəraitdə apardığımız müşahidələrdən belə nəticəyə gələ bilərik ki, Lənkəran bölgəsində becərilən Camellia sinensisin məhsuldarlığı onun generativ bə vegetativ orqanlarının normal inkişafı ilə əlaqəli olub, bitkinin məhsul vermə göstəricilərinə müsbət təsir edir.

**Məmmədova Gülnarə,**
**coğrafiya üzrə fəlsəfə doktoru**
**Əlizadə Mələk,**
**magistrant**
**Lənkəran Dövlət Unversiteti**
**melekalizade30@gmail.com**

## Böyük Qafqazın şimal-şərq ərazisində torpaqəmələgətirən amillər

Müəyyən edilmişdir ki, xüsusi təbiət cismi kimi torpaq aşağıdakı amillərin – iqlim, bitki və heyvanat aləmi, torpaqəmələgətirən süxurlar, relyef və ərazinin yaşı(zaman) amilinin sıx qarşılıqlı təsiri nəticəsində formalaşır. İstənilən torpağın genezisi minimum üç ardıcıl mərhələdən ibarətdir:

1.Torpaq əmələgəlmənin başlanğıcı, bəzən ilkin torpaqəmələgəlmə prosesi adlanan mərhələ.

2. Torpağın inkişaf mərhələsi, bu mərhələdə ana süxurun tərkibi tədricən torpağın səciyyəvi əlamətlərini əldə edir.

3. İnkişaf etmiş(yetkin)torpaq mərhləlşsi, bu mərhələdətsiklik dönən proseslər üstünlük təşkil edir.Bu mərhələdəhəmçinin torpaq xassələri və uyğun biosenozların bioməhsuldarlığının səviyyəsi, torpağın mühit amilləri iləyaratdığımüvazinət nəticəsində, nisbətən sabit olur.

Əsas torpaqəmələgətirən süxurlara yumşaq çökmə süxurlar aid edilir. Onların üzərində hər yerdə torpaqlarinkişaf etmişdir. Dördüncü dövrün çökmə süxurları genezisindən və formalaşma şəraitindən asılı olaraqtərkibinin müxtəlifliyi, quruluşu, kiplik və digər xassələrinin müxtəlifliyi ilə səciyyələnir ki, bu daformalaşmaqda olan torpaqların torpaqəmələgəlmə xüsusiyyətlərində və münbitliyində əhəmiyyətli dərəcədəəks olunur.Torpaqların aqronomiki kimyəvi və mineroloji tərkibi , onların inkişafının ilk mərhələsində torpaqəmələgətirən süxurların tərkibi ilə müəyyən olunur. Süxurlar torpaqəməmləgətirən amil kimi torpaq kütləsinin tərkibinə və fiziki ,kimyəvi xassələrinə torpaqların su hava və istilik rejimlərinin formalaşmasına , torpaq proseslərinin

sürətinə intensivliyinə çox böyük təsir göstərir. Torpaqəmələgətirən süxurların torpaqəmələgəlmə prosesinə təsirini müəyyən etmək üçün onların qruplarını fərqləndirmək zəruridir.

Kimyəvi tərkibinə görə torpaqəməmləgətirən süxurlar

Ferrallit

Sialit

Siliktatlı

Karbonatlı

Xloridli- sulfatlı və s.

Yatma vəziyyətinə görə torpaqəməmləgətirən süxurlar kip və yumşaq olurlar ki, onlar torpaqəmələgəlmənin başdan- başa, yaxud hissə-hissə getməsini müəyyən edirlər. Qranulometrik tərkibindən asılı olaraq, başlıca su fiziki xassələrinə görə eyni dərəcədə su keçiriciliyi olmayan və müxtəlif dərəcədə rütubət tutumu olan süxurlar vardir ki, torpaqların inkişaf prosesində nəinki yalnız onların su, hətta istilik və hava rejimlərini əvvəlcədən müəyyən edir.Quruluşuna görə torpaqəmələgətirən süxurlar bir üzvlü və çox üzvlü olurlarki, bu da torpaqların su rejminə güclü təsir edir və rütubətləndirir.

Qeyd etmək lazimdır ki, torpaqəməmləgətirən süxurlar torpaqların əsasən xassələrinə görə təsir göstərir. Onların fiziki, kimyəvi və aqrokimyəvi xassələri süxurların mineroloji tərkibindən, qida potensiallarından çox asılıdır. Burada kalium, manqan, bor, nikel tərkibli süxurların və minerallların yoxluğu torpaqda da həmin kimyəvi elementlərin çatışmazlığına səbəb olmuşdur.

Torpaqəmələgətirən amillərdən ən əsası və ən fəalı iqlim hesab olunur. Iqlim elementlərindən hesab olunan temperatur və atmosfer çöküntüləri bitki örtüyü ilə qarşılıqlı əlaqədə olub, torpaqəmələgəlmə prosesinin gedişinə böyük təsir göstərir. İqlim torpaqəmələgəlmə prosesinin nəinki istiqamətini, habelə aşınma prosesini üzvi maddələrin biokimyəvi parçalanmasının xarakterini təyin edərək bitki örtüyünün qanunauyğun yayılmasına da böyük təsir göstərir. Böyük Qafqazın şimal-şərq yamacı üçün mülayim-isti yayı və qışı quraq olan iqlim tipi xarakterikdir.

Qeyd etməliyəmki, son zamanlar da torpaqlarin eroziya prosesləri artmışdır. Bildiyimiz kimi eroziyanin da növləri vardır.1. Su eroziyası 2. Külək eroziyası 3. İrriqasiya eroziyası. Su eroziyası bu qeyd olunan eroziya prosesləri içərisində ən təhlükəlisi hesab olunur. Su eroziyasının ən geniş yayıldığı ərazilər Böyük Qafqazın cənub və şimal-şərq yamaclarıdır. Bu ərazi dağlıq relyefə malik olduğundan eroziya prosesi sürətli gedir. Məhz buna görə də burada torpaqəmələgəlmə prosesi, torpaqəmələgətirən amillər, ana süxurun tərkibinin öyrənilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

**Məmmədova Gülnarə,**
**coğrafiya üzrə fəlsəfə doktoru, baş müəllim**
**Lənkəran Dövlət Unversiteti**
**mammedova_gulnare@mail.ru**

## Palçıq vulkanlarımız beynəlxalq turizmə cəlb olunmalıdır

Azərbaycan yer kürəsində palçıq vulkanlarının unikal və klassik inkişaf regionu kimi tanınmışdır. Planetimizdə olan 800 palçıq vulkanından 300-dən çoxu Azərbaycanın şərqində və onunla həmsərhəd Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanlarının əksəriyyəti Bakı və Abşeron yarımadasında yayılmış və onlardan bəziləri təbiət abidəsi kimi formalaşmışdır. Tam qətiyyətlə Azərbaycanı palçıq vulkanları diyarı adlandırmaq olar və bu vulkanlar bizim həm milli, həm də təbii sərvətimizdir.

Palçıq vulkanları neft-qaz yataqlarının müəyyən edilməsində xərcsiz başa gələn kəşfiyyat quyusu rolunu oynayır. Bundan əlavə palçıq vulkanlarının gili faydalı qazıntı hesab olunur.

Həmçinin, vulkan palçığı bir sıra xəstəliklərin - əsəb sistemi, dəri və oynaq xəstəliklərinin müalicəsində uğurla istifadə olunur. Eyni zamanda vulkanlar seysmik hadisələrlə sıx bağlı olmaq etibarilə, zəlzələlərin baş verməsi və bu kimi hadisələrin proqnozlaşdırılmasında əhəmiyyət daşıyır.

Son illər Bakı və Abşeron yarımadasında yerləşən palçıq vulkanlarına antropogen təsirlərin artması nəticəsində onların əraziləri dağıdılır, orada intensiv inşaat işləri aparılır, vulkanların püskürmə ehtimalı olan zonalarında yaşayış binaları inşa olunurdu. Bu səbəbdən ölkə ərazisində mövcud olan palçıq vulkanlarının mühafizəsini təşkil etmək, təbiətin bu nadir hadisələrinə daha qayğı ilə yanaşmaq aktual əhəmiyyət kəsb edirdi.

Bu məqsədlə təbii görkəmi və geoloji xüsusiyyətlərinə görə 2006-cı ildə 23 palçıq vulkanına təbiət abidəsi statusu verilmiş, həmin vulkanların etibarlı mühafizəsini təşkil etmək məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyində Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssislərinin iştirakı ilə "Palçıq vulkanları üzrə Elmi Koordinasiya Şurası" yaradılmışdır.

Bakı və Abşeron yarımadasında yerləşən palçıq vulkanlarına antropogen təsirlərin aradan qaldırılması və mühafizəsinin təşkili, onların fəaliyyətinin öyrənilməsinin böyük elmi və praktiki əhəmiyyətini nəzərə alaraq bu təbiət sərvətlərinin qorunması və gələcək nəsillərə çatdırılması, respublikamızın təbii irsinin geniş miqyasda təbliğ olunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin15 avqust2007-ci il tarixli 2315 nömrəli Sərəncamına əsasən "Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu" yaradılaraq 52 palçıq vulkanına dövlət təbiət qoruğu statusu verilmişdir.

Azərbaycan hüdudlarında palçıq vulkanı təzahürləri Xəzəryanı – Quba, Şamaxı – Qobustan, Küryanı, Abşeron vilayətlərində, Bakı arxipelağında və Kür və Qabırrı çayları arasında geniş yayılmışdır. Palçıq vulkanları Abşeron yarımadasının qərb hissəsində, Cənubi və Mərkəzi Qobustanda və Xəzəryanı düzənliyi Xəzər dənizinə qovuşan cənub - şərq hissəsində ən çox inkişaf etmişdir.

Palçıq vulkanizminin zəif təzahürləri Böyük Qafqazın cənub yamacında Girdimançayın başlanğıcından şərqdə Həftəsaib, Zəngi kəndləri yanında, Lahıc yaxınlığında, Basqal kəndi ətrafında qeyd edilir.

**Xəzəryanı – Quba vilayəti.** Böyük Qafqazın cənub-şərq batımının geniş şimal dağətəyi zolağını və Xəzəryanı düzənliyi əhatə edir. Qaynarca vulkanından başqa, vilayət hüdudlarında kiçik sopka, qrifon və salzalar rast gəlinir.

**Şamaxı – Qobustan vilayəti.** Böyük Qafqazın cənub - şərq hissəsini əhatə edir. Ərazinin şimal zonasında Şıxzəgirli, Mərəzə, Şıxıqaya, Şeytanud, Qırqışlaq və başqa vulkanlar yerləşmişdir. Cənub zonada Torağay, Böyük Kənizədağ, Kiçik Kənizədağ, Dəvəlidağ, Ütəlgi, Ayaz - Ağtirmə (Ayazaxtarma), Nardaran - Ağtirmə (Nardaranaxtarma), Hacıvəli və başqa vulkanlar qeyd olunur. Ələt tirəsi boyu çox iri palçıq vulkanları – Daşmərdan, Solaxay, Ayrantökən, Qoturdağ, Qırdağ və başqa vulkanlar yerləşmişlər.

**Küryanı neftli - qazlı vilayəti.** Bu vilayət hüdudlarında Kalmas, Mişovdağ, Qırovdağ, Durovdağ, Hamamdağ, Ağzıbir, Kürsəngi kimi iri palçıq vulkanları yerləşmişdir.Kür və Qabırrı çayları arası sahə, Orta Kür çökəkliyi hüdudlarında palçıq vulkanı təzahürləri sopka, qrifon və salza şəklindədirlər.

**Abşeron vilayəti.** Bu vilayət eyniadlı yarımadanı və Xəzər dənizinin ona qovuşan sahil zonasını əhatə edir. Palçıq vulkanları vilayətin qərb və mərkəz hissəsində daha geniş yayılmışdır. Vilayətin qərbində və mərkəzində Hökməli, Binəqədi, Saray, Novxanı, Zigilpiri, Keyrəki, Abix, Boğ - boğa, Böyükdaş, Otman -Bozdağı, Lökbatan, Şonqar, Quşxana, Cetranbatan və başqa çox iri vulkanlar yerləşmişdir. Vilayət hüdudlarında Zığ və Bibiheybət ərazilərində gömülmüş palçıq vulkanları mövcuddur. Abşeron arxipelaqı hüdudlarında Buzovna sopkası, Palçıq sopkası, Neft daşları və başqa iri palçıq vulkanları vardır.

**Bakı arxipelaqı vilayəti.** Bu vilayət Cənubi Xəzərin şimalda Balıqçı burnundan başlamış cənubda Qızılağac körfəzinədək uzanan geniş qərb hissəsini əhatə edir. Bu vilayətin palçıq vulkanları, konusları su səthindən baş qaldıran ada (Bulla, Oblivnoy, Los, Svinoy, Qlinyannı və

s.) və ya sualtı saylardan (Kornilov – Pavlov sayı, Poqorelaya Plita rifi, Qolovaçev sayı və s.) ibarətdir.

Azərbaycan ərazisində palçıq vulkanları qeyri-bərabər yayılmışlar. Onlar bu və digər ölçüdə – kiçik və çox iri yüksəklikdən ibarət olub, Böyük Qafqazın cənub - şərq batımının, Küryanı ovalığın, Bakı arxipelağı, Abşeron yarımadası və Abşeron arxipelağının müasir relyefinin əmələ gəlməsində böyük rol oynayırlar.

Lakin son illər digər palçıq vulkanlarına qarşı törədilən antriopogen və texnogen təsirlər artmaqdadır. Bu vulkanların yerli əhali tərəfindən zibillənməsinin qarşısı birmənalı şəkildə alınmalıdır. Belə cəhdlər palçıq vulkanlarında yerinə yetirilən tədqiqatlar üçün maneələrtörədir, həm də onları ziyarət edən yerli və xarici vulkansevərlərdə təbii abidələrimizə olan münasibətlə bağlı pis təəssüratlar yaradır. Bir sözlə, müvafiq təşkilatlar bu məsələlərlə məşğul olmalı və lazımı tədbirlər görməlidir.

Bundan başqa, Azərbaycanın möhtəşəm görüntülü, aktiv fəaliyyətdə olan palçıq vulkanları ekoturizm üçün gözəl obyektdir. Qoruq tərəfindən mühafizə edilən bəzi vulkanlar da vardır ki, qoruğun hazırkı statusu ora turistlərin girişini qadağan edir. Qoruğun hüquqi statusunun "Milli parkla" əvəz edilməsi, dünyada analoqları olmayan çoxçeşidli vulkanlarımızın turizm obyektlərinə cəlb olunması onların təbliği və iqtisadiyyatımızın inkişafına töhfəsi baxımından məqsədəuyğun olacaqdır

**Mirzəyeva Səlimə,**
**dosent**
**Hüseynzadə Günel,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**ms.aliyevs@gmail.com**

## Ortaməktəbin X–XI siniflərində qrafik redaktor və onların fərqləndirici xüsusiyyətlərinin öyrədilməsi metodikası

İKT yalnız ümumi orta təhsil sistemində deyil, ali təhsil müəssisələrində də geniş tədbiq olunur. Hazırda kadr hazırlığını İKT üzrə bacarıqlar aşılmadan həyata keçirmək mümkün deyildir. İndi respublikamızın ali və orta ixtisas məktəblərində informasiya və kommunikasiya texnologiyaları sahəsində ixtisaslar üzrə kadrlar hazırlanır. Hazırda müasir kompüter qrafikası bazarında gənc mütəxəssislərə tələbat həddindən artıq böyükdür. Kompüter qrafikası EHM-in yeni tədbiq sahələrindən biri olmaqla onun üçüncü nəslindən başlıyaraq xüsusi texniki və proqram vasitələrinin köməyi ilə istifadə olunur. Kompüter qrafikasına elmi, işgüzar, konstruktor, illüstrativ, bədii və reklam qrafikaları həmçinin kompüter animasiyası aiddir .

Qrafiki proqramlaşdırma müasir proqramlaşdırmanın ən mürəkkəb sahələrindən biridir. Qrafiki təsvirlər hazırlamaq üçün müxtəlif tədbiqi proqramlardan istifadə olunur. Məsələn: elmi işlərdə verilənlərin qrafiki emalı üçün Grapher, mühəndis konstrukturçertyojları hazırlamaq məqsədi ilə AutoCad və s. proqramlarından istifadə olunur. Qrafiki informasiyalarıtəsvir etmək üçün iki tip qrafiki redaktordan (PaintBrush, CorelDraw ),və informatika dərslərində isə əsasən Paint redaktorundan istifadə olunur. Metodik cəhətdən kompüter qrafikasının növləri ilə iş prinsiplərindən əvvəl kompüter qrafikasının tətbiq sahələri öyrədilməlidir, çünki kompüter qrafikası ilə iş müxtəlif sahələrdə müəyyən təsvirlərin reallaşdırılması zərurətindən meydana gəlmişdir. Ümumi olaraq kompüter qrafikasinin aşağıdakı tədbiq sahələri şagirdlərin diqqətinə çatdırımalıdır:

- Elmi qrafika: elmi tədqiqat obyektlərini vizuallaşdırmaq hesablama nəticələrini əyani göstərmək üçün nəzərdə tutulub;
- İşgüzar qrafika: müxtəlif müəssisələrin işində tez- tez istifadə olunan illüstrasiyaların yaradılması, statistik məlumatların hazırlanmasında istifadə olunur;

- Konstruktor qrafika: avtomatlaşdırılmış layihələndirilən (computer aided design- CAD) qurğuların texniki sxemlərinin hazırlanmasında istifadə edilir;
- Obrazları tanınması: metodik cəhətdən kompüter qrafikasının bu tədqiqat sahəsini konkret nümunələrlə şagirdlərə izah etmək olar. Məsələn: axtarışda olan cinayətkarın tanınması sistemləri; aero və kosmik fotoşəkillərin analizi; çeşidləmə sistemləri və.s.;
- Təsviri incəsənət: bu sahəyə kompüter videofilimlərini, qrafik reklamları, rəsmlərin, multiplikasiyaların yaradılmasını aid etmək olar. Kompüterqrafikasının bu sahəsində ən populyar proqramlardan Adobe Photoshop, CorelDraw,3ds max kimi proqramlar qeyd edilməlidir;
- Virtual reallıq: texniki vasitələrin köməyi ilə yaradılan və ətraf aləmi imitasiya edən bu sistemlərə muxtəlif trenajorlarda mürəkkəb qurğularla işləməyi öyrənmək üçün,mürəkkəb situasiyalı kompüter oyunlarında, tez- tez dəyişilən şəraitdə qərar qəbul etmənin strategiyasını mənimsəmək üçün nəzərdə tutulmuş öyrədici sistemlərdə istifadə olunduğu qeyd edilir.

X-XI siniflərdə metodik olaraq kompüter qrafikasının əsasını təşkil edən aşağıdakı 3 növü qeyd edilməlidir: Rastr qrafikası, Vektor qrafikası, Fraktal qrafika.

X sinif həcmində rastr, vektor və fraktal qrafika haqda bu məlumatların müəllim tərəfindən qeyd edilməsi məqsədəuyğundur. Əvvəlcə rastr qrafikası haqqında onun əsas xüsusiyyətləri qeyd edilməlidir. Daha sonra şagirdlərə rastr təsvirlərlə işləməyin əsas çətin tərəfləri olan; yaddaşda çox yer tutması və böyüdərək üzərində iş görməyin mümkün olmaması qeyd edilməlidir. Rastr təsvirlərin yaradılması və üzərində işlərin aparılması üçün ən çox Paint, Adobe Photoshop, Picture Publicher kimi proqramların adları sadalanmalıdır.

X sinif İnformatika kursunda vektor qrafik redaktorlarına misal olaraq Adobe İllustrator, Corel Draw, Freehand kimi proqramlarını göstərmək olar

Qrafik redaktorların digər bir növü olan fraktal qrafika haqqında isə X sinif həcminə uyğun olaraq müəllim bu məlumatları qeyd edə bilər: Fraktal elə strukturdur ki, hissələri müəyyən mənada onun özünə oxşayır. Daha sonra müəllim təbiətdə olan bir çox obyektlərin fraktal xüsusiyyətlərə malik olmasını şagirdlərin diqqətinə çatdıra bilər: Məsələn: qar dənəciyi böyüdüldükdə fraktal olur, ağac və bitkilər fraktal alqoritmlər üzrə böyüyür dənizin sahil xətlərinə böyüdülmüş miqyasda baxdıqda əvvəlkilərə bənzər yeni -yeni girinti və çıxıntılar üzə çıxır. Fraktal (3D)qrafik redaktorlarına misal kimi Autudesk 3D Studio, Softimage XSI, Cinema 4D, Maya və s. kimi proqramları göstərmək olar .

Orta məktəb İnformatika kursunun XI sinif daxilində tədris olunan qrafik redaktorlar bölməsi metodik baxımdan daha dərin və mürəkkəb formada şagirdlərə öyrədilir. Həmçinin XI sinif materialına əsasən müəllim vektor qrafikasının ümumi şəkildə xüsusiyyətlərini qeyd etməlidir.Vektor qrafikasının əsasında həndəsi fiqurlar haqqında riyazi təsəvvürlər haqqında məlumat verib sonra vektor tipli fayılların saxlanması zamanı istifadə edilən **CDR** (Corel Draw), **AI** (Adobe Illustrator),**VMF** (Windows Meta File) kimi formatları sadalaya bilər.

**Mirzəyeva Səlimə,**
**dosent**
**Məlikzadə Tural,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**tural1996t@gmail.com**

## Orta məktəb informatika kursunda "excel" cədvəl prosessorunun öyrədilməsi

İnformatikanın tədrisində əsas təhsil məqsədi kompüterlərə maraqların formalaşmasıdır. Bu məqsədə nail olmaq üçün əsas yollar, kompüter təkamülünün təsiriylə insan həyatının müxtəlif sahələrində parlaq dəyişikliklərin nəzərə alınması və ən maraqlı alqoritmlər və proqramlar tərtib

edilməsidır. İnformatikanın tədrisində kompüterlər artıq kosmonavtika, müəssisədə mühasibat uçotu, hərbi sənaye kompleksi və s. kimi sahələrdən kənara çıxa bilməyəcək fəaliyyət sahələri üzrə nəzərdən keçirilir.

Aparılan tədqiqatın əsas məqsədi Microsoft Office proqram paketinin Excel elektron cədvəl redaktorunu öyrənərkən şagirdləri texniki düşüncə, mücərrəd-məntiqi düşünmə və nəticədə tədqiqat səviyyəsini artırmaqdır.

İlk elektron cədvəllərin əsas üstünlüyü avtomatik olaraq yenidən hesablama imkanı idi: dəyər və ya formada hər hansı dəyişiklik üçün elektron cədvəl bütün digər xana dəyərlərini yenidən hesablayır.

Fərdi kompüterlərə quraşdırılmış elektron cədvəllərin hesablama qabiliyyəti 1970-ci ilə nisbətən əhəmiyyətli dərəcədə artmışdır. Bundan sonra onlara qrafik imkanları da əlavə olundu. Hesablama prosesini sürətləndirmək üçün elektron cədvəllar quraşdırılmış funksiyalarla artırılmışdır. Bundan əlavə, fərdi kompüterlərin hesablama sürəti və saxlama qabiliyyəti belə bir səviyyəyə çatdırılmışdır ki, yaxşı proqramlarla təchiz olunmuş bir fərdi kompüter (Excel kimi cədvəllər də daxil olmaqla, onlarla məhdudlaşmır) ilə hər bir istifadəçi məşğul ola bilir.

Spreadsheets-in və fərdi kompüterlərdə quraşdırılmış bir sira proqramların köməyi ilə hazırda daha mürəkkəb məsələləri həll edilməsi daha əlverişli və asandır.

Elektron cədvəllər aşağıda göstərilən məsələlərin həlli üçün istifadə olunur:

- eyni tipli hesabların birdən çox icrası;
- cədvəlli məlumatların istifadəsi;
- qrafların yaradılması (elektron cədvəllər - məlumatın aydın şəklində təqdim edilməsi üçün əlverişli bir yol);
- parametrdən asılılığın analizi;
- nəticələrin oxunaqlı formada təqdim edilməsi.

Fərdi kompüter performansının əhəmiyyətli dərəcədə artması və Excel-in həll metodlarının yaxşılaşdırılması, bir çox məhdudiyyəti aradan qaldırmağa kömək etmişdir. Elektron cədvəllərlə işləyərkən aydın olur bu proqramlarda işəgötürənin bir iş aləti kimi xarakterik xüsusiyyətləri işdə istifadə olunur - bu proqramların şəkillər və histogram şəklində təqdim edilməsi üçün çoxsaylı imkanları vardır.

Elektron cədvəllər kimi müxtəlif proqramlar xüsusiyyətləri və əmrləri ilə az fərqlənir. İnteqrativ mühit istiqamətində elektron cədvəllərin gücləndirilməsi (DBMS, qrafika) məktəb informatika dərslərində öyrədilir.

Microsoft Excel, məlumatların cədvəlləri ilə işləmək üçün güclü bir vasitədir. Bu, müxtəlif növ məlumatların təşkilini, analizini və qrafikasını təqdim etməyə imkan verir. Bu mövzunun "İnformatika" kursunda öyrənilməsi Excel-in elektron cədvəl kimi istifadə edilən redaktorudur. Cədvəllər yaratmaq, formulları hesablamaq, cədvəldə göstərilən məlumatlara uyğun olaraq peşəkar səviyyədə qrafik yaratmaq imkanı verir. Ona görə də Microsoft Excelin tədrisi orta məktəbdə zəruri proqramlardan biridir.

Tədqiqatın məqsədi Excel elektron cədvəllərinin informatika fənninin tədris metodlarının işlənib hazırlanmasıdır.

Orta məktəbin 9- cu sinfində informatika dərsində mövzuya maraq, fayldan bir masaya daxil edilib əvvəlcədən hazırlanmış bir tapşırıq nümayiş etdirməklə yarana bilər. Sadə tətbiq olunan və xüsusi bir vəzifə, məsələn üç turist arasında yükün ədalətli paylanması problemi olduqca uyğun gəlir. Cədvəlin şagirdin tamamilə interaktiv və tədqiqat işi olan qaynaq məlumatlarında dəyişikliklərə dərhal reaksiyasını vurğulayırıq. Motivasiya problemi ilk olaraq kağız üzərində həll etməyə imkan verərək aparıla bilər. Eyni zamanda, şagirdlər problemi açıqlayacaqlar.

Microsoft Excel Spreadsheet Editor kimi bir mövzu öyrənərkən, aşağıdakı müasir və ən vacib tədris vasitələrindən istifadə edilə bilər:

- Excel və onun prinsiplərini, metodlarını aydın şəkildə göstərməyə imkan verən kompüter və proyektor;
- elektron lövhə və qələm;

- Microsoft Windows və Excel redaktorunun özü;
- mətn redaktoru funksional və digər xüsusiyyətləri əks etdirən müxtəlif diaqram və təsvirlər, həmçinin istifadə olunan düymələrin məqsəd və kombinasiyalarını təsvir edən cədvəllər və s .;
- tələbələrin bilik səviyyəsini yoxlamaq üçün istifadə olunan digər proqram vasitələri.

Aparılan tədqiqat işində aşağıdakı nəticələr əldə edilmişdir:

- Elektron cədvəllər hansılardır?
- nə qədər əhəmiyyətlidir,
- elektron cədvəllərin məktəbdə tədqiqi,
- onların tədrisinə neçə saat verilir,
- məktəb proqramının tələbləri,
- təhsilin metodları və formaları,
- təhsil səviyyəsi.

Hər bir müəllim dərslərin bu inkişafından faydalanıb uşaqların bacarıqlarını, hazırlıq səviyyəsini nəzərə alaraq, bu mövzularla tamamilə fərqli dərslər qura bilər.

**Muradov Məmməd**
**baş müəllim,**
**Əliyev Xaliq,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**xaliq.xaliq.eliyev@mail.ru**

## Orta ümumtəhsil məktəblərin X-XI siniflərində informatika fənninin tədrisində kompüterin tətbiqi proqramlarının öyrədilməsi metodikası

Hər bir müəllim məktəbinin və şagirdlərin inkişaf səviyyəsini nəzərə almaqla kompüter texnologiyalarını tədrisə tətbiq etməyi bacarmalıdır. Son dövrlərdə kompüter təlimindən istifadə geniş vüsət almışdır. Orta məktəblərdə tədrisin təşkilində istifadə olunmaq üçün müxtəlif tətbiqi proqramlar tətbiq edilir. Hazırda müxtəlif funksional məqsədlər üçün öyrədici proqramların yaradılması nəticəsində metodik sahələr inkişaf etdirilir. Pedoqoji və texniki cəhətdən ən optimal variantın tapılması kütləvi tədqiqat tələb edir.

Orta məktəblərin X və XI siniflərində tətbiqi proqramların praktikumlarla tədrisi tam məzmunlu nəticə əldə olunmasına yönəlmiş geniş layihələrin hazırlanması üçün nəzərdə tutulur. X və XI siniflərdə maddi texniki baza və ixtisaslı müəllim kadrları olan məktəblərdə tətbiqi proqram paketlərinin tədrisi olduqca effektiv alinir.

Orta məktəblərdə tədrisin avtomatlaşdırılması geniş vüsət alıb. Məhz buna görə də orta məktəblərdə tədris olunan fənnlərin öyrədici proqram paketləri yaradılır. EHM-lərin köməyilə təlim prosesinə yeni öyrədici metodların tətbiqi əsasən 3 istiqamətdə olur: Kompüterin öyrənilməsi; Kompüterin köməyilə informasiyanın alınması; Kompüter vasitəsilə fənnlərin tədrisi.

Ümumiyyətlə, ixtisasından və peşəsindən asılı olmayaraq, hər bir orta məktəb müəllimi öz fənninin tədrisi zamanı öz işini avtomatlaşdırmaq üçün kompüter texnologiyaları və tətbiqi proqramlardan istifadə edə bilər və etməlidir.

Tətbiq olunacaq texnologiyalar və tətbiqi proqramlar kimi MicroSoft Office, Lokal və ya qlobal şəbəkələr, Uzaq məsafəli tədris (Distance Learning), Terminal Servis və s. göstərmək olar.

Ümumiyyətlə, MİCROSOFT OFFİCE paketi ayrı-ayrı tətbiq sahəli proqram paketlərindən ibarətdir ki, onların da hər biri orta məktəb müəllimlərinin işində özünəməxsus rol ilə çıxış edir.

**MİCROSOFT WORD:** Nəinki orta məktəb müəllimləri, ümumiyyətlə hər bir sahənin işçisi özünə lazım olan mətni lazımı formada tərtib etməli olur. MS WORD mətn redaktorunun geniş imkanları vardır. Cədvəllərlə işləmək, müxtəlif formalı yazı üslubları ilə işləmək, müxtəlif

fiqurlardan istifadə etmək imkanları vardır. Şagirdlərin WORD-ü öyrənib, tətbiq etmələri vacibdir.

Microsoft Word proqramının hər bir yeni versiyası onun istifadəçilərinə yeni alətlər və daha da rahat interfeys təqdim edir.

**MİCROSOFT EXCEL:** Microsoft Office paketinə daxil olan Microsoft Excel proqramı öz «ağıllı» vasitələri ilə çox istifadəçilərin köməyinə gəlir.

Excel proqramı cədvəl şəkilli verilənlərlə iş aparılması, onlar üzərində müxtəlif standart əməliyyatların və ya qeyri-standart əməliyyatların aparılmasını təmin edir. Verilənlərin bir-birindən asılılıqlarının qrafik və ya diaqram şəklində göstərişi təmin olunur. Bu kimi əməliyyatların aparalımasını təmin edərək istənilən istifadəçiyə və ya həmçinin orta məktəb müəllimlərinə bu və ya başqa əməliyyatları çox tez, rahat və effektiv şəkildə yerinə yetirməyə imkan verir.

Misal kimi göstərmək olar ki, orta məktəb müəllimləri şagirdlərin qiymətləndirilməsi, hansı şagirdin daha aktiv iştirak etməsini qrafik şəkildə daha əyani görmək üçün Excel proqramında diaqramlardan istifadə edə bilər.

**MİCROSOFT POWER POİNT:** Fərdi kompüterlər və tətbiqi proqramlar inkişaf etməzdən əvvəl, bu əyaniliyi əldə etmək üçün sinif lövhələrindən, xüsusi kadr şəkilli lentlərdən, böyüdücülərdən, diafilmqurğularından, linqofonlardan və s.-dən istifadə olunurdu.

MicroSoft Power Point proqramından istifadə etməklə istənilən şəkildə, istənilən sayda səhifədən ibarət istənilən effektlərlə müxtəlif cür «Təqdimatlar» (Slaydlar) tərtib etmək olar.

Bu slaydların şagirdlərə təqdim olunması üçün heçdə onların kağız üzərinə çap olunması vacib deyil.

Slaydlar tam ekran rejimində, animasiya kimi, müəyyən səslərlə, başqa proqramların köməyilə yaradılan obyektlərin özünə qoşulmasını dəstəkləməklə öyrətmə və öyrənmə prosesini olduqca asanlaşdırır.

**MİCROSOFT ACCESS:** Ümumiyyətlə, bütün idarələrdə və təşkilatlarda əvvəlki kağız üzərində arxivlərdə saxlanılan versiyaların kompüterdə reallaşdırılması çox vacib məsələlərdən biridir. Əlbəttəki bu, informasiyanı tez və operativ surətdə əldə etmək işini olduqca asanlaşdırır. Deyilənləri kompüterdə reallaşdırmaq üçün VB texnologiyasından istifadə olunur. Ümumiyyətlə, VB texnologiyasında verilənlərin müxtəlif modellərindən istifadə olunur: Şəbəkə modeli, İerarxiya modeli, Relyasiya modeli

Son zamanlar ən geniş istifadə olunan model –relyasiya modelidir. Verilənlər bazalarını idarə etmək üçün məşhur firmalar tərəfindən müxtəlif cür Verilənlər Bazalarını İdarəetmə Sistemləri (VBİS) yaradılmışdır.

Belə VBİS-lərdən biri də Microsoft şirkəti tərəfindən yaradılmış və MicroSoft Office paketinin tərkibinə daxil edilmiş Microsoft Access proqramıdır.

Microsoft Access proqramı verilənlər bazası ilə işləmək üçün istifadəçilərə tam alətlər dəstini təqdim edir. Bu proqramdan hətta verilənlər bazasının prinsipi və qurulma qanunauyğunluqlarını bilməyən istifadəçilər belə çox rahat yararlanaraq, öz tələblərinə uyğun cədvəllərdən ibarət verilənlər bazası yarada bilərlər.

Başqa bir problemə diqqəti cəlb etmək istəyirəm. Kompüterin təlimə daxil edilməsi bir inqilabdır. Bu inqilabın mənfi nəticələri də ola bilər. Ona görə ciddi araşdırma lazımdır. Şagirdləri kompüterin əsirinə çevirmək lazım deyil, bu mənfi nəticə verə bilər. İndi artıq kiçik yaşlı şagirdlər kompüter oyunlarının əsiri olmuşlar, bu isə onların ümumi sağlamlığına çox ciddi təsir edir. Kompüterdən məqsədli istifadə etmək lazımdır. Bunun üçün şagidlərlə izahat işi aparılmalı, hər 20 dəqiqədən sonra fasilədən istifadə etmək lazımdır.

Nəticə: Baxılan tədqiqat əsasında, müəyyən olundu ki, fasiləsiz informatika təhsili məhrələlər üzrə aparılmalıdır. Kompüter texnologiyalarının həyatda və cəmiyyətdə hərtərəfli və səmərəli tətbiqi üçün müasir proqram məhsullarının nəzəri əsaslarının, müqayisəli xarakteristikalarının və tətbiqi məsələlərinin həllində istifadə üsullarının öyrənilməsi və tətbiqi vacibdir. İndi əsasən fəaliyyət sahəsinə aid olan məsələləri kompüterdə həll etmək bacarığı tələb olunur.

**Niftiyev Famil,**
**mütəxəssis**
**Lənkəran Dövlət Universiteti**
**f.niftiyev@mail**

## Cəlilabad və Yardımlı inzibati rayonlarında turizm infrastrukturunun inkişafı və ərazi təşkili

Turizm sosial infrastrukturun çox mühüm bir sahəsidir. Eyni zamanda regionun sosial və iqtisadi inkişafının əsas sahələrindən biri kimi qiymətləndirilir. Lənkəran-Astara iqtisadi rayonunda turizm infrastrukturu inkişaf etməsinə baxmayarq Cəlilabad və Yardımlı rayonlarında bu sahənin inkişafı ləng getmişidir.

Bu inzibati rayonlarda istirahət və turizmin maddi texniki bazasının zəif olması nəzərə çarpır. Bu, istirahət və turizm üçün yaradılan infrastrukturun pərakəndə xarakter daşıması, vahid əlaqələndirici sistemin olmaması ilə əlaqədardır. Onilliklər ərzində dağ meşə landşaftının intensiv antropogen təsirlərə məruz qalması, beynəlxalq turizm standartlarına uyğun infrastrukturun yaradılmaması, tarixi-memarlıq abidələrinin baxımsızlığı turizmin keyfiyyətli inkişafına mənfi təsir göstərmişdir.

Bu iki inzibati rayonların relyefi, təbii şəraiti və iqlim amilinin əlverişli olması dağ turizmi, piyada turizm, at belində turizm, kənd turizm və s. kimi turizm növlərini inkişaf etdirməsinə zəmin yaradır. Bütün infrastrukturlar müasir tələblərə uyğun olaraq qurulur.

Cəlilabad və Yardımlı inzibati rayonlarına ekskursiyalar təşkil olunmalıdır. Belə ki, ekskursiya marşrutu turistlərin marağına səbəb ola biləcək əraziləri əhatə etməlidir. Bu ərazilər, muzeylər, eksponatlar, memarlıq abidələri və s. özünün tarixiliyi, elmiliyi və estetikliyi ilə diqqəti cəlb etməlidir. Turistlər ekskursiya zamanı həm maariflənməli, həm də mənəvi rahatlıq tapmalıdır. Eyni zamanda ekskursiyada iştirak edən hər bir fərd tarix və mədəniyyət abidələrinin elmi və mənəvi əhəmiyyətini dərk edir. Bunun da nəticəsində tarixi abidələrin qorunmasına və mühafizə olunmasına ümumxalq marağı formalaşır. Tarixi abidələrin qorunması ənənəsi genişlənir və turizmin inkişafına şərait yaradır.

Kənd turizmi növü ilə əsasən yerli sakinlər özləri məşğul olurlar. Onlar turistləri evlərində yaradılmışşəraitdə qəbul edir, onlara ailə xidməti göstərirlər. Lakin kənd turizmin təşkili də peşəkarlıqla həyata keçirilməlidir.

Kənd turizmi əhalinin yerli istehsalın müxtəlif növlərinə olan marağını da artırır. Bu növün inkişafı kənd əhalisinin gəlirini artırır, onların həyat tərzini yaxşılaşdırır. Bu növün inkişaf etdirilməsi fərdi xarakter daşıyır və bunun üçün kapital qoyuluşuna ehtiyac yoxdur. Belə ki, əsasən stasionar xarakter daşıyan bu turizmin növünün infrastrukturu tədricən formalaşır. Xüsusilə, zaman-zaman əldə olunan gəlir hesabına yerli xidmət növlərinin yaradılması imkanı formalaşır.

Kənd turizmi özünəməxsus rəngarəngliyə malikdir. Bu turizmə əsasən ailəvi şəkildə maraq göstərilir. İnsanlar ekoloji gözəlliklərə malik olan ərazilərdə ildə bir dəfə ailə ilə birlikdə istirahət etməyini, kəndin təbii imkanlarından yararlanmağı xoşlayırlar. Sözsüz ki, cəlbedici təbii coğrafi quruluşa malik olan kəndlər insanları özünə daha çox cəlb edir. Dağlarda, meşə ərazilərində, çay və göl ətrafında yerləşən kəndlərdə dincəlmək və səmərəli istirahət etmək insanlar üçün çox maraqlıdır.

Dağ kəndlərində turistlər üçün at çapmaq yarışları, atla müxtəlif tarixi yerlərə səyahətlər, mənzərəli guşələrə gəzintilər təşkil etmək olar. Bu gəzintilərin özünəməxsus infrastrukturları və iaşə xidmət sahələri də yaradılmalıdır. Bu vasitə ilə sənaye mərkəzlərindən uzaq olan kəndlərdə insanların böyük bir qrupunu işlə təmin etmək imkanı da yaranır.

Meşə, çay və göl ətrafındakı kəndlərdə də atlardan istifadə etməklə turistlərin istirahət və əyləncəsini maraqlı gəzinti və səfərlərlə zənginləşdirmək mümkündür. Çaylarda və göllərdə qayıqlarla gəzintilər təşkil edərkən turistlərin təhlükəsizliyinin qorunmasına xüsusi diqqət

yetirmək lazım gəlir. Dağ turizmi zamanı alpinizmə maraq göstərən insanların maraqlarını nəzərə almaqla yanaşı onlar üçün həmin təhlükəsizlik tədbirləri görməyə böyük ehtiyac vardır.

Bu növ istirahət və əyləncəni təşkil edən turist təşkilatçısı təhlükəsizliyi təmin etmək üçün bəzi qorxulu dağ ərazilərinə,qayalara çıxmağa ciddi qadağalar qoymalıdır.

Cəlilabad rayonunda Qızıl Yamal qonaq evi, Göl oteli, "Ruslan" və "Kral" istirahət mərkəzləri fəaliyyət göstərir.

Yardımlı rayonunda turistlərin istirahəti üçün Deman istirahət mərkəzi, şəhər mərkəzində bir otel fəaliyyət göstərir. Şəhər mərkəzində parklar, 4 yerdə restoranlar turistlərə xidmət göstərir. Rayonda «Təkdam şəlaləsi»nin ecazkar gözəlliyinə tamaşa etmək üçün hər gün buraya yüzlərlə turist gəlir. Şəlalənin ətrafında yeni turizm obyektləri inşa edilmişdir.

Rəsmi statistikaya əsasən, mehmanxana və mehmanxana tipli müəssisələrin sayı Cəlilabad rayonunda 2005-2017-cı illərdə 4 dəfə artmışdısa, Yardımlı rayonunda 2 dəfə artıb (cədvəl 1). 2017-ci il üzrə iqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələr Cəlilabad rayonunda 126 yer olduğu halda, 30 yer Yardımlı rayonun düşür.

**Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı**

| İnzibati rayonlar | 2005 | 2010 | 2015 | 2017 |
|---|---|---|---|---|
| Cəlilabad | 1 | 4 | 4 | 4 |
| Yardımlı | 1 | 2 | 2 | 2 |

**Mənbə: "Azərbaycanda turizm 2017" məlumatı əsasında tərtib olunub.**

Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin sayı Cəlilabad rayonu üzrə 2005-ci ildə 2844 nəfər, 2010-cu ildə 1717 nəfər azalmış və 2017-ci ildə 2149 nəfərə çatmışdır. Yerləşdirilmiş şəxslərin sayındada Cəlilabad rayonu üzrə 2005-2017-ci illərdə 564 nəfər azalaraq 744 nəfər olmuşdur. Mehmanxana və mehmanxana tipli müəssisələrdə çalışan işçilərin sayı 2017-ci ildə Yardımlı rayonu üzər 2 nəfər, Cəlilabad rayonu üzrə 9 nəfər olmuşdur.

Qeyd olunanları nəzərə alaraq, Lənkəran-Astara iqtisadi rayonunun bu iki inzibati rayonunda əlverişli təbii şəraiti nəzərə alaraq meşələrin qırılmasının qarşısı alınmalı, turizm infrastrukturu genişləndirilməli, beynəlxalq tələblərə cavab verən turizm müəssisələri qurulmalı, turizmin inkişafında vergi güzəştlərin tətbiqi, inzibati rayonlara turizm marşurutları təşkil olunmalı, turizm agentlikləri yaradılmalı, əhalinin turizm sahəsində işlə təmin olunmasına və turizm sahəsini bilən ixtisaslı kadrların bura cəlb olunasında köməklik göstərilməlidir.

**Paşayev Nahid,**
**dosent**
**Məmmədova Turanə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**turane.memmedova94@mail.ru**

## Orta məktəblərin X sinif riyaziyyat dərslərində şagirdlərin alqoritmik mədəniyyətinin inkişaf etdirilməsi

İnformatika fənni təliminin insanlarda məntiqi və alqoritmik təfəkkür tərzini, məsələlərin səmərəli həll üsullarının seçilməsinə yönəlmiş yaradıcı və əməli düşünmə qabiliyyətini formalaşdırmaq üçün zəruri olan informasiyaları kompüter vasitəsi ilə ala bilmələri sahəsində texniki bacarıq və vərdişlərin öyrədilməsidir.

Orta məktəb riyaziyyat dərslərində şagirdlərdə alqoritmik mədəniyyətin inkişaf etdirilməsi müəyyən mərhələlərdən ibarət olur. Belə ki, hər hansı bir riyazi məsələnin kompüter vasitəsi ilə həllinin tapılması üçün müəyyən ardıcıllıq gözlənilir.

1. Məsələ həllinin alqoritminin yaradılması və verilənlərin quruluşu.

Alqoritmləşmə prosesi ilkin verilənlərin təyin olunmasını, onun girişini, çağırılmasını və alınan nəticənin çap olunmasını özündə əks etdirir.

2. Proqramlaşdırma mərhələsi.

Bu qaydada məsələ həllinin tərtib olunmuş proqramı kompüterin yaddaşına daxil edilir.

3. Qoyulan məsələnin kompüter həlli əsasında alınan nəticənin təhlili aparılır.




Dərs zamanı əvvəlcə şagirdlərə verilən məsələnin kompüterdə yerinə yetirilməsindən əvvəl verilmiş məsələnin həlli qaydası başa salınmalı, sonra isə yuxarıda göstərilən ardıcıllıqla kompüterdə yerinə yetirilməlidir. Konkret olaraq aşağıda çarpaz düz xətlər arasındakı bucağın tapılmasında kompüterdən istifadə metodikasına baxılmışdır. Əvvəlcə məsələnin qoyuluşu verilmiş, sonra isə həll alqoritmi göstərilmişdir. Məsələ: Təpə nöqtələrinin kordinatları ilə verilmiş SABC üçbucaqlı piramidasının SC tili üzərində həmin tili $\frac{SD}{DC} = k$ nisbətində bölən D nöqtəsi götürülmüşdür. AD və BC tillərinin arasındakı bucağı tapmalı.

Məsələnin riyazi olaraq həll qaydasını aşağıdakı kimi verək.

Əvvəlcə həmin bucaq qurulur. Bunun üçün verilən düz xətlərdən biri olan BC-dən və digər düz xətt üzərində olan D nöqtəsindən müstəvi keçirilir. Bu müstəvi SBC olsun. Həmin müstəvinin üzərində D nöqtəsindən BC düz xəttinə paralel olan DF düz xəttini çəkək. Axtarılan bucaq ADF olar. İndi isə S,A,B,C nöqtələrinin kordinatlarına görə ADF bucağının qiymətini tapaq.

Bu məsələnin həll alqoritmi aşağıdakı kimi olar.

1.Əvvəlcə D nöqtəsinin koordinatlarını tapırıq: $D(\frac{x_s + kx_c}{1+k}, \frac{y_s + ky_c}{1+k}, \frac{z_s + kz_c}{1+k})$

2.ΔBSC-də qurmaya görə FD‖BC olduğundan, F nöqtəsi BS tilini k nisbətində bölür. Onda F nöqtəsinin koordinatları: $F(\frac{x_s + kx_B}{1+k}, \frac{y_s + ky_B}{1+k}, \frac{z_s + kz_B}{1+k})$ olar.

Cavabı ekrana çıxarmaq üçün Label qutusundan istifadə etmək lazımdır.

3. DA və DF vektorlarının skalyar hasilini tapırıq:

$\overline{DA} \cdot \overline{FD} = (x_D - x_A)(x_D - x_F) + (y_D - y_A)(y_D - y_F) + (z_D - z_A)(z_D - z_F)$

4.DA və DF vektorlarının uzunluqlarını tapırıq:

$|\overline{DA}| = \sqrt{(x_D - x_A)^2 + (y_D - y_A)^2 + (z_D - z_A)^2}$

$|\overline{DF}| = \sqrt{(x_D - x_F)^2 + (y_D - y_F)^2 + (z_D - z_F)^2}$

5.Çarpaz AD və BC düz xətləri arasındakı ADF bucağının kosinusunu hesablayaq:

$\cos ADF = \frac{\overline{DA} \cdot \overline{DF}}{|\overline{DA}| \cdot |\overline{DF}|}$

Delphi dilində yuxarıda göstərilən məsələnin proqramını quraq. Əvvəlcə alqoritmi blok sxemlərlə təsvir edək:




1-başlanğıc
2-x1,x2,x3,x4,y1,y2,y3,y4,z1,z2,z3,z4 və k-nın daxil edilməsi
3-D və F nöqtələrinin koordinatları tapılır.
4-DA VƏ DF vektorlarının skalyar hasili tapılır.
5-DA və DF vektorlarının uzunluqları tapılır.
6-ADF bucağının kosinusu tapılır.
7-cavab ekrana çıxarılır.
8-proqramın sonu bildirilir

**Qədirova Gülbəniz,**
**dosent**
**İbrahimli Əsmət,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**gadirova@gmail.com**

## Kimya fənnində təlim texnologiyalarının mahiyyəti və struktur komponentləri

Müasir Təlim texnologiyası keçən əsrin 70-ci illərində bilikləri yoxlamaq üçün texnikivasitələrin meydana gəlməsindən başlamışdır. Metodist alimlər belə hesab edirlər ki, texnikadan istifadə daha çox informasiya vermək üçün köməkçi xarakter daşıyır. Lakin tədris prosesinin ayrı-ayrı mərhələlərində texniki vasitələrin tədris prosesinə tətbiq olunması sürətlə inkişaf edir. Mütəxəssislər gələcəkdə müəllim və məktəbin köməyi olmadan distant üsulla öyrədici (təlimedici) sistemlərdən müstəqil istifadə olacağını praqnozlaşdırırlar. Təbii buraya təhsil məqsədlərdən tutmuş, gözlənilən nəticələrə nəzarətə qədər hər şey daxil oldu. Mütəxəssislərin fikrincə başlıca ideya öyrədici texnologiyanı ekranda canlandırmaq ideyası idi.

Mütəxəssislər və müəllimlərin özləri, təlimin texnikası ideyasına birmənalı münasibət bəsləmirlər. Müəllim əməyi hələ də mexanikləşdirilməmiş əl əməyi olaraq qalır. Bir çox pedaqoqlar belə hesab edirlər ki, bu belə də olmalıdır, çünki yalnız canlı insan oxuda, öyrədə bilər. Lakin təlim texnologiyasının inkişafı göstərir ki, hər bir fənni öyrətmək üçün texnoloji prosesi yaratmaq mümkündür. Bu sahənin mütəxəssisləri müəllimlərlə birlikdə yeni proqramlar və layihələr hazırlayırlar.

Müəllimlər həmin layihələrlə işləyən zaman məsləhətçi – təşkilatçı funksiyasını yerinə yetirirlər. Pedaqoji texnologiya dedikdə, qabaqcadan verilmiş xarakteristikalar üzrə kompüter təlimi üçün işlənib hazırlanmış, optimal, didaktik proseslər başa düşülür.

Texnologiyanın vəzifəsi təlimedici sistemin bütün elementlərini öyrənmək və təlim prosesini layihələşdirməkdir.

Hazırda metodik alimlərin təklif etdikləri müasir pedaqoji praktikada daha geniş tətbiq olunan şəxsiyyətyönümlü-inkişafetdirici pedaqoji texnologiyalar aşağıdakılardır: Əməkdaşlıqla təlim texnologiyası; layihələr metodu ilə təlim texnologiyası; modulla təlim texnologiyası.

Əməkdaşlıqla (kollektiv) təlim texnologiyası–bu təlim texnologiyasında əsas ideya nəyisə birlikdə yerinə yetirmək yox, birlikdə öyrənməkdir.

Bu metodda qrupun əsas üzvləri mövzu üzərində yoldaşları ilə əlaqəli şəkildə işləyirlər. Birlikdə qarşıya qoyulmuş məqsədə nail olmağa çalışırlar. Əgər qrup verilən tapşırığın öhdəsindən gələ bilmirsə bunun 2 səbəbi var: a) tapşırıq həddən artıq çətin və mürəkkəbdir; b) tapşırığı əldə etmək üçün uşaqlarda möhkəm praktik vərdişlər yaranmayıb.

Bütün bu hallarda müəllim pedaqoji ustalığınıın artırılması istiqamətində iş aparmalıdır. Yəni müəllim, özü bu üsul və metodların əsas mühiyyətini və icra mexanizmini mükəmməl mənimsəməlidir.

Layihələr metodu ilə təlim texnologiyası**.** Bu metodla fəal təlim əsas şagirdin məqsədəuyğun fəaliyyəti ilə onun şəxsi maraqlarına uyğun qurulmuşdur. Müəllim yeni informasiyaların alınma mənbəyini göstərə bilir və bu informasiyaları necə axtarmağın mümkün olduğunu deyə bilir, uşağı istiqamətləndirə bilir. Layihələr metodu müasir pedaqoji texnologiyaların bünövrəsi kimi müxtəlif təlim vasitələri və informasiya texnologiyalarından istifadə etməklə reallaşır. Müəllim bu işlərdə məlum müasir və ənənəvi vasitələrdən istifadə edə bilər.

Modulla təlim texnologiyası, uşaqların müstəqil olaraq dərsdə və dərsdənkənar vaxtlarda modullu iş prosesində konkret təlim məqsədlərinə nail olması başa düşülür.

Görkəmli tədqiqatçı alimlərdən A.Mehrabov, Ə.Ağayev, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov, A.Əliyev və b. texnoloji yanaşmanın strukturunu şaquli və üfüqi olmaqla iki yerə bölürlər. Belə texnoloji yanaşmanın şaquli strukturunda bir-birilə əlaqəli – meta, makro, mezo və mikrotexnologiyaları ayırmaq lazımdır.

Praktik mənada pedaqoji texnologiya dedikdə, həm də qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatlar kompleksi başa düşülür.

Buradan belə bir nəticə hasil etmək olar: müəllimin təlim texnologiyalarını aşağıdakı əməliyyatlar təşkil edir: bilikləri əldə etmək; pedaqoji məqsədlərini layihələşdirmək; təlim və təhsil-tərbiyə prosesini təşkil etmək və bilikləri şagirdlərə öyrətmək üçün yerinə yetirilən əməliyyatlar.

Bu sahədə çalışan alimlərin fikrincə pedaqoji texnologiyalar aşağıdakı kimi təsnif oluna bilər: təlim texnologiyası; tərbiyə texnologiyası; inkişaf texnologiyası; diaqnostika texnologiyası.

Təlim texnologiyası dedikdə, bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür. Tərbiyə texnologiyası dedikdə, nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin, məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar kompleksi başa düşülür. İnkişaf texnologiyası təlim və təhsil-tərbiyə texnologiyası ilə əlaqədardır. Psixi inkişaf dedikdə, əqli bacarıqların formalaşdırılması, insan psixikasında hər hansı əməliyyatların çoxalması nəzərdə tutulur.

Diaqnostika texnologiyası pedaqoqların və ya psixoloqların uşağın məktəbə hazırlığını diaqnostlaşdırmasıdır.

Pedaqoji sistemin təkmilləşməsi intensiv və ekstensiv yolla həyata keçirilir.

İntensiv yol pedaqoji sistemin daxili ehtiyatlarını işə salmaqla bağlıdır. Ekstensiv yol - pedaqoji prosesə əlavə vaxt və vəsait cəlb olunmasını nəzərdə tutur.

Pedaqoji prosesdə yeniliklərin miqyası müxtəlif ola bilər. Muəyyən bir metodu, formanı təkmilləşdirmək,yeni iş texnologiyalarını tətbiq etmək,yaxud təhsil-tərbiyə sistemini yeniləşdirmək.

Elmi pedaqogikanın qarşısında duran ən aktual problemlərdən biri intellektual şəxsiyyətin formalaşması məsələsidir. Təlimin əsas məqsədi şagirdlərin şüurunda dünyanın düzgün mənzərəsini yaratmaq onların intellektual inkişafını və tərbiyəsini təmin etməkdən ibarətdir.

Təlim prosesində əsas 4 funksiya-öyrədici, inkişafetdirici, təlimləndirici və tərbiyəedici funksiya vardır. Öyrədici funksiya: tədris materialının məzmun və fuksiyalarının öyrədilməsində yaradılır.İnkişafetdirici funksiya – şagirdlərdə tənqidi təfəkkürü inkişaf etdirməklə sistemli inkişafa nail olmaqla həyata keçirilir. Təlimləndirici funksiya: pedaqoji texnologiyaların bu funksiyası aparıcı vəzifədir.

Tərbiyəedici funksiya:təlim prosesində tərbiyəedici dərs dərsin müəyyən hissəsində onun üçün bilavasitə əlverişli şəraitin olması anda yerinə yetirilir.

Təlim metodlarının köməyi ilə əsas tətbiyəvi ideyalar - kollektivcilik, əməkdaşlıq, qarşılıqlı, yaradıcı və s. işlər həyata kecirilir.

Təhsil sistemində yeni təlim texnologiyalarının tətbiqi təlim prosesinin səmərəliliyini, keyfiyyətini yüksəldən əsas amil olduğundan, belə nəticəyə gəlmək olar ki, tədris prosesi nəticəyönümlü proses olduğundan, məqsədi əvvəlcədən müəyyənləşdirilmiş və şagirdə istiqamətlənmiş təlim həyata keçirilməlidir; tədris və təlim bir-biri ilə sıx bağlı olduğundan daim qarşılıqlı əlaqədə götürülməlidir; tədris prosesi hər birinin öz rolu və statusu olan bir neçə fərdlərin əməkdaşlığından irəli gələn sosial bir proses olub inkişaf rejimində fəaliyyət göstərməlidir.

Yeni pedaqoji texnologiyalarda təklif olunan üsul və metodlarından istifadə olunması müəllimin fasilitator qabiliyyətini formalaşdırır, şagirdlərdə şəxsiyyəti, azad fikir söyləməyi, fikirlərini arqumentlərlə sübut etmək bacarığını və əldə edilən baza bilikləri sistemləşdirərək inkişaf etdirir.

**Qədirova Gülbəniz,**
**dosent**
**Məmmədli Nuranə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**gadirova@gmail.com**

## Kimyanin tədrisində qiymətləndirmənin təlim prosesində rolu

Müəllimin tədris işində əldə edə biləcəyi uğurların əsasını təşkil edən amillərdən biri də onun qiymətləndirmə mexanizmlərini hansı səviyyədə fəaliyyət boyu tətbiq etmə bacarığıdır. Qiymətləndirmə amili şagirdin fəaliyyətinin izlənilməsinə, onun təlim prosesindəki rolunun və davranışının qiymətləndirilməsi prosesinə nəzarət etməyə imkan verir. Hər bir fəaliyyətin sonunda ona veriləcək dəyər dayanır. Deməli qiymətləndirmədən kənarda heç bir şüurlu fəaliyyət yoxdur. Bu çox geniş müzakirə tələb edən bir ideyadır.

Qiymətləndirmə mexanizmləri dedikdə ilk öncə fənn müəlliminin hazırlıq səviyyəsi, şagirdlərin intellektual və təlim-təhsilə münasibətləri, dərsdə istifadə olunan təlim vasitələrinin bölgusünü əks etdirən informasiyalar, işin icra üsulları başa düşülməlidir.

Fəal-interaktiv təlimdə şagird nailiyyətlərinin qiymətləndirmə meyarları sırasına şagirdin şəxsi keyfiyyətləri əlavə olunur. Şəxsi keyfiyyətlərə-biliklərə yiyələnmək həvəsi, sosial, yaradıcı və mənəvi keyfiyyətlər və s. daxildir. Təbii ki, qeyd olunan amillərin bir başa qiymətləndirilməsi mövcud deyil. Fəal/interaktiv təlimdə bu istiqamətdə müəyyən irəliləyişlər vardır.

Məktəb daxili qiymətləndirmənin üç forması: diaqnostik, formativ və summativ qymətləndirmə kimi qeyd edilir .

Belə formada həyata keçirilən qiymətləndirmə nəticələrindən tədrisin keyfiyyətinin dəyərləndirilməsi zamanı istifadə olunur. Qiymətləndirmənin həyata keçirilməsi zamanı qiymətləndirməyə aid standartların tələbləri rəhbər tutulmalıdir.

Qiymətləndirməni həyata keçirən müəllim etibarlılığının təmin olunması, qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq, təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması kimi prinsiplərə diqqət verməli və əməl etməlidir Qiymətləndirmədə xüsusi rolu və fuksiyası olan vasitələrdən biri də portfolio adlanan vasitədir. "Portfolio" sistemi-şagirdin təlim fəaliyyətinə aid uğurlar və problemlər təhlil edilərək onun fərdi inkişafı proqramının tərtib edilməsi kimi başa düşülməlidir.

Ədəbiyyatlarda portfolio şagirdlərin fərdi təlim nailiyyətlərinin sənədləşdirilmiş toplusu kimi gostərilir və onun funksiyaları aşağıdakılardır: diaqnostik–müəyyən edilmiş müddət ərzində dəyişiklikləri və inkişaf həddini yoxlayır; məqsədə müvafiq–təlim məqsədlərini təmin edir; təqdimat–görülən işlərin məzmununu açıqlayır; inkişafetdirici–ildən-ilə təlimin davamlılığını təmin edir; reytinqli – bilik və bacarıqların əhatə dairəsini göstərir.

Qiymətləndirmə düzgün təşkil edildikdə onun şagirdlərin psixoloji durumuna müsbət təsiri öz bəhrəsini verir. Şagirdlərdə özünə inam, kollektivçilik, ədalətlilik, sərbəst düşünmək və bacarıqlarının formalaşdırılması hissi formalaşır. Müəllimin əsas vəzifəsi şagirdlərdə fənnə maraq yaratmaqla, onlarda öyrənməyə mənəvi ehtiyacı formalaşdırmaqdır.

Dəyərli alimlərimiz F.İbrahimov və R.Hüseynzadənin fikirlərinə istinad edərək ümumtəhsil məktəblərinin təlim təcrübəsində əsasən aşağıdakı qiymətləndirmə motivləri: ilkin səviyyənin qiymətləndirilməsi; irəliləyişlərin monitorinqi; yekun qiymətləndirmə istifadə olunduğunu deyə bilərik. Sagirdlərin baza biliklərinin nəyə qabil olduğunu müəyyənləşdirmək üçün istifadə olunan ilkin səviyyənin öyrənilməsi müəllimə gələcək dərsi necə qurmağa kömək edir. Müəllim şagirdləri yora biləcək təkrarlarla vaxt itirmir, əksinə onları cəlb edəcək yeni məlumatlar verməklə dərsini təşkil edir.

Şagirdlərin irəliləyişinin monitorinqi (formativ qiymətləndirmə) vasitəsi ilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya şagirdin daha da irəliləməsi üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir. Qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə) sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir.

Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə kömək göstərir. Bu mənada şagirdlərin faktiki fəaliyyətinin nəticələri müəllim üçün real indikatora çevrilir

Deməli, müəllim öz şəxsi təşəbbüsü ilə mütəmadi olaraq monitorinqlərin aparılmasını təşkil edir və müxtəlif üsul və iş metodlardan istifadə etməklə qiymətləndirməni həyata keçirir. Yekun (summativ) qiymətləndirmə standart və ya standartlar qrupunda müəyyən olunmuş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını müəyyən edir. Yekun (summativ) qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada keçirilir. Yekun (summativ) qiymətləndirmənin mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

Qiymətləndirmə standartı vasitəsilə qiymətləndirmə standartlarının hazırlanması aşağıdakı ardıcıllıqla aparılır: təlim məqsədi təyin edilir, şagirdlərin nəyi bilməsi və bacarması barədə mülahizələr dəqiqləşdirilir; qiymətləndirmə məqsədi seçilir; hansı növ qiymətləndirmə sxemlərindən istifadə edilməsi barədə qərar verilir; qiymətləndirmənin aspektləri, yaxud əsas sahələri müəyyənləşdirilir və təsvir edilir; müxtəlif nailiyyət səviyyələri keyfiyyət baxımından müəyyənləşdirilir və təsvir edilir; nailiyyət səviyyələrinin qiymətləndirmə ballarına görə sayı dəqiqləşdirilir. Yarım ilin sonunda və dərs ilinin yekununda şagirdlərin təlim nailiyyətləri qiymətləndirilərkən, yəni onların təlim fəaliyyətlərinin yekununa bal verilərkən şagirdlərin bilik və bacarıqlarının keyfiyyət və kəmiyyət səviyyəsinə, qiymətləndirmə standartlarına əsaslanır. Bu standartların üç səviyyəsi olur: minimum , qənaətbəxş, yüksək.

Müəllimin öz dinləyicilərində idrakı fəaliyyəti formalaşdırmaq məqsədi ilə məntiqə əsaslanan, məqsədəyönlü, inkişafetdirici təlimin tələblərinə cavab verən və onlarda yaradıcılıq bacarıqlarını formalaşdıran xüsusi tapşırıqlardan istifadə edir. Unutmamalıyıq ki, bu tapşırıqlar qiymətləndirmə standartlarının tələbləri çərçivəsində olmalıdır.

Fikirlərimizi yekunlaşdıraraq qiymətləndirmədə aşağıda göstərilənlərin praktik mahiyyətə malik olduğundan diqqət mərkəzində saxlanılmasını tövsiyə edirik: qiymətləndirmə təlim prosesində komponent funksiyası daşımalıdır; qiymətin funskiyası şagirdin öyrənmə səviyyəsini üzə çıxarmaqla məhdudlaşmamalı, o, öyrənməni, müsbət motivasiyanı stimullaşdırmalıdır; qiymətləndirmə şagirdin fəaliyyətində özünə yer almalıdır, bu təcrübəyə şagird yiyələnməlidir. Şagirdlərin öyrənmə səviyyəsini yoxlamaq üçün testlər sistematik tətbiq olunmalıdır. Bu məqsədlə hazırlanan tapşırıq testlərində tövsiyə edilən ardıcıllıq belədir: testlərin həll edilməsi çox vaxt aparmamalıdır; verilən suallar (dərs zamanı) qapalı suallar olmalıdır; sualların cavabı geniş riyazi hesablamalar tələb etməməlidir; sullar nəzəri biliyin tətbiqinə geniş imkan verməlidir; sualların tərtibində proqram ardıcıllığı və məntiqi yanaşma gözlənilməlidir.

Öncə qeyd olunan amillərin nəzərə alınması və fəaliyyət boyu gözlənilməsi müəllimin verdiyi qiymətin şəffaf və real olmasını dəyərləndirir, şagirdlərin sosial-psixoloji durumunun formalaşmasına zəmin yaradır.

**Qədirova Gülbəniz,**
**dosent**
**Hüseynzadə Cəmalə,**
**magistr**
**Lənkəran Dövlət Univeristeti**
**gadirova@gmail.com**

## Orta məktəblərdə sagird fəaliyyətinin fəallaşdirılması üsulları

Kimya kursunun tədrisində, orta məktəblərdə şagirdlərin fəallaşdırılması imkanlarını araşdırmaq, müxtəlif üsul və vasitələrlə istifadə etməklə bunu həyata keçirilməsi üçün aşağıdakı məsələlərin həll edilməsi nəzərdə tutulmuşdur:

1. Kimya dərslərində şagirdlərin fəallaşmasına imkan verən təlim üsullarına aid ədəbiyyat materiallarının araşdırılması və onların xülasəsinin verilməsi;
2. Kimya dərslərində təlim üsullarında hansılarının tətbiqinin daha səmərəli nəticə verəcəyini aydınlaşdırmaq;
3. Fəal təlimüsullarından istifadə etməklə kimyadan bir neçə mövzüya aid dərslərin elektron variantlarının hazırlanması;
4. Lənkəran şəhərinin bir məktəbində iki tədris ili müddətində kimyadan fənn müəllimlərinin dərslərində iştirak etmək, şagirdlərin fəaliyyətini izləmək, fəal təlim üsulları ilə dərs keçmək, paralel siniflərdə şagirdlərin bilik keyfiyyətinin müqayisə edilməsi üçün eksperiment aparmaq.

Birinci məsələdə bele demek olar ki, şagirdlərin gələcək peşələrdə, fəaliyyətində, şəxsi və ictimai həyatda məqsədlərinə çatmaqda kamil insan kimi formalaşmasında kömək edən zəruri öyrənmədir.

Fəal öyrənmə eyni zamanda idraki xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışı, kəşf xarakterli öyrənməni əhatə edən çox saylı məqsədləri yerinə yetirməyə imkan verir, öyrənmədə faydalı bir posesdir.

Müasir dövürdə öyrənmənin təkrarlama və yaddaşa əsaslanan forması əvəzinə, təhlil, ümumi-ləşdirmə və qiymətləndirməyə əsaslanan öyrənmə formaları həlledici əhəmiyyət kəsb edir. Müasir təhsillə bağlı aparlıan araşdırmalarda konstruktiv öyrənmə model əsasında təlim prosesində fəal şagird, sosial şagird və yaradıcı şagird kimi üç fərqli rol müəyyənləşdirilmişdir.

Fəal şagirdlərdə bilik fəal formada mənimsənilir və dərk edilir, şagird mexaniki dinləmək və öyrənmək, şablon xarakterli tapşırıqlar üzərində işləmək əvəzinə, özləri üçün həyati əhəmiyyət kəsb edən problemləri fəal şəkildə müzakirə edir, fərziyyələr irəli sürür, diskusiyaya girir, onları əsaslandırmağa səy göstərir və nəticədə problemi öz intelektual imkanına uyğun həll edir. Sosial şagirdlərdə bilik və dərk etmə sosial cəhətdən şərtləndirilir, bilik və mənimsəmə yüksək səviyyəli sosial kimi qiymətləndirilir və biliklər fərdi qaydada deyil, başqaları ilə qarşılıqlı münasibətlər əsasinda, obyektiv reallığı şərtləndirən ciddi sosial proseslər əasaında qazanılır.

Yaradıcı şagirdlərdə bilik və dərketmə prosesi yaradıcı münasibət əsasında formalaşır və ya yenidən yaradılır ki, şagirdlər özləri biliyi qazanmaq və ya kəşf etmək ehtiyacı hiss edir, elmi nəzəriyyələrə, sosial və iqtisadi ziddiyətlərə münasibətdə yaradıcı yanaşmalar əsasında yeni qabiliyyətlər, bacarıqlar və vərdişlər qazanırlar.

**Şahqubadbəyli Ənvər,**
**baş müəllim**
**Əliyeva Könül,**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**anvar@mail.az**,
**k.aliyyeva@mail.ru**

## Müasir informasiya texnologiyalarının elmdə və təhsildə rolu

Məlumdur ki, elmi-tədqiqat və ali təhsil müəssisələrinin innovativ inkişafını informasiya və telekommunikasiya sistemlərinin imkanlarından istifadə etmədən, müəssisələrin informatlaşdırması üzrə müvafiq infrastrukturun yaradılmasına və daimi təkmilləşdirilməsinə nail olmadan mümkün deyildir.

Hazırda İKT-nin özünün yaranması və inkişafı proseslərini müasir elmi-tədqiqat müəssisələrində və ali məktəblərdə aparılan tədqiqatlardan kənarda təsəvvür etmək mümkün deyildir. Bu baxımdan İKT həm elm, həm də təhsil sahəsinin vacib atributlarından biridir və bu sahələr üzrə işin normal, effektli təşkili İKT-nin səmərəli tətbiqindən birbaşa aslıdır. Bundan

başqa, İKT vəsitələri tətbiq sahəsində proseslərin sürətləndirilməsi və sadələşdirilməsi, eləcə də etibarlılığın yüksəldilməsi, həll olunan məsələnin dəqiqliyinin və keyfiyyətinin artırılması, yaxın vaxtlara qədər bəzi həlli mümkünsüz görünən problemlərin aradan qaldırılması, layihələndirmə işlərinin müddətinin, çətinliyinin və elmi tədqiqatlara şəkilən xərclərin dəfələrlə azalmasına səbəb ola biləcək güclü vasitələrdir.

Müasir dövrdə nəhəng regional elmi layihələrin işlənməsi və tədqiqi məqsədi ilə özündə bir neçə çox prosessorlu super kompyuterləri birləşdirən lokal, qlobal və korporativ şəbəkələrin imkanlarından istifadə ənənəvi tədqiqat metodları ilə müqayisədə fantastik nəticələrin alınmasına şərait yaradır.

Elmi tədqiqat məsələlərinin həlli baxımından yanaşdıqda kompüter texnologiyalarının tətbiq istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- Elmi-texniki informasiyanın toplanması və emalı;
- Ekperiment aparılacaq qurğular və avadanlıqların seçilməsi;
- Nəzəri (riyazi hesablamaların, obyektlərin və proseslərin modelləşdirilməsi) və eksperimental tədqiqatlar (quraşdırılma proseslərinin idarəolunması, verilənlərin kompüterlərə daxil edilməsi, siqnalların emalı və s.);
- Nəticələrin ümumiləşdirilməsi, qiymətləndirilməsi, hazırlanması və təqdimatı.

İKT vasitələri məntiqi, funksional və struktur modelləşdirmənin həyata keçirilməsi məqsədi ilə də geniş tətbiq olunur. Bu məqsədlə daha çox MS Excell, QuatroPro, MatCad və funksional yönlü proqramlaşdırma vasitələrindən geniş istifadə olunur. İKT vasitələrindən istifadə etməklə tədqiqatçı unikal kibernetik proseslərin idarə olunmasında yaxşı imkanlar əldə edə bilir.

Elmi sənədlərdə mürəkkəb qrafik illüstrasiyaların hazırlanması məqsədi ilə CorelDraw, həndəsi modelləşdirmələrin aparılması məqsədi ilə AutoCAD, optik oxuma və kodlaşdırma-əkskodlaşdırma proseslərinin idarə olunması məqsədi ilə FineReader və s. sistemlərin köməyindən istifadə etmək olar.

Nəzəri məsələlərin tədqiqi məqsədi ilə geniş istifadə olunan proqram təminatı aşağıdakı kimi təsnif oluna bilər:

- ədədi analizlər üçün proqramlar kitabxanası;
- riyazi hesablamaların aparılması, qrafik manipulyasiyalar və hesabatların hazırlanması üçün proqram vasitələri;
- cədvəl formasında verilmiş informasiya üzərində müxtəlif əməliyyatların aparılması üçün elektron cədvəl prosessorları;
- Süni intellekt elementlərini özündə saxlayan vasitələr;
- Avtomatlaşdırılmış tərcümə proqramları (məsələn, Promt);
- Qərarların qəbul olunması üçün müxtəlif təyinatlı expert sistemləri və s.

Ali təhsil sisteminin informatlaşdırılması – yüksək səviyyəli mütəxəss hazırlığına xidmət etməklə yanaşı, həm də təhsil xidmətləri bazarında universitetin özünün rəqabətə davamlılığının qarantına çevrilə bilər.

İKT-nin təhsilə tətbiqinin ənənəvi təhsilə nəzərən aşağıdakı əsas üstünlükləri qeyd edilməlidir:

- İKT-nin tədrisə tətbiqi rəngli statik və dinamik illyustrasiyalardan və multimediya sistemlərindən istifadə etməyə imkan yaradır;
- Tələbələrin təhsilə motivasiyasını kəskin yüksəldir;
- Tələbələrin potensial imkanlarının tezliklə açıqlanmasına, onların əqli fəaliyyətinin daha da aktivləşməsinə, dünya görüşünün genişlənməsinə və s. kömək edir.
- İKT vasitələrindən istifadə zamanı öyrənən apardığı hər hansı elmi araşdırmadan, təcrübədən və ya məsələ həllindən alınan nəticələrin analizi və tədqiqi üçün gözəl imkanlar əldə edir.
- İKT vasitələrinin imkanlarında istifadə etməklə audio-video konfranslar təşkil etmək və beləliklə dünya təhsil sisteminə inteqrasiya proseslərinin sürətlənməsinə nail olmaq.

**Salayev Samir,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**sinaq2016@gmail.com**

## Lənkəran vilayəti aqrolandşaftlarının tarazlı inkişafının idarə edilməsi məsələləri

Lənkəran vilayəti arqolandşaftlarının düzgün və planlı idarə edilməsi regionun təsərrüfat sahələrinin ixtisaslaşmasında böyük rol oynayır. Çoxsahəli təsərrüfat funksiyalarını yerinə yetirən antropogenləşmiş, kəskin transformasiya olunmuş müasir aqrolandşaftların tarazlı inkişafının tənzimlənməsi də onların düzgün idarə edilməsindən aslıdır.

Landşaftların idarə edilməsinin elmi əsaslarına ilk növbədə landşaftların tipoloji-morfoloji, struktur-genetik, struktur-funksional və regional xüsusiyyətlərin nəzərə alınması aiddir. Bu baxımdan Lənkəran ovalığının Viləşçay, Lənkərançay, Bolqarçay, Təngərudçay, Xanbulançay, Astaraçay və s. çaylarının gətirmə konuslarının, konusarası çökəkliklərin, allüvial, allüvial-dəniz düzənliklərinin, yastı, batıq, dalğalı, təpəli, tirəli, meyilli, qabarıq və s. relyef formalarında yaranan düzən meşə, meşə-kolluq, hirkan tipli meşə, çəmən-çala, çəmən-çala-bataqlıq və s. təbii landşaftların çoxsaylı antropogen mənşəli təkrar-törəmə variantlarında kənd təsərrüfatı sahələrinin müxtəlifliyindən aslı olaraq, fərqli nəzarət sistemi və idarə etmə formaları yaranmışdır.

Landşaftın idarə etmə sistemi çox mərhələlidir. Öncədən təsərrüfat və müəssisə sahibi mənimsədiyi və isdifadə etdiyi landşaftın morfometrik parametrlərinin qiymətləndirilməsi, ekogeomorfoloji gərginlik, ekzodinamik proseslərin düzgün uçotu risq və təhlükələrin qiymətləndirilməsi ilə bağlı düzgün hesablanmış informasiyalarla məlumatladırılmalıdır.

Landşaftın idarə edilməsinin ən mühüm şərtlərindən biri də antropogen yüklərin düzgün uçota alınması və hər bir landşaft tipi, növü üçün müvafiq yüklənmə həddinin müəyyən edilməsidir. Lənkəran ovalığında və onu əhatə edən alçaq dağlıqda əhalinin sıxlığı ümumi respublika göstəricisindən xeyli çoxdur (120-130 nəfər/ $km^2$ ). Buna müvafiq olaraq, təbii landşaftların antropogenləşmə əmsalı da çox yüksəkdir (0.8-dən çox, bəzi yerlərdə 1-ə yaxındır) . Belə bir şəraitdə landşaftların sistemli öyrənilməsi , hər bir landşaft tipində antropogen yüklənmənin norma və orta hədlərinin müəyyənləşdirilməsi olduqca vacibdir.

Landşaftların idarə edilməsi və eyni zamanda antropogen yüklərin optimallaşdırılması prosesi landşaftların potensialından, yüklənmə dərəcəsindən, gözlənilən ekoloji təhlükə və risklərin törədəcəyi ekoloji fəsadlardan asılı olaraq 4 və 5 mərhələli ola bilər.

Tədqiqatın birinci mərhələsində Lənkəran ovalığının akkumlyativ düzənliklərinin meşə-çəmən, meşə-kolluq, təkrar-törəmə çöl, meşə-çöl komplekslərinin müxtəlif madifikasiyalarında landşaftın ekoloji vəziyyəti, dayanıqlığı qiymətləndirilir. Bu mərhələdə irəli sürülən əməli təkliflərlə həm təbii, həm də antropogen landşaft vahidlərinin potensialı, effektivliyi, dayanaqlığı, stabillik dərəcəsi müəyyənləşdirilir.

Lanşaftın idarəedilməsinin ikinci mərhələsi landşaftın təbii potensialının dəqiqləşdirilməsi əsasında ekoloji gərginlik yarada bilən risk və təhlükə proseslərinin öncədən planlaşdırılmasıdır. Bunların içərisində erroziya, sürüşmə, Cəlilabad və Masallı ərazilərdə səhralaşma riski xüsusi ilə qeyd edilməlidir. Qeyd edilən təhlükəli proseslərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin hazırlanması zəruridir.

İdarəetmənin üçüncü mərhələsində landşaftlarda baş verə biləcək ekoloji risk, təhlükə və gərginliyi artıra bilən proseslərə qarşı hazırlanmış tədbirlərin yerinə yetirilməsinə müntəzəm nəzarət edilməsidir.

İdarəetmənin sonuncu mərhələsi daha vacibdir. Bu mərhələdə hazırlanmış, təkliflər iş adamları, müəssə, təsərrüfat rəhbərlərinə hər tərəfli izah edilir, konflekt törədən situasiyalar həll edilir, təsərrüfat işlərinə nəzarət artırılır. Əhalinin maarifləndirilməsi landşaftın düzgün və səmərəli idarə edilməsini daha da asanlaşdırılır.

İdarəetmə ilə bağlı həyata keçirilməsi zəruri olan tədbirlərə aşağıdakıları aid etmək olar:

- olvalığın aqroirriqasiya landşaftlarında suvarma qaydalarına və rejiminə ciddi əməl edilməsi, suvarma sistemlərinin təmizlənməsi, bərpası, çiləmə və aerozol suvarma üsullarına daha geniş yer verilməsi :
- seliteb komplekslərin eninə və xətti şəkildə artmasını məhdudlaşdırmaq , yararlı torpaq sahələrində, baş plantasiyalarda yaşayış məntəqələrinin tikilməsini məhtutlaşdırmaq :
- su ilə təminatı yaxşılaşdırmaq, su anbarlarının tikilməsi, kanalların çəkilməsi, yeraltı sulardan istifadə edilməsi səmərəliyinin yüksəldilməsi :
- şorlaşma ehtimalı olan dəniz sahili rayonlarda ( xüsusilə "iştillərdə" ) qrunt sularının səviyyəsini tənzimləmək üçün drenaj-kollektor sistemlərinin çəkilməsi :
- sahəvi və xətti eroziyaya qarşı mübarizə tədbirlərinin hazırlanması, düzgün şumlama, fitomeliorativ tədbirlərin həyata keçirilməsi, yerli iqlim şəraitinə uyğun ağac və kolların, meyvə bağlarının salınması
- mühəndisi işlərin, xüsusi ilə yol, kəmər, hidrotexniki qurğular, tikintilərin yerinə yetirilməsində landşaft- ekolji şəraitin, risk və təhlükələrin nəzərə alınması vacibdir.
- ovalıqda və dağətəyi, alçaqdağlıqda yarğan-qobu eroziyasına qarşı mübarizə tədbirlərinin hazırlanması, inkişafda olan yarğanların qarşısını almaq üçün torpaq-bərkitmə işlərinin aparılması
- antropogen yüklərin optimallaşdırılması üçün əhalinin region üzrə bərabər yerləşdirilməsinə nail olunmalıdır. Bu məqsədlərə nail olmaq üçün regional siyasətin həyata keçirilməsi ilə zəif məskunlaşmış rayonlarda yeni iş yerlərinin yaradılması ilə əhalinin həmin regionlara cəlb edilməsinə çalışmaq lazımdır.

**Şəmmədov Ramiz,**
**dosent**
**Abdullayeva Sədaqət,**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**sedaqetabdullayeva2@mail.ru**

## Biologiya dərslərində innovativ tədris metodlarının tətbiqi –STEM

Əgər həyatımızın son 10-15 ilinə nəzər yetirsək yeni qurğuların, texnologiyaların şahidiyik və demək olarki, həyatımızın və peşələrin hər gün dəyişdiyi bir dövürdə yaşayırıq.Əgər biz inkişaf etmiş bir cəmiyyətdə yaşamaq istəyiriksə, bu inkişafa uyğunlaşmalı, istehlakçı yox istehsalçı bir cəmiyyət qurmalıyıq.Bu cəmiyyəti quran vətəndaş hazırlığına nail olmaq üçün biz təhsilimizə nəzər yetirməliyik. Beynəlxalq səviyyədə BMT tərəfindən XXI əsr "Təhsil əsri " elan edilib. " XXI əsr bacarıqları" deyilən bacarıqları özündə əks etdirən yaradıcı, innovativ, problem həll edən əməkdaşlıq bacarıqları yüksək olan şagird hazırlığı cəmiyyətin ən vacib məsələsinə çevrilib.İnkişaf etmiş ölkələri təcrübəsi göstərir ki,İKT-yə əsaslanan , yaradıcı düşüncəni inkişaf etdirən, təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan fəal interaktiv təlim metodlari daha yüksək nəticə verir.Müasir dövürdə 4K bacarıqlarına malik XXI əsr vətəndaşını hazırlamaq üçün müxtəlif metod və yanaşmalar vardır. Bu yanaşma və metodlardan biridə STEM-dir.

STEM termini Science(Təbiət elmləri) Texnology(Texnologiya) Engineering(Mühəndislik) və Math(Riyaziyyat) sözlərinin ilk hərflərindən götürülüb.Layihə əsaslı öyrənmə fəaliyyətinə əsaslanan STEM tədris yanaşması ayrı –ayrı fənlərin ayrılıqda deyil, birlikdə inteqrasiya olunmuş sistemli tədrisini təklif edir.Hal-hazırda bu metod ABŞ, İngiltərə,Almaniya,Finlandiya Koreya kimi inkişaf etmiş olkələrdə ən qabaqcıl təhsil yanaşması kimi tətbiq edilir. STEM –təlim texnologiyası təhsilalanlarda 4K bacarıqlarını inkişaf etdirir: kreativlik- yaradıcı fəaliyyət, kritik düşünmə-tənqidi təfəkkür,kollobrasiya-əməkdaşlıq, kommunikasiya-əlaqə.

Bu innovativ metodun Biologiya dərslərində tətbiqi dərslərin daha maraqlı və innovativ və gələcək peşəyönümlü olmasına zəmin yaradır.Öyrənilən biliklərin yaradıcı fəaliyyətə çevrilməsi təcrübə apararaq , modellər hazırlayaraq, yaşararaq öyrənmə, tətbiqetmə STEM-in əsas yanaşmasıdır.Bizlər şagirdlərimizi ,tələbələrimizin araşdırma və öyrənmə tətbiqetmə marağını, sualvermə istəyini və xəyal qurma arzusunu canlı tutmalıyıq.

**Şəmmədov Ramiz,**
**dosent**
**Bağırova Aygün,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**bagirova.aygun20@gmail.com**

## Orta ümumtəhsil məktəblərinin X sinifində biologiyanın tədrisində interaktiv təlim metodundan istifadə

Biologiya təbiətdə baş verən prosesləri öyrənməklə bərabər, təbiət və cəmiyyət münasibətlərində yaranan bir çox məsələləri öyrənən elm sahəsidir. Həyat haqqında elm olan biologiyanın orta ümumtəhsil məktəblərində şagirdlərə öyrədilməsinin, onların həyatı dərk etməsində və bir şəxsiyyət kimi formalaşmasında böyük əhəmiyyəti vardır. Ona görə də orta ümumtəhsil məktəblərində biologiyanın tədrisi xüsusi bir maraq doğurur və daim yeni texnologiyaların tətbiqi ilə həyata keçirilir. Biologiyanın tədrisi zamanı yeni texnologiyaların, yəni interaktiv təlim texnologiyalarının tətbiqi şagirdlərdə idrakı fəaliyyətin, praktik bilik və bacarıqların daha çox inkişaf etdirilməsinə kömək edir. Şagirdlərdə müstəqil düşünmə, müstəqil yanaşma, yaradıcı işləmək, qrup halında işləmək kimi keyfiyyətlərin inkişaf etməsinə gətirib çıxarır. Bildiyimiz kimi interaktiv təlim şagirdlərin təfəkkürünü hər hansı bir problem üçün fəallaşdırmaq və düşünməyə sövq etməkdən ibarətdir. Interaktiv təlim metodlarından istifadə müəllimin qarşısına yüksək tələblər qoyur. Ona görə ki, bu metodların tədbiqi zamanı müəllim bütün qərarları özü qəbul edir. Müəyyən məsələlər şagirdlərin mühakiməsinə buraxılır. Məhz bu yolla əldə edilən bilik şagirdlərin yaddaşında uzun müddət qalır və onlara həmin bilikləri tətbiq etmək bacarığı aşılanır. Lakin, bu metodların tədbiqi zamanı müəllim mütəmadi olaraq məzmun xətlərinin yenilənməsini və metodlardan doğru istifadə etməyi bilməli və bacarmalıdır.

İnteraktiv təlim metodlarının tətdiqi zamanı problemli situasiyanı yaradılması, yəni motivasiyanın yaradılması zəruri mərhələdir. Fəal dərsdə şagirdlər tədqiqatçı, müəllim isə fasillator olduğunu nəzərə alaraq tədqiqatın aparılması, cütlərlə iş, qruplarla iş kimi formalardan istifadə edilməsi daha səmərəli olardı.

Interaktivtəlim metodlarından istifadə edərkən onun şagirdyönümlü olmasına və fəndaxili, fənlərarası inteqrasiyaya xüsusi fikir verməк lazımdır. Aparılan araşdırmalar göstərir ki, X sinifdə Biologiyanın “Sağlam həyat”, “Epidomiologiya” bölmələrinin, XI sinifdə “Mikrobiologiya”, “Biotexnologiya və bionika” bölmələrinin interaktiv üsulla tədris edilməsi şagirdlərin bu bölmələrə aid mövzuları daha yaxşı mənimsəməsinə gətirib çıxaracaqdır.

Biologiya fənnindən X sinifdə "Maddələr mübadiləsi" mövzusunun tədris edərkən inteqrasiyalı motivasiya yaratmağa üstünlük verilməs yaxşı olardı. Mən müəllim kimi bunu aşağıdakı kimi edirəm:

Əvvəlcə müxtəlif canlıların şəkillərini şagirdlərə verirəm və aşağıdakı sualı verirəm

1. Şəkildə gördüyünüz canlılar necə qidalanırlar?

Bu zaman rəngli şəkillərin verməklə biologiya ilə təsviri incəsənəti inteqrasiyasına nail olunur.

2. Müxtəlif canlılarda su ilə qidalanması necə getməsi, məsələn bitkilərdə və heyvanlarda bu prosesin necə getməsi və ya canlılar ətraf mühitdən hansı maddəni alırlar, hansı maddəni verirlər sualını verirəm.

Bu zaman məsələlərin izahı kimyəvi reaksiyalara və fizikanın termodinamika bəhsinin qanunların gətirib çıxarır. Orqanizmdə gedən kimyəvi reaksiyalarda enerji necə istifadə olunur. Klaster üsulunun tədbiqi ilə aparılan bu üsullarda həm fizika, həm də kimya ilə inteqrasiya yaradılır.

Beləliklə, müasir interaktiv təlimin mərhələlərdən biri olan motivasiyanın düzgün qurulması vacib məsələdir. Dərsin əvvəlcədən düzgün planlaşdırılması sonda müsbət nəticələrə nail olmağa gətirib çıxarır. Dərsin düzgün motivasiya ilə qurulması və şagirdlər arasında sağlam rəqabət şəklində mübarizə aparması davamlı inkişafa zəmin yaradır.

**Şəmmədov Ramiz,**
**dosent**
**Bayramzadə Nərgiz,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**bayramzadan@gmail.com**

## "Biologiyanin tədrisində yerli floranın nadir növlərinin öyrənilməsinin əhəmiyyəti"

Azərbaycan Respublikasının ərazisi zəngin floraya malikdir. Burada 4500-dən çox ali sporlu və çiçəkli bitki növünə rast gəlinir. Azərbaycan florası növlərinin ümumi sayına görə Cənubi Qafqazın başqa respublikalarına nisbətən xeyli zəngindir. Respublikada rast gəlinən bitki növləri Qafqazda bitən bitki növlərinin ümumi miqdarının 66%-ni təşkil edir.

Azərbaycan Respublikası III dövrə aid olan relikt cinslərlə də zəngindir ki, bunların da nümayəndələrinə bütün zonalarda xüsusilə Talış zonası ərazisində daha çox rast gəlinir. Bunlardan Parrotia persica – Dəmir ağacı, Ruscus hircanus – Hirkan bigəvəri, Albizia julibrissin – İpək akasiyası, Quercus castaneifolia – Şabalıdyarpaq palıd və s. növləri misal göstərmək olar. Eyni zamanda respublikamızda 240-a qədər endemik bitki növü də vardır.

Talış dağlarının Hirkan meşələri nəzərə çarpacaq dərəcədə isti və rütubətli yerli iqlimdən yararlanır.

Azərbaycanın cənub florasının nadir, eləcə də endemik və relikt növlərinin öyrənilməsi və öyrədilməsi biomüxtəlifliyin qorunub saxlanılmasında önəmli addımdır. Təbiətin mühafizəsinin təşkili eyni zamanda gələcək nəsillərin sağlamlığının qorunması üçün böyük önəm kəsb edir.

Uzun illərin sınağından keçmiş bu bitki növlərinin öyrənilməsi olduqca vacib və əhəmiyyətlidir. Müasir zamanda biomüxtəlifliyin qorunması və zənginləşdirilməsi üçün dövlət proqramlarından daha çox, insanların münasibəti əsas rol oyanyır. Ona görə ki, insanların təbiətə vurduğu zərər birbaşa biomüxtəlıifliyin məhv edilməsində önəmli rol oynayır. Şagirdlərdə hələ kiçik yaşlarından təbiətə münasibəti düzgün formalaşdırmalı və onlar təbiəti sevən ruhda böyüməlidirlər. Onlara respublikanın fərqləndirici təbiət abidələrinin öyrədilməsi olduqca vacibdir və yüksək təsirə malikdir.

Tədrisin təşkilinə qoyulan yeni tələblər fəal təlim metodlarının və iş metodlarının seçimi, elektron dərsliklərdən və internet resurslarından məqsədyönlü istifadə, təqdimatların, layihələrin hazırlanması, dərsdənkənar məşqələlərin işlənməsi fənn müəllimlərinin yerli floranın nadir növlərinin öyrədilməsinə imkan verir. Lakin, ətraf mühitin çirklənməsi dərəcəsinin öyrənilməsi, təbiətə antropogen təsirlərin günü-gündən artması bu biliklərin dövrün tələblərinə cavab vermədiyini göstərir.

Mövcud problemin öyrənilməsi və bu istiqamətdə optimal imkan və yolların axtarılması gələcək tədqiqatlarımızın əsas məqsədlərini təşkil edəcəkdir. Xüsusilə İKT imkanlarından səmərəli istifadə etməklə yerli floranın nadir növlərinə aid bitkilərin öyrənilməsi və sonda bioloji müxtəlifliyin mühafizə edilməsi təmin ediləcəkdir.

**Şəmmədov Ramiz,**
**dosent**
**Həmidova Suğra,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**sugra11s@yandex.com**

## Orta ümumtəhsil məktəblərində biologiyanın tədrisində ekoloji biliklərin öyrədilməsi imkanları

Müasir elmi ictimaiətin, həll etmək üçün çalışdığı problemlərdən biri də təbiətdə ekoloji tarazlığın qorunması və saxlanması problemidir. Ekoloji tarazlığın qorunması və orada olan balansın saxlanılması təbiətdə bütün canlıların mövcud olması üçün zəruri bir məsələdir. Hal-hazırda bioloji müxtəlifliyin və onlar arasında əlaqənin mühafizə edilməsi təbiətin özünün yaşaması üçün zəruridir. Aparılan elmi araşdırmalar göstərir ki, bioloji tarazlığın saxlanılması insanlardan bir başa asılıdır. Yəni yer üzərində tarazlığın pozulmasının əsas səbəbkarı insanların fəaliyyəti və təbiətə münasibətidir. Əgər insanlar təbiətə və onların nümayəndələrinə yanaşma tərzi düzgün olmazsa onda onların təbiətə müdaxiləsidə düzgün olmayacaq, sonda bu ekoloji tarazlığın pozulmasına gətirib çıxaracaqdır. Ekoliji tarazlığın pozulması insanların aldığı ekoloji biliklərdən birbaşa asılıdır. Əgər onlarda bu biliklər düzgün formalaşdırılarsa onda onların təbiətə münasibətidə düzgün formalaşacaqdır. Yekunda isə təbiət-cəmiyyət münasibətləri düzgün olacaqdır.

Aparılan araşdırmalar göstərir ki, kiçik yaşlarından başlayaraq orta ümumtəhsil məktəblərdə şagirdlərə ekoloji biliklərin verilməsinin gələcək təbiət-cəmiyyət münasibətlərinin düzgün formalaşmasinda və eləcədə böyüməkdə olan nəslin ekoloji tarazlığın qorunmasında yaxından iştirakını təmin etmək məqsədi ilə onlarıda bilik və bacarıqların formalaşdırılmasında böyük əhəmiyyəti vardır.

Məktəblilərin ekoloji biliklərin verilməsi zamanı diyarşünaslıq pirinsipinə əməl edilməsinin əhəmiyyəti böyükdür. Yəni, ekoloji vəziyyətləri, ekoloji problemlərin doğma diyarin nümunələri əsasında öyrədilməsi nəticənin daha əhəmiyyətli olmasına gətirib çıxardacaqdır. Bunun üçün təbiət güşələrinə ekuskursiyaların təşkil edilməsi və canlı təbiət abidələrinin bilavasitə yerində öyrənilməsi ekoloji biliklərin daha yaxşı qavranılmasına səbəb olacaqdır. Məsələn, ekoloji tarazlığı pozulmuş təbiət hissələrinin bilavasitə müqaysəli göstərilməsi həmin ekuskursiyaların maraqlı və canlı olmasına , həm də fərqin müqayisəli şəkildə şagirdlər tərəfindən dərk olunmasına köməklik edəcəkdir. Sonda şagirdlər gördüklərinin müqaysəli formada yazmaqla onların əlavə etdiklərini biliklərin yaddaşlarında möhkəmləşməsinə gətirib çıxardacaqdır.

Ekoloji biliklərin verilməsi zamanı digər təbiət elimlərinin inteqrasiyasını hökmən nəzərə almaq lazımdır. Xüsusilə coğrafiya, fizika, kimya fənnləri ilə inteqrasiya aparmaq ekoloji biliklərin verilməsi imkanlarını yüksəldəcəkdir.

Bunun üçün ekskursiyaların təşkil olunması ilə yanaşı tədqiqat zamanı suallar hazırlanmalı və bu suallar əsasında müxtəlif tədqiqat üsulları əsasında şagirdlərin müstəqil fəaliyyətinin təşkilinin səmərəliliyini öyrənməsi zəruridir. Xüsusilə aşağıdakı tipli sualların verilməsi daha effektli olardı.

1. Bioloji müxtəliflik nədir?
2. Bioloji müxtəlifliyin əhəmiyyəti nədir ?
3. Bioloji müxtəliflik nədən ibarətdir ?
4. Ətraf mühit və yaşayış mühiti nədir?
5. Ətraf mühitin rolu nədən ibarətdir ?
6. Ətraf mühitin çirklənməsi nə vaxt baş verir ?
7. Orqanizmlər arasında əks əlaqənin formalaşması nədir?
8. Respublikamizin coğrafi problemləri hansılardır?
9. Bölgəmizin ekoloji problemləri hansılardır?

Yuxarıdakı variantlar üzrə şifahi və yazılı sorğunun aparılması ilə müqayisə metodunu tətbiq etməklə, hər bir dərs prosesinin mövzularının məzmununa uyğun şagirdlər tərəfindən ekoloji biliklərə nə dərəcədə yiyələndiklərini aydınlaşdırılması mümkün olmuşdur. Bununlada biologiya fənn kurikulumu əsasında bu üsulun tətbiqi hər bir şagirdin təbiətə münasibətinin düzgün formalaşmasına və cəmiyyətə faydalı şəxs kimi formalaşmasına müsbət təsir göstərir.

**Şəmmədov Ramiz,**
**dosent**
**Abbasova Sevda,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**sevda_abbasova1993@list.ru**

## Biologiyanin dərslərində multimedia texnologiyalarının tətbiq imkanları

Respublikamızda təhsil sahəsində aparılan islahatlar orta ümumtəhsil məktəblərində istifadə olunan dərslikləri də əhatə etmişdir. Orta ümumtəhsil məktəblərində müxtəlif fənnlərin o cümlədən, biologiyanın proqramı və dərslikləri yenidən işlənərək müasir təhsil strategiyasına inteqrasiya edilmişdir. Lakin biologiyaya aid mövzuların müasir təlim üsulları ilə tədrisi daha çox əmək tələb etdiyindən, bir çox hallarda müəllimlər ənənəvi təlim üsullarindan istifadə edirlər. Ənənəvi təlim üsulları isə müəllim dərs prosesində dinləyicisinə verdiyi məlumatların çatdırılma səviyyəsində müəyyən nöqsanların yaranmasına gətirib çıxarır.

Elmi-metodiki ədəbiyyatların araşdırılmasından məlum olmuşdur ki, biologiya dərslərində verilən biliklərin daha yaxşı mənimsənilməsi və uzun müddət yadda qalması üçün multimedia texnologiyaları ilə müşayət olunan fəal təlim metodlarından istifadə olunması zəruridir. Eyni zamanda təhsil alanların yaş və psixoloji xüsusiyyətlərini nəzərə alsaq, dərslərdə əyaniliyin çox olması zəruridir. Yuxarıda qeyd edilənləri nəzərə alaraq, yerinə yetirilən işin əsas məqsədi 7-11-ci siniflərdə tədris olunan biologiya dərslərində multimedia texnologiyalarından əsasən də səs və təsvir formasında istifadə edilən zaman şagirdlərdə mənimsəmə səviyyəsini müəyyən etməkdən ibarətdir.

Bunun üçün Masallı rayon Q.İsmayilov adına Şərəfə kənd tam orta məktəbində və Masallı rayon Qəzvinoba kənd əsas məktəbində 7-11-ci siniflərdə oxuyan 110 şagird arasında "Biologiya dərslərində multimedia texnologiyalarından istifadə" mövzusunda sorğu aparılmışdır. Sorğunun əsas məqsədi biologiyanın tədrisində hansı texnologiya, forma və metodların təhsil alanlarda yeni materialın mənimsənilməsində, möhkəmləndirilməsində və yadda saxlanılmasında kömək etdiyini müəyyənləşdirməkdən ibarət olmuşdur. Sorğuda iştirak edənlərin demək olar ki, hamısı qeyd etmişlər ki, tədris üçün hazırlanan təqdimatlar, multimedia texnologiyalarından istifadə,

video filmlər, interaktiv şəkillər, animasiyalar və s. vasitəsi ilə keçirilən dərslərdə mənimsəmə daha sürətli, daha maraqlı və məcburiyyətsiz baş verir. Bu əldə edilən bilik və bacarıqların təhlili zamanı da təsdiqlənir. Bu gün multimedia texnologiyaları təhsil prosesinin informasiyalaşdırılmasının ən perspektiv istiqamətlərindən biridir. Multimedia texnologiyaları tədris prosesini zənginləşdirir, tədrisin daha effektiv olmasına imkan verir, tədris olunan informasiyanın əsasən cismani komponenti kimi qavranması prosesinə təsir edir.

Qarşıya qoyulan problemi tam araşdırmaq üçün 8-ci sinifdə tədris olunan Biologiya fənnindən, qan-damar sistemi bölməsində "Damarlarımızdakı qan və onun hərəkəti" mövzusu bir sinifdə multmedia texnologiyalarından istifadə etməklə, digər sinifdə isə bu texnologiyalar olmadan tədris olunmuşdur. Multmedia texnologiyaları tətbiq olunarkən əsasən səs və təsvirdən istifadə edilmişdir.

Mövzunun mənimsənilmə səviyyəsinin müqayisəsi zamanı multmedia texnologiyalarından istifadə olunmuş dərsin şagirdlər tərəfindən daha yaxşı mənimsənildiyi məlum olmuşdur. Multmedia texnologiyalarının tətbiqi müəllim və şagirdlər arasında daha sıx qarşılıqlı əlaqənin yaranmasına, öyrənənlərin əqli imkanlarını inkişaf etdirilməsinə, sonda təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

**Tağıyev Allarverdi,**
**dissertant**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**allahverdi.tagiyev@asoiu.edu.az**

## Qlobal iqlim dəyişmələrinin su ehtiyatlarına təsiri

Qlobal iqlim dəyişmələri hazırda dünyanın ən böyük problemlərindən hesab edilir. Belə ki, son illər planetimizdə iqlim dəyişikliyi özünü qabarıq göstərməyə başlamışdır. Qütblərdəki buzların peykdən çəkilmiş şəkillərinin əvvəlki illərlə müqayisəsinin təhlili onu göstərir ki, buzlaq sahələri son bir əsrdə nəzərə çarpacaq qədər azalmışdır.

Aparılan tədqiqatlar onu göstərir ki, Yerin orta temperaturunun son 100 ildə 0,6-0,8 $^{0}$C intervalında artması, əvvəlki yüzilliklərlə müqayisədə daha qabarıqdır. İqlim göstəricilərinin dəyişməsinin bu tendensiyası gələcəkdə planetimizdə böyük fəlakətlərə səbəb ola bilər. Məsələn, bir çox ölkələrdə daşqınların baş verməsi, okeanın səviyyəsinin qalxması, bəzi ölkələrdə quraqlığın uzun müddət davam etməsi, kənd təsərrüfatı sektorunun zəifləməsi və s. fəlakətlərin baş verməsi məhz iqlim dəyişmələrinin bu tendensiya ilə dəyişməsinin hesabına olacaqdır.

Qlobal iqlim dəyişməsi su mənbələrinin hidroloji rejiminin pozulmasına, əsasən su ehtiyatlarının kəmiyyət və keyfiyyətinin dəyişməsinə gətirib çıxaracaq. İqlimin dəyişməsi nəticəsində çayların aşağı hissələrində suyun minerallaşma dərəcəsinin kəskin artması qaçılmaz xarakter alacaq. Eyni aqibətin digər su mənbələrində baş verməsi hal-hazırda da müşahidə olunur.

İqlim Dəyişmələri üzrə Ümumdünya Şurasının 2007-ci ildə verdiyi məlumata görə, əgər dünyada orta temperatur bu tendensiya ilə qalxarsa, 2050-ci ilə 1 milyarddan çox insan içməli su qıtlığından əziyyət çəkə bilər.

Problemdən çıxış yolu kimi, su ehtiyyatlarından səmərəli istifadə etmək lazımdır. Çay sularından sonra istifadə sahəsinə görə yeraltı sular ikinci yeri tutur. Bu səbəbdən yeraltı sularının vahid idarə sistemi yaranmalıdır

Mövcud meteoroloji məlumatların təhlili göstərir ki, təbiət sürprizlərlə doludur, gözlənilmədən müxtəlif təbii hadisələr, o cümlədən şiddətli və davamlı quraqlıq baş verə bilər. Ona hazır olmaq üçün mövcud su ehtiyatlarının tədricən artırılması, suya qənaətedici, texnika və texnologiyaların yaradılması, yeni aqrotexniki tədbirlərin işlənilməsi vacib şərtlərdən biridir.

**Yaqub Qabil,**
**professor**
**İbrahimov Natiq,**
**professor**
**Fərzəliyeva Ülkər,**
**dissertant**
**ulker-salayeva@mail.ru**

## Xüsusi qradiyent hədli xətti kvazioptika tənliyi üçün ikinci başlanğıc-sərhəd məsələsi

Xüsusi qradiyent hədli xətti kvazioptika tənliyi üçün başlanğıc-sərhəd məsələsi nin həllini $\psi = \psi(x,t,z)$ funksiyası şəklində qəbul etsək:

$$i\frac{\partial\psi}{\partial t} + ia_0\frac{\partial\psi}{\partial z} - a_1\frac{\partial^2\psi}{\partial x^2} + ia_2(x)\frac{\partial\psi}{\partial x} + a(x)\psi + v_0(x,t,z)\psi + iv_1(x,t,z)\psi = f(x,t,z),$$

$$(x,t,z)\in\Omega \quad (1)$$

$$\psi(x,0,z) = \varphi_0(x,z),\ (x,z)\in\Omega_L \equiv (0,l)\times(0,L), \quad (2)$$

$$\psi(x,t,0) = \varphi_1(x,t),\ (x,t)\in\Omega_T \equiv (0,l)\times(0,T), \quad (3)$$

$$\frac{\partial\varphi(0,t,z)}{\partial x} = \frac{\partial\varphi(l,t,z)}{\partial x} = 0,\ (t,z)\in Q_{TL} = (0,T)\times(0,L) \quad (4)$$

Burada $i=\sqrt{-1}$ xəyali vahid, $l>0, T>0, L>0,\ a_0>0, a_1>0$ verilmiş ədədlərdir, $0\le x\le l,\ 0\le t\le T, 0\le z\le L,\ \Omega_{tz} = (0,l)\times(0,t)\times(0,z),\ \Omega=\Omega_{TL}$ olmaqla, $\psi=\psi(x,t,z)$-isə dalğa funksiyasıdır. $a(x), a_2(x), v_0(x,t,z), v_1(x,t,z)$ həqiqi dəyişənli aşağıdakı şərtləri ödəyn funksiyalardır:

$$\mu_0 \le a(x) \le \mu_1,\ \overset{o}{\forall} x\in(0,l),\ \mu_0,\mu_1 = const>0; \quad (5)$$

$$|a_2(x)|\le\mu_2,\ \left|\frac{da_2(x)}{dx}\right|\le\mu_3,\ \overset{o}{\forall} x\in(0,l),\ \mu_2,\mu_3 = const>0, a_2(0)=a_2(l)=0; \quad (6)$$

$$|v_0(x,t,z)|\le b_0, \left|\frac{\partial v_0(x,t,z)}{\partial t}\right|\le b_1, \left|\frac{\partial v_0(x,t,z)}{\partial z}\right|\le b_2, \overset{0}{\forall}(x,t,z)\in\Omega,; \quad (7)$$

$$|v_1(x,t,z)|\le d_0, \left|\frac{\partial v_1(x,t,z)}{\partial t}\right|\le d_1, \left|\frac{\partial v_1(x,t,z)}{\partial z}\right|\le d_2, \overset{0}{\forall}(x,t,z)\in\Omega,; \quad (8)$$

$\varphi_0(x,z), \varphi_1(x,t), f(x,t,z)$ aşağıdakı şərtləri ödəyən verilmiş kompleks-dəyişənli funksiyalardır:

$$\varphi_0 \in \overset{2,1}{W_2}(\Omega_L), \varphi_1 \in \overset{2,1}{W_2}(\Omega_T),\ \ f\in W_2^{0,1,1}(\Omega)\ ; \quad (9)$$

$\overset{0}{\forall}$ simvolu "sanki bütün" mənasını verir.

Bu işdə (1)-(4) ikinci sərhəd–başlanğıc məsələsi üçün varlıq və yeganəlik teoremi isbat edilmişdir. İsbat Qalerkin metodunun köməyi ilə aparılmışdır.

**Yusubova Nərmin,**
**magistr**
**LənkəranDövlətUniversiteti**
**97nermin97@gmail.com**

## Coğrafiyanın tədrisi prosesində kartoqrafik biliklərin öyrədilməsinin əhəmiyyəti

Kartoqrafik biliklərdedikdə, xəritə, atlaslar, qlobuslar, plan vəprofillər, həmçinin aero və kosmik fotoşəkillərin öyrənilməsi və mənimsənilməsi prosesi başa düşülür.

Kartoqrafik təsvir vasitələri (xəritə, plan, aerofoto, qlobus, profil, blok-diaqramvə.s.)

dedikdə, bütövlükdəYer kürəsinin və ya onun ayrı-ayrı hissələrinin müəyyən miqyasda kiçildilmiş şərti işarəli təsvirləri nəzərdə tutulur. Coğrafiya xəritəsi təlim vasitələri içərisində mühüm yer tutur. Təlim prosesində xəritə iki mühüm funksiya daşıyır. İlk olaraq xəritə coğrafiya təlimində öyrənmə obyekti rolunu oynayır, digəri isə mühüm informasiya mənbəyidir. Xəritənin əsas və ən qiymətli xassəsi onun əyani vəsait olmasıdır. Bunun nəticəsində xəritədə toplanmış məlumatlar gözümüzlə qavranılır. Xəritə müşahidə edilməsi mümkün olmayan təsəvvürləri yaratmağa kömək edir. Şərti işarələri və xəritənin tərtib olunması qaydalarını yaxşı bilməklə ərazinin coğrafi xüsusiyyətlərini, component və hadisələrin xarakterini dəqiq təsəvvür etmək olar. Xəritə çox mühüm psixoloji-pedaqoji olamalıkdır. Düşüncəni in kişaf etdirir, bilikləri sistemləşdirir, onların mənimsənilməsi və yadda saxlanılmasını asanlaşdırır. Xəritənin bu xüsusiyyətləri şagirdlərə məktəbdə və bütün həyatı boyu gərəkli olur. Xəritə vasitəsilə verilən məlumatlar in sanların diqqətini daha tez cəlb edir, onun dili hamı tərəfindən anlaşılır. Xəritə təkcə şəkil deyil, xüsusi formada yazılmış mətndir.

Kartoqrafik dilin ən mühüm xüsusiyyətlər onun əyanilik, daha anlamlı və başadüşülən olması və informasiyanın bol olmasından ibarətdir. Kartoqrafik biliklər və kartoqrafik təfəkkür ümummədəni əhəmiyyətə malikdir. Hər bir peşə sahibi üçün əhəmiyyətlidir. Coğrafiya və kartoqrafiya bir çox sahələr üçün mütəxəssis hazırlığında vacib olan bilikləri cəmləşdirir.

Coğrafiya proqramı və dərsliklərin də kartoqrafik bilik və bacarıqların siniflər üzrə

Inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. VI sinifdə dərəcə toru, onun elementləri, miqyas, azimut, coğrafi koordinatlar və.s. öyrədilir. Bu biliklərin öyrənilməsi bir sıra bacarıqların formalaşmasına səbəb olur- məsafələrin ölçülməsi, istiqamətlərin təyin edilməsi, coğrafi koordinatların təyini və.s.Kartoqrafik biliklər VII və X siniflərdə daha da mürəkkəbləşir. VII sinifdə xəritələr müxtəlif əlamətlərə görə təsnif edilir. Tematik xəritələr, kartoqrafik təsvirin müxtəlifliyi və. s. haqqında məlumat verilir. X sinifdə kartoqrafik proyeksiyalar, baş və xüsusi miqyas, təhriflər, xəritənin riyazi əsasları və.s. biliklər öyrənilir. VIII və IX siniflərdə baxmayaraq ki, ölkəşünaslıq kursudur, kartoqrafik biliklərin inkişafı nəzərdə tutulur. Yeni fənn proqramında (kurrikulumda) da kartoqrafik biliklərin siniflər üzrə inkişafı nəzərdə tutulmuşdur. Xəritəni başa düşmək bacarığının məqsədi kartoqrafik biliklərə malik olmaqdan ibarətdir. Kartoqrafik biliklərə yiyələnmək dedikdə, xəritənin nə olduğu, onun xüsusiyyətləri, məzmunu, əhəmiyyəti başa düşülür. Müəyyən kartoqrafik bilik və bacarıqlara yiyələnmək xəritəni başa düşməyə kömək edir. Xəritəni oxumaq xəritədəki təsvirin real şəkildə təsəvvür etmək bacarığı, xəritənin köməyi ilə burada göstərilməyən müxtəlif hadisə və prosesləri, obyektləri, onlar arasındakı əlaqələri öyrənmək və başa düşmək bacarığı deməkdir.

**Алиев Джавидан,**
**диссертант**
**Лянкяранский государственный университет**
**cavidan99@list.ru**

## Сильнейший снегопад в Баку, наблюдаемый с начала 21 века

Опишем случай интенсивного снегопада 10 декабря. Уже 6 декабря на приземных картах можно увидеть хорошо оформившейся скандинавский антициклон с центром над Финляндией. Давление в центре достигло 1051 гПа. Баку находился в теплом секторе средиземноморского циклона. Осадков в городе не наблюдалось. Ложбина циклона вытянулась в сторону средней полосы России и вызвало осадки. Следует отметить, что данный циклон наблюдался на всех основных уровнях атмосферы, что свидетельствует о том, что он находился в стадии максимального развития и являлся высотным барическим образованием07 декабря скандинавский антициклон продолжил усиливаться и увеличился в размерах. Гребень его вытянулся в сторону Черного моря и Баку. Однако несмотря на наличие антициклона ( как основного предиктора) осадков в городе не наблюдалось, что показывает нам, что для выпадения осадков необходимым условием является не только протягивание гребня антициклона в сторону Баку, но и движения фронтальных волн средиземноморского циклона. На карте АТ 500 средиземноморский циклон продолжал хорошо прослеживаться. Однако уже с северо-востока высотная ложбина протянулась в сторону Черного моря. Как раз под нею возникали волновые возмущения над Черным морем. Высотная ложбина в сторону Баку еще не доходило, что также объясняет отсутствие осадков в эти дни.

В последующие сутки гребень антициклона вытянулся к северу Каспийского моря. Над югом Каспийского моря возник частный циклон. В Баку наблюдались слабые осадки при западном ветре.




Метеограмма за период 08.12.2002-15.12.2002

09 числа в результате противоборства мощного скандинавского антициклона и средиземноморского циклона произошла деформация барического поля. А от такого противоборства стоит ждать неблагоприятные явления погоды. В ночь на 09 декабря после прохождения фронтальной волны с северо-запада в Баку прошел небольшой снег. Ветер при этом поменял направление с западного на сильный северо-западный, что также

свидетельствует о прохождении холодного фронта. Давление у земли составило 1009,3 гПа. Высота снега составила 3 см. Однако на этом все не закончилось.

Наконец, 10 декабря после прохождения сильно-контрастного волнового фронта в Баку выпал очень сильный снег. За сутки в городе в среднем намело полметра снега! На приземных картах можно увидеть сильно деформированное барическое поле между циклоном и антициклоном. На приземных картах видно, что возникли колоссальные контрасты температур, что и привело к резкому обострению холодного фронта и столь необычно интенсивному снегопаду. Любопытно, что давление в этот день резко повысилось до 1013,8. Причиной этого является поджимающий скандинавский антициклон с северо-запада. Да и сами волновые циклоны не являются образованиями с пониженным давлением и на карте трудно отслеживаются.

Данной фронтальной волне на высоте соответствовала глубокая высотная ложбина, протянувшаяся в сторону Каспийского и Черного моря. А Баку находился в восточной части этой ложбины, что полностью согласуется с выпадением интенсивных осадков. По его ведущему потоку с запада  поступали циклоны в сторону Баку.

## İQTİSADİYYAT, AQRAR VƏ TEXNİKA ELMLƏRİ BÖLMƏSİ

**Abdullayev Kamil,**
**Dosent**
***Əzizzadə Əziz,***
**Magistr**
**Lənkəran Dövlət Universiteti**
**eziz.senanoglu@mail.ru**

### Xüsusi təyinatlı fondların uçotu

Təşkilatın sərəncamında qalan mənfəətdən yaradılan və ya əvvəlcədən müəyyən edilmiş məqsədlərə istifadə edilmək üçün fondun təsisçilərinin əvəzsiz qoyuluşları hesabına yaradılan vəsaitlər məcmu xüsusi təyinatlı fond hesab olunur. Müəssisə və təşkilatlar qəbul etdikləri uçot siyasətinə müvafiq olaraq büdcə ilə hesablaşmanı aparıb qurtardıqdan sonra öz sərəncamında qalan xalis mənfəətin, müəyyən tədbirlərin yerinə yetirilməsinin maliyyələşdirilməsinə istifadə edilməsi haqda qərar çıxara bilərlər. Bu tədbirlər pul vəsaitləri, istehsalın inkişafı və genişləndirilməsinə, istifadə olunan avadanlıqların modernləşdirilməsinə yönəldilən hallarda istehsal xarakterinə, sosial xarakterli tədbirlərin və işçilərin maddi vəziyyətinin yaxşılaşdırılmasına və məhsul buraxılışı ilə əlaqədar olmayan məqsədlərinə istifadə edilən hallarda isə qeyri-istehsal xarakterinə malik olur.

Bazar iqtisadiyyatı şəraitində müəssisələr ehtiyatlarla yanaşı xüsusi təyinatlı fondlar da yarada bilərlər. Belə fondların tərkibi, onların yaradılması və sərf edilməsi qaydasını onların qarşısında duran problemlərdən asılı olaraq müəssisələrin əmək kollektivi müəyyən edir. Onlardan ən çox yayılanları: istehsalın inkişafı, elm və texnika, sosial inkişaf, maddi maraq kimi fondlardır. Bir çox müəssisələr yığım və istehlak fondları yaradırlar və istifadə edirlər. Bu fondlara hesablamaların əsas mənbələri, hər bir fondun vəsaitlərə olan tələbatından və özlərinin maliyyə imkanlarından asılı olaraq müəssisələr tərəfindən müstəqil olaraq müəyyən edilən normativlər üzrə kollektivin sərəncamında qalan mənfəət hesab olunur.

İstehlak fondlarını təşkilatın sosial inkişafını, maddi həvəsləndirməni və onun işçi heyətinin sosial müdafiəsini maliyyələşdirmək üçün yaradırlar. İstehlak fondunun vəsaitlərindən bilavasitə təşkilatın işçilərinə maddi yardım göstərən zaman, birdəfəlik mükafatlar əldə edilən zaman və s. ödəmələri həyata keçirirlər. İstehlak fondlarının fərqləndirici xüsusiyyətləri ondan ibarətdir ki, onlardan maliyyələşdirilən tədbirlər və xərclər təşkilatın yeni əmlakının yaradılmasına səbəb olmur. İstehlak fondu dedikdə, kollektivin işçilərinin maddi maraqlandırılmasına yeni əmlakın əldə edilməsinə və yaradılmasına gətirib çıxarmayan, sosial inkişaf üzrə tədbirlərin və digər oxşar tədbirlərin və işlərin həyata keçirilməsinə yönəldilən vəsaitləri başa düşülür.

Yığım fondlarının vəsaitləri fəaliyyətdə olan təşkilatlarda rekonstruksiyaya, elmi-tədqiqat işlərinin aparılmasına, əsas istehsalat fondlarının inşaasına və yeniləşdirilməsinə, yeni texnika və texnologiyanın mənimsənilməsinə istifadə olunur. Yığım fondları vəsaitləri hesabına əsas etibarilə istehsalın inkişafına, təbiəti mühavizə tədbirlərinə kapital qoyuluşunu maliyyələşdirirlər. Bu zaman xüsusi mənfəət hesabına kapital qoyuluşunun həyata keçirilməsi yığım fondunun həcmini azaltmır. Yığım fondları dedikdə istehsalın inkişafına və təşkilatın maddi-texniki bazasının inkişafına yönəldilən vəsaitlər başa düşülür. Bu vəsaitlərin istifadə edilməsinin son nəticəsi, təşkilatın yeni əmlakı, daha doğrusu, onun artması hesab olunur.

Xüsusi təyinatlı fondların siyahısı və yaradılması qaydası təsis sənədləri ilə nizama salınır. Bu fondlar mənfəətdən ayırmalar hesabına, təsisçilərin məqsədli vəsait qoyuluşları hesabına və digər mənbələrdən yaradıla bilər. Xüsusi təyinatlı fondların əmələ gəlməsini və istifadə edilməsini əks etdirən təsərrüfat əməliyyatlarının uçotu, mühasibat uçotunun qüvvədə olan

hesablar planına əsasən 343№-li«Bölüşdürülməmiş mənfəət(ödənilməmiş zərər)» hesabında hər bir fond üzrə müstəqil subhesablarda aparılır. Bu subhesablar əgər yaradılmaları təsis sənədləri ilə nəzərdə tutulubsa, yığım və istehlak fondlarının vəziyyəti və hərəkəti haqqında informasiyaları ümumiləşdirmək üçün ayrılmışdır.

Xüsusi təyinatlı fondların yaradılması və istifadə edilməsi üzrə əməliyyatların uçotunu 343№-li«Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)» adlı hesabda açılan aşağıdakı subhesablarda həyata keçirirlər:

1. «Yığım fondları».
2. «Sosial sferanın fondu».
3. «İstehlak fondları».

Təsis sənədlərinə əsasən müəssisələr yığım və istehlak fondlarını yarada bilərlər. Bu zaman yığım fondları dedikdə, müəssisənin istehsalının inkişafına və təsis sənədləri ilə nəzərdə tutulan digər oxşar məqsədlərə yönəldilən vəsaitlər başa düşülür. İstehlak fondları dedikdə, sosial inkişaf üzrə tədbirlərin və müəssisənin kollektivinin maddi maraqlandırılmasına və müəssisəni yeni əmlakının yaradılmasına gətirib çıxarmayan digər oxşar tədbirlərin və işlərin həyata keçirilməsinə yönəldilən vəsaitlər başa düşülür.

Məsrəfləri əsas vəsaitlərin tikilən ilk dəyərinə daxil edilən, kapital qoyuluşlarının maliyyələşdirilməsinə istifadə edilən yığım fondunun vəsaitləri 343№-li«Bölüşdürülməmiş mənfəət(örtülməmiş zərər)» hesabın qalığında qalmaqla davam edirlər. «İstehlak fondları» subhesabı üzrə kredit qalığı hesabat dövrünün əvvəlinə və axırına fondun vəsaitlərinin qalığını, debet üzrə dövriyyə-məqsədli tədbirlərə sərf edilmiş məbləğləri, kredit üzrə dövriyyə-hesabat dövrü ərzində mövcud olan mənbələr hesabına fondun tamamlanmasını göstərir.

İstehlak fondu illik işin yekununa görə təltiflərin verilməsinə, əlavə məzuniyyətlərin, səhmlər üzrə və müəssisənin əmlakına əmək kollektivi üzvlərinin qoyduqları vəsaitlərə görə dividendlərin ödənilməsinə; istehsalın səmərəliliyinin yüksəldilməsinə yönəldilən baxışların və konkursların yekunlarına görə mükafatların ödənilməsinə; müəssisənin sərəncamında qalan mənfəət hesabına sərf edilən əməyin ödənilməsinə çəkilən xərclərin müvafiq pay hissəsində hər illik məzuniyyətlərin ödənilməsinə yaradılır və sərf edilir.

Beləliklə, istehlak fondu aşağıdakı xərclərin ödənilməsi üçün istifadə edilir:

a) işçilərin iş yerinə ümumi istifadədə olan nəqliyyatla, şəhər ətrafı elektrik vaqonları ilə gediş-gəliş haqqının ödənilməsi üzrə;
b) əlavə məzuniyyətlərin, işçilərə maddi yardımın göstərilməsinin ödənilməsi üzrə, təqaüdə gedən əmək veteranlarına birdəfəlik yardımın ödənilməsinə, əmək kollektivləri üzvlərinin səhmləri və qoyduqları vəsaitə görə dividendlərin ödənilməsi üzrə;
c) yeməkxanalarda pulsuz və ya güzəştli qiymətlərlə yeməyin verilməsi üzrə;
d) sağlamlıq tədbirlərinin və istirahətin təşkilinin həyata keçirilməsinə, o cümlədən müəssisənin müalicə müəssisələri üçün dərman ləvazimatlarının, ekskursiya və digər mədəni-maarif və bədən tərbiyəsi tədbirləri üçün putyovkaların əldə edilməsinə.

343№-li«Bölüşdürülməmiş mənfəət(örtülməmiş zərər)» hesabının 2-ci «Sosial sferanın fondu»subhesabında qeyri-istehsalat təyinatlı obyektlərin inkişafının maliyyə təyinatının hərəkətini əks etdirirlər. Sosial sferanın fondu sosial sferanın inkişafının maliyyə təyinatı kimi ehtiyatlandırılmış məbləğləri özündə əks etdirir. Sosial sferanın inkişafı fondları, təsis sənədlərində müəyyən edilmiş normativlər hüdudunda müəssisənin sərəncamında qalan mənfəət hesabına yaradılır. Həmin fondun vəsaitləri hesabına müəssisə mənzillər, yaşayış evləri və digər sosial əhəmiyyətli obyektlər əldə edə bilər və ya onların inşaasının maliyyələşdirilməsini təmin edə bilər.

**Abdullayev Kamil,**
**dosent**
**Kərimli Nicat,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**nicatkerimli9755@gmail.com**

## Beynəlxalq standartlara müvafiq olaraq Azərbaycan hesabatlarının transformasiyasının əsas prinsipləri

Müəyyən dövr ərzində müəssisənin işçi üzərində nəzarət etmək üçün cari uçot məlumatlarını ümumiləşdirmək və sistemləşdirmək lazımdır. Bu nəzarəti hesabat tərtib edilməsi yolu ilə nail olunur. Mühasibat (maliyyə) hesabatı uçot məlumatlarının ümumiləşdirilmiş göstəricilər sistemi deməkdir. Mühasibat (maliyyə) uçotunun əsas metodlarında biri hesabatlardır. Müəssisə və təşkilatların mühasibat (maliyyə) hesabatı uçot prosesinin həlledici mərhələsi hesab edilir. Maliyyə (muhasibat) hesabatında müəssisənin əmlak maliyyə vəziyyətini; təsərrüfat fəaliyyətinin nəticəsini xarakterizə edən yekun məlumatlar əks etdirilir. Bazar iqtisadiyyatı şəraitində hesabat qarşısında qoyulan ən başlıca tələb onun bazar iqtisadiyyatının və beynəlxalq standartların tələblərinə cavab verməklə ona uyğun qurulmasıdır.

Azərbaycanda mühasibat (maliyyə) hesabatlarının beynəlxalq standartlara transformasiyasının yəni, onlara müvafiq qurulmasının əsasını Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (BMHS) təşkil edir. Beynəlxalq Maliyə Hesabatları Standartları dedikdə, bütün dünya təşkilatlarının maliyyə hesabatlarını tərtib etmək üçün maliyyə təsərüfat əməliyyatlarının tanınması, qiymətləndirilməsi, açıqlanması tələblərini (meyarlarını) müəyyənləşdirən qaydalar başa düşülür.

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları milli və regional standart komitələri, birjalar, təşkilatlar və dövlətlər tərəfindən milli və regional standartların yaradılmasının beynəlxalq bazası kimi istifadə olunur. Beynəlxalq uçot standartları məcburi xarakter daşıyan, mühasibat uçotunun aparılması üsulları və hesabatların tərtib normalarını reqlamentləşdirən normativ sənədlər hesab olunur. Beynəlxalq mühasibat uçotu standartları məsləhətverici, tövsiyyə xarakteri daşıyır, yəni onların qəbul olunması məcburi deyil. Onlar ayrı-ayrı məsələ və problemləri detallaşdırmadan mühasibat uçotunun aparılmasının prinsiplərinə əsaslanan ümumi orientirləri müəyyənləşdirirlər. Bu da ayrı-ayrı ölkələrə mühasibat uçotunun beynəlxalq standartları əsasında milli uçot sistemlərinə uyğun geniş şəkildə detallaşdırılmış müxtəlif obyektlərin uçotunun neqlentləşdirilməsini təmin edən milli uçot standartlarını yaratmağa imkan verir. Milli mühasibat uçotu standartları beynəlxalq standartlardan fərqli olaraq normativ sənədlər olaraq məcburi xarakter daşıyır. Beynəlxalq maliyyə hesabatı standartları mühasibat standartlarının dünya üzrə ayrı-ayrı müəssisələr üzrə müqayisəliliyini təmin edir, hesabatdakı informasiyaların xarici istifadəçilər üçün aşkarlığını təmin edir. Beynəlxalq uçot standartlarının hazırlanması və təkmilləşdirilməsi ilə xüsusi təşkilat olan Beynəlxalq Maliyyə Hesabatları Komitəsi (BMHK) məşğul olur. Beynəlxalq Maliyyə Hesabatları Komitəsi 29 iyun 1973-cü ildə ildə Avstralya, Kanada, Fransa, Almaniya, yaponiya, Meksika, Niderland, İrlnadiya, Böyük Britaniya və ABŞ-ın peşəkar mühasiblər təşkilatlarının əsasında yaradılmışdır. Komitənin fəaliyyəti 14 ölkə və 4 təşkilatın üzvü olduqları xüsusi şura tərəfindən istiqamətləndirilir. Komitənin vəzifələri aşağıdakı kimi müəyyənləşib:

- Maliyyə hesabatlarınımn tətbiqində tərtib edilən ictimaiyyətin maraqlarına cavab verən mühasibat uçotu standartlarınının dünya üzrə yayılması və tətbiqini həyata keçirmək;
- Mühasibat uçotu standartlarının qaydalarının təkmilləşdirilməsi və yaxşılaşdırılması, maliyyə hesabatlarının tərtibi və təqdim edilməsi üzrə metodiki işlərin aparılması.

Komitə hazırladığı standartlara əməl olunması barədə qərar vermək səlahiyyətinə malik deyildir. Komitənin hal-hazırda hazırladığı və dərc etdirdiyi 41-ə qədər standart tətbiq edilir və ya

yaxın vaxtlarda hesabat dövrlərində tətbiq olunacaqdır. Bu standartlar müəssisələrin maliyyə hesabatlarının tərtibi ilə bağlı bütün əsas məsələləri əhatə edir. Beynəlxalq maliyyə hesabatı standartları uçot siyasətinin təşkili və mühasibat uçotunun aparılması üsullarının ən yaxşı təcrübəsi kimi çıxış edirlər.

Azərbaycan uçot sisteminin beynəlxalq standartlara trasnformasiyasının əsasını beynəlxalq standartların əsasında Milli Mühasibat Uçotu Standartlarının hazırlanması təşkil edir. Bu sahədə ilk görülən işlərə Nazirlər Kobinetinin 139№-li qərarına əsasən 18 iyul 2005-ci ildə "2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqram"ın təsdiq olunmasını göstərmək olar. Milli mühasibat uçotu standartların hazırlanmasını mühasibat uçotu üzrə məsləhət şurası təsdiq edilməsini isə Maliyyə Nazirliyi həyata keçirir. Proqramın hazırlandığı bu günə kimi Azərbaycanda mühasibat uçotunun və maliyyə hesabatlarının beynəlxalq standartlara transformasiyası məqsədilə Milli Mühasibat Uçotu Standartları işlənib hazırlanmışdır. Azərbaycan hesabatlarının beynəlxalq standartlara transformasiya-sının normativ bazasını aşağıdakı Milli Mühasibat Uçotu Standartları təşkil edir:

-1№-li "Maliyyə hesabatlarının təqdimatı üzrə",

-2№-li "Kapitalda dəyişikliklər haqda hesabat üzrə",

-5№-li "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə".

**Bədəlov Əlixan,**
**dosent**
**Ağabağırov Emil,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**e.agabagirov@xalqsigorta.az**

## İnteqrasiya mühitində Azərbaycanda sığorta sisteminin qarşısında duran vəzifələr

Azərbaycan iqtisadiyyatının ən qabaqcıl maliyyə sahələrindən biri də sığorta sistemidir. Hal-hazırda ölkəmizdə sığorta sisteminin yüksək templə inkişaf etməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsində mühüm rolu vardir. Azərbaycan 2006-cı ildən etibarən Beynəlxalq Sığorta Nəzarətləri Assosiasiyasına üzv olmuşdur. «Beynəlxalq Sığorta Nəzarəti Assosiasiyası»na üzv qəbul edilməklə Milli sığorta bazarının beynəlxalq standartlar səviyyəsində inkişafı və dünya sığorta bazarına inteqrasiya olunması prosesini sürətlənmişdir. İnteqrasiya mühitində milli sığorta sisteminin qarşısında duran əsas vəzifələrdən biri sığorta məhsullarının elektronlaşdırılmasıdır.

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyi rəhbər tutaraq Bu Qanunun 50-3-cü maddəsinin tələbinə əsasən avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası(AVSMMİS) üzrə standart və sərhəd sığorta müqavilələri "Elektron imza və elektron sənəd haqqında " Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron sənəd formasında bağlanılır.

**Elektron sığorta müqaviləsi** "Elektron imza və elektron sənəd haqqında " Azərbaycan Respublikasının Qanununa əsasən elektron sığorta müqaviləsi sığortaçının elektron imzası ilə təsdiq edilən və texniki və proqram vasitələrinin köməyi ilə yaradılan, saxlanılan, emal edilən, ötürülən, qəbul edilən sığorta müqaviləsidir.

**Elektron sığorta müqaviləsi,** sığorta müqaviləsinin elektron qaydada bağlanılmasına keçməklə sığortaçı öz internet səhifəsində onlayn satışı təşkil edərsə vətəndaşlar birbaşa elektron sığorta müqaviləsini əldə edə biləcəklər. Yəni müştəri elektron müqaviləni etmək istədikdə, sığorta şirkətlərinin veb səhifələrinə daxil olaraq əldə edirlər. Bu səhifədə vətəndaşlar avtomobillərinin qeydiyyat şəhadətnaməsinin və Dövlət qeydiyyat nömrələrini daxil edib axtariş verdikdə həmin avtomobilinin tam məlumatlarını görə bilirlər. Bundan başqa şəxsiyyət

vəsiqəsinin pin kodu və AZE seriya nömrəsini yazıb axtariş verdikdə vətəndaşın ad, soyad və ata adı, eləcə də qeydiyyat ünvanı haqda məlumatları əldə etmiş olurlar. Bu da sığorta sistemindəki məlumatların birbaşa DİN-ə inteqrasiya olunması ilə bağlıdır.

İnteqrasiya mühitində milli sığorta sisteminin qarşısında duran əsas vəzifələrdən biri də Beynəlxalq sığorta bazarının prinsip və təcrübələrinə əsaslanmaqdır. Bu gün Böyük Britaniyanın "Chartered İnsurance İnstitute"-un eyni adli dərsliyi 2015-ci ildə Azərbaycan dilinə tərcümə edilərək satışa çıxarılmışdır. CİI-a məxsus olan və ingilis dilində nəşr edilmiş" İnsurance: principles and practice" adlı kitabdan ölkəmizlə yanaşı bir çox Avropa ölkələri geniş istifadə etməkdədir.

Bundan başqa İcbari Sığorta Bürosu ilk dəfə 2012-ci ildə Yaşıl Kart Sisteminə üzv olmaq məqsədilə sistemin idarəedici orqanı olan Bürolar Şurasına sorğu göndərmişdir. Bu sorğuya ilkin olaraq müsbət rəy verilmiş və sistemə üzv olmaq istəyən Bürolar üçün zəruri hesab olunan hüquqi və digər tələblərlə tanış edilmişdir. Azərbaycan Respublikasının Yaşıl Kart Sisteminə qoşula bilməsi üçün "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa 28 noyabr 2014-cü il tarixində müvafiq dəyişikliklər edilmişdir. 28 May 2015-ci il tarixində Polşanın Sopot şəhərində keçirilən Bürolar Şurasının Baş Assambleyasında Azərbaycanın "Yaşıl Kart" Beynəlxalq Sığorta sisteminə qəbul olunması və 1 yanvar 2016-cı il tarixindən fəaliyyətə başlanması təsdiqlənmişdir. Bu da öz növbəsində inteqrasiya mühitinin inkişafı mərhələsində davamlı addımlardan hesab edilir.

**BədəlovƏlixan,**
**dosent**
**Ağabağırov Emil,**
**magistr**
**LənkəranDövlətUniversiteti**
**e.agabagirov@xalqsigorta.az**

## Azərbaycanda kənd təsərrüfatının inkişafında kənd təsərrüfatı sığortasının rolu

İlk olaraq qeyd etmək istəyirəm ki, kənd təsərrüfatı bütün ölkələrdə strateji əhəmiyyətli sahə olduğundan bu sahəyə olan maraq, eləcə də dövlət dəstəyi kifayət qədər böyükdür. Hər bir dövlət öz ölkə əhalisinin sağlam ərzaqla qidalanması, digər ölkələrdən ərzaq asılığından azad olması kimi missiyalarını da öz ciddi nəzarətində saxlamaqdadır. Dövlətin strateji maraqları ilə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlər də istehsalın davamlı və rentabelli olması üçün maraqlı tərəflərdəndirlər.

Bu kimi qeyd olunanları nəzərə alaraq ölkəmizdə kənd təsərrüfatı sığortasının icbari qaydada tətbiq edilməsinə böyük ehtiyac var. Kənd təsərrüfatı sığortası nəinki dövlət və fermerlər üçün önəmli bir sosial mexanizmdir, eləcə də sığorta şirkətləri üçün də yeni və müəyyən gəlir gətirən bir məhsul ola bilər. Belə ki, baş verə biləcək təbiət hadisələri, o cümlədən heyvan və bitkilərin müxtəlif xəstəliklərə yoluxması halları, digər risklərdən ehtimal olunan təhlükələr fermerlərə ciddi ziyan vurduğundan, fermerlər istehsalı davam etdirmək üçün əlavə pul itkisinə məruz qalırlar. Bu dasondafermerlərin məhsullarının maya dəyərinin artmasına, daha az gəlir əldə etmələrinə və ya ziyanla üzləşməsinə gətirib çıxarır. Ziyanın qısa vaxtda aradan qaldırılması və istehsal prosesinin bərpa olunması heç də asan məsələ olmadığından, bu məqsədlə fermerlərin həmişə pul kütləsinə böyük ehtiyacları olur. Bunun üçün kənd təsərrüfatı sığortası ən əlverişli addım hesab olunur.

Kənd təsərrüfatı sığortasının yaradılması üzrə müzakirələr artıq uzun müddətdir ki, dövlət tərəfindən aparılır. Belə ki, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əlıiyevin 6 dekabr 2016-cı il tarixli, 1138 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" və "Azərbaycan Respublikasında kənd

təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulmuş Azərbaycan Respublikasında kənd təsərrüfatı sığortası mexanizminin yaradılması ilə bağlı tədbirlərin Palata tərəfindən icrasına dəstək məqsədilə Azərbaycan Sığortaçılar Assosiasiyasının təşkilatçılığı ilə İşçi Qrup formalaşdırılmışdır. İşçi Qrupuna Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının nümayəndəsi də daxil olmaqla, sığorta şirkətlərinin nümayəndələri, həmçinin, bu sahədə ekspert şəxslər daxil edilmişdir. Bu gün ki gündə bu istiqamətdə sığorta şirkətləri də geniş hesablamalar və baş verə biləcək risklər üzrə araşdırmalar aparırlar. Hesab edirəm ki, bu sığorta növünə də azadolma məbləği tətbiq edilməlidir. Çünki sığortalıların da üzərində müəyyən qədər məsüliyyət olmalıdır. Əks halda sığortalılar bütün riskləri sığorta şirkətləri ilə üz-üzə qoyacaqlar. Azadolma məbləğinin tətbiqi eləcə də, sığorta bazarında fırıldaqçılıqların müəyyən qədər qarşısını da almış olacaqdır.

Düşünürəm ki, kənd təsərrüfatı sığortasının icbari qaydada tətbiq edilməsi bütün fermerlər tərəfindən də müsbət qarşılanacaq. İnteqrasiya mühitində bu sığorta növünün gələcəkdə elektron qaydada bağlanması həm fermerlərin, həm də sığortaçıların işini bir qədər də rahatlaşdıracaq.

Yaxın illərdə kənd təsərrüfatı sığortasının tətbiqi nəinki Respublikamızda kənd təsərrüfatının inkişafına böyük təsir edəcək, hətta bu sahədə ölkədə istehsal həcmini artırmaqla , kənd təsərrüfatı məhsullarının ixracını da artırmaq mümkün olacaqdır.

**Bədəlov Əlixan,**
**dosent**
**Şahbazova Lalə,**
**magistr**
**LənkəranDövlətUniversiteti**
**shahbazova.lale11@gmail.com**

## Maliyyə hesabatının beynəlxalq standartlarının tətbiqi şəraitində maliyyə və vergi uçotunun xüsusiyyətləri

Müəssisə rəhbərlərinin şirkətin gələcəyi haqqında mühüm qərarlar qəbul etməsi üçün real maliyyə vəziyyətini əks etdirən hesabatlar zəruridir. Hesabatda təqdim edilən məlumatların keyfiyyəti bir neçə hesabat dövründəki fəaliyyət göstəricilərinin standartlar məcmusu ilə müqayisə olunmasına imkan verir. Çox vaxt müəssisələr standart kimi BMHS göstəricilərini seçirlər. Təəssüf ki, böyük təcrübəyə malik olan mühasiblərin heç də hamısı subyektin hesabatlarını BMHS-yə uyğunlaşdıra bilmir.

Azərbaycanda mühasibat uçotu sisteminin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri maliyyə və vergi uçotunun qarşılıqlı modelinin formalaşması hesab olunur. Əsas problemlərdən biri təsərrüfatçılığın uzun illər ərzində təşəkkül tapan şərtlərinə uyğun gələnmaliyyə vəvergi uçotunun aparılması qaydasınınoptimal nisbətini müəyyənləşdirməkdən ibarətdir. Hazırda Azərbaycanda mühasibat uçotunun mövcud sistemi Vergi Məcəlləsində müntəzəm surətdə həyata keçirilən dəyişikliklərdən birbaşa asılıdır. Mövcud asılılıqdan yayınmaq üçün zənnimizcə, ilk növbədə maliyyə və vergi uçotu sistemləri ayrı–ayrılıqda müvafiq qanunvericilik aktları ilə tənzimlənməlidir. Lakin təkcə vergi uçotuna müstəqil status verilməsi praktik mühasiblərin qarşısında duran problemləri həll edə bilmək iqtidarında deyildir.

Mühasiblərin dünyada mövcud olan əməkdaşlıq cəmiyyətləri tərəfindən maliyyə və vergi uçotu sistemlərinin iki modeli qəbul edilmişdir.

Mühasibat uçotu sisteminin birinci modeli vergiyə cəlb olunmanın güclü təsiri və bilavasitə müdaxiləsi altında rəsmiyyətə salınır və fəaliyyət göstərir. Bu modeldə mühasibat uçotunun vergiyə cəlb olunmadan asılılığının müxtəlif dərəcələri (tam asılılıqdan zəif asılılığadək) mümkündür. Hansı ki, vergiyə cəlbolunma qaydaya görə mühasibat uçotu sisteminə əhəmiyyətli təsir göstərir. «Qitə» (kontinental) adlandırılan birinci modeldə mühasibat və vergi

uçotu faktik olaraq üst–üstə düşür və birinci bütün fiskal-uçot vəzifələrini yerinə yetirir. Qitə modeli Almaniya, İsveç, Belçika, İspaniya, İtaliya kimi Avropa ölkələrində tətbiq olunur. İkinci model müxtəlif məqsədlər güdən mühasibat və vergi uçotunun iki müstəqil sistem kimi paralel surətdə təşəkkül tapmasını nəzərdə tutur.

Avropa ölkələrinin əksəriyyətində «vergi uçotu» termini vergi qaydalarına müvafiq surətdə gəlirlərin və xərclərin hesablanmasına aid edilir. Bu isə özlüyündə hər hansı bir konkret ölkədə mühasibat uçotunun qəbul edilmiş qaydalarından müəyyən mənada fərqlənir.

Demək olar ki, dünyanın bütün ölkələrində eyni dövrdə hesablanan vergiyə cəlb olunan mənfəətlə vergi ödəyicisinin maliyyə fəaliyyətinin nəticələri arasında fərqlər mövcuddur. Belə fərqlər vergi və mühasibat uçotunun qarşılarında duran məqsədlərin müxtəlifliyindən irəli gəlir.

Vergi uçotu dövlətin prinsiplərinə əsaslanan aşağıdakıları əks etdirməyi nəzərdə tutur:

- vergi ödəyicisinin gəlirlərini dəqiq əks etdirmək;
- investisiyalarınmüxtəlif növlərinə (sürətli amortizasiya və digər investisiya maraqları) marağı artırmaq;
- xərclərin müxtəlif növlərinə (məs., nümayəndəlik xərcləri) marağı azaltmaq;
- vergidən yayınmaların (məs., transfert qiymətin yaradılması qaydasında) qarşısının alınması və s.

Bütün yuxarıda sadalananlar Vergi qanunvericiliyinin özünəməxsus xüsusiyyətlərindən irəli gəlir.

Vergi hesabları tərtib olunan zaman ən mühüm amillərdən biri vergi ödəyicisinin mühasibat uçotunun sənədlərindən istifadə olunmasıdır. Avropanın bir çox ölkələrində müəssisənin vergiyə cəlb olunan mənfəətini müəyyənləşdirmək üçün «balans metodu»ndan istifadə edilir. Başqa sözlə, vergiyə cəlb olunan mənfəət, vergi ödəyicisinin ilin axırına balansındakı xalis aktivlərinin dəyəri ilə (dividendlərin məbləğini nəzərə almaqla) vergi ödəyicisinin ilin əvvəlinə balansındakı xalis aktivlərin dəyəri arasında olan fərq məbləği kimi hesablanır. Müsbət fərq, vergiyə cəlb olunan təsərrüfat mənfəətinin kəmiyyətini, mənfifərq isə təsərrüfat fəaliyyətindən başverən zərəri göstərir.

Vergi uçotunun mühüm aspektlərindən biri ondan ibarətdir ki, vergi ödəyicilərinin mənfəətinin hesablanması vergi yoxlaması həyata keçirilən zaman yoxlanılmalıdır.

Maliyyə uçotunun konsepsiyası – uçotun təşkili, aparılması, maliyyə hesabatının tərtibi ilə əlaqədar olan əsas nəzəri prinsiplərin məcmusudur.

Maliyyə uçotunun məqsədi – mühasibat uçotunun təşkili sistemi daxili və xarici istifadəçilər üçün informasiyalarla formalaşır. Maliyyə uçotunun əsas məqsədi müəssisə və ya təşkilatın maliyyə vəziyyəti, fəaliyyətin maliyyə nəticələri və maliyyə vəziyyətində əmələ gələn dəyişikliklər haqda müvafiq qərar qəbul etmək üçün onda geniş marağı olan daxili və xarici istifadəçilərə informasiyalar formalaşdırmaqdan ibarətdir.

Maliyyə uçotunun təşkilinin əsasları – maliyyə uçotunun təşkili zamanı konsepsiyanın həyata keçirilməsi üçün aşağıdakı əsaslara istinad edilməlidir:

- Təşkilatın əmlak xüsusiyyətləri;
- Təşkilatın fəaliyyətinin fasiləsizliyi;
- Uçot siyasətinin ardıcıl tətbiq edilməsi;
- Təsərrüfat fəaliyyəti hallarının qeyri-müəyyənliyi.

Maliyyə hesabatlarının hazırlanmasında subyektivliyin qarşısının alınması, müxtəlif müəssisələrin hesabatlarının müqayisəliliyinin təmin edilməsi məqsədilə mühasibat (maliyyə) standartları işlənib hazırlanır. Bu standartlar milli və beynəlxalq səviyyədə hazırlanır. Milli səviyyədə hər bir ölkənin yerli qanunvericiliyi tərəfindən, beynəlxalq səviyyədə isə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Şurası (MHBSŞ) tərəfindən işlənib hazırlanır və nəşr edilir.

Bazar iqtisadiyyatı şəraitində maliyyə hesabatı qarşısında aşağıdakı kimi mühüm vəzifələr qoyulmuşdur:

1. Hesabat bazar iqtisadiyyatının və beynəlxalq standartlarıntələblərinəcavab verməli və ona uyğun şəkildə qurulmalıdır;
2. Hesabatın göstəriciləri etibarlı, ardıcıl, düzgün və müqayisə olunan olmalıdır;
3. Hesabatsadə,anlaşılanolmalı və müəyyən olunmuş vaxtlarda tərtib olunub, təyinatlara uyğun olaraq təqdim olunmalıdır.

Bütün bunlar, yəni bazar münasibətlərinin inkişafı və iqtisadiyyatın qloballaşması maliyyə və vergi uçotu və hesabatının da beynəlxalq səviyyədə unifikasiyasını zəruri etmişdir. Belə ki, iqtisadiyyatın müxtəlif sahələrində beynəlxalq inteqrasiyanın rolunun artması müxtəlif ölkələrdə tətbiq edilən uçot və hesabat işlərinin harmonizasiyasını və hamı üçün anlaşıqlı olmasını tələb edir. Bu harmonizasiyaya müvəfəqiyyətlə nail olmaq isə maliyyə və vergi uçotunun beynəlxalq səviyyədə qəbul edilmiş konseptual əsaslarına riayət etməklə mümkündür.

**Bədəlov Əlixan,**
**dosent**
**Sultanzadə Məhərrəm,**
**magistr**
**Lənkaran Dövlət Universiteti**
**meherrem.sultanzade@mail.ru**

## Müəssisələrdə gəlir və xərclər uçotunun beynəlxalq uçot standartlarının tələblərinə uyğun formalaşması

Ölkə iqtisadiyyatının beynəlxalq aləmə inteqrasiyası ilə yanaşı, iqtisadi proseslərin uçot metodlarının, o cümlədən mühasibat uçotunun təkmilləşdirilməsi zərurəti nəzərə alınaraq, 2004-cü ildə «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 2008-ci ildən etibarən kommersiya təşkilatları üçün milli mühasibat uçotu standartlarının tətbiqinə başlanılmışdır.

Əvvəlki mühasibat sistemində gəlir və xərclərin tanınmasında hesablama və ya kassa metodu arasında seçim imkanı mümkün olduğu halda, yeni standartlar yalnız hesablama metodunun tətbiqini tələb edir. Başqa sözlə, gəlirlər və xərclər təsərrüfat əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı pul vəsaitlərinin və onların ekvivalentlərinin daxil olması və ya xaric olması zamanı deyil, bu əməliyyatların baş verdiyi anda tanınmalıdır.

İkinci konseptual yanaşma köhnə mühasibat uçotundan fərqli olaraq, yeni standartlarda iqtisadi mahiyyətin hüquqi formadan üstünlüyü əsas götürülməklə, aktivlərin və öhdəliklərin ədalətli dəyərlə tanınmasıdır. Belə ki, əmlakın dəyərinin yenidən qiymətləndirilməsi nəticəsində onun dəyəri bir neçə dəfə arta və ya azala bilər, yəni real bazar qiyməti onun mövcud balans üzrə qalıq dəyərindən az və ya çox olduğu hallarda dünya praktikası həmin aktivlərin yenidən qiymətləndirilməsini tələb edir ki, nəticədə yenidən qiymətləndirilmiş ədalətli dəyər mütləq qaydada maliyyə vəziyyəti barədə hesabatlarda (balans göstəricilərində) öz əksini tapmalıdır. Qeyd edək ki, yeni standartlarda ədalətli dəyərlə yanaşı, ilkin dəyər, cari dəyər, mümkün satış dəyəri, diskontlaşdırılmış dəyər kimi alətlərdən də istifadə olunur.

Yeni standartlar mühasibat və vergi uçotu arasında yaranan müvəqqəti fərqlərin maliyyə hesabatlarında tanınmasını tələb edir ki, bu da əvvəlki uçotdan fərqli olaraq, tamamilə yeni yanaşmadır.

Mühasibat uçotu ilə vergi uçotu arasında bəzi daimi və müvəqqəti fərqlər olur. Belə ki, mühasibat uçotu baxımından bütün xərclər gəlirdən çıxıldığı halda, vergi uçotu baxımından xərclər xüsusiyyətindən asılı olaraq tam, qismən (məhdudlaşdırılmış) gəlirdən çıxıla bilən və ya ümumiyyətlə çıxıla bilməyən kimi təsnifləşdirilir. Məsələn, ezamiyyə xərclərinin normadan artıq hissəsi mühasibat uçotu baxımından adi əməliyyat xərci olsa da, vergi uçotu baxımından heç bir halda vergitutma məqsədləri üçün gəlirdən çıxılmayacaq ki, bu da iki uçot arasında daimi fərqin

yaranmasına səbəb olur. Amortizasiya xərcləri isə mühasibat və vergi uçotu məqsədləri üçün fərqli dərəcələrlə hesablana bilsə də, sonda ilkin dəyər tam şəkildə amortizasiya olunaraq fərq aradan götürüləcəkdir ki, bu da zaman etibarilə müvəqqəti fərqlərin yaranmasına səbəb olur. Yeni standartlarda tətbiq olunan «təxirə salınmış vergi aktivləri» və «təxirə salınmış vergi öhdəlikləri» müvəqqəti fərqlərin maliyyə hesabatlarında tanınmasını tələb edir.

Köhnə və yeni mühasibat uçotu arasında daha bir konseptual fərq isə ana və törəmə şirkətlər üçün konsolidə olunmuş balansın hazırlanmasının məcburiliyi və «qudvil» alətindən istifadədir. Məlumdur ki, bir şirkət digər şirkətin nizamnamə kapitalında 50%-dən çox pay əldə edirsə, onda birinci şirkət ana, ikinci şirkət isə törəmə hesab olunur (istisna hallar da mümkündür). Müəssisənin alınması üçün ödənilmiş məbləğin onun xalis aktivlərinin dəyərindən artıq olan hissəsi qudvil yaradır. Konsolidə balans hazırlanarkən, qudvilin məbləği mütləq şəkildə göstərilməlidir.

Qeyd edək ki, köhnə uçot sistemi ilə yeni standartlar arasında olan fərqlər və yanaşmalar kifayət qədər çoxdur və burada sadalananlar həmin fərqlərin yalnız bir qismini təşkil edir.

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsaslanan maliyyə uçotunda vergilər sahibkarlıq xərcləri kimi dəyərləndirilir. Bu o deməkdir ki, vergilərə də, digər xərclərə baxıldığı kimi baxılmalıdır. Lakin vergilərin səciyyəvi xüsusiyyətləri var ki, onları digər xərclərdən ayırır və onlara ayrı cür baxılmasına səbəb olur. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

a) Vergi ödənişləri hər hansı mal və ya xidmət əvəzində edilmir;

b) Müəssisələrin bu cür ödənişi edib etməməyə dair seçimləri yoxdur.

Bu faktorlara görə, əvvəlki mühasibat sistemində vergilərə, xərc yerinə, xalis mənfəətin paylanması kimi baxılırdı; mahiyyətcə, Azərbaycan Respublikasının əvvəlki mühasibat sistemi tərəfindən hökumətə müəssisənin uğurlu fəaliyyətinin əsas təşkilatçısı və onun nəticələrinin iştirakçısı kimi baxılırdı. “Cari Mənfəət vergisi üzrə” 3 №-li Milli Mühasibat Uçotu Standartı “TəxirəSalınmışVergiüzrə” 4№-li Milli Mühasibat Uçotu Standartı ilə birlikdə mənfəət vergisinin mühasibat uçotunun aparılmasında əhəmiyyətli dəyişiklikləri təqdim edirlər.

Ayrı-ayrı illərə aid maliyyə hesabatlarında əməliyyatların və hadisələrin tanınması əsasən mühasibat standartlarının tətbiqi ilə həyata keçirilir. Buna baxmayaraq, vergi tutulan mənfəətin qiymətləndirilməsi məqsədilə gəlir və xərclərin tanınma dövrü Vergi Məcəlləsinə görə müəyyən olunur. Vergi Məcəlləsi isə bəzi hallarda, maliyyə hesabatlarının tərtib edilməsi qaydalarından fərqli qaydalara riayət edir. Bu səbəbdən bu iki qaydalar toplularının, uzlaşdırılması ehtiyacı yaranır.




“Cari Mənfəət Vergisi üzrə” – 3№-li Milli Mühasibat Uçotu Standartının başlıca məqsədi uçot mənfəəti ilə vergi tutulan mənfəətin arasındakı bütün fərqlərin müəyyən edilməsi; il ərzindəki faktiki vergi xərclərinin və ilin axırındakı vergi öhdəliyinin tanınması və qiymətləndirilməsi; maliyyə hesabatların da müvafiq məlumatın təqdim edilməsi və

açıqlanmasıdır. "Cari Mənfəət Vergisi üzrə" 3№-li Milli Mühasibat Uçotu Standartının tam məqsədini aşağıdakı sxemdə görmək olar.

Vergi Məcəlləsinin müddəaları vergi tutulan mənfəəti müəyyən edir. Beləliklə hesabat dövrü üzrə ödənilməli verginin miqdarını və balans tarixinə qalıqları müəyyən edir. Digər Milli Mühasibat Uçotu Standartının müddəaları uçot mənfəətini müəyyən edir. Bu iki mənfəət adətən fərqli olur və 3 №-li Milli Mühasibat Uçotu Standartının tələblərinə görə onlar arasında olan fərq iki tərkib hissələrə ayırılmalı – daimi və müvəqqəti fərqlər kimi təsnifləndirilməlidir. Sonra 3№-li Milli mühasibat Uçotu Standartı vergi xərcləri və vergi öhdəliklərinin maliyyə hesabatlarında təqdim olunmalarına dair tələblər irəli sürür və maliyyə hesabatlarına qeydlərdə açıqlanmalı olan məlumatlara dair şərtlər qoyur.

**Bədəlov Əlixan,**
**dosent**
**Sultanzadə Məhərrəm,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**meherrem.sultanzade@mail.ru**

## Müasir iqtisadi şəraitdə müəssisələrin gəlir və xərclərinin uçotda əks etdirilməsinin beynəlxalq standartlara uyğunluğu

Ölkə iqtisadiyyatının beynəlxalq aləmə inteqrasiyası ilə yanaşı, iqtisadi proseslərin uçot metodlarının, o cümlədən mühasibat uçotunun təkmilləşdirilməsi zərurəti nəzərə alınaraq, 2004-cü ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 2008-ci ildən etibarən kommersiya təşkilatları üçün milli mühasibat uçotu standartlarının tətbiqinə başlanılmışdır.

Azərbaycanda mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi məsələləri beynəlxalq iqtisadi təşkilatların da diqqətini cəlb etmişdir. Ölkə iqtisadiyyatına beynəlxalq aləmdə tanınmış transmilli korporasiyalar tərəfindən iri həcmli investisiya qoyuluşu və Azərbaycana iri həcmli kreditlərin verilməsi Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər bu kimi beynəlxalq iqtisadi təşkilatlar tərəfindən Azərbaycanda mühasibat uçotunun təkmilləşdirilməsinə dair tövsiyyələrin verilməsilə müşayiət olunmuşdur.

Göstərilən məsələlər ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi zərurətini meydana gətirmiş və bu konteksdə beynəlxalq standartların tələblərinə cavab verən Milli Mühasibat Uçotu Standartları yaradılmışdır. Ölkəmizdə mühasibat uçotunun iqtisadi inkişafın müasir mərhələsinə uyğun yenidən təşkil edilərək, onun beynəlxalq standartlar səviyyəsində təkmilləşdirilməsi məqsədilə hazırlanmış Milli Mühasibat Uçotu Standartlarının elmi əsaslarının işlənib hazırlanması ən vacib məsələlərdən biridir.

Bilirik ki, sahibkarların müəssisə fəaliyyətində əsas məqsədi gəlir (mənfəət) əldə etməkdir. Gəlirlər mahiyyət etibarilə aktivlərin artmasına və öhdəliklərin azalmasına birbaşa təsir edir. Bu zaman kapitalın artımı baş verir və bu artımın mülkiyyətçilərin paylarına heç bir təsiri yoxdur. Müəssisənin əsas gəlir mənbəsi məhsul və xidmət satışından gəlirlərdir. Lakin bununla yanaşı valyuta mübadiləsi, icarə, və s. bunun kimi sahələr də gəlir mənbəsi hesab edilir. Gəlirlər özlüyündə adi fəaliyyətdən əldə olunan gəlirlərə və sair gəlirlərə bölünməkdədirlər. Gəlirlərə aid olunan məsələlərdən biri də onların keyfiyyətidir. Gəlirlərin keyfiyyəti, onun həqiqi, real və normal iqtisadi fəaliyyətinin nəticəsi ilə müəyyən edilir. Əgər gəlirlər iqtisadi artım, optimal xərclər, səmərəli təsərrüfatçılıq nəticəsində yaranmışdırsa, onda həmin gəlirlər keyfiyyətli hesab olunur. Lakin əgər gəlirlər qiymətlərin əsassız səbəblərdən artırılması, müqavilə şərtlərində xətalara yol verilməsi və s. neqativ hallar nəticəsində əldə edilirsə, onlar əsassız və keyfiyyətsiz gəlirlər adlandırılır.

Gəlirlərdən danışıldığı zaman diqqət yetiriləcək anlayışlardan biri də gəlirlərin kapitallaşmasıdır. Gəlirlərin kapitallaşması gəlirin hamısının və yaxud bir hissəsinin kapitala çevrilməsidir.

Xərclər isə aktivlərin azalması və öhdəliklərin artması ilə bağlı iqtisadi səmərənin azalmasının baş verdiyi və bu azalmanın etibarlı səviyyədə qiymətləndirilməsinə imkanın mövcud olduğu hallarda tanınır. Əksər halda, xərclərin və gəlirlərin ayrı-ayrı maddələri birbaşa əlaqəli olur. Buna görə də, müvafiqlik (əlaqələndirmə) konsepsiyasına əsaslanaraq xərclər və gəlirlər eyni vaxtda tanınmalıdırlar.

Hesab edirik ki, bazar iqtisadiyyatın şəraitində yeni istehsal növlərinin yaranması, innovativ yeniliklər, xidmət çeşidlərin artması, bir sıra yeni rəqabət istiqamətlərinin meydana gəlməsi, müəssisənin gəlirlərinin artırılmasında olan marağı və bu artımın əsaslı səbəblərə aidiyyatı müasir dövrdə bu sahənin öyrənilməsində prioritetdir. Həmçinin müəssisələrdə gəlirlərin və xərclərin uçotunun təkmilləşdirilməsi sahəsində irəli sürülən nəticələrdən biri kimi mühasibat sisteminin avtomatlaşdırılması və kompüterləşdirilməsi hesab edilməlidir. Çünki bu müəssisə fəaliyyətinə çox böyük dərəcədə təsir göstərir, hesabatların tərtib olunmasını əsaslı dərəcədə asanlaşdırır.

Fikrimizcə müasir iqtisadi şəraitdə müəssisələrdə gəlirlərin və xərclərinin uçotunun təkmilləşdirilməsində əsas məqsəd gəlirlərin və xərclərinin uçotunun beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Bunun üçün müasir bazar iqtisadiyyatında elmi cəhətdən əsaslandırılmış şəkildə uçot əməliyyatlarınının həyata keçirilməsi vacib amildir. Bu zaman gəlirlərin və xərclərin təsnifatının müasirləşdirilməsiylə bağlı nəzəri və praktiki təkliflər sistemini formalaşdırmaq və həyata keçirmək lazımdır. Bu baxımdan da mühasibat uçotu standartının meydana gəlməsinin tarixi köklərinin araşdırılması, ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi zəruriliyinin əsaslandırılması, beynəlxalq uçot standartlarının tələblərinə uyğun hazırlanmış Azərbaycanın Milli Mühasibat Uçotu Standartlarının nəzəri və metodoloji əsaslarının təhlil edilməsi və onların müəssisədə tətbiqi prinsiplərinin formalaşdırılması, gəlirlərin və xərclərin beynəlxalq standartlara uyğunlaşdırılması səviyyəsinin öyrənilməsi, xərclərin uçotunun funksional metodunun müasir dövrdə müəssisələrin uçot sisteminə uyğunlaşdırılması imkanlarını araşdırmaq, xərclərin sifariş metoduyla uçotunun aktuallığınının araşdırılması və onun uçot xüsusiyyətlərinin müəyyən olunması, gəlirlərin sintetik və analitik uçotunun xüsusiyytələrinin öyrənilməsi və qərbdə tətbiq edilən uçot siyasətinin öyrənilməsi lazımdır.

**Bədəlov Əlixan,**
**dosent**
**Talıbzadə Aysel,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**talibzadaysel@gmail.com**

## Müəssisələrdə maliyyə resurslarının idarə edilməsinin nəzəri əsasları

Dövlətin iqtisadi funksiyalarının həyata keçirilməsində maliyyə münasibətlərinin böyük rolu vardır. Dövlətin iqtisadi və sosial tədbirlərinin həyata keçirilməsində maliyyə münasibətlərindən geniş səviyyədə istifadə edilir.

Dövlətin maliyyə siyasətinin əsasını təşkil edən maliyyə konsepsiyalarına uyğun olaraq maliyyə resurslarının səfərbər olunması və onlardan səmərəli istifadə edilməsi ən vacib məsələlərdən hesab edilir. Bu istiqamətdə aşağıdakı vəzifələr həyata keçirilməlidir:

1. Ölkənin maliyyə resurslarının maksimum təmin olunması;
2. Ölkənin maliyyə resurslarının səmərəli bölüşdürülməsi və istifadəsinin təmin edilməsi;
3. Maliyyə metodları vasitəsilə iqtisadi və sosial proseslərin tənzimlənməsi;

4. Maliyyə siyasətinə uyğun olaraq maliyyə mexanizminin işlənib hazırlanması və onun iqtisadi inkişafın dinamikasına uyğunlaşdırılmasının təmin edilməsi və s.

Bu qeyd olunan vəzifələrin həyata keçirilməsi zamanı maliyyə resurslarının səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə ölkənin maliyyə resurslarının tərkib hissəsi kimi müəssisələrdə maliyyə resurslarının idarə edilməsi aktuallıq kəsb edir. Qeyd edək ki, müəssisə özünə məxsus maliyyə resurslarından istifadədə tam sərbəstdir, lakin o həmin vəsaitlərdən qənaətlə və səmərəli istifadə etməlidir ki, yüksək iqtisadi nəticələrə nail olsun. Xüsusi maliyyə resurslarının əsas hissəsini müəssisənin sərəncamında qalan və rəhbər idarəetmə orqanlarının qərarı ilə bölüşdürülən mənfəət təşkil edir. «Maliyyə resursları» və «kapital» kateqoriyaları xüsusi iqtisadi ədəbiyyatlarda olduğu kimi sahibkarlıqla əlaqədar müxtəlif dərs vəsaitlərində də olduqca sərbəst dolaşır. Kateqoriya təchizatına malik olunmaması tez-tez maliyyə sistemi və maliyyə mexanizmi anlayışlarının təhrif olunmasına gətirib çıxarır. Bununla birlikdə iqtisadçı-nəzəriyyəçilər baxılan kateqoriyanın vahid şərh olunmasına nail ola bilməmişlər. Müəssisələrin maliyyə resurslarının formalaşması üsulları, maliyyə potensialı ilə borc probleminin qarşılıqlı əlaqələri iqtisad elmi tərəfindən bu və ya digər səviyyədə tədqiq olunmuşdur. Uzaq xarici ölkə alimlərindən R.Bahl, S.Wallace,H.Baekgaard, R.Bergmann Barbara, V.Kapur, A.Klevmarken, T.Mirer, G.Orkutt, E.Symons, P.Krugman, J.Eaton, J.Sach və başqaları əsərlərində bu məsələlərin həllinə müəyyən yer vermişlər. Maliyyə və vergi potensialının formalaşdırılması, qiymətləndirilməsi və proqnozlaşdırılması məsələləri isə ümumiyyətlə bu tədqiqat işlərində kompleks və qarşılıqlı asılılıq halında araşdırılmamışdır. Rusiya alimlərindən S.Sutirin, L.Dukaniç, T.Yutkina, D.Çernik, A.Paçinok, V.Morozov,A.Vavilov və başqalarının əsərlərinin təhlili göstərir ki, onların tədqiqatlarında da maliyyə potensialının formalaşması və qiymətləndirilməsi istiqamətlərində, xarici borc sahəsində bir qisim elmi araşdırmalar aparılsa da, ancaq ümumi iqtisadi baxımdan maliyyə və vergi potensialının reallaşdırılması imkanları tədqiq edilməmişdir. Azərbaycan iqtisadçılarındanA.Nadirov, Z.Səmədzadə, Ş.Muradov, A.Ələsgərov, Ə.Nuriyev, S.Səfərov, Ş.Səmədzadə, Q.İmanov, A.Musayev, V.Novruzov, M.Həsənli, Ə.Əlirzayev, D.Bağırov, A.Abbasov, S.Məmmədov, M.Sadıqov və başqa alimlərin maliyyə resurslarının tədqiqinə dair elmi-tədqiqat əsərləri mövcuddur. İqtisadçılarımızın qeyd edilmiş problemlə bağlı elmi araşdırmalarını yüksək qiymətləndirməklə bərabər göstərmək istərdim ki, onların işlərində maliyyə potensialının iqtisadi kateqoriya kimi tədqiqi, onun qiymətləndirilməsi və proqnozlaşdırılması üsulları kifayət qədər açıqlanmamışdır. Beləliklə, bu sahədə mövcud elmi-tədqiqat işlərinin təhlili göstərir ki, xarici ölkə və respublikamızın alimlərinin tədqiqatlarında maliyyə və vergi potensialı məsələlərinin ancaq bəzi nəzəri aspektlərinə baxılmış, bu amillərin qiymətləndirilməsi üçün sistemli üsul təklif edilməmişdir. Bütün bunlar qarşıya qoyulmuş problemin aktuallığına və elmi yeniliyinə dəlalət edir.

Maliyyə resurslarının təşkili onların səmərəliliyinin təmin olunması problemlərinin ümumi kompleksində mühüm yer tutur. Maliyyə resurslarının təşkilinin əsas prinsipləri belədir:

1) Maliyyə resuslarının tərkibi və strukturası;
2) Maliyyə resurslarının yaradılması mənbələrinin təşkili;
3) Müəssisənin maliyyə resurslarına tələbatının müəyyənləşdirilməsi;
4) Maliyyə resurslarının onların təyinatına uyğun olaraq məqsədli istifadəsi;
5) Maliyyə resurslarının qorunması.

Müəssisənin maliyyə resurslarının idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi metodlarının praktiki istiqamətliliyi, eyni zamanda konkrekt müəssisə fəaliyyətlərinin spesifik xüsusiyyətlərinin, onun maliyyə resurslarının, sektoral və təşkilati-hüquqi xüsusiyyətlərinin nəzərə alınması analizini də tələb edir.

Maliyyə resurslarının idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi metodları, maliyyə metodlarının səmərəliliyi, onun müəssisənin maliyyə resurslarının həcminə və strukturasının keyfiyyətinə təsirinin nəticəsi ilə qiymətləndirilməsini nəzərdə tutmaqla, son nəticəyə–pul girişlərinə təsir edən bütün mümkün amilləri özündə «yığan», «sintetik» göstəricilərin hesablanmasına əsaslanır.

**Əkbərova Ülkər,**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**ulkarcoqrafiya@mail.ru**

## Lənkəran vilayətinin cənub-şərq hissəsində yağış damlası eroziyasının öyrənilməsi

Torpaq ehtiyatlarının təbii və antropogen amillərin təsirinə məruz qalması Lənkəran vilayəti üçün də çox aktual məsələdir. Məlumdur ki, Lənkəran vilayəti torpaq resursları məhdud, əhalinin sıxlığı və təbii artımın çox olduğu bölgələrdən biridir. Nəzərə alsaq ki, rayonun ümumi torpaq fondunun 32,8%-i müxtəlif dərəcədə (zəif, orta, şiddətli) eroziya prosesinə məruz qalmışdır, bu da insanda, həqiqətən, böyük narahatlıq doğurur.

Yağıntıların intensivliyi, meşələrin kortəbii şəkildə qırılması, iqlimdə baş verən dəyişikliklər, təsərrüfatın elmi əsasda təşkil edilməməsi, artan antropogen təsir və s. eroziya prosesinin intensivləşməsinə böyük təkan verir. Eroziyanın bir sıra növləri vardır ki, bunlardan Lənkəran rayonunda su eroziyası daha geniş yayılmışdır.

Su eroziyası torpağın yağıntı, axar sular və suvarma suları ilə yuyulması nəticəsində əmələ gəlir. Su eroziyasının başlanğıc səbəbi və ən təhlükəlisi yağış damlası eroziyasıdır. İntensiv yağışlarda yağmur damlaları bitki örtüyü olmayan çılpaq sahələrə orta hesabla saatda 32 km sürətlə nüfuz edərək torpaq hissəciklərini 100-150 sm ətrafa və 60 sm yüksəyə sıçraya bilir. Bunun nəticəsində bir hektar sahədə təqribən 250 ton torpaq zərrəcikləri yuxarı sıçrayaraq yer dəyişdirir. Yağış damlası eroziyasının təsiri nəticəsində torpağın strukturu pozulur, məsaməlik azalır, su və havanın torpağa daxil olması çətinləşir, nəticədə torpağın aqronomik əhəmiyyəti azalır.

Yağış damlasının torpağa təsiri damlaların diametrinin böyüklüyünə və intensivliyinə bağlı olaraq dəyişir. Yağış damlası eroziyasına eyni zamanda yamacın meylliyi, torpağın susızdırma qabiliyyəti, qranulometrik, sturuktur, aqreqat tərkibi də təsir edir.

Yağış damlası eroziyasının əsaslı şəkildə qarşısını almaq üçün isə fəsillər üzrə yağıntının miqdarı və intensivliyini müəyyənləşdirmək, yağıntının intensiv olduğu vaxtlarda torpağın bitki ilə örtülülüyünü təmin etmək, torpağın fiziki-kimyəvi xüsusiyyətləri öyrənilərək eroziyaya qarşı davamlılığını müəyyənləşdirmək vacibdir.

Aparılan tədqiqatlardan müəyyən edilmişdir ki, Lənkəran rayonunda antropogen təsirə daha çox məruz qalmış psevdo podzollaşmış sarı torpaqların orta dərəcədə eroziyaya uğramış növündə humus, azot, fosfor, kalium göstəriciləri eroziyaya uğramamış növə nisbətən 25-48%-ə qədər azalmışdır. Bu proses ildən- ilə təkrarlanaraq torpaqların sıradan çıxmasına gətirib çıxarır.

Lənkəran rayonunda məhsuldar torpaqlar məhduddur və əksər hallarda kortəbii şəkildə becərilir. Mövcud torpaq resurslarının eroziyadan qorunması, eroziyaya məruz qalmış torpaqların yenidən dövriyyəyə qaytarılması, torpaqlardan səmərəli istifadə və münbitliyin artırılması istiqamətdə daim torpaq istifadəçilərini maarifləndirmək vacib məsələlərdəndir.

Torpaq ehtiyatlarının qorunması, münbitliyin artırılması, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı Azərbaycan Respublikası Prezidenti İlham Heydər oğlu Əliyevin daim diqqət mərkəzindədir. Bu istiqamətdə bir sıra qanun və sərəncamların imzalanması buna bariz nümunədir.

**Əliyev Tərbiz,**
**professor**
**Xankişiyev Fərid,**
**doktorant**
**Azərbaycan Milli Elmlər Akademiyası**
**Lənkəran Dövlət Universiteti**
**tarbiz.aliyev@bk.ru**
**ferid_khan@mail.ru**

## Azərbaycanda sahibkarlıq fəaliyyətinin sertifikatlaşdırması prosesinin təşkili

Sertifikatlaşdırma termini ilk dəfə olaraq ISO-nun Sertifikatlaşdırma Məsələləri üzrə Komitəsi (CASCO) tərəfindən istifadə edilmişdir. Məhsulun sertifikatlaşdırılması əhalinin həyatının, sağlamlığının, əmlakının və ətraf mühit üçün təhlükəli olan məhsulun buraxılmasının və satışının qarşısının alınması, istehlakçılara məhsulun səriştəli seçilməsində köməkliyin göstərilməsi və müəssisələrin beynəlxalq-iqtisadi, elmi-texniki əməkdaşlıqda və beynəlxalq ticarətdə iştirakı üçün şəraitin yaradılması üçün aparılır.

Ölkəmizdə Nazirlər Kabinetinin 343 saylı 1 iyul 1993-cü il tarixli qərarı ilə Azərbaycan Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi tərəfindən AZS Milli Sertifikatlaşdırma sistemi yaradılmışdır.AZS Milli sertifikatlaşdırma sisteminin təşkilati strukturuna Sertifikatlaşdırma üzrə milli orqan, oxşar məhsulun sertifikatlaşdırılması üzrə akkreditləşdirilmiş orqanlar, akkreditləşdirilmiş sınaq laboratoriyaları, keyfiyyət sistemlərinin sertifikatlaşdırılması və istehsalatın attestasiyası üzrə akkreditləşdirilmiş orqanlar, məhsulun istehsalçıları və tədarükçüləri daxildir. Nazirlər Kabinetinin qərarı ilə ölkədə sahibkarlıq fəaliyyətində sertifikatlaşdırma işlərinə təkan verilib və məcburi və ya könüllü sertifikatlaşdırma sahələri və məhsullar müəyyənləşdirilib. Məhsul istehsalı ilə məşğul olan sahibkarlıq subyektinin fəaliyyətini davam etdirməsi üçün ya müvafiq AZS, yəni Azərbaycan Standartı və ya MDB məkanında dövlətlərarası qəbul olunan QOST olması önəmlidir.Əgər bunlardan heç birinə uyğun gəlməyən yeni məhsul istehsalı və ya xidmətlə məşğuldursa sahibkar onda həmin məhsul və ya xidmət üçün Texniki Şərt hazırlanır.Həmin Texniki Şərt yalnız həmin sahibkara məxsus olur və məhsul və ya xidmət bu Texniki Şərt əsasında istehsal olunur (xidmət göstərilir).

AZS Milli sertifikatlaşdırma sistemi çərçivəsində məhsulun məcburi və könüllü sertifikatlaşdırmasının aparılması üçün sahibkar oxşar məhsulun sertifikatlaşdırılması üzrə akkreditləşdirilmiş orqana, o olmadıqda Sertifikatlaşdırma üzrə milli orqana sifariş göndərir. Sertifikatlaşdırma, müvafiq sistemdə müəyyən edilmiş sxemlər üzrə aparılır. Sertifikatlaşdırma sxemi dedikdə məhsulların, xidmətlərin, keyfiyyət sistemlərinin və personalın uyğunluğunun qiymətləndirilməsi zamanı üçüncü tərəfin fəaliyyətinin tərkibi və ardıcıllığı başa düşülür. Azərbaycan Respublikasında tətbiq olunmaq üçün məhsulların sertifikatlaşdırması sxemi və xidmətlərin sertifikatlaşdırılması sxemi tövsiyyə edilir. Sahibkarlıq sahəsində məcburi sertifikatlaşdırmanın aparılmasının sxemi məhsulun istehsal, nəzarət və tədarük xüsusiyyətləri nəzərə alınmaqla və Sertifikatlaşdırma üzrə milli orqanla razılaşdırmaqla oxşar məhsulun sertifikatlaşdırılması üzrə orqan tərəfindən seçilir. Məcburi sertifikatlaşdırmaya aid edilən məhsulların siyahısı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunur və ona ildə bir dəfədən az olmamaq şərti ilə yenidən baxılır. Belə məhsulların realizasiyası aşağıdakı hallarda qadağan edilir:

- sertifikatlaşdırmaya təqdim edilməmişdirsə;
- sertifikatlaşdırmadan keçə bilməmişdirsə;
- uyğunluğu sertifikatlaşdırılmış tələblərə daha cavab vermirsə;
- sertifikatın qüvvədə olduğu müddət sona çatmışdırsa, ondan istifadə dayandırılmışdırsa, yaxud ləğv edilmişdirsə.

Sahibkarlıq fəaliyyətinin könüllü sertifikatlaşdırmasının aparılma sxemi sifarişçi tərəfindən seçilir və sertifikatlaşdırmaya aid sifarişdə göstərilir.

Ölkəmiz sahibkarlıq fəaliyyətinin standartlaşdırma və sertifikatlaşdırma sahəsində Ümumdünya Ticarət Təşkilatı (WTO), BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO), Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO), Avropa Standartlaşdırma Komitəsi (CEN), Codex Alimentarius və Beynəlxalq Elektrotexnika Komitəsi (IEC), Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (WIPO), Avropa Patent İdarəsi (EPO), Avropa Patent Təşkilatı (EAPO), İslam Ölkələrinin Standart və Metrologiya İnstitutu (SMIIC), Regionlararası Standartlaşdırma Birliyi (BASB), Avropa Akkreditasiya Təşkilatı (EA) və Beynəlxalq Laboratoriya Akkreditasiyası Əməkdaşlıq Təşkilatı (ILAC) ilə sıx əməkdaşlıq edir.

AZS Milli sertifikatlaşdırma sistemi xarici ölkələrdə sertifikatların və uyğunluq nişanlarının tanınmasını təmin etmək üçün qüvvədə olan beynəlxalq norma və qaydalara uyğun qurulur və fəaliyyət göstərir. Əgər Azərbaycanın iştirak etdiyi beynəlxalq müqavilələrdə AZS Milli sertifikatlaşdırma sistemində nəzərdə tutulduğundan fərqli qaydalar vardırsa, beynəlxalq müqavilənin qaydalarına əməl olunur. AZS Milli sertifikatlaşdırma sistemi beynəlxalq, regional və digər ölkələrin Milli sertifikatlaşdırma sistemləri ilə qarşılıqlı əlaqədə işləyir. AZS Milli sertifikatlaşdırma sistemi sahibkarlıq fəaliyyətinin sertifikatlaşdırması üzrə funksiyalar həvalə olunmuş dövlət orqanlarının, sınaq laboratoriyalarının, başqa ölkə, təşkilat və müəssisələrin iştirakı üçün açıqdır. Burada istehsalçıların, istehlakçıların, sertifikatlaşdırma üzrə orqanların, sınaq laboratoriyalarının, həmçinin digər marağı olan müəssisə və təşkilatların, ayrı-ayrı şəxslərin Sistemin fəaliyyəti, onun qaydaları, sertifikatlaşdırmanın nəticələri haqqında informasiyadan sərbəst istifadə imkanı nəzərdə tutulur. Eyni zamanda kommersiya sirri təşkil edən informasiyanın məxviliyi təmin olnur.

Azərbaycanda sahibkarlıq fəaliyyətinin sertifikatlaşdırması sahəsində son illərdə sürətli inkişafın olduğu müşahidə olunur. Sertifikatlaşdırma üzrə şirkətlərin fəaliyyəti 1993-cü ildən başlamasına baxmayaraq, beynəlxalq standartlar üzrə sertifikatlaşdırma demək olar ki, yalnız 2000-ci ildən etibarən başlamışdır.Belə ki, 2003-cü ilə qədər 12 beynəlxalq standart tətbiq edən sahibkarlıq fəaliyyəti subyektlərinin sayı 5, 2003-cü ildə 30, 2004-cü ildə 42, 2005-ci ildə 85, 2006-cı ildə 68 və s. ümumilikdə isə illər keçdikdə bu rəqəm artan temp üzrə inkişaf etmişdir.

Yuxarıda qeyd edilənlərə əsasən belə nəticə gəlmək olar ki, istər ölkə daxilində sahibkarlıq fəaliyyətinin sertifikatlaşdırması sahəsinə olan marağın artması, istərsə də ölkə səviyyəsində beynəlxalq əməkdaşlıqların aparılması bu sahənin inkişafından xəbər verir.

**Əliyeva Gülbəniz,**
**dosent**
**Məmmədəliyev Sadiq,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**sadiq.sadiq.SS40@gmail.com**

## Kənd təsərrüfatı məhsulları ixracının müasir vəziyyəti problemləri və prespektivləri

Xarici ölkələrlə iqtisadi əlaqələrin genişlənməsi nəticəsində ölkəmizdə səmərəli aqrobiznes sistemi formalaşmışdır. Bu da aqrar sahədə istehsal olunan yüksək rəqabət qabiliyyətli məhsulların ixracının həyata keçirilməsinə şərait yaradır. Ölkəmizdə istehsal olunan bəzi kənd təsərrüfatı və yeyinti məhsullarının ixracı həm keçmiş ittifaq dövründə, həm də indiki şəraitdə reallaşdırılır. Ölkəmiz müstəqilliyə nail olduqdan sonra müttəfiq respublikalardan başqa, yaxın və uzaq xarici ölkələrlə aqrar sahədə iqtisadi əlaqələrini genişləndirmişdir.

Statistik məlumatlardan aydın olur ki, ölkəmizdən ixrac olunan əsas növ kənd təsərrüfatı və yeyinti məhsullarının tərkibində bitki yağı, pambıq lifi, meyvə, tərəvəz və digər növ məhsullar daha üstünlük təşkil edir. Kənd təsərrüfatı mənşəli məhsullarının və xammalın ixrac dinamikası və strukturu göstərir ki, əmtəə dövriyyəsində əsas yerləri piylər, bitki və heyvan mənşəli yağlar, sitrus meyvələri, qəhvə, çay, ədviyyatlar, tütün məhsulları təşkil edir. İnkişaf etmiş ölkələrin təcrübəsində ixrac stimullaşdırılır və bir sıra səmərəli məqsədə nail olunur. Hər hansı bir ölkə ixracı genişləndirməklə malların ölkə xaricinə ixracına nail olunur və bununla da milli iqtisadiyyatın inkişafına şərait yaradılır.

Resublikamızda istehsal olunan kənd təsərrüfatı məhsullarının dünya bazarına çıxarılmasında müəyyən problemlər mövcuddur. Fikirimizcə, aqrobiznes sistemində ixracı stimullaşdırmaq üçün aşağıdakı tədbirlərdən istifadə edilərsə, kənd təsərrüfatı məhsulları ixracının həcminin artırılmasına nail olmaq mümkündür.

- İxracla məşğul olan təsərrüfat subyektlərinə güzəşli vergilər tətbiq edilməli;
- İxrac kreditlərinin zəmanətləri dövlətin üzərinə götürülməli;
- Qabaqcıl təcrübəyə uyğun olaraq ikitərəfli çoxtərəfli müqavilələr bağlanmalı;
- Məqsədli proqramlar hazırlanıb həyata keçirilməli;
- Dövlətlərarası ticarət maraqlarının nizamlanması tədbirləri həyata keçirilməli;
- Respublikamızın ixrac potensialının artırılmasına şərait yaradılmalı;
- Rəqabətqabiliyyətli məhsulların istehsalı üçün müasir texnologiyalardan istifadə və s.

Respublikamızın daxili bazarının xarici istehsalçılardan qorunması tədbirləri həyata keçirilməlidir. Gömrük və vergi siyasəti kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı ilə məşğul olan təsərrüfatların marağı ilə müəyyən qədər uzlaşdırılmalıdır. Məhsulların tədarükündə stimullaşdırıcı qiymətlərdən istifadə önəmli tədbirlərdən biridir.

Bütün bunları reallaşdırmaq məqsədi ilə ölkəmizdə modern üslubda logistika mərkəzlərinin yaradılması və marketinq sisteminin təşkilinə böyük ehtiyyac vardır. Müasir iqtisadi şəraitdə qeyd etdiyimiz bu tədbirlər hesabına Azərbaycan Respublikasının aqrobiznes sistemində kənd təsərrüfatı və yeyinti məhsullarının ixracının yaxşılaşdırılmasına nail olmaq mümkündür.

**Əsgərov Hikmət,**
**dosent**
**Ramazanov Cəlil,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**celil.ramazanov@gmail.com**

## Azərbaycanda turizm infrasrukturunun turizmin inkişafının əsası kimi

Azərbaycan Respublikası çox nadir təbii, mədəni, milli, etnoqrafik ehtiyatlar, zənginliklər kompleksinə malikdir. Əlverişli coğrafi mövqeyi, doqquz iqlim qurşağı, flora və faunasının müxtəlifliyi, zənginliyi, dəniz sahilində yerləşməsi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri ölkəmizdə turizmin inkişafı üçün böyük perspektivlər açır. Əlverişli təbii şəraiti olan Azərbaycanın turizm sahəsində böyük inkişaf perspektivləri vardır. Bu sahədə aparılan işlərin nəticəsi olaraq, demək olar ki, son illər dövlət qayğısı sayəsində turizm inkişafın prioritet istiqamətlərindən birinə çevrilmişdir. Turizmin ölkə iqtisadiyyatının mühüm hissəsinə çevrilməsi regionların infrastruktur cəhətdən inkişafını da təmin edir. Ümumiyyətlə, respublikamızın bütün rayonlarında müasir turizm obyektləri, mehmanxanalar, istirahət zonaları tikilib və tikilməkdədir. İnfrastrukturun yenilənilənməsi daxili və xarici turizmin inkişaf etdirilməsi istiqamətində mühüm addımdır. Ölkəmizdə turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Bütün bu reallıqları nəzərə alaraq, Azərbaycanda turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası

qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir. Respublika iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 2011-ci ili "Turizm ili" elan etməsi Azərbaycanda turizmin inkişafına daha geniş meydan açmışdır. Ölkəmizin turizm sahəsində böyük inkişaf perspektivləri var. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində 2020-ci ilədək turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələri dairəsinin genişləndirilməsi, sektorun rəqabət qabiliyyətinin yüksəldilməsi və digər məsələlər nəzərdə tutulur. İnkişaf Konsepsiyasında turizmin inkişaf hədəfləri dəqiq əksini tapıb. Beləliklə turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələri dairəsinin genişləndirilməsi, sektorun rəqabət qabiliyyətinin yüksəldilməsi, turizmin ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu sahəyə dair qanunvericilik və standartların təkmilləşdirilməsi, bölgələrdə turizm fəaliyyətinin stimullaşdırılması, informasiya-təbliğat işinin gücləndirilməsi, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlərin nəzərə alınması yolu ilə turizm marşrutlarının yaradılması təşviq ediləcək. Turizm infrastrukturunun yaradılması istiqamətində uyğun ölkə prezidenti tərəfindən həyata keçirilən, məqsədyönlü islahatlar nəticə olaraq ölkəmizi turizm mərkəzinə çevirmək siyasətini daşıyır. Buna uyğun olaraq, Azərbaycanda nümunə olan dağ turizm kompleksi Şahdağı, həmçinin Bakıda və Bakı ətrafında tikilmiş məşhur beynəlxalq brendlərin çoxsaylı iri otellərini qeyd etmək yerinə düşər.Qeyd edək ki, Azərbaycanda turizm sahəsində reallaşdırılan ən böyük layihələr sırasında "Şahdağ" və "Tufandağ" qış-yay turizm komplekslərinin yaradılması özünəməxsus yer tutur.

Görülən bu islahatların hesabına turizmin maddi-texniki bazası ildən-ilə genişləndirilir. Azərbaycan dövləti də beynəlxalq təcrübədən istifadə edərək turizmin infrastrukturunun inkişafı üçün əsasən investisiya siyasətindən istifadə edir. Azərbaycan hökuməti respublikanın icra və qanunverici hakimiyyət orqanlarının, xüsusilə Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyinin diqqətini kommersiya strukturlarının birgə səyindən istifadə etməklə turizmin infrastrukturunun inkişafını müasir tələblər səviyyəsində qurmağa yönəldir. Bu istiqamətdə turizmin inkişafına dövlət dəstəyi verilməsi hesabına həm turizm sürətlə inkişaf edir, həm də əhalinin sosial iqtisadi vəziyyəti yaxşılaşdırılır. Əhalinin milli gəliri artır, ölkəyə daha çox valyuta kütləsi daxil olur, əhalinin böyük bir hissəsinin məşğulluğu üçün şərait yaranmaqdadır.

**İsgəndərov Asəf,**
**professor**
**Bağırova Şəfa,**
**doktorant**
**Milli Aviasiya Akademiyası**
**Lənkəran Dövlət Universiteti**
**shefa.baqirova@mail.ru**

## Respublikada iqtisadi artıma təsir edən əsas amillərin iqtisadi təhlili

İqtisadi problemlər bəşəriyyət üçün həlli zəruri olan problemlər sırasındadır. Ətraf mühitin mühafizəsi, təbii resurslardan səmərəli istifadə, energetika, demoqrafiya və s. problemlərin həlli dünya ölkələrinin birlikdə səyini tələb edir. Ekoloji problemlər cəmiyyətlə təbiət arasında ziddiyyətlərin kəskinləşməsi ilə əlaqədardır. Bu ziddiyyətlərin kəskinləşməsinin əsas səbəbi ilk növbədə elmi-texniki tərəqqi və onun nəticələrindən necə istifadə olunmasıdır.

İqtisadi sistemlərin elmi təhlilinin müasir üsullarından biri olan riyazi modelləşdirmə və kompüter texnologiyalarının tətbiqi prinsipial nəticələr əldə etməyə imkan vermişdir. Bu istiqamətdə işləri xüsusi ilə qeyd etmək məqsədəuyğundur. Məlumdur ki, iqtisadi sistemlərin hər biri ayrılıqda kifayət qədər mürəkkəb və çoxparametrli sistemlərdir. Onların birlikdə fəaliyyət

göstərdiyi iqtisadi sistemlər daha mürəkkəb və gözlənilməz xassələrə malikdir. Ona görə də belə sistemlərin təhlili üçün riyazi modelləşdirmə və müasir kompüter texnologiyalarının tətbiqi ilə aparılan təhlillər xüsusi əhəmiyyət kəsb edir. Riyazi modelləşdirmə üsulunun tətbiqi təcrübəsi bir daha onu sübut edir ki, öyrənilən mürəkkəb sistemlərin tipik xarakterik xüsusiyyətlərini mümkün qədər sadə modeldə müəyyənləşdirib bu modelləri təhlil etməklə alınan nəticələr daha məzmunlu olur.

İqtisadi artıma ekstensiv və intensiv yolla nail olmaq olar. Artımın ekstensiv faktorlarının üstünlüyü olarsa, onda iqtisadi inkişafa ekstensiv tip, artımın intensiv faktları üstünlük təşkil etdikdə isə inkişafa intensiv tip deyilir. Biz aşağıdakı iqtisadi artım üçün sosial-iqtisadi göstəricilərdən kapital qoyuluşunu əsas götürəcəyik. Kapital qoyuluşu iqtisadi artımı xarakterizə etməkdə bir sıra üstünlüklərə malikdir.

İqtisadi–riyazi modelləşdirmə üsullarından istifadə etməklə sosial–iqtisadi göstəriciləri tədqiq edərkən iqtisadi artımın klassik modelini nəzərdən keçiririk. İqtisadi inkişaf prosesinin ölçülməsinin çətinliyi ilə əlaqədar olaraq makroiqtisadiyyata daha çox iqtisadi artım təhlil edilir. Daha doğrusu, iqtisadi inkişafın meyarlarının biri kimi ölkədə istehsal olunan əmtəə və xidmətlərin həcmi götürülür. İqtisadi artım natural (fiziki artım) və dəyər ifadələrində ölçülə bilər. Birinci üsulda infilyasiyanın təsirindən qaçmaq mümkündür, lakin o universal deyil. Doğrudur, bir sıra ölkələrin statistikasında makroiqtisadi artımı əmtəə istehsalının artımı əsasında ölçürlər. Bu zaman həmin məhsulun istehsalın ümumi həcmindəki xüsusi çəkisindən istifadə edirlər.

İqtisadi-riyazi modelləşdirmə üsullarından istifadə edilərək respublika üçün iqtisadi artım dinamikasını xarakterizə edən əsas amillərdən asılılıq aşağıdakı modeldə təhlil edilir. Respublikada dayanıqlı inkişaf prinsipləri əsas götürülərək sosial-iqtisadi göstəricilərdən biri olan əsas kapitala investisiyaların, əhaliyə pullu xidmətlərin və sənaye məhsulunun həcmindən asılılığı reqresiya modelləri ilə təhlil edilir. Qiymətləndirilən modellərin adekvatlığını yüksəltmək üçün əlavə izahedici dəyişən kimi brent markalı neftin dünya bazar qiyməti də daxil edilmişdir. Bu modellərin nəticələrinin müqayisəli təhlilini daha dolğun həyata keçirmək üçün qiymətləndirmələr respublika üzrə ümumi olaraq aparılmışdır. Modellərin dəyişənlərinin statistik göstəriciləri 2000-2016-cı illəri əhatə edir. Beləliklə, ən kiçik kvadratlar üsulunun köməyi ilə reqressiya analizi aşağıdakı kimi aparılmışdır:

**Respublika üzrə ümumi**:

$$dln\,Y_t = 0.73\,dln\,Y_{t-1} + 0.28\,dln\,X_{1,t-1} + 5.58\,dln\,X_{2,t-1} - 0.42\,dln\,X_{3,t-1} \quad (3.1)$$

t-test: (0.03) (0.41) (0.04) (0.42)

$$R^2 = 0.71$$

F-test = 4.32 (ehtimal=0.04)

Qaus-Markov şərtləri;

Heteroskedastiklik

Breusch-Pagan-Godfrey testi

F-test = 0.83 (ehtimal=0.54)

Xi kvadratı testi = 3.88 (ehtimal = 0.42)

Normallıq;

JB test = 1.30 (ehtimal = 0.52)

Yuxarıda qiymətləndirilmiş reqressiya modellərinin iqtisadi izahatlarının verilməsi vacib məsələdir.

Respublika üzrə ümumi olaraq qiymətləndirilmiş modeldə əsas kapitala investisiya dəyişəninin cari qiymətinin özünün bir dövr əvvəlki qiymətindən və neftin dünya bazar qiymətindən asılılığı statistik etibarlı alınmışdır. Nəticəyə görə əsas kapitala investisiya dəyişəninin bir dövr əvvəlki qiymətinin 1% yüksəlməsi bu dəyişənin cari qiymətini 0.7% artırır. Neftin dünya bazar qiymətinin bir dövr əvvəlki məbləğinin 1% yüksəlməsi əsas kapitala investisiya dəyişəninin cari qiymətinin 5.6% artımına səbəb olur. Göründüyü kimi Respublika üzrə ümumi olaraq əsas kapitala investisiya dəyişəninin neftin dünya bazar qiymətinə nəzərən

elastikliyi onun bir dövr əvvəlki məbləğinə nəzərən elastikliyi ilə müqayisədə təqribən 5 dəfədən çox böyükdür. Bu da ölkə iqtisadiyyatının neft faktorundan nə dərəcədə asılı olmasını bir daha əyani şəkildə göstərir.

Bu işlərdə göstərilən yanaşma iqtisadi sistemlərin təhlilinə tətbiq olunmuşdur. Öyrənilən modelin elə sadə və tipik halını seçməyə cəhd göstərilmişdir ki, bu modeldə təhlil olunan proseslərin xarakterik xüsusiyyətlərini müşahidə etmək mümkün olsun. Bundan başqa öyrənilən model uyğun real proseslərin əsas xüsusiyyətlərini müşahidə etməyə imkan verir. Təhlil üçün müəyyənləşdirilən riyazi model xəttidir. Onun sadə variantları analitik öyrənilə bilsə də ümumi halda modelin təhlili uyğun proqram təminatının yaradılmasını tələb edir.

**Məhərrəmov Mikayıl,**
**professor**
**Cəlalov Azər,**
**doktorant**
**Həmidova Ləman,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**mikailbyst@mail.ru**

## Xammal və qida məhsullarının təhlükəsizliyinin maddi-texniki və metodiki təminatının bəzi aspektləri

Məlumdur ki, ərzaq xammalları və qida məhsullarının təhlükəsizliyi əhalinin sağlamlığını müəyyən edən əsas amillərdən biridir. Aparılmış elmi araşdırmalara əsasən beynəlxalq təşkilatlar belə nəticəyə gəlmişdir ki, hazırda yer kürəsində xəstə və xəstəhal insanların sayı tam sağlam insanların sayından daha çoxdur. Bunun əsas səbəbi ətraf mühitin dağıdıcı təsiri- yəni atmosfer havasının, suyun və torpağın çirklənməsi, keyfiyyətsiz və  az dəyərli qida məhsulları, psixoloji gərginlik, stresli həyat tərzi və s.-dir.

Son dövrlər qida məhsullarının təhlükəsizliyi ən mühüm gigiyenik problemlərdən biri  olub, SSRİ-ni süqutunda sonra MDB məkanında daha çox aktuallıq kəsb etmişdir. Bu onunla əlaqədardır ki, bizim istehlak bazarına kütləvi şəkildə xarici ölkələrdən daha çox ərzaq xammalı və qida məhsulrı (bəzən də mənşəyi və keyfiyyəti şübhə döğuran) daxil olur, istehsal texnologiyası, saxlama və realizasiya şərati dəşdirilir, qidaya daha yeni kimyəvi maddələr əlavə edilir, onların miqdarı artırılır, ətraf mühitin qeyri- əlverişli ekoloji vəziyyəti nəticəsində çirklənmiş qida məhsulları və xammallar daha çox təhlükə daşıyır.

Xammal və qida məhsullarının təhlükəsizliyi onların tərkibində olan kimyəvi və bioloji təbiətli maddələrin, mikroorqanizmlərin və onların həyat fəaliyyəti məhsullarının miqdarı və keyfiyyəti ilə müəyyən edilir. Qidada olan patogen mikroorqanizmlər, süni və təbii radionük-lidlər, nitrat, nitrit və nitrozobirləşmələr, pestisidlər, ağır metalların duzları, həmçinin konservantlar və boyak maddələri kimi qida əlavələri və s. insan orqanizmi üçün daha təhlükəlidir. Qida məhsulları ətraf mühitdən ekoloji zərərli maddələri- kontaminantları akkumilyasiya etmək (toplamaq) və təhlükəli miqdarda qatılaşdırmaq qabiliyyətinə malikdirlər.

Ətraf mühitdən insan orqanizminə düşən müxtəlif mənşəli toksinlərin 70%-ə qədəri biki və heyvan mənşəli məhsullar vasitəsilə keçir. XX əsrin 50-60- cı illəri ilə müqayisədə hazırda qida məhsullarında radionüklidlərin miqdarı 5-20 dəfə yüksəlmişdir. Son 5-10 ildə ərzaq məhsullarının nitratlarla və onların parçalanma məhsulları ilə çirklənməsi 5 dəfəyə qədər artmışdır.

Daha inkişaf etmiş ölkələrdə ərzaq məhsullarının bolluğu şəraitində cəmiyyətin əsas problemi qidanın keyfiyyəti və təhlükəsizliyidir. Kasıb və inkişaf etməmiş üçüncü ölkələrdə isə başlıca problem əhalinin əsas qida məhsulları ilə minimum təminatı məsələsidir.

Qidalanma ekologiyası probleminə müasir münasibət XX əsrin 90- cı illərində meydana çıxmış, 1992-ci ilin sonunda İtaliyanın Roma şəhərində Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ( FAO) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə əhali üçün tam dəyərli qida məhsulları probleminin həlli yollarına həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir. Konfransın vacibliyi onunla əlaqələndirilmişdir ki, yer kürəsində adambaşına kifayət qədər ərzaq məhsulu istehsal olunsa da, hazırda hər il dünya əhalisinin 800,0 mln. nəfərə qədəri xroniki aclıq şəraitində yaşayır, 2,0 mlrd. nəfərə qədərin isə ərzaq təhlükəsizliyinin təmin olunmasına ehtiyac vardır.

Məhz bu problemlərin vacibliyini nəzərə alan Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyevin son dövrlər imzaladığı "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 10 fevral 2017-ci il tarixli, 1235 №-li, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 13 noyabr 2017-ci il tarixli, 1681№-li fərmanlar və digər normativ-hüquqi sənədlər Respublikamızda ərzaq təhlükəsizliyi haqqında qanunvericiliyin hüquqi bazasını yaratmış, bu sahədə idarəetmədə mövcud olan paralelçilik aradan qaldırılmışdır ki, bütün bunlar əhalinin qida təhlükəsizliyində öz müsbət nəticələrini göstərməkdədir.

Məlumdur ki, göstərilən problemlərin həlli, eyni zamanda bu sahədə çalışan və gələcəkdə çalışmalı olan mütəxəssislərin peşə hazırlığının keyfiyyətindən asılıdır. Bütün bunları nəzərə alaraq Respublikanın cənub bölgəsində yeganə regional ali məktəb olan Lənkəran Dövlət Universiteti problemə böyük peşəkarlıqla yanaşaraq daha bir ilk uğura imza atmışdır. Belə ki, Universitetdə kadr hazırlığı aparılan baytarlıq, qida mühəndisliyi, turizm və otelçilik, aqrokimya və torpaqşünaslıq, aqronomluq, meşəçilik, ekologiya və s. ixtisaslar üzrə mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək, maddi-texniki və tədris bazasını gücləndirmək məqsədilə yeni tədris ilindən müasir avadanlıqlarla təchiz edilmiş "Baytarlıq", "Qida məhsulları texnologiyası" və "Qida təhlükəsizliyi və ekologiyası" laboratoriyaları yaradılaraq müəllim və tələbələrin ixtiyarına verilmişdir. Həmin laboratoriyalar İngiltərədən, Rusiyadan, Çin və s. ölkələrdən alınmış müasir xromatoqraf, homogenizator, sentrifuqa, pH-metr, ionometr, spektrofotometr, kolorimetr, refraktometr, elektron mikroskoplar, soyuducu, dondurucu, quruducu, sorucu şkaflar və s. kimi avadanlıq və cihazlarla təmin edilmişdir.

Göstərilən avadanlıq və cihazların quraşdırılması və iş prinsipinin əməkdaşlara öyrədilməsi üçün xarici ölkələrdən mütəxəssislər dəvət edilmişdir. İlk olaraq Çin Xalq Respublikasından gəlmiş mütəxəssis 10 gün Universitet əməkdaşları ilə birgə treninqlər keçirmiş, onları avadanlıq və cihazların iş prinsipi ilə tanış etmişdir.

Həmin avadanlıq və cihazların əksəriyyəti kompyüter və internet şəbəkəsinə qoşulmaqla işləyəcəkdir ki, bu da alınan nəticələrin dəqiq və düzgünlüyünü təmin edəcəkdir.

Göstərilən laboratoriyalarda qida məıhsullarının kimyəvi tərkibi ilə yanaşı, bitki və heyvan mənşəli toxuma və hüceyrələrin quruluşu, onlarda ətraf mühitin təsiri ilə baş verən dəyişikliklər, xammal və qida məhsullarının tərkibindəki qida əlavələrinin və zərərli birləşmələrin, maddə və elementlərin miqdarı və s. tədqiq ediləcəkdir.

Maraqlı cəhətlərdən biri də ərzaq xammalları və qida məhsullarının, suyun, torpağın və s. tərkibində metalların ( o cümlədən ağır metalların) miqdarının təyinidir. Rusiya Federasiyasının "Texnoanalit" Elm- istehsalat mərkəzinin (Tomsk şəhəri) istehsalı olan voltampermetrik "TA-Ekolab" analizatoru bu tədqiqatlar üçün etibarlı vasitədir. Həmin qurğu artıq Universitetin "Qida təhlükəsizliyi və ekologiyası" laboratoriyasındadır, istehsalçı müəssisənin əməkdaşının iştirakı ilə müvafiq təlimlər keçirilmişdir.Hazırda həmin laboratoriyada çay yarpağı və hazır çay məhsulunun, sitrus meyvələrinin, tərəvəzlərin, suyun tərkibində sink, kadmium, qurğuşun, mis və arsen (mərgümüş) kimi toksiki metalların miqdarının öyrənilməsi ilə bağlı işlər aparılır. Alınmış ilkin nəticələr kifayət qədər maraq kəsb edir. Məsələn, istifadə edilən quyu suyundan nümunələrin analizi zamanı kadmium və mis ionlarının izlərinə belə rast gəlinməmiş, sink ionlarının kütlə qatılığı 0,00033 mq/kq, qurğuşun ionlarının qatılığı isə 0,00016 mq/kq təşkil edir ki, bu da sanitar-epidemioloji normalara görə buraxılabilən həddən kifayət qədər aşağıdır.Eyni

zamanda xammal və qida məhsullarında digər toksiki metalların, o cümlədən civənin miqdarının təyini metodikasının mənimsənilməsi məsələsinə dair hazırlıq işləri aparılır.

Tədris prosesində daha bir vacib məqam tədris vəsaitlərinin mövcudluğudur. Universitetin professoru, texnika elmləri doktoru Mikayıl Məhərrəmov Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşları ilə birgə "Xammal və qida məhsullarının təhlükəsizliyi" adlı dərslik və eyniadlı laboratoriya praktikumu (dərs vəsaiti) hazırlamışdır. Laboratoriya praktikumu çap olunaraq tələbə və müəllimlərin ixtiyarına verilmiş, dərslik isə mövcud qaydalara uyğun nəşrə hazırlanır. Gözləmək olar ki, hər iki tədris vəsaiti tələbə, müəllim və sahə mütəxəssislərinin stolüstü kitabına çevriləcəkdir.

**Məmmədova Ülviyyə,**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**ulviyye_07@list.ru**

## Torpaqdakı elementlərin miqdarının çəltik bitkisinin inkişafına təsiri

Çəltik ən dəyərli ərzaq bitkisidir. Dən istehsalının həcminə və əkin sahəsinə görə yer kürəsində buğdadan sonra ikinci yeri tutur. Çəltik qabıqdan təmizlənmiş halda düyü adlanır. Düyünün tərkibinə orta hesabla 0.6%-zülal, 88%-nişasta, 0.5%-şəkər daxildir.

Çəltiyin vətəni cənub-şərqi Asiya ölkələrinin tropik və subtropik ərazilərdir. Bu bitki Çində, Hindistanda, Yaponiyada bizim eradan 4-5 min il əvvəl becərilmişdir.Azərbaycan ərazisinə bu bitki İrandan və Orta Asiya respublikalardan gətirilərək becərilməyə başlamışdır.

Respublikamız çəltik əkinçiliyinə görə üç zonaya bölünür:

1. Lənkəran-Masallı zonası;
2. Şəki-Zaqatala zonası;
3. Quba-Xaçmaz zonası;

Çəltiyin " Ağ- qılcıq" ," Sarı –qılcıq", " Uzros ", "Ağ-ənbərbu", "Sədri", "Krosnadar"kimi növləri Respublikamızda rayonlaşdırılmışdır.

Çəltik bitkisindən yüksək məhsul əldə etmək üçün torpaqda kifayət qədər qida elementləri olmalıdır. Çəltik gübrələrə çox tələbkar bitkidir, onun gübrələnməsi böyük diqqət tələb edir. Belə ki, çəltiyin kökü əsasən su ilə təmin edilmiş sahədə inkişaf edir və onun üçün verilən qida elementlərinin çox hissəsi suda həll olaraq torpağin alt qatına keçir. Gübrələmə sistemi əsas gübrə, səpinqabağı və əlavə yemləmə .əklində aparılır. Çəltikdən yüksək məhsul əldə edilməsində peyinin də əhəmiyyəti böyükdür. Odur ki, peyinin fosfor gübrəsi ilə şum altına verilməsi məsləhət görülür. Azot gübrəsinin ən əhəmiyyətlisi ammonium sulfatdır. Azotun illik dozasının 50%-ni səpinlə birgə və ya səpindən bir neçə gün əvvəl, yerdə qalan hissəsini isə cücərmə və kollanma fazalarında hissə-hissə vermək lazımdır. Odur ki, illik dozanın 70-80%-ni peyinlə birlikdə şum altına vermək məsləhətdir. Kollanma fazasında əlavə yemləmə gübrəsi verildikdə ləklərə suyun verilməsi müvəqqəti olaraq dayandırılmalıdır. Məhsuldarlığa kalium gübrəsi də müsübət təsir göstərir.

Çəltiyin məhsuldarlığına yaşıl gübrələr də(siderat) müsbət təsir göstərir.

Bitki kollanma fazasında qida maddələrini nisbətən az mənimsəyir. Lakin,qida elementlərinin çatışmamasına dözmür.

Kollanmadan çiçəkləməyə qədər illik azot normasının 70%-ni, fosforun 90%-ni,kaliumun isə 80%-ni mənimsəyir. Çəltik sahələrinə 3-4 ildsən bir yaşıl gübrə verilməsi də yaxşı nəticə verir. Gübrə normaları torpaq tipindən və planlaşdırılmış məhsuldan asılı olaraq müəyyənləşdirilir.

Bir hektar çəltik sahəsinə orta hesabla 219,78 kq superfosfat verilməlidir. Qeyd etməliyəm ki, fosfor gübrəsini torpaga süni yolla verirlər. Fosfor gübrəsi torpağa toz və dənəvər halda buraxılır.

Ammofos- fosfor-azot gübrəsidir,tərkibində 39% fosfor və 18% azot vardır, suda taxşı həll olur. Əsas hazırlamalarda bütün bütün bitkilərin altına verilir.

Azotlu gübrələr- ammonium nitrat, ammonium sulfat. Bitki azotlaq yaxşı təmin olunduqda yarpaqlar tünd yaşıl rəngdə olur,yaxşı kollanır. Azot çatışmamazlığı ilə bitkinin inkişafdan qalması, saralma yarpaqların damarlarından başlayır, getdikcə zəifləyir, məhsul azalır, keyfiyyət aşağı düşür. Azotu normadan artıq verdikdə ərzaq və yemlərin keyfiyyəti pisləşir. Saxlamağa yararsız olur. Bitkinin tərkibində canlı orqanizimlər üçün zərərli olan toksiki maddələr toplanır.

Ona görədə bitki əkilməzdən qabaq analiz olunmalı, torpağa veriləcək gübrənin miqdarı analiz nəticələri əsasında təyin olunmalıdır.

**Mirzəyev Natiq,**
**dosent**
**Əhədova Nübar,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**n.ahadova85@gmail.com**

## Maliyyə investisiyalarının səmərəliliyinin qiymətləndirilməsi metodologiyası, onun formaları və idarə edilməsinin təşkili

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə investisiyaların qoyuluşu ölkənin sürətli inkişafının zəruri şərti hesab edilir. Ölkədə investisiya fəaliyyətinin inkişafı zamanı iqtisadiyyatın dinamik inkişafı təmin edilir, iqtisadi subyektlər modernləşdirilir, yeni əmtəə və xidmətlərin istehsalının mənimsənilməsi təmin edilir.

Qeyri-neft sektoru və investisiyaların qarşılıqlı münasibətlərinin düzgün bir şəkildə qavranılması üçün investisiya anlayışının elmi izahının verilməsi zəruri bir əhəmiyyət kəsb edir.

İnvestisiyaların səviyyəsi mütləq bir şəkildə cəmiyyətin milli gəlirinin həcminə, bununla da sosial vəziyyətə, iqtisadi fəallığa, iqtisadi motivasiyaların formalaşmasına birbaşa təsir göstərir. Milli iqtisadiyyatdakı makroiqtisadi göstəricilərin əksəriyyəti investisiya dövriyyəsinin dinamikasından, eləcə də keyfiyyət meyyarlarından asılıdır.

Keynsçi nəzəriyyə tərəfdarları belə bir faktı xüsusi olaraq önə çəkirlər ki, investisiyaların və şəxsi yığımların (investisiyaların mənbəyi və ya cəmi) daha çox müxtəlif iqtisadi, ictimai və siyasi proseslərlə və müvafiq dəyişmələr nəticəsində spesifik xüsusiyyətlər kəsb edən vəziyyətlərlə müəyyən olunur. İnvestisiyaların ümumi olaraq götürdükdə əsas üç tipi vardır. Bunlar birbaşa iqtisadi fəaliyyətin başlıca katalizatoru rolunu oynayan istehsal investisiyaları, işgüzar fəallığa birbaşa təsir edən ticarət-material ehtiyyatlarındakı investisiyalar və yaşayış inşaatındakı investisiyalardır. Eyni zamanda, bir sıra iqtisadçılar tərəfindən istehsala qoyulmuş və mövcud bazar qiymətləri ilə götürülmüş real investisiyalar, müasir iqtisadiyyatda önəmli yeri olan qiymətli kağızlara qoyulmuş və gəlir əldə etmək hüququ verən portfel (maliyyə) investisiyalarını fərqləndirirlər

Qeyd edək ki, investisiya – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intelektual sərvətlərdən ibarətdir. İnvestisiya obyektlərinə isə qiymətli kağızlar (səhmlər, istiqrazlar və s.), iqtisadiyyatın bütün sahələrində yeni yaradılan və modernləşdirilən əsas fondlar və dövriyyə vəsaitləri, məqsədli pul əmanətləri, elmi-texniki məhsul və mülkiyyətin digər obyektləri, əmlak hüququ və intellektual mülkiyyət hüququ aid edilir. İnvestisiya fəaliyyəti subyektləri isə (investorlar) hasilat, tikinti, innovasiya və maliyyə kapitalı dövriyyəsi sferasına

daha çox diqqət yetirirlər. İnvestisiyalaşmanın əsas istiqamətləri kimi istehsalın genişləndirilməsinə, istehsal infrastrukturunun inkişafına, modernləşdirməyə, material ehtiyatlarının artırılmasına, sosial infrastrukturunun inkişafına, elmi, kadr hazırlığına investisiyaların fərqləndirilməsi məqsədəuyğundur. İnvestisiya proseslərinin əsas kapitalın artırılması və yeniləşdirilməsi, innovasiyalı inkişafı, sturuktur təkmilləşmələrinin həyata keçirilməsinə və istehsalın səmərəliyini yüksəldən digər bu kimi vəzifələrin icrasına yönəldilir. Ümumiyyətlə, investisiya qoyuluşlarını gələcəkdə gəlir əldə etmək üçün bu gün pul vəsaitlərinin maddi aktivlər və ya qiymətli kağızlar əldə edilməsinə sərfi kimi xarakterizə etmək olar və xarakteristikadan bəllidir ki, investisiyalar real və maliyyə investisiyalarına bölünür. Maliyyə investisiyaları isə – səhm, istiqraz, opsion və s. qiymətli kağızlar alqısı ilə bağlıdır.

İnvestisiya ümumi daxili məhsulun tərкibində bir komponent кimi çıxış edir və o hər bir cəmiyyətdə iqtisadi inкişafa nail olmaq və milli sərvətin artırılmasını təmin etmək üçün zəruridir. Belə ki, makroiqtisadi tarazlıq və məşğulluğun səviyyəsi iqtisadiyyata qoyulan investisiyanın həcmi ilə əlaqədardır. Hər bir dövlət investisiya qoyuluşunu artırmağa və bunun da nəticəsində ÜDM və milli gəliri artırmağa çalışır.

İnvestisiya qoyuluşlarının stimullaşdırılması dövlət tərəfindən mütəmadi tədbirlərin həyata keçirilməsini şərtləndirir. Bu tip tədbirlərin əhəmiyyətli bir qismi məhz investisiya fəaliyyəti ilə əlaqədar olur. Dövlətin investisiya siyasəti məhz buna xidmət edir. Ümumilikdə, investisiya fəaliyyətini həyata keçirməк üçün əsasən aşağıdakı mühüm şərtlər olmalıdır:

- investisiya fəaliyyəti ilə məşğul olmağın marağı;
- investisiya fəaliyyətinə olan tələbat;
- investisiya prosesini həyata keçirəcək kadrlar;
- konkret investisiya layihələri;
- maliyyə qurumları;
- hüquqi baza;
- sabit investisiya mühiti və s.

Maliyyə investisiyalarına müvəqqəti sərbəst kapitaldan istifadənin səmərəli forması və ya müəssisənin əməliyyat fəaliyyətinin diversifıkasiyası ilə bağlı strateji məqsədlərinin realizəsi aləti kimi baxılır. Qeyd etməliyik ki, maliyyə investisiyalarının həyata keçirilməsi müəyyən xüsusiyyətlərə malikdir. Maliyyə investisiyalarının ən əsasları aşağıdakılar hesab edilir:

- İqtisadiyyatın real bölməsində müəssisələr üçün maliyyə investisiyası müstəqil təsərrüfat fəaliyyəti növüdür. Çünki, həmin müəssisələrdə maliyyə investisiyaları onların inkişafının yalnız məhdud strateji məsələlərinin həllinə yönəldilir;
- Maliyyə investisiyaları müəssisənin kənardan investisiya təminatının əsas vasitəsi kimi çıxış edir;
- Strateji maliyyə investisiyaları müəssisənin inkişafının ayrı-ayrı strateji məqsədlərini realizə etməyə imkan verir;
- İqtisadiyyatın real bölməsində portfel maliyyə investisiyalarından iki məqsəd üçün istifadə olunur;
- -Maliyyə investisiyaları müəssisələrə “gəlir-risk” ölçüsü üzrə investisiyalaşdırmanın daha geniş diapazonunu təqdim edir;
- Maliyyə investisiyaları müəssisələrə “gəlir-likvidlik” ölçüsü üzrə investisiya alətləri təqdim edir;
- Maliyyə investisiyalarının həyata keçirilməsi üzrə idarəetmə qərarlarının qəbulu prosesi daha sadə və az əmək tutumludur;
- Maliyyə bazarında konyunkturanın əmtəə bazarına nisbətən yüksək sürətlə dəyişməsi maliyyə investisiyalaşdırılması prosesində daha fəal monitorinqin aparılmasını zəruri edir. Buna uyğun olaraq, maliyyə investisiyalaşdırılması ilə bağlı idarəetmə qərarları da daha operativ xarakter daşımalıdır.

Müəssisələrdə maliyyə investisiyalaşdırılmasının üç forması fərqləndirilir:

1.Müştərək müəssisələrin nizamnamə fondlarına kapitalın qoyuluşu;

2. Pul alətlərinin gəlirli növlərinə kapital qoyuluşu;

3. Fond alətlərinin gəlirli növlərinə kapital qoyuluşu

Maliyyə investisiyalaşdırılmasının forma və xüsusiyyətləri nəzərə alınaraq onun idarə edilməsi təşkil olunur. Maliyyə investisiyalarının yüksək dövrülüyü mövcud olduqda, onun idarə edilməsinin xüsusi siyasəti işlənib hazırlanır. Maliyyə investisiyalarının idarə edilməsi siyasəti müəssisənin ümumi investisiya siyasətinin bir hissəsini təşkil edir. O, kapital qoyuluşunun ən səmərəli maliyyə alətlərinin seçilməsini və onun vaxtında reinvestisiyasını təmin edir.

**Mirzəyev Natiq,**
**dosent**
**Fərəczadə Rəşad,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**fereczade.r@mail.ru**

## Bank risklərinin formalaşma mənbələri və onların idarə edilməsi

Müasir iqtisadi şəraitdə beynəlxalq təcrübə göstərir ki, banklarda risklərin idarə olunması və daxili nəzarət problemləri, korporativ idarəetmənin düzgün qurulmaması ayrı-ayrı banklarda böhranın yaranmasına səbəb olur və nəticədə bank sektorunun maliyyə sabitliyi təhlükəyə məruz qalır. Bank biznesinin sürətli inkişaf etdiyi müasir şəraitdə risklərin idarə olunması problemi Azərbaycanın bank sisteminin vəziyyətinə mənfi təsir göstərə bilən ciddi amillərdən birinə çevrilir.

Məlumdur ki, bank risklərinin heç bir növünü tam olaraq aradan qaldırmaq mümkün deyil. Bankın üzərinə götürdüyü riskin dərəcəsi nə qədər yüksək olarsa,onun potensial mənfəəti də bir o qədər yüksək olmalıdır. Risklər qabaqcadan müəyyən edilməli, qiymətləndirilməli və risk səviyyələri azaldılmalıdır. Bank riskə qarşı olan tədbirlərini artırmadıqca mənfi nəticələrlə üzləşəcəkdir. Bunun qarşısını almaq üçün banklardarisklərin idarə edilməsinin təşkilati strukturu baxımından Müşahidə şurası və onun İdarə heyəti, eyni zamanda Müşahidə şurası tərəfindən yaradılan Risklərin idarəedilməsi komitəsi və onun fəaliyyətinə əməliyyat dəstəyini təmin edən Risklərin idarəedilməsi bölməsi fəaliyyət göstərir.

Banklar planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirilə bilməməsi, əlavə likvid vəsaitin əldə edilməməsi, həmçinin bankın aktivlərinin minimal zərərlə dərhal satılması üzrə imkanların azalması kimi hallarda likvidlik riski ilə, borcalanın banka olan borcunun tam və ya qismən ödənilməməsikimi hallarda kredit riski ilə, valyuta məzənnələrində əlverişsiz dəyişikliklər nəticəsində bankın məruz qala biləcəyi valyuta riski ilə, faiz dərəcəsinin əlverişsiz dəyişməsi nəticəsində bankın məruz qala biləcəyi faiz riski və bu kimi risklərlə üzləşə bilirlər.

Kredit riskinə nəzarət edilməsiməsuliyyətini kreditlər təsdiqləndikdən sonra Risklərin İdarə Edilməsi Departamenti öz üzərinə götürür.Kredit riskinin idarə olunmasında qarşıya qoyulmuş vəzifə kredit riskləri və təsdiq olunmuş kredit xətləri haqqında vaxtı-vaxtında dəqiq məlumata malik olmaq, hansı kredit limitlərinin pozulduğunu və həmin limit pozuntularının risklərin idarə edilməsi qaydalarının tələblərinə uyğun olaraq həll olunub-olunmadığını müəyyən etməkdir. Kredit riskləri idarə olunarkən aşağıdakı metodlardan istifadə edilməlidir:
Borcalanların maliyyə vəziyyətinin araşdırılması,

1. Verilmiş kreditlərin monitorinqi,
2. Kredit ödəmə qabiliyyətinə uyğun olaraq limitlərin verilməsi,
3. Səlahiyyətlər bölgüsünün tətbiqi,
4. Aidiyyatı şəxslər üzrə tətbiq olunan normativlərə riayət olunması,
5. Təminat olaraq alınan girovların yenidən qiymətləndirilməsi,

6. Kreditlərin sektorlar və sahələr üzrə diversifikasiyası.

Likvidlik riskindən qorunmaq məqsədilə qarşıya qoyulmuş məqsəd cəlb olunan resursların gəlirlik əldə edilməsi üçün səmərəli şəkildə yerləşdirilməsinə, likvidlik riski yaranma ehtimalı olan hallarda maliyyə resursları ilə təmin olunma kanallarının yaradılmasına, aktiv-passivlərin müddətlərinin düzgün idarə olunmasına çalışılmasıdır.

Bankın məruz qala biləcəyi digər mühüm risk növlərindən biri də faiz riskidir. Faiz dərəcələrinin əlverişsiz şəkildə dəyişilməsi nəticəsində bankın maliyyə vəziyyəti mənfi nəticələrlə üzləşə bilir. Banka cəlb olunmuş depozitlər üzrə faiz dərəcələri bankın müştəriyə verdiyi kreditin faiz dərəcələrindən artıq olarsa bank bu zaman itkilərə məruz qala bilər. Bu halda risk bankın gəlirinə, aktiv və öhdəliyinə mənfi təsir göstərə bilər. Faiz riskinin əsas formaları aşağıdakılardır:

1. Təyin olunmuş yeni qiymətlə bağlı olan və müddətlər arasında fərqlə (sabit faiz dərəcələri üçün) və bank aktivlərinin, passivlərinin və balansdankənar əməliyyatların yeni qiymətinin təyin olunması (dəyişkən faiz dərəcələri üçün) ilə əlaqədar yaranan risk,
2. Gəlirlilik əyrisi formasının və mailinin dəyişilməsi ilə əlaqədar yaranan gəlirlilik əyrisi riski,
3. Ayrı-ayrı alətlər üzrə qazanılan və ödənilən faizlərin düzgün hesablanmaması və ödənilməməsi ilə əlaqədar yaranan əsas risk.

Faiz dərəcəsi riskini qiymətləndirmək üçün Risklərin İdarə Edilməsi Komitəsi potensial faiz dərəcəsi dəyişikliklərinin ssenarilərini nəzərdən keçirməli və bankın faiz gətirən aktivlərinin həssaslığını gəlir əyrisindəki dəyişikliklərlə hesablamalıdır. Alınan nəticələr sonradan Risklərin İdarə Edilməsi Komitəsi tərəfindən müəyyən edilmiş limitlərlə müqayisə edilməlidir.

**Digər mühüm risk növlərindən biri olan valyuta riski**–bankın xarici valyutada balans və balansdankənar strukturunda olan qiymətlilərinin dəyərlərinin, valyuta məzənnələrinin mənfi istiqamətdə dəyişməsi nəticəsində zərərin yaranması riskidir.

Yuxarıda qeyd olunan risklərin idarə olunmaması nəticəsində bank ciddi maliyyə itkiləri ilə qarşılaşa bilər. Bu məqsədlə banklar risklərin idarə edilməsi prosesində, maliyyə bazarında baş verən dəyişikliklərə uyğun adaptasiya olunmaqla, risklərin minimallaşdırılması üçün adekvat tədbirlər görməli, eyni zamanada Bank tərəfindən faiz dərəcələrinin, valyuta məzənnələrinin dəyişkənliyinə həssaslıq təhlilləri aparılmaqla, ehtimal olunan itkilərin qarşısının alınması üçün müvafiq tədbirlər təşkil edilməlidir.

**Mirzəyev Natiq,**
**dosent**
**Qurbanova Nigar,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**n.qurbanova3590@gmail.com**

## Bazar iqtisadiyyatı şəraitində maliyyə resurslarının idarə olunmasında maliyyə mexanizminin bir sistem kimi rolu

Məlum olduğu kimi bazar iqtisadiyyatı dövründə maliyyə və kredit sistemindən düzgün və səmərəli istifadə etmək günün ən vacib məsələlərindən biridir. İqtisadiyyatın, sosial sahələrin inkişaf etdirilməsində, dövlətin müdafiə qüdrətinin artırılmasında maliyyə və maliyyə mexanizmindən səmərəli istifadə edilməsi günün ən aktual məsələsidir. Hansı dövlət ki, maliyyə mexanizmini düzgün və səmərəli qurmuşdursa, həmin dövlət özünün maliyyə siyasətini də səmərəli həyata keçirir.

Son illərdə respublikamızda maliyyə mexanizminin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Bu görülən işlər də tədricən öz səmərəliliyini göstərməyə başlamışdır. Maliyyə

mexanizmini daha da yaxşılaşdırmaq üçün bir sıra maliyyə ehtiyatlarının dövlət büdcəsinə səfərbər edilməsi qaydaları bir neçə dəfə dəyişdirilərək daha təkmilləşdirilmişdir.

Bazar iqtisadiyyatı maliyyə və kredit sisteminə əsaslanan bir iqtisadiyyat olub, maliyyə mexanizminə söykənən iqtisadiyyatda hər bir dövlətin özünün iqtisadi və sosial vəziyyətini yaxşılaşdırmaq üçün birinci növbədə maliyyə mexanizmindən və onun hər hansı bir həlqəsindən səmərəli istifadə edir və etməlidir.

Maliyyə mexanizminin quruluşu mürəkkəb olub, müxtəlif maliyyə əlaqələrini özündə birləşdirir. Dövlət iqtisadi qanunların tələbini nəzərə almaqla məhsulu, pul gəlirlərini, fondları, milli gəliri bölüşdürərkən maliyyə mexanizmindən istifadə etməklə özünün maliyyə ehtiyatlarını yaradır.

Maliyyə mexanizmi müəssisə və təsərrüfat təşkilatlarının, sığortanın, dövlət maliyyəsinin maliyyə mexanizminə və s. bölünür. Bu mexanizmlərin hər birinə ayrıca struktur həlqələri daxildir. Məsələn, dövlət maliyyə mexanizmi büdcə və büdcədənkənar fondlara bölünür. Hər bir maliyyə mexanizminin fəaliyyəti maliyyə ehtiyatlarının yaradılmasına və yaradılmış maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsinə xidmət edir.

Bütün maliyyə mexanizmləri sərbəstdir. Bu maliyyə mexanizmlərinin hər biri müəyyən vəzifə və funksiyanı yerinə yetirir və bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Maliyyə mexanizmlərinin həm oxşar, həm də fərqli cəhətləri vardır. Maliyyə mexanizmlərinin əsas oxşarlığı maliyyə ehtiyatlarını dövlətin və ayrı-ayrı müəssisələrin sərəncamına toplamaqdan və s. ibarətdir.

Maliyyə mexanizmlərinin fərqli cəhətləri daha çoxdur. Belə ki, müəssisələrdə əldə edilən mənfəət bölüşdürülərkən fondlar yaradılır və istifadə edilir. Sığorta şirkətlərində isə ehtiyat fondları yaradılmasına daha çox fikir verilir. Dövlət maliyyə mexanizmindən istifadə etməkdə özünün maliyyə siyasətini həyata keçirir.

Maliyyə mexanizmi-bazar iqtisadiyyatının tələblərinə və təsərrüfatın elmi əsaslarına əsaslanaraq vəsaitdən düzgün, planauyğun və səmərəli istifadə olunmasını dərindən öyrənir.

Deməli, maliyyə mexanizmi- maliyyənin planlaşdırılması metodlarını, müxtəlif maliyyə əlaqələrinin, maliyyə vəsaitinin və maliyyə idarələrinin düzgün təşkili formaları sistemini qarşılıqlı əlaqədə özündə əks etdirir. Maliyyə mexanizminin əsas məzmunu xalq təsərrüfatında maliyyə resurslarının yaradılması, onun bölüşdürülməsi və istifadəsindən ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində maliyyə mexanizmi aşağıdakı vəzifələri yerinə yetirir:

1. Dövlət müəssisə və təşkilatlarının normal fəaliyyəti üçün onları pul vəsaiti ilə təmin edir.
2. Müəsisə və təşkilatların fəaliyyətinə daim nəzarət edir.
3. Gəlirin, yığımın və maliyyə resurslarının bölüşdürülməsi və yenidən bölüşdürülməsini və.s.həyata keçirir.

Hər dövlətdə maliyyə siyasəti həmin dövlətin iqtisadi siyasətinin əsasıdır. Maliyyə siyasəti birinci növbədə iqtisadi siyasətin, sosial siyasətin və s. həyata keçirilməsində başlıca rol oynayır. Bazar iqtisadiyyatı dövründə iqtisadi ədəbiyyatlarda iqtisadi siyasət, iqtisadi taktika, iqtisadi strategiya kimi anlayışlara tez-tez rast gəlmək olar.İqtisadi siyasət iqtisadi sahədə elmi ideyaların, məqsəd və vəzifələrin, siyasi vasitə və praktik təcrübələrin məcmusuna deyilir. İqtisadi strategiya uzun müddət üçün məqsəd və vəzifələrin fundamental əsaslarından ibarətdir. Taktika isə daha yaxın dövr üçün məqsəd və vəzifələrdən,onların həyata keçirilməsi mexanizmindən ibarətdir.

Maliyyə mexanizmi təşkil olunarkən ölkədə idarəetmənin xüsusiyyətləri, cəmiyyətin inkişaf səviyyəsi aşağıdakı prinsiplərə əsaslanır.

1. Sərbəstlik prinsipi. Bu prinsipin əsas mahiyyəti odur ki, Azərbaycan dövləti müstəqil olaraq, heç bir kənar təsirlər olmadan öz daxili iqtisadi xüsusiyyətlərini nəzərə alaraq maliyyə siyasətini təşkil edir.
2. Dövlətin iqtisadiyyata müdaxiləsi. Bu prinsipə görə,dövlət heç də bütün iqtisadi fəaliyyəti öz əlində cəmləşdirmir. Bu zaman bazar iqtisadiyyatının tələbləri nəzərə alınır və ölkədə əsas maliyyə məsələləri bir mərkəzdən idarə olunur. Özəl bölmənin fəaliyyət müstəqilliyi isə toxunulmaz olaraq qalır.

3. Dövlətin gəlir və xərclərinin balanslaşdırılması və maliyyə ehtiyatlarının yaradılması prinsipi. Ümumiyyətlə,dövlətin maliyyə siyasətinin əsas istiqamətlərindən biri kimi bütün maliyyə planlarının gəlir və xərc hissələri balanslaşdırılmalıdır. Bu isə dövlətin real imkanlarını nəzərə almaqla, məlum vasitələrlə həyata keçirilir. Bunlardan başqa, dövlət gələcəkdə əvvəlcədən nəzərdə tutulmayan xərclərin maliyyələşdirilməsi üçün ehtiyatlar yaradılması sahəsində bütün imkanlardan istifadə etməlidir. Dövlətin maliyyə ehtiyatlarının kifayət qədər olması bir sıra maliyyə məsələlərinin müsbət həllini təmin edən əsas şərtlərdəndir. Maliyyə ehtiyatlarının həcmcə böyüklüyü dövlətin inkişafını göstərən əsas amillərdəndir və dövlətin varlı olmasını əks etdirir.

Beləliklə, bu və ya digər tələbatın ödənilməsi ancaq maliyyə resurslarının varlığı ilə təmin oluna bilər. Bu o deməkdir ki, maliyyə siyasəti real maliyyə imkanları nəzərə alınmaqla işlənib hazırlanmalıdır. Maliyyə siyasətinin həyata keçirilməsində dövlətin məqsədi cəmiyyətin inkişafının ən vacib tələbatını təmin etmək üçün zəruri olan maliyyə ehtiyatlarının tam səfərbərliyə alınmasıdır. Buna uyğun olaraq maliyyə siyasətinin həyata keçirilməsi sahibkarlıq fəaliyyətinin fəallaşdırılması üçün lazımi şəraitin təşkil edilməsini təmin etməlidir. Bundan başqa dövlətin gəlirlərini artırmağa və həmçinin maliyyə ehtiyatlarının formalaşdırılmasinda əhalinin iştirakının genişləndirilməsinə böyük diqqət yetirilir. Maliyyə siyasətinin əsaslı dönüşü maliyyə mexanizmini də yenidən qurmağı tələb edir. Maliyyə mexanixminin yenidən qurulmasının məqsədi bazar münasibətlərinin inkişafı əsasında ictimai istehsalın səmərəliliyinin artırılmasına təsir göstərilməsi, maliyyə resurslarından istifadənin səmərəliliyinin təmin edilməsidir. Maliyyə mexanizminin yenidən qurulması xalq təsərrüfatında qarşılıqlı maliyyə əlaqələrinin təşkilinə prinsipcə yeni yanaşma tələb edir. O, müəssisələrin məsuliyyətini, təşəbbüskarlığını hərtərəfli inkişaf etdirməli, hər bir təşkilatın və bütövlükdə regionun işinin son nəticələrinə marağı təmin etməlidir.

**Mirzəyev Ruslan,**
**Doktorant,**
**Lənkəran Dövlət Universiteti**
**ruslan.mirzeyev01@mail.ru**

## Aqroparkların yaradılmasının sosial səmərəsi

Sosial siyasət bütün dövrlərdə ölkənin daxili siyasətinin əsas elementlərindən biri olmuşdur. O bazar münasibətləri şəraitində iqtisadiyyatda yaranan destruktiv prosesləri neytrallaşdırmaq, əhalinin yaşayış səviyyəsindəki fərqləri aradan qaldırmaq, iqtisadiyyatdakı mövcud sosial infrastruktur sahələrinin inkişaf səviyyəsini yaxşılaşdırmaq məqsədinə xidmət edir.

İqtisadi inkişafla sosial inkişaf arasında birbaşa asılılıq, düz mütənasiblik olduğundan iqtisadiyyatda baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri sosial sahəyə bilavasitə təsirini göstərir. İqtisadiyyatda yaranan böhranlı vəziyyət sosial sferada da öz əksini tapır.

Aqrar sahə üzrə dünyada məlum və mövcud olan çətinliklər, onların aradan qaldırılması istiqamətində atılan addımlar sözsüz ki, ölkə iqtisadiyyatı çərçivəsində diqqətdən kənarda qala bilməz. Davamlı inkişafa nail olmaq, sosial və iqtisadi geriləmələrin qarşısını almaq, ekoloji və sağlam ətraf mühitdə yaşamaq, həmçinin qidalanmaq üçün iqtisadiyyatın aqrar sektorunda da müvafiq addımlar atılmaqdadır.

Hal-hazırda ölkəmiz üçün aqrar sferada yaradılan yeni sahə - aqroparkların yaradılması tendensiyası sürətli şəkildə davam etdirilir. Cənab Prezidentin son çıxışlarında qeyd etdiyi kimi, aqroparkların sayının 45-ə çatdırılması nəzərdə tutulmuşdur. Bu aqroparkların 28-i bitkiçilik, 17-si isə heyvandarlıq kompleksini əhatə edəcəkdir.

Aqroparkların yaradılması və planlaşdırılması, ekoloji simbiozların yardılması sosial infrastrukturun yaradılması ilə bağlıdır. Ölkə və region nə qədər kasıbdırsa, sosial infrastrukturu

da o qədər əhəmiyyətlidir. Sosial infrastruktur sahəsində fəaliyyət obyektlərdən və xidmətlərdən ibarətdir. Elə müəsisələrə nümunə kimi, məktəblər, klinikalar, apteklər, maliyyə və daha geniş ictimai xidmətlər daxildir. Bəzi şirkətlər korporativ sosial məsuliyyətin strategiyası çərçivəsində sosial güzəştlərə də yer verirlər.

Aqroparkların ölkəmizdə yaradılması ölkənin və regionların sosial-iqtisadi inkişafına öz töhvəsini verir və bu sahədən alınan səmərə yaxın gələcəkdə nəiniki regionların sosial-iqtisadi inkişafında, həmçinin ekologiya, turizm, təhsil, səhiyyə, mədəniyyət, humanitar, idman və digər sahələrə də bilavasitə müsbət təsir göstərəcəkdir. Sosial infrastruktur, məktəbəqədər təhsil müəssisələri, təhsil orqanları, təhsil, elm, səhiyyə, idman, ətraf mühitin qorunması müəssisələri; mənzil və kommunal təsərrüfat binaları; ictimai satış və ictimai qidalanma müəssisələri; ictimai nəqliyyat, rabitə, informasiya xidməti; mühafizə və sağlamlıq xidmətindən ibarətdir. Sosial infrastrukturun vəzifəsi normal həyat, bərpası və əməyin möhkəmləndirilməsini təmin etməkdir. Aqro-sənaye kompleksinin sosial infrastrukturunun fəaliyyətinin effektivliyi əməyin mahsuldarlığını və işçilərin həyat səviyyəsini artırmaqla ifadə olunur. Təkcə aqroparklarla bağlı, onların yaradılması – layihələndirmə, tikinti, quraşdırma, istehsalat, ixrac və b. sahələri əhatə edən fəaliyyətlər özündə böyük işçi qüvvəsini və iqtisadi potensialı birləşdirir. Burada həm, müvafiq ixtisas sahələri ilə əlaqəli mütəxəssis əməyi, həmçinin k/t ilə əlaqəli sahələrdə əməyin təşkili ilə bağlı böyük işçi qüvvəsinə tələbat həmişə olacaqdır. Bu da sözsüz ki regionda məşğulluqla bağlı problemlərin azalmasına, yoxsulluq hallarının aradan qaldırılmasına gətirib çıxaracaqdır.

Aqroparkların inkişafından sosial faydalar yerli və yeni iş yerlərinin yaradılması, daha yaxşı iş və əmək şəraiti, ictimai rifah və ictimaiyyətin məlumatlandırılması, gender bərabərliyinin yaxşılaşdırılması, cinayətlərin qarşısının alınması və daha yaxşı təhlükəsizliyin təmin edilməsindən ibarətdir. Aqroparkları çox vaxt inkişaf etməkdə olan ölkələr üçün vacib olan sosial infrastrukturun yaradılmasını nəzərdə tutur. Nümunə olaraq peşə təlim mərkəzləri, bacarıqların inkişafı təlimləri, eləcə də geniş icma xidmətləri bura daxildir.

Aqroparkların strukturunun sosial-iqtisadi effektivliyinin əsas göstəriciləri aşağıdakılardır:

- İEÖ-in elmi əsaslı standartlarla müqayisəli yerli kənd təsərrüfatı istehsalının ərzaq və qeyri-ərzaq xammalının adambaşına düşən səviyyəsi;
- əmək məhsuldarlığının səviyyəsi və dərəcəsi;
- gəlir artımının səviyyəsi və dərəcəsi;
- aqrar istehsalın rentabellik dərəcəsi və səviyyəsi.

Aqroparkların nəzdində sosial infrastrukturun mövcudluğu birbaşa olaraq əmək məhsuldarlığının və işçilərin həyat səviyyəsinin artırılmasına effektiv təsir göstərir. Əmək resurslarının keyfiyyət tərkibi aşağıdakılarla səciyyələnir:

- sağlamlıq dərəcəsi;
- təhsil və ixtisas səviyyəsi;
- cins və yaş strukturu;
- sosial yetkinlik, maraq və ehtiyac səviyyəsi;
- əməyin məzmununa və mürəkkəbliyinə asılı sosial struktur;
- əməyə münasibət;
- gəlir və əmək haqqı səviyyəsi.

Aqrar sahənin ölkəmizdə inkişafınının sürətlənməsinə təkan verən səbəblər məşğulluq səviyyəsi ilə əlaqəlidir. İqtisadi və sosial inkişaf mərkəzinin məlumatlarında ötən illər üçün bu göstərici 37% olmuşdur. Bu rəqəmin formalaşması k/t-nın intensiv üsulla inkişaf etdirilməsi ilə əlaqədardır. Ona görə də, aqrar sektorun əmək bazarında payı daha yüksəkdir.

Təbii haldır ki, bu sektorda çalışan insanların əksəriyyəti rayon əhalisinin payına düşür. Aqrar sahədə əhalinin, xüsusən də gənclərin işlə təmin olunması daha önəmli məsələdir. Çünki, işsiz qalan gənclər son vəziyyədə daha çox urbanizasiyalaşmış rayonlara üz tuturlar və ya ölkəni tərk edirlər. Bu da iri şəhərlərdə əhali sıxlığı ilə nəticələnir.

Regionda müvafiq profilli sahələrlə bağlı ixtisaslaşmalar üzrə kadrların yetişdirilməsi dövlətimizin bu sahədə atdığı mühüm addımlardan biridir. Hazırda aqrar yönümlü ixtisaslar üzrə kadr hazırlanması bir neçə universitetdə həyata keçirilir. Bu da növbəti mərhələdə xarici mütəxxəssislər əvəzinə yerli potensialdan daha səmərəli istifadəyə gətirib çıxaracaqdır.

Sözsüz ki, aqroparkların yaradılması konsepsiyası bir çox ekoloji və sosial-iqtisadi problemlərin davamlı həll yolu kimi yaranmışdır. Aqroparklar, ictimai tələblər nəzərə alınmaqla, sosial tələblərə cavab verməklə, ətraf mühiti çirkləndirmədən, ümumi rifah halının yaxşılaşması naminə istehsal həyata keçirməyə istiqamətlənmişlər. Aqroparkların sosial səmərəsi barədə qeyd olunarkən, cəmiyyət üçün ekoloji təmiz və təhlükəsiz qida istehsalının məhz bu sənaye sahələri ilə əlaqəli olması danılmazdır. Dövrümüzdə təhlükəli qidalar və onların fəsadları ilə bağlı informasiyalar sosial və ictimai sabitliyi pozmaqla yanaşı, arzuolunmaz xəstəliklər və digər fəsadlarla nəticələnir. Ona görə də yerli istehsalın müvafiq norma və tələblər çərçivəsində aqroparklarda cəmləşdirilməsi, kənardan daxil olmalar üzərində də öz müsbət təsirini göstərəcəkdir. Ən vacib fakt isə ondan ibarətdir ki, yerli istehsal ölkənin və regionun iqtisadi və sosial tələblərinə cavab verməklə yanaşı, "Made in Azerbaijan" brendinin dünyaya tanıdılmasına müsbət təsir göstərəcəkdir.

**Paşayev Tofiq,**
**dosent**
**Həbibi Həbib,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**habib130892@gmail.com**

## Bazar iqtisadiyyatının formalaşmasında və iqtisadi müstəqilliyin təmin olunmasında innovasiya sahibkarlığının rolu

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir. XXI əsr dünya iqtisadiyyatında sahibkarlığın ən geniş yayılmış formalarından biri innovasiya sahibkarlığıdır. İnnovasiya sahibkarlığının inkişaf etdirilməsi sənayeləşmədən informasiya cəmiyyətinə keçid prosesi ilə birlikdə daha çox əhəmiyyət kəsb edməyə başlamışdır. Tədiqatlar göstərir ki, G-7 ölkələrində (Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, İngiltərə, ABŞ) innovasiya iqtisadiyyatının (xüsusilə innovasiya sahibkarlığı) inkişaf səviyyəsi ilə illik iqtisadi artım arasında ciddi əlaqə mövcuddur.

İnkişaf etmiş ölkələrin iqtisadi yüksəlişi və bu ölkələrdə elmi-texniki tərəqqinin inkişafı innovasiya sahibkarlığı ilə bağlıdır. Əksər iqtisadçılar sahibkarlığın 2 formasını bir birindən fərqləndirirlər: onlardan biri yeniliklərin tapılması və reallaşdırılmasıdır ki, bu da innovasiya sahibkarlığı adlanır. Digəri isə xalis bazar sahibkarlığı və yaxud marketinqdir. Elmi-texniki nəaliyyətlərin istehsala tətbiqi innovasiya adlanır. İnnovasiya yaradıcılıq əsasında meydana çıxır. Lakin hər yaradıcılıq innovasiya hesab edilə bilməz. Yenilik heç bir zaman sıfırdan meydana çıxmır. İnnovasiyaların meydana çıxması üçün müəyyən mühit və bu innovasiyanın meydana gəlməsi üçün lazimi informasiya ehtiyatları mövcüd olmalıdır. İnnovasiya fəaliyyəti avadanlıqların, əmək predmetlərinin, istehsalın təşkili formasının, idarəetmənin qabaqcıl texnologiyadan və elmi-texniki nəaliyyətlərdən istifadə etməklə təkmilləşdirilməsi prosesidir. Müəssisələrin modernləşdirilməsi, müasir və mütərəqqi texnologiyanin tətbiqi, bazarda amansız rəqabətə davam gətirə bilən məhsulların istehsalı innovasiya sahibkarlığından çox asılıdır. Bir çox insanlar yeni ideyaların yaradılması yenilik prosesinin başlanğıcı olduğunu düşünür, amma əslində bu doğru deyil. Yeni innovasiyaların meydana çıxması intizamlı yenilik prosesinin gedişində baş verir. Yekun olaraq innovasiya mövcud məhsulların artımlı təkmilləşdirilməsi,

tamamilə yeni məhsullar və xidmətlər, eləcə də xərclərin azaldılması, səmərəliliyin təkmilləşdirilməsi, yeni biznes modellər, yeni müəssisələr və sair sayda digər formalar kimi irəliləyişlərin yaranması ola bilər.

İqtisadi sistemlərin bir birini əvəz etdiyi və o cümlədən Azərbaycanda və keçid iqtisadiyyatı dövrünü yaşayan digər ölkələrdə iqtisadiyyatı inkişaf etdirmək yolunda innovasiya sahibkarlığının rolu əvəzedilməzdir. Əksər hallarda bu tip ölkələrdə istehsal imkanları, məhsulun keyfiyyəti digər ölkələrlə müqayisədə çox aşağıdır. Bu ölkələrin istehsal etdikləri məhsullar dünya bazarında rəqabətə dözmür, hətta bu məhsullar dünya bazarı üçün yararlı olmur. Bu səbəbdən bazar münasibətlərinin formalaşdırılması şərti ilə, insanların yaradıcılıq patensiallarından istifadə etməklə innovasiya sahibkarlığının inkişafı və ona dövlətin yaxından köməyi mühüm əhəmiyyətə malikdir. Dünya təcrübəsi göstərir ki təbii resursları zəngin ölkələrin əksər qismi iqtisadi inkişafda innovasiya sahibkarlığının əhəmiyyətini nəzərə almadıqlarından sonrakı dövürlərdə büdcə gəlirlərinin azalması, ərzaq təhlükəsizliyi və ümumilikdə iqtisadi müstəqillik baxımından ciddi problemlər yaşayırlar. İnnovasiya sahibkarlığı və orta səviyyəli sahibkarlığın formalaşması bir- birindən qarşılıqlı sürətdə aslıdır. Bunları nəzərə alaraq görürük ki, ölkəmizdə innovasiya sahibkarlığının inkişaf etməməsinin əsas səbəbi orta təbəqə sahibkarlığın formalaşmamasıdır. Azərbaycanda bu problemlərin həll yolu dövlətin iqtisadiyyata dəstəyindən daha vacib bazar münasibətlərinin, bazar mühitinin və bazar iqtisadiyyatının əsas həlledici elementlərinin qanunla dövlət səviyyəsində qorunmasıdır.

İqtisadi müstəqilliyin təmin olunmasında innovasiya sahibkarlığının rolunun artırılması üçün aşğıdakı təkilflər verilə bilər:

1. Ümümi təkamül prosesi nəticəsində məğlub ayrılmış adət və ənənlərin ölkənin əsas prespektiv resursu sayılan gənc əmək ehtyatlarına təsirinin minumumlaşdırılması üçün təhsilə ayrılan maliyyə resurslarının artırılmasına yenidən baxılması, inkişaf etmiş qərb ölkələrinin təhsil mexanizminin ölkəmizdə tam olaraq formalaşdırılması, təhsil və iqtisadi fəaliyyətin paralel qurulması.
2. Regionların inkişafında təbii xüsusiyyətlərin və ehtiyatların nəzərə alınması.
3. Rayonların ərazi ölçülərindən və urbanizasiya səviyyəsindən səmərəli istifadə edilməsi.
4. Yaşayış məntəqələrində və məntəqələrarası infastrukturun yenidən qurulması.
5. Əhalinin ümumi kadr hazırlığı və potensialının artırılması

**Səlimov Hikmət,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**hikmat.salimov@bk.ru**

## Lənkəran iqtisadi regionunun aqrar- emal müəssisələrində marketinq fəaliyyətinin icrasını ləngidən amillər

Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində tarazlı regional və davamlı sosial-iqtisadi inkişafın təmin edilməsində əhalinin qida məhsullarına olan tələbatının ödənilməsində aqrar-emal müəssisələrinin rolu danılmazdır. Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına görə, təkcə 2010-2016-cı illərdə respublika ərazisində qida məhsulları və içki istehsalı ilə məşğul olan bütün emal müəssisələrinin sayı 33 vahid, o cümlədən kiçik müəssisə statuslu müəssisələrin sayının 140 vahid azalmasına baxmayaraq, onların istehsal etdikləri məhsulların həcmi 165%, istehsalçı müəssisələrin anbarlarında, hazır məhsul qalığının həcmi isə - 3 dəfə artmışdır. Bu faktlar onu göstərir ki, ölkəmizin aqrar-emal müəssisələrində bütünlüklə menecmentin və onun əsas funksiyalarından biri olan marketinqin səmərəli təşkili və idarə edilməsi, marketinq konsepsiyasının formalaşdırılması üzrə nöqsanlara yol verilmişdir.

Belə ki, Lənkəran iqtisadi regionunda fəaliyyət göstərən ayrı-ayrı aqrar-emal müəssisələrinin rəhbərləri və mütəxəssisləri ilə apardığımız söhbətlər və araşdırmalar göstərir ki,

onlar marketinqin mahiyyətini müxtəlif aspektdə başa düşürlər. Onların böyük əksəriyyəti hesab edir ki, marketinq sadəcə satış fəaliyyətidir və marketinq məhsulların istehakçılaraçatdırılması və yüksək qiymətə reallaşdırılması deməkdir.

Bu günümüzə qədər maketinqə dair alimlərin ədəbiyyatları, onların praktiki tətbiqini və aparılan tədqiqatları əsas götürərək deyə bilərik ki, marketinq – aqrar-emal müəssislərində istehsalın fasiləsizliyinin və səmərəliliyinin təmin edilməsində müstəsna rol oynayan, daxili və xarici ərzaq bazarlarını tədqiq edən, onların və əhalinin alıcılıq qabiliyyətini müəyyənləşdirən, istehsal edilən çoxçeşidli qida məhsullarının hərəkəti, onların alıcılara tam həcmdə çatdırılmasını təmin edən, reklam işini həyata keçirən satışın stimullaşdırılması ilə məşğul olan elm və fəaliyyət növüdür.

Son illər kiçik ölçülü aqrar-emal müəssisələri rəqabət mübarizəsinə tab gətirmədən öz fəaliyyətlərinə xitam verirlər. Araşdırmalar göstərir ki, onların əksəriyyəti təkcə maliyyə və xammal çatışmazlığı səbəbindən deyil, həm də idarəetmə səriştəsizliyi ucbatından ləğv edilirlər. Deməli, səmərəli marketinq fəaliyyətini formalaşdıra və həyata keçirə bilməyən hər hansı aqrar-emal müəssisəsi nəticə etibarı ilə daxili və xarici bazarlarda öz mövqeyini itirirlər.

Lənkəran iqtisadi rayonunda fəaliyyət göstərən "Nur Süd" MMC,"Palfood" MMC, "Lənkəran-Konserv" ASC və digər müəssisələrdə apardığımız araşdırmalar göstərir ki, onların marketinq üzrə problemlərini aşağıdakılar təşkil edir:

- Planlaşdırma işinin səmərəsiz təşkili;
- Daxili və xarici bazarlarda gözlənilmədən baş verən dəyişikliklər;
- Alıcılar və onların tələbatı haqqında dolğun informasiyanın olmaması;
- Beynəlxalq standartların zəif tətbiq edilməsi;
- Məhsullara olan tələbat səviyyəsinin aşağı düşməsi və mövsümü tələbatın nəzərə alınmaması;
- Rəqiblər, alıcılar, tədarükçülər, vasitəçilər arasında hüquqi uyğunsuzluq;
- Tədarükçülərin, alıcıların satış üzrə agentlərin müflisləşməsi;
- Bazar seqmentində baş verən dəyişiklik;
- Rəqiblər tərəfindən istehsal edilən məhsulların bazardan sıxışdırılıb çıxarılması;
- Maddi-texniki təchizat, satış və logistika üzrə yaranan problemlər;
- Marketinq fəaliyyətinin təşkili üçün tələb olunan maliyyə çatışmazlığı;
- Vergi dərəcələrinin və gömrük rüsumlarının yüksək olması;
- Yüksək ixtisaslı kadrların (marketoloqların) çatışmamazlığı;
- Ekoloji problemlər;
- Regional bazarın azlığı;
- İnnovasiya və diversifikasiya fəaliyyətinin dövrün tələbinə uyğun aparılmamasıvə s.

Lənkəran iqtisadi rayonunun aqrar-emal müəssisələrinə marketinqin səmərəli təşkilinə və formalaşdırılan konsepsiyanın həyata keçirilməsinə mənfi təsir edən əsas amil – kənd təsərrüfatı məhsullarının tədarükçüləri tərəfindən aqrar-emal müəsisələri ilə imzaladıqları öhdəliklərə düzgün riayət etməməsi; potensial alıcı bazarlarının həcminin kiçik olması; alıcılara göndərilən emal məhsullarının çeşidlərinin azlığı və düzgün seçilməməsi; ölkədə vergi və gömrük siyasətində baş verən dəyişikliklər; müəsisəyəyöəldilən investisiyaların ödəmə müddətinin uzunluğudur.

Bunlarla yanaşı regional nümayəndəliklərin təşkili, dilerlərin seçilməsi, servis xidmətinin lazımi sıviyyədə təşkil edilməməsi, qiymətlərdə baş verən dəyişiklik kimiproblemlərin mövcudluğu risk dərəcəsinin yüksək səviyyəsini sərtləşdirmişdir.

Ölkənin aqrar-emal müəssisələrində yuxarıda göstərilən marketinq problemlərinin aradan qaldırılması əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahənin ətraf mühitin çirklənməsinə mənfi təsirinin aradan qaldırılması və bütünlükdə aqrar-emal müəssisələrinin dayanıqlı inkişafını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"-ndə uzun və yaxın müddətli dövr üçün bir sıra strateji hədəflər müəyyən edilmiş, marketinq fəaliyyətinin icrasına yönəldilən Strateji Məqsəd formalaşdırılmışdır.

**Nəticə.** Aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, marketinqin təkmil tərifi bu vaxtadək formalaşmamış və müxtəlif yanaşmalar qüvvədə qalmaqdadır. Onların məzmunu ilk növbədə bazarın hərtərəfli öyrənilməsi, zövqlərin və tələbatların araşdırılması, tələb və təklifin uyğunlaşması ilə şərtləşmişdir.

Fikrimizcə,Lənkəran iqtisadi regionunun aqrar-emal müəssisələrində marketinq fəaliyyətinin icrasını ləngidən amillərin aradan qaldırılmasıüçün aşağıdakı tövsiyələrin həyata kecirilməsi məqsədəuyğun olardı:

Aqrar-emal müəssisələrində marketinq konsepsiyası SWOT-təhlilin nəticəsində formalaşdırılmalıdır.

Aqrar sahənin klasterlərin və aqroparkların yaradılması və inkişafına təkan verən səmərəli biznes-marketinq strategiyasının işlənib hazırlanması və aqrar-emal müəssisələrində mövcud marketinq strukturunun (xidmətinin) modernləşdirilməsi təşkil edilməlidir.

Aqrar-ərzaq bazarının tənzimlənməsi mexanizminin beynəlxalq təcrübəyə uyğun daim təkmilləşdirilməsi, regionların ənənəvi məhsul növləri üzrə ixtisaslaşması, əkin sahələrinin optimallaşdırılması, müxtəlif formalı iqtisadi subyektlərlə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi marketinq konsepsiyasının hədəfləri sırasına daxil edilməlidir.

Lənkəran iqtisadi rayonu üçün çayçılığın, çəltikliyin tam bərpası və inkişafı marketinq fəaliyyətinin üzvü tərkib hissəsini təşkil etməklə həmin məhsulların idxalını azaltmaq və ixracını artırmaq yaxın və uzun müddətli dövrün əsas hədəfinə çevrilməlidir.

**Zamanov Füzuli,**
**dosent**
**Həsənov Murad,**
**magistr**
**LənkəranDövlətUniversiteti**
**muradhesenov141@gmail.com**

## Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafı

Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafı dedikdə neftdən asılı olmayan prioritet sahələrin inkişafı nəzərdə tutulur. Bu məsələ ölkə başçısının birbaşa diqqət mərkəzində olduğu bir məsələdi.Ona görə də cənab prezidentimiz bütün çıxışlarında bu məsələyə toxunur. Bu istiqamətdə atılmış addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təstiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat prespektivi üzrə Strateji Yol Xəritəsi oldu. Bu proqramın qəbul edilməsində əsas məqsəd neftdən asılılığı minimum səviyyəyə endirmək və ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etməkdir. Hal hazırda bu istiqamətdə görülən işlər öz bəhrəsini verir və qeyri-neft məhsullarının ixracatdakı xüsusi çəkisi durmadan artır. Bunun nəticəsi olaraq ölkə iqtisadiyyatının neftdən asılılıq dərəcəsi azalır.

Ölkə başçısı, cənab prezidentimiz İlham Əliyevin dərin elmi əsaslara söykənən iqtisadi strategiyasının uğurla icra olunması, qəbul olunan Dövlət proqramları, inkişaf konsepsiyaları, strateji yol xəritələri Azərbaycanda davamlı inkişafın əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin və sosial rifahın daha da artırılmasına böyük töhfələr verib. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurlu icrası qeyri-neft sektorunun davamlı inkişafına ciddi təkan verib. Ölkəmizin davamlı inkişafının təmin olunmasında dövlət başçısının böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rol oynayıb.

Son dövrlər ölkənin kompleks sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə həyata keçirilən tədbirlər qeyri-neft sektorunun inkişafına da zəmin yaradıb. Eyni zamanda, bu istiqamətdə həyata keçirilən tədbirlər yoxsulluğun səviyyəsinin azaldılmasına, iqtisadiyyatın

özünüinkişaf qabiliyyətinə malik oşlmasına və ölkənin rəqabət qabiliyyətinin də artmasına səbəb olacaqdır.

Son bir neçə ildə Azərbaycanda neft-qaz sənayesinin daha da inkişaf etdrilməsi, yeni yataqların işlənməsi və istehsalın artırılması, alıcı bazarının çox olması ölkəyə daxil olan valyuta ehtiyatlarını da ciddi şəkildə artırıb. Bu isə Azərbaycanın hərtərəfli inkişafı üçün ən başlıca amildir. Məhz bu sahənin sürətl iinkişafı son illərdə qeyri-neft sektorunun canlanmasına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, regionlarda infrastruktur təminatının yüksəlməsinə, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması sahəsində qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsinə, regionlarda aqrar-sənaye potensialının artırılmasına və digər işlərə böyük töhfələr verib. Dövlət proqramlarının uğurlu icrası nəticəsin də ölkəmizin makroiqtisadi göstəricilərində regionların xüsus içəkisi yüksəlib, sahibkarlığın inkişafına dövlət dəstəyi güclənib, yerli istehsal və emal müəssisələrinin fəaliyyəti genişləndirilib, iqtisadi və sosial-mədəni infrastruktur obyektləri yenidən qurulub. Paralel olaraq yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması nəticə etibarilə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edib. Dövlət proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz, su ilə təchizatı, səhiyyə və təhsil müəssisələrinin tikintisi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması, onların məskunlaşdıqları ərazilərdə yeni işyerlərinin, məktəb, səhiyyə vədigər sosial yönümlü obyektlərin yaradılması istiqamətində ciddi işlər görülüb.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramında qeydolunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla bölgələrin davamlı inkişafında və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyas ıçərçivəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında, eləcə də ölkə əhalisinin rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayıb. Bu v ədigər görülən işlərinn əticəsi olaraq 2004-cü ildən bu günə qədər 1,9 milyondan artıq yeni iş yeri açılıb ki, bunun da böyük əksəriyyəti daimi iş yerləridir. Hazırda işsizlik 5 faiz səviyyəsinə qədər enib.

Hazırda Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları, o cümlədən, elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikintimaterialları, hazır toxuculuq məmulatları və s. müxtəlif bölgələrə ixrac edilir. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün ölkə prezidentinin sərəncamları və təsdiq etdiyi inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli dövlət kreditlərinin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollarlıq vəsait xərclənib. Bu, xərcləmələr çox keçmədən öz bəhrəsini verməyə başlayıb və iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olub.

**Zamanov Fizuli,**
**dosent**
**Əliyev Sərdar,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**muhammadali_96@inbox.ru**

## Lənkəran rayonunun turizm potensialı və onun inkişaf problemləri

İqtisadi inkişafa yüksək real nəticələr verə bilən sahələrdən biri məhz turizm sahəsidir. Xidmət sektorunun aparıcı sahələrindən olan turizm, müstəqillik əldə etdikdən sonra Azərbaycanda daha sürətlə inkişaf etməyə başladı. Xüsusilə regional turizmin inkişafı həm region iqtisadiyyatına, həm də bütövlükdə ölkə iqtisadiyyatının inkişafına öz təsirini göstərməkdədir. Regional turizmin daha geniş formalaşmaqda olan ərazilərindən biri Lənkəran rayonudur.

Sahibkar subyektlərinin biznes fəaliyyətinə əlverişli şərait yaradan bir sahə kimi turizm, Lənkəran rayonu üçün yeni olmasa da, bu sahədə aparılan elmi araşdırmalar və mövcud nəticələr potensial imkanların kifayət qədər mənimsənilmədiyindən xəbər verir.

Turizmin inkişafı ilə bağlı bölgədə aparılan iqtisadi islahtlar nəticə etibarilə sahə üzrə yeni sahibkarların yaranmasına, onların inkişafına və sağlam rəqabətin genişlənməsinə yol açıb. Beləki, regional turizmin inkişafına imkan verən elementlərdən biri məhz yeni mehmanxanaların növlərinin tikilməsi və başlıcası isə beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Lənkəran iqtisadi rayonunun təbii iqlim mühitini və yerləşdiyi coğrafi mövqeyini nəzərə alsaq, rekreasiya tipli mehmanxanaların formalaşmasına daha çox ehtiyacın olması ortaya çıxır. "Palıdlı sahil", Haftonu qəsəbəsində təbii isti su pansionatı, yeni istifadəyə verilən "Xanbulan" turizm-istirahət mərkəzləri belə obyektlərdən hesab edilir. Lakin, bununla yanaşı digər iri həcmli lyuks tipli mehmanxanaların olması da vacibdir. Təəssüf ki, Gəncə və Qəbələ istisna olmaqla digər rayonlarda belə tip mehmanxanalar fəaliyyət göstərmir.

**Lənkəran rayonunun mehmanxana və mehmanxana tipli müəssisələrin vəziyyəti.**

Cədvəl 1

| Göstəricinin adı | 2010 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı. | 13 | 17 | 16 | 17 | 16 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayı. | 211 | 342 | 462 | 466 | 392 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu, yer. | 411 | 750 | 1110 | 1322 | 887 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrdə çalışan işçilərin orta illik siyahı sayı, nəfər. | 57 | 150 | 171 | 110 | 137 |

***Lənkəran rayonunun statistik göstəriciləri (2010-2017 illər).***

Cədvəl 1 materiallarından göründüyü kimi Lənkəran rayonunun mehmanxana və mehmanxana tipli müəssisələrin sayında demək olar ki, dəyişiklik baş verməyib. Lakin bununla yanaşı nömrələrin, birdəfəlik yer tutumunun sayında artım baş verib. Buna uyğun olaraq işçilərin sayında baş verən artım 2015-ci ildə 1110 nəfərlik yerə qarşı 171 işçi çalışmışdırsa, 2016-cı ildə 1322 nəfərlik yerə qarşı 110 nəfər, 2017-ci ildə isə 887 nəfərlik yerə qarşı isə 137 nəfər işçi fəaliyyət göstərmişdir. Mövcud rəqəmlər nömrə saylarının artımına görə onu deməyə əsas verir ki, Lənkərana gələn turistlərin sayında artım prosesi baş verib. Gələn turistlərin sayıa görə mehmanxana müəssisələrində çalışan işçilərin say tərkibinin 2017-ci ildəki 27 nəfər artımı bu sahədə səmərəliliyin əvvəlki illərə nisbətən aşağı olmasını göstərir. Xərc strukturunda əmək haqqının çoxalması müəssisə üçün arzuolunan hesab edilmir. Hər bir müəssisə bu sahədə xərclərin aşağı salınmasına və kadrlara tələbatın daxili imkanlar hesabına ödənilməsinə daha çox çalışır.

Lənkəran rayonuna gələn turistlərin say təkibində baş verən dəyişikliklər rekreasiya ilə yanaşı əyləncə turizminə də marağın artmasından xəbər verir. Sözsüz ki, turist sayının artımı mehmanxana və mehmanxana tipli müəssisələrin sayının artımını obyektiv zərurətə çevirir. Bu sahəyə investisiyanın yönəldilməsi sahibkar subyektləri üçün geniş imkanların yaradılmasına əsaslanır.

**Lənkəran rayonunun mehmanxana və mehmanxana tipli müəssisələrində yerləşən turistlərin say tərkibi.**

Cədvəl 2

| Göstəricinin adı | 2010 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş səxslərin sayı, nəfər. | 3936 | 8803 | 10924 | 8681 | 10690 |
| O cümlədən: | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Azərbaycan vətəndaşları. | 3575 | 8201 | 10217 | 8324 | 9836 |
| Xarici ölkə vətəndaşları. | 361 | 602 | 707 | 357 | 854 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin əldə etdiyi gəlirlər.min manat | 403,8 | 1253,3 | 1564,6 | 743,1 | 909,1 |

Lənkəran rayonunun statistik göstəriciləri (2010-2017 illər).

Lənkəran rayonununmehmanxana və mehmanxana tipli müəssisələrinin əldə etdiyi gəlirlərin 2015 ildə daha yüksək olması və ondan sonrakı dövrlərdə azalması ölkə iqtisadiyyatıda baş verən devalvasiya ilə əlaqələndirilə bilər. Gəlirlərin sonrakı illərdə artmı həm xarici, həm də ölkə vətəndaşları hesabına təmin edilməsini bildirir.

Lənkəran rayonunun turist heyətinə nəzər saldıqda həm ölkədaxili, həm də xarici turistlərlə zəngindir. Xüsusilə xarici turistlərin sayı dinamik şəkildə artır. Xarici turistlərin əsasını İran, Rusiya, qismən Avropa ölkələri və ABŞ təşkil edir. Daxili turistlər əsasən daha çox müalicə məqsədilə ( İsti Su pansionatı) gələn turistlərdən ibarətdir.

Qeyd edilənlərlə yanaşı dağ turizminin inkişafı üçün də geniş potensialın olması turizmin bir sıra növlərindən istifadə edilməsinə imkan yaradır. Bir çox mütəxəssislər Talış dağlarını xizək turizmi üçün əlverişli hesab edirlər. Dağlıq ərazilərdə bu turizmin perspektivləri ilə bağlı araşdırmaların aparılması və infrastrukturun yaradılmasına ciddi ehtiyac vardır. Dağ və dənizlə əhatə olunan Lənkəran rayonunda turizmin bir sıra növlərindən istifadə etmək mümkündür. Sistemin geniş şəkildə qurulması qış və yay turizminin daim daxili və xarici turistlər üçün istirahət məkanına çevrilməsinə şərait yaradır.

Yay turizmi üçün Xəzər dənizinin Lənkəran sahillərinin tam yenidən qurulması zəruridir. Bu məqsədlə dövət, yerli və həm də xarici sərmayələrin cəlb edilməsinə ehtiyac yaranır. Stimullaşdırma məqsədilə xarici investisiyanın cəlbi üçün dövlətin güzəştlər təqdim etməsi daha məqsədəuyğundur.

Hesab ediik ki, Lənkəran rayonunun turizm fəaliyyətinin kompleks şəkildə inkişaf etdirilməsi üçün mövcud potensialdan tam formada istifadə edilərsə, rayonun sosial-iqtisadi həyatında daha ciddi irəliləyişlər əldə oluna bilər.

**Zamanov Fizuli,**
**dosent**
**Şirinov Səid,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**muhammadali_96@inbox.ru**

## Mehmanxana turizminin regional idarə edilməsində dövlət mexanizmlərinin rolunun artması

Mehmanxana turizmi iqtisadiyyatın həm güclü inkişaf amili, həm də cəmiyyətdə mədəniyyət və ictimai rifah göstəricisi kimi insanın həyat səviyyəsinin yüksəlməsinə, mənəvi cəhətdən zənginləşməsinə kömək edir. Azərbaycan dövləti regional turizmin inkişaf etdirilməsini iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamətlərdən biri elan etdikdən sonra sahənin inkişafı daha da sürətləndi. Son illər regional turizmin, xüsusilə mehmanxana turizminin təbliği ilə bağlı görülən işlər, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Dövlət və regional səviyyələrdə həyata keçirilən sosial siyasətdə turizm xüsusi strateji əhəmiyyətli sahə kimi çıxış edir.

İqtisadiyyatın çoxşaxəli inkişafı onun real potensial imkanlarının qiymətləndirilməsini tələb edir. Daha çox prioritet sahələrin, məsələn regional turizmin inkişafı gələcək iqtisadi

perspektivlər üçün geniş imkanlar açır. İqtisadi rayonlar üçün turizmin bir sıra növlərinin, xüsusilə rekreasiya turizminin inkişafını olduqca zəruri hesab etmək olar.

Azərbaycanın qeyri-neft sektorunda regionların sosial-iqtisadi inkişafına təsir göstərən otel turizminin iqtisadi əhəmiyyətinin götərilməsi, regionların turizm sisteminə otellərin təsirinin öyrənilməsi, otel turizmindən istifadənin təkmilləşdirilməsi istiqamətləri və onların səmərəliliyinin müəyyənləşdirilməsinin təhlili xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə xarici ölkələrin təcrübəsinin öyrənilməsi məqsədəuyğundur.

Mehmanxana turizminin regional idarə edilməsinin tədqiqi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi uyğun hesab edilə bilər.

- Azərbaycanda mehmanxana turizmin inkişafının mövcud vəziyyətinin təhlilinin aparılması və onun genişlənməsinə imkan verən tədbirlərin müəyyənləşdirilməsi;
- Regional turizm sahəsində ölkədə həyata keçirilən dövlət siyasəti və proqramların əhəmiyyətinin möhkəmləndirilməsi məqsədilə maliyyə mənbələrinin müəyyənləşdirilməsi, xüsusilə xarici investisiyaların cəlb edilməsi;
- Mehmanxana turizminin ölkə regionlarının və ümumi iqtisadiyyatın inkişafına təsirinin öyrənilməsi;
- Regional turizmin stimullaşdırılmasına imkan verən güzəştli vergi sisteminin (məsələn, ilk 5 il üçün daha aşğı səviyyə, növbəti 3 il üçün aşağı, daha sonra isə güzəştlərin ləğv edilməsi) tətbiqi;
- Ölkə və regional turizmin ixtisaslı kadr potensialının və onun keyfiyyətinin yüksəldilməsi;
- Mehmanxana turizminin regional inkişafı və təkmilləşdirilməsi məqsədilə qiymətlərin diferensial tətbiqi və.s.

Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin inkişaf dinamikasına nəzər saldıqda, bütövlükdə son illər ərzində elə də ciddi dəyişikliklərin mövcud olmadığını görmək olar. Analoji olaraq bu hal regionlar üçün də xarakterikdir. Lakin, buna rəğmən regionlara gələn turistlərin sayında ilbəil artımın baş verməsini aydın müşahidə etmək mümkündür. Müqaisə nisbətində xarici ölkə vətəndaşlarının sayında daha çox ciddi dəyişikliklərin olması aşkar görünür. Maraqlı cəhət ondan ibarətdir ki, təkrar cəlb olunan turistlərin sayında da artım baş vermişdir. Bu isə onu deməyə əsas verir ki, ölkənin və onun regionlarının turist maraqlarının diqqətində saxlanılmasına nail olunub. Məhz bu baxımdan mehmanxana turizminin inkişafını genişləndirmək zərurəti ortaya çıxır. Mövcud mehmanxanaların vəziyyəti barədə məlumatları aşağıdakı cədvəldən görmək olar.

**Menmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəriciləri**

| Göstəricilər | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Menmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid. | 508 | 514 | 530 | 535 | 536 | 548 | 563 |
| Birdəfəlik tutum, yer | 31979 | 32834 | 33951 | 35652 | 37278 | 40042 | 41611 |
| Nömrələrin sayı, vahid | 14815 | 15898 | 16559 | 17363 | 17953 | 20330 | 20778 |
| Yerləşdirilmiş şəxslərin sayı-cəmi, nəfər. | 510162 | 624924 | 666348 | 672345 | 838145 | 1122068 | 1414708 |
| O cümlədən: | | | | | | | |
| Ölkə vətəndaşları. | 252175 | 252807 | 270887 | 279555 | 342497 | 345284 | 433476 |
| Xarici vətəndaşlar. | 257987 | 372117 | 395461 | 392790 | 495648 | 776784 | 981232 |

DSK-nın məlumatları əsasında.

Cədvəldki materiallarından göründüyü kimi ötən yeddi il ərzində menmanxana və mehmanxana tipli müəssisələrin sayı 55 vahid artıb. Yerləşdirilmiş şəxslərin sayına görə

müqayisədə isə ölkə vətəndaşlarına nisbətən xarici ölkə vətəndaşlarında ötən dövr ərzində təxminən 3,5 dəfə artım müşahidə olunub.

Aparılan tədqiqatlardan aydın olur ki, ölkədə və onun regionlarında menmanxana və mehmanxana tipli müəssisələrin potensial imkanlarından istifadə olunma səviyyəsinin yüksəlməsi mövcud vəziyyəti tam olaraq əks etdirmir. Beləki, ölkə regionlarının turizmin ayrı-ayrı növləri üzrə inkişafı, bir sözlə onun infrastrukturu demək olar ki, tam formalaşmayıb. Həmçinin, turizmin bu və ya digər forması bütün regionlar üzrə eyni səviyyədə inkişaf etməyib. Mövcud problemlərin həlli istiqamətində dövlətin rolunun daha yüksək olması məqsədəuyğun olardı. Turizmin gəlirliliyinin son ilərdə tempinin artımı bunu təsdiq edir.

**Zamanov Füzuli,**
**dosent**
**Bəşirli Məhəmmmədəli,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**muhammadali_96@inbox.ru**

## Nağdsız hesablaşmaların maliyyə münasibətlərinin tənzimlənməsinə təsiri

Bu gün pul anlayışı insanların həyatının praktiki olaraq ümumi yaşayış formasına, hətta qlobal hadisəyə çevrilmişdir. Bəllidir ki, pul iqtisadi proseslərin gedişinə müntəzəm təsir göstərən əmtəə təsərrüfatının ayrılmaz hissəsidir. Pul kapitalın və əmttə kütləsinin hərəkətinə təsir göstərir, istehsalın inkişafını stimullaşdırır. Y.M.Osipovun fikrincə "İqtisadiyyat ta əvvəldən pulun vasitəçilik rolundan daha çox pulun özündən onun mövcudluğundan asılıdır, belə ki, başlanğıc elə başlanğıcdır, baxmayaraq ki, iqtisadiyyatın ümumi hərəkətində onun vasitəçisi kimi çıxış edir. Başlanğıc – axma, sərf olunma, çıxmadır".

Azərbaycan Respublikasının ərazisində aparılan nağdsız hesblaşmaların hüquqi və iqtisadi əsasını "Nağdsız hesablaşmar haqqında" qanun müəyyən edir. Qanuna görə nağdsız hesablaşmalar - bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə və ödəniş vasitələri ilə həyata keçirilən hesablaşmalardır.

Nağdsız hesablaşmaların həcminin artırılması ölkədə kölgə iqtisadiyyatın inkişafının qarşısını alır, şəffaflığın təmin olunmasına əlverişli şərait yaradır. Bununla yanaşı nağdsız hesablaşmalar dövriyyədə olan nagd pul kütləsinin tənzimlənməsinə, vergi ödəyicilərinin gəlirlərinə nəzarətin güclənməsinə, inzibati təsir vasitələrinin yüngülləşdirilməsinə, həmçinin bank əməliyyatlarının tranzaksiyası ilə bağlı hərəkətinə nəzarəti təmin edir. Satış zamanı nağd ödənən məbləğ pul tələbinin artmasına gətirib çıxarırki, bu da dövriyyəyə əlavə pul kütləsinin daxil olmasına yol açır. İri nominallı əskinazların dövriyyəyə daxil olması bankdankənar yıgımların artmasına səbəb ola bilərki, bu da arzuolunmaz nəticələrə səbəb olar.

Beynəlxalq təcrübə sübut edir ki, dünyanın əksər ölkələri iqtisadiyyatda şəffaflığın artması üçün maliyyə intizamının möhkəmləndirilməsi istiqamətində əməliyyatların aparılmasına daha ciddi şəkildə yanaşır və müvafiq qanun və sanksiyalar tətbiq etməklə fəliyyətə nəzarət edirlər. Beləki, ABŞ-da hər bir bank 10000 dollardan yuxarı depozit, mübadilə və ya pul çıxarma barədə müvafiq hökumət orqanlarına məlumat verməlidir. Bir çox ölkələrdə isə iri həcmli nağd hesablarının aparılması qanunla qadağan olunur. Qeyd edilməlidir ki, İsveç 1661-ci ildə kağız pulları tətbiq edən ilk Avropa ölkəsi olmasına baxmayaraq, hal-hazırda kağız pullardan ümumiyyətlə tam olaraq imtina etmək mərhələsindədir. Ödəmə vasitəsi olaraq kart, bank çekləri, SMS və ya digər formalardan istifadə edilir. Ölkənin bəzi bankları isə nağd pul verməkdən ümumiyyətlə imtina edir. Nağd pul ölkə iqtisadiyyatının demək olar ki, 3%-ni təşkil edir. Bu göstərici avrozonada 9%, ABŞ-da isə 7%-dir.

Qeyd edək ki, nağdsız hesablaşmaların geniş tətbiqinin beynəlxalq təcrübədə bir çox formalarından istifadə olunur. Nağdsız hesablaşmaların stimullaşdırılması belə tədbirlərin həyata keçirilməsinin əsas üsullarından hesab olunr. Məsələn, Zoompass-Mobil telefon vasitəsilə pul göndərmə, qəbul etmə, ödəmələr və məlumat mübadiləsi üçün geniş istifadə olunan proqramdır. Kanadada tətbiq edilən proqram vasitəsilə hər bir səxs öz pul vəsaitləri barədə məlumat əldə edə və əməliyyatlar apara bilər. Bunun üçün heç bir banka getməyə və nağdlaşdırma aparmağa ehtiyac yaranmır. Cashack-Avropa ölkələrində geniş tətbiq olunur. Beləki, POS-terminallarda aldığı məhsulların məbləğini kartla etdiyinə görə müəyyən məbləğdə nağd pul ala bilər. Cənubi Koreyada nağdsız hesablaşmaların reallaşması ilə əlaqədar uduşlu lotereyalar keçirilir. Son dövrlər "PayPass" və "payWave" proqram təminatının tətbiqi ilə mobil vasitələrdən ödənişlərin edilməsi genişlənməkdədir.

Ölkəmizdə nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Beləki, son vaxtlar ölkə başçısının verdiyi sərəncama əsasən əmək haqqı və təqaüdlərin nagdlaşdırılmaması və POS-terminallarda saxlanılması hesabına həmin vəsaitlərin üzərinə əlavə vəsaitlərin gəlməsi bəyan edilmişdir. Bundan başqa, alqı-satqı əməliyyatlarının kartlar vasitəsi ilə aparılmasına görə güzəştlər tətbiq edən, volotereya oyunları keçirən vergi orqanları bir müddət bunu tətbiq etsə də sonradan dayandırdı. Əslində nağdsız hesablaşmaların tətbiqində stimullaşdırma tədbirləri və nəzarətin bilavasitə vergi orqanlarının işinə daxil edilməsi daha məqsədəuyğundur.

Hesab edirik ki, nağdsız hesablaşmaların həcminin genişləndirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir.

- maliyyə əməliyyatlarına nəzarəti təmin etmək məqsədilə nağdsız hesablaşmaların genişləndiriləsini nəzərdə tutan müddəaların əlavə edilməsi;
- nağdsız əməliyyatları stimullaşdıran tədbirlərin tətbiqi və onların davamlılığının təmin edilməsi(beynəlxalq təcrübə də nəzərə alınmaqla);
- nağdsız hesablaşmaların bilavasitə iştirakçısı olan elektron və internet xidmətlərin hər kəs üçün əlçatan olması;
- aparılan nağdsız hesablaşmalarda əhalinin maarifləndirilməsi məqsədilə reklam xarakterli videoçarxların verilməsi;
- nağdsız hesablaşmalarda risk ehtimalı yaradan amillərin nəzərə alınması(xüsusən internet üzərindən aparılan əmliyyatlar zamanı);
- vətəndaşların nağdsız hesablaşmalarda iştirakına görə stimullaşdırma ilə yanaşı məsuliyyət hissinin artırılması məqsədilə qanunsuz hərəkətlərini məhdudlaşdıran inzibati tədbirlərin-cərimələrin seçilməsi.

Qeyd edək ki, nağdsız hesablaşmaların geniş tətbiqi müntəzəm, ardıcıl, mərhələli və dövlətin müvafiq orqanlarının nəzarəti əsasında həyata keçirilməsi daha məqsədəuyğun hesab edilə bilər.

Nağdsız hesablaşmalar ölkə iqtisadiyyatının inkişaf sürətinin ləngiməsinə təsir edən amilləri neytrallaşdırmaqla sahibkar subyektlərinin şəffaf fəaliyyətinə zəmin yaratmış olar.

**Имамвердиев Эхтибар,**
**доцент**
**Ахмедов Эльшад,**
**магистр**
**Азербайджанский государственный аграрный университет**
**aqrobiznes@mail.ru**

## Значение инноваций для развития аграрного сектора

Аграрный бизнес Азербайджанской Республики занимает особое место в экономике страны. Важнейшая особенность аграрного бизнеса состоит в том, что онявляется конечно-

целевым комплексом, непосредственно связанным с удовлетворением потребностей населения. Функциональным ядром аграрного бизнеса являетсяпродовольственный комплекс, на который приходится более 90 % потребляемых ресурсов и производимой продукции аграрного бизнеса.

Аграрная отрасль на сегодняшний день является одним из крупнейших сегментов и приоритетной отраслью развития экономики, которая обеспечивает снабжение населения незаменимыми продуктами питания. Стратегической целью развития аграрного сектора является модернизация и переход к инновационной модели развития, что будет способствовать повышению эффективности производства, наращиванию экспортных поставок и улучшению снабжения населения продуктами питания.

Сельское хозяйство приносит значительный доход экономике Азербайджана, поэтому сохранение и приумножение доходов предприятий по производству и переработке продукции, а также снижение производственных затрат являются одной из приоритетных государственных задач.

Будущее Азербайджанской Республики - за инновационным развитием. Современный Азербайджан располагает мощным научно-техническим потенциалом, ставшим важнейшим стимулом развития и повышения эффективности национальной экономики.

В современных условиях инновационное развитие в решающей мере определяет роль и место государства в экономической системе. Поэтому инновационное развитие национальной экономики становится приоритетным, что подтверждается принятием требуемых законодательных актов, разработкой Концепции Национальной инновационной системы, Государственной программы инновационного развития Государственной программы развития аграрного бизнеса и их поэтапном выполнении. Государственные программы направлены на инновационное и научно-технологическое развитие, информатизации) общества и развитие транспортного потенциала, обеспечение энергетической и экологической безопасности, строительство и эффективное использование природных ресурсов, развитие социальной сферы (здравоохранения, образования, культуры).

Основными направлениями государственной инновационной политики являются:

- организация разработки и реализации инновационных проектов, имеющих государственное значение;
- развитие инновационного предпринимательства;
- повышение эффективности управления национальной инновационнойсистемой;
- повышение эффективности коммерциализации результатов научно-технической деятельности и формирование рынка научно-технической продукции;
- развитие инфраструктуры в сферах научно-технической и инновационнойдеятельности;
- формирование институциональной среды, стимулирующей инновационнуюдеятельность;
- развитие системы технологического прогнозирования и повышение эффективности научно-технической деятельности;
- развитие международного научно-технического и инновационного сотрудничества;
- развитие экспорта наукоемкой продукции и технологий;
- кадровое обеспечение инновационногоразвития национальной экономики.

Формирование конкурентоспособногоаграрного комплекса, а также наращивание экспортного потенциала являются важнейшими направлениями совершенствования инновационной деятельности.

**Имамвердиев Эхтибар,**
**доцент**
**Ахмедов Эльшад,**
**магистр**
**Азербайджанский государственный аграрный университет**
**aqrobiznes@mail.ru**

## Роль малого бизнеса в инновационной системе аграрного сектора

В скорости и результативности экономическогоосвоения новшеств и их выдвижения на рынок крупный бизнес сильно проигрывает малым высокотехнологичным компаниям.

В передовых странах небольшие компании играют ключевую роль в коммерческом использовании новшеств и распространении их в различных сферах производства. Возникновение и быстрый рост малых высокотехнологичных компаний способствует динамичному развитию отрасли и рынка новых товаров. Малые фирмы выполняют роль разведчиков и создателей новейшей продукции и, следовательно, новых рынков, а крупный бизнес сохраняет за собой функцию организатора массового производства и быстрого насыщения рынка новой продукцией.

Это подтверждает тезис о взаимном дополнении и связи крупного и малого бизнеса, каждый из которых занимает определенное место соответствующее его особенностям инновационном процессе.

Малый бизнес является гибкой формой деловой жизни. Именно в данном секторе экономики создается основная масса идей, которые выступают питательной средой для среднего и крупного бизнеса. В этом также проявляется принцип дополнения крупного производства с возможностями малого бизнеса, что вновь доказывает необходимость его поддержки. В развитых странах культивируется принцип кооперирования крупных и малых предприятий, взаимодополнения ихдруг другом, особенно сфере инновационных разработок. Не случайно подавляющее большинство новых технологических идей, разрабатываемых в развитых странах, рождается в малых предпринимательских структурах.

Малый бизнес инновационный по своей природе, характеризуется следующими свойствами:

1)гибкость, мобильность и адаптивность;
2)узкая специализация;
3)немногочисленный персонал;
4)готовность идти на риск;
5)высокая производительность труда.

Роль малого бизнеса в инновационной сфере многогранен. Он обеспечивает инновационные процессы в экономике, поражает спрос на новые разработки, тем самым обеспечивая непрерывный прогресс. Развитие малого инновационного бизнеса является необходимым элементом рыночной экономики (2), особенно в Азербайджане.

Малые предприятия в борьбе за выживание идут на применение инновационных технологий и разработок, а их существенная часть занимается выведением новшества на рынок, т.е. коммерциализацией.

Для развития экономики малых инновационный бизнес занимает одно из первых мест. Малые предприятия, занимающиеся инновационной деятельностью(МПИД), ускоряют инновационный процесс, преодолевают монополистическое положение отдельных участников общего процесса, вовлекают невостребованных научных работников, у которых были ограниченные возможности для проявления способности в государственных академических и отраслевых научных учреждениях(3).

Характерной чертой развития малого инновационного бизнеса в современных условиях является его нестабильность. Период существования таких малых инновационных предприятий ограничивается сроками реализации определенной идеи.

Развитие инновационной деятельности и поддержка малого бизнеса в значительной степени взаимосвязано и стимулируют друг друга.

В современных условиях большое значение приобретает технический прогресс, понимаемый как применение новых методов производства (нововведения в производственных процессах) так и создание или усовершенствование благ (нововведения в продуктах)(4).

Можно выделить следующие основные направления воздействия малых инновационных предприятий на эффектное развитие научно-технических нововведений:

1.Преодоление монополизма крупных объединений, предприятий и организаций в сфере разработки и удовлетворения интересов потребителей, заинтересованных в приобретении наиболее качественной и относительно дешёвой техники и технологии.

2.Более полное использование научного задела, результатов фундаментальных и прикладных научных исследований. Малые предприятия могут создаваться на базе подразделений крупных научно-технических организаций для быстрого освоения результатов проверенных ранее исследований.

3.Ускорение процесса разработки и освоения научно-технических новшеств по перспективным направлениям НТП. Малые наукоемкие (венчурные) фирмы), занятые реализацией «рисковых» проектов могут внести, как показывает опыт развитых, стран, значительный вклад в развитие перспективных направлений внедрения научно-технических новшеств. Это будет способствовать осуществлению технологических прорывов.

4.Оперативное удовлетворение спроса предприятий и населения в наукоемкой продукции.

5.Развитие хозяйственной инициативы, предприимчивости, повышение роли материального стимулирования научно-технического персонала. Относительная простота создания малых предприятий, высокий уровень его самостоятельности представляют широкие возможности для проявления предприимчивости и инициативы в сфере внедрения научно-технических новшеств.

6.Использоваение и распространение передовых форм организации стимулирования труда обусловливает высокие показатели экономической эффективности работы малых предприятий.

7.Ориентация на использование местных ресурсов и отходов производства.,

Создание новых продуктов для большинства малых фирм является необходимым условием их выживания в конкурентной борьбе. При этом необходимо подчеркнуть, что для успешной конкуренции совсем не обязательно постоянное лидерство фирмы в обновлении продукции.

## DİLÇİLİK VƏ ƏDƏBİYYATŞÜNASLIQ BÖLMƏSİ

**Abbas Mirhüseyin,**
**dosent**
**Məmmədova Nuranə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**

### Şifahi xalq ədəbiyyatı nümunələrinin orta məktəblərdə tədrisi

Gənclərimiz mənsub olduqları xalqın ədəbi-mədəni irsini mənimsəməsi, Azərbaycan xalqının şifahi xalq ədəbiyyatının zəngin olmasını başa düşüb qiymətləndirməsi, milli psixologiya zəmnində tərbiyə alması xalq işinə, vətənə sədaqət ruhunda formalaşması mühüm əhəmiyyət kəsb edir .

Tam orta məktəblərdə şifahi xalq ədəbiyyatının yaxşı tədris edilməsi çox mühüm şərtlərlə bağlıdır. Bu baxımdan şifahi xalq yaradıcılığı nümunələrinin tədrisinə xeyli vaxt ayrıldığı üçün istər ədəbiyyat proqramı, istərsə də yeni nəsil dərslikləri məktəblilərin şifahi söz sənəti vasitəsilə mənəvi tərbiyəsində geniş imkanlar açır.

Orta ümumtəhsil məktəblərində hazırki ədəbiyyat sinif kitablarında şifahi xalq ədəbiyyatı nümunələrinin ən sadə şeir şəkilləri olan laylalar, oxşamalarla başlayıb ən mürəkkəb şeir şəkilləri üzrə davam etdirilir. Orta məktəb təcrübəsindən də görünür ki, lirik şeir janrının tədrisi zamanı şifahi xalq ədəbiyyatı nümunələrinin tədrisi klassik şeir janrlarına nisbətən dilinin daha sadə və anlaşıqlı olması tədrisdə heç bir maneəyə səbəb olmur.

Ədəbiyyatın tədrisinin təməl sinifləri V-IX siniflər olduğundan, bu siniflərdəki şifahi xalq ədəbiyyatı materalları içərsində həm aşıq poeziya nümunələri, həm də laylalar, nağmələr, bayatılar və s. geniş yer alır.

Lirik növlərin hər biri özlüyündə spesfik xüsusiyyətlərə malikdir. Bunlar həcminə, məzmununa,qafiyə qurluşuna və digər cəhətlərinə görə bir-birindən ayrılırlar. Müəllim bunlar üzərində şagirdləri işlətməli, müqayisələr aparmalı və hər birinə xas xüsusiyyətləri şagirdlərin nəzərinə çatdırmalıdır. Beşinci sinifdə laylaları tədris edən müəllim dərsin motivasiya mərləsində şagirdlərə bir neçə sual ünvanlayır : - Uşaqlar, körpəlik vaxdımızdan anamız bizim tez yuxuya getməymiz üçün hansı vasitələrdən istifadə edirdi? Şagirdlərdən müxtəlif cavablar gəlir. Kimi nağılları , kimi də laylaları vurğulayaraq sualı cavablandırır. Beləliklə müəllim “ laylalar” cavabı üzərində qalaraq motivasiya mərhələsini tamamlayır.

Tədqiqatın aparılması mərhələsində müəllim yenidən sinifə müraciət edərək deyir:- Bəs laylalar hansdı mövzuda olur? Laylalarda nələr ifadə olunur?

Uşaqlar eşitdikləri laylalrı yada salaraq sualı cavablandırırlar. Sonra müəllim V sinif ədəbiyyat dərsliyində iki sütunda verilmiş laylaları oxumağı və müqayisə etməyi tapşırır.

| | |
|---|---|
| Qar-qar edər qarğalar,<br>Budaqları yırğalar.<br>Tez yatar tez oyanar<br>Tənbəl olmaz qarğalar | Layla dedim yat, bala,<br>Yuxuna şəkər qat, bala<br>Ümidim bircə sənsən,<br>Boya-başa çat, bala. |

Müəllim sinifi qruplara bölərək, laylaların hər birini izah etməyi qruplara həvalə edir. Hər qrupdan bir nəfər lövhədə qeyd olunan laylanı izah edir. Beləliklə, müəllim həm laylanın ifadəli oxusuna, həm də şagirdlər tərəfindən necə mənimsənilməsinə nail olur.

Dərslikdə verilən tapşırığa əsasən müqayisədən belə bir nəticə alınır : Sol sütundakı bənddə tez yatıb tez oyanan qarğaları ana misal çəkərək övladının da vaxtında yatmasını, tənbəl olmamasını məsləhət görür. Sağ sütundakı laylada isə ana övladına ümid bəslədiyini və onun tez böyüməsi üçün şirin yuxuya getməsini dilə gətirir.

Laylaların bu cür müqayisə edilməsi şagirdlərin idrak fəallığını artırır, onların təfəkkür tərzinin inkişafına səbəb olur.

Yaradıcı tətbiqetmə mərhələsində artıq müəllim şagirdlərə bir neçə tapşırıq verir: Onlara nənə və anadan eşitdikləri laylaları ədəbiyyat dəftərinə yazmağı və xoşlarına gələn bir neçə laylanı əzbərləməyi tapşırır.

Beləliklə, müəllim dərsdən sonrada şagirdlərdə mövzuya maraq oyatmaqla məktəblilərimizin xalqımızın yaradığı ən qiymətli incilərlə daha dərindən tanış olurlar.

**Ağazadə Yədulla,**
**professor**
**Adışirinov Tural,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**kamil.adisirinov@mail.ru**

## Orta ümumtəhsil məktəblərinin V-X siniflərində M.F.Axundzadə yaradıcılığının yeri və rolu

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 17 iyul 2003-cü il tarixli 716 nömrəli əmri ilə təsdiq olunmuş "Ümumtəhsil məktəblərinin 5-11-ci sinifləri üçün Ədəbiyyat Proqramı"nda M.F.Axundzadənin VIII sinifdə həyatı və yaradıcılığı, "Hacı Qara" komediyasının oxusu, məzmunu üzərində iş və təhlili nəzərdə tutulmuşdur. Görkəmli dramaturqun həyatı və yaradıcılığı ilə bağlı qeyd olunan məsələlərin şagirdlərə tədrisi üçün proqramın "A" variantında 6 saat, "B" variantında isə 8 saat dərs yükü nəzərdə tutulmuşdur. "A" variantı üzrə dərs saatları adi, "B" variantıüzrə nəzərdə tutulan dərs saatları isə seçmə-təmayül sinifləri üçündür. Hər iki variant üzrə cəmi 2 saat rabitəli nitq üçün ayrılmışdır.

X sinifdə M.F. Axudzadənin yaradıcılığının tədrisinə "A" variantı üzrə 8 saat, "B" variantı üzrə 13 saat vaxt ayrılmışdır. Qeyd olunan sinifdə dramaturqun elmi tərcümeyi-halı və yaradıcılığı, şeir yaradıcılığının, "Hekayəti-Müsjö Jordan həkimi nəbatat, dərviş Məstəli şah cadugünu məşhur" komediyasının, "Aldanmış kəvakib", yaxud "Hekayəti-Yusif şah" povestinin tədrisi nəzərdə tutulmuşdur. Seçmə-təmayül sinifləri üçün isə"B" variantı üzrə ədibin "Sərgüzəşti vəziri xani Lənkəran" əsərinin əlavə olaraq tədrisi tövsiyə olunmuşdur.

VIII-X siniflərdə M.F. Axundzadənin tərcümeyi-halından danışarkən müəllim yeni təlim üsulundan – Klaster üsulundan istifadə edərək dramaturqun həyatını şagirdlərə əhatəli şəkildə başa sala bilər.

VIII-X siniflərdə M.F. Axundzadənin tərcümeyi-halını tədris edərkən müəllim həmçinin motivasiya yaratmaq üçün ədibin portretini nümayiş etdirə, onun barəsində tədqiqatçıların, yaxud müasirlərinin fikirlərini səsləndirə bilər.

X sinifdə M.F.Axundzadənin tərcümeyi-halının öyrədilməsinin bəzi özünəməxsus cəhətləri vardır ki, bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

-M.F.Axundzadənin doğulduğu il və yer;

-M.F.Axundzadənin valideynləri və tərbiyəsi ilə sıx bağlı olan faktlar;

-M.F.Axundzadənin yaşadığı dövr və dövr və tarixi şərait haqqında faktlar;

-M.F.Axundzadənin yaradıcılıq mərhələləri ilə bağlı faktlar;

-M.F.Axundzadənin dövrün qabaqcıl şəxsiyyətləri ilə əlaqəsini göstərən faktlar;

-M.F.Axundzadənin başqa xalqların ədəbiyyatına münasibət bildirdiyi faktlar;

-M.F.Axundzadənin öz xalqının azadlıq hərəkatına, mədəniyyətinə rəğbətini göstərən faktlar;

-M.F.Axundzadənin özündən sonra gələn sənətkarlara müsbət təsirini göstərən faktlar;

- M.F.Axundzadənin tərcümeyi-halına dair məlumat mənbələri.

M.F.Axundzadənin həyat və yaradıcılığının yuxarı siniflərdə öyrədilməsində Blum taksonomiyasından da istifadə etmək mümkündür. Dərs prosesinin müxtəlif çətinlik səviyyəsinə aid olan suallar sistemindən də istifadə olunur. Müəllim M.F. Axundzadənin qruplar tərəfindən həyat və yaradıcılığının hansı səviyyədə mənimsənildiyini yoxlamaq üçün sintez, təhlil, qiymətləndirici, çevirmə, tətbiq, interpretasiya, yaddaş kimi suallar sistemindən istifadə edir. Blum taksonomiyasının tətbiqi zamanı şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

1.M.F. Axundzadənin həyatı haqqında nə bilirsiniz?

2. M.F.Axundzadənin dramaturji fəaliyyəti haqqında nə bilirsiniz?

Müasir dövrdə gənc nəslin vətənpərvərlik tərbiyəsində, estetik zövqünün və nitqinin inkişafında, Vətəninə bağlı, sədaqətli bir vətəndaş kimi yetişməsində M.F. Axundzadənin yaradıcılıq nümunələri əsl vətənpərvərlik qaynağı örnəkləridir.

**Bünyadova Aynur,**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**aynour13@mail.ru**

## Frazeologizmin dil vahidi kimi fərqli xüsusiyyətləri (su və hava komponentli frazeoloji birləşmələr əsasında)

Müasir dilçiliyin ən vacib problemlərindən biri qohum olmayan dillərin leksik-qrammatik sisteminin müqayisəli öyrənilməsi məsələsidir. Frazeologizm dilin xüsusi bir vahidi olaraq özünəməxsus xüsusiyyətlərlə səciyyələnir. Bu xüsusiyyətlər aşağıdakılardır: a) leksik məna, b) komponent tərkibi, c) qrammatik kateqoriyaların mövcudluğu. Bu xüsusiyyətlərin yalnız frazeologizmlərə məxsus olduğunu isbat etmək üçün onu söz və söz birləşmələri məvhumları ilə muqayisə edilir.

Bu xüsusiyyətlərdən ikisi(leksik və qrammatik mənanın mövcudluğu) onu söz linqvistik vahidiylə eyniləşdirir, lakin komponent tərkibli olması onu sözdən əsaslı şəkildə ayırır. Frazeoloji birləşməni sərbəst söz birləşməsindən fərqləndirmək üçün isə biz sərbəst söz birləşməsini mürəkkəb sözlə müqayisə edək.

Y.Seyidov söz birləşməsini mürəkkəb sözlə müqayisə edərək ona məxsus xüsusiyyətləri sadalamışdır.

Əlbəttə, Y.Seyidovun müqayisəsi söz birləşməsi və mürəkkəb sözü qarşı- qarşıya qoyub. Lakin yuxarıda verilən hər bəndi hər iki dildə ayrı-ayrılıqda təhlil edilsə, söz birləşməsi və frazeoloji birləşmələrin,ələxüsus substantiv frazeoloji birləşmələrin, fərqli xüsusiyyətlərini göstərib, frazeoloji birləşmələrə xas olan keyfiyyətlər ortaya cıxır: 1)frazeoloji birləşmələrin komponentləri yalniz vəhdət təşkil etdikdə leksik-semantik mənaya malik ola bilər, məsələn, FB az. su çiçəyi (xəstəlik adı), SB az.sulu çiçək; FB ing. untested waters (unclear situation), SB to test the water; 2) birinci bəndə əsasən frazeoloji birləşmələrin komponentlərinə ayrılıqda sual vermək olmaz, məsələn, FB az. su çiçəyi -nə? SB az.sulu (necə?) çiçək (nə?), FB ing. untested waters(what?), SB to test the water(what to do? -to test; to test what?- the water); 3) frazeoloji birləşmələr daşlaşmış formada işləndiklərinə görə onların daxilində hal şəkilçisi komponentlər arasındakı sintaktik və qrammatik əlaqələri gizli, qeyri-dinamik şəkildə yaradır, məsələn,FB az. su çiçəyi birləşməsində i şəkilçisi kimi (Qiz su çiçəyi xəstəliyinə tutuldu), SB az. sulu çiçək söz birləşməsində isə luşəkilçisi leksik şəkilçisi kimi iştirak edir, FB ing. water power ( form of energy), SB ing. power of water( grammatik əlagə sözönü vasitəsi ilə düzəlib); 4) frazeoloji birləşmələr mürəkkəb sözlər kimi bir vurğu altında tələffüz olunur. Müqaisə edək, FB az. su ′çiçəyi–SB az. śulu ́çiçək, FB ing.′water power, SB ing. ′power of ́ water.Birinci halda biz vurğunu günəbaxán, incəsənə́t kimi mürəkkəb sözlərdə olduğu kimi vurğunu ikinci komponent üzərində qoyuruq( bunu ingilis dilinə aid etmək olmaz, çünki ingilis dilində mürəkkəb sözlər

əsasən iki vurğu daşıyır), ikinci halda isə söz birləşməsinin hər iki komponenti əsas nitq hissəsi olduğuna görə hər iki sözü vurğu ilə tələffüz edirik. 5) söz birləşməsinin tərəflərini hər eyni nitq hissəsindən olan digər sözlə əvəz etmək olar, frazeoloji birləşmə isə bu halda öz mənasını tamamilə itirəcək. Məsələn, sulu çəmən,sulu yarpaq, sulu ləçək və s. su çicəyi frazeoloji birləşməsini isəçiçək sözünün sinonimi gül ilə əvəz etsək belə heç bir məna kəsb etməz.Eyni yanaşmanı ingilis dilinə də aid etmək mümkündü. Məsələn, FB untested watersyerinə untested rivers və ya untested lakes desək yoxlamadan keçməmiş çaylar ya da göllər mənasını əldə edərik, bu da öz növbəsində untested waters yəni, qeyri-məlum situasiya mənası çərçivəsindən kənara çıxacaq.

Gördüyümüz kimi, frazeologizmin digər dil vahidləri ola söz və söz birləşmələrindən fərqləndirən xüsusiyyətlər onun özünəməxsus bir dil vahidi kimi müəyyən olunmasına və xüsusi tədqiqinə zəmin yaradır.

**CavadovaYeganə,**
**filologiya üzrə fəlsəfə doktoru**
**MəstiyevaAysel,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**mestiyevaa@gmail.com**

**Xarici dilin intensiv öyrənilməsindətərcümə, onun metodlarıvərolu**

Tərcümətətbiqi dilçilik sahəsinin mühüm sahələrindən biridir. Bütün dünya dillərindətərcüməbirbaşa ünsiyyət vasitəsidir. Tərcüməprosesindəistifadəetdiyimiz söz ehtiyatıbizim öncədən qazanmışolduğumuz biliyin tətbiqində mühüm rol oynayır. Bu proses qarşılıqlıbaşverir. Həm öyrənilmişsözləri tətbiq edirik, həmdə yeni sözlərlə tanış oluruq. Bu da bizim sərbəst ünsiyyət vasitəmizin formalaşmasında misilsiz rol oynayır.

Tərcüməeyni zamanda elmi şəkildədəhəyatımızda rol almaqdadır. Biz tərcüməvasitəsiləyeni bilik sahələri ilətanışolub, onları təhsilimizə yönəldirik. Məsələn, xaricdəgördüyümüz həm səhiyyəyə aid, həmdə təhsilə aid metodları öz dilimizə tərcümə edərək istifadə edirik.

Tərcümənin fəaliyyət dairəsi olduqca genişdir. Bu da onunla bağlıdır ki, qloballaşan dünyada bir çox sahələr inkişaf edib, təşəkkül tapdıqca həmin sahələrin müxtəlif dildə danışan mütəxəssisləri arasındakı ünsiyyəti intensivləşir.

Mətnin növü və tərcümənin məqsədindən asılı olaraq müxtəlif tərcümə metodlarından-hərfi (literal) yaxud sətiraraası, orijinalasadiq (faithful), semantik (semantic), koqnitiv (cognitive), adaptasiya, servis (service), nəzminnəsrilətərcüməsi (plain prose translation), informativ (informative), pedaqoji (pedaqogic) tərcümə metodlarından istifadə olunur.

Tərcüməzamanıməxəz dilin quruluşu hədəf dildəki uyğun quruluşa köçürülür. Məxəz dildəki sözlər kontekstəuyğunlaşdırılmadan, hərfi mənada hədəf dilətərcümə olunur.

Xarici dilin öyrənilməsindətərcümənin rolu əvəz olunmazdır. Tərcüməedərkən yeni sözlərlə, terminlərləqarşılaşırıq. Tərcüməzamanıeyni və oxşar mövzuda olan materialları nəzərdən keçirib, çox işlənən terminlərin siyahısını tutub özümüz üçün lüğət yarada bilərik. Ən əsasıda bu zaman söhbətin nədən getdiyini vəməzmunun nədən ibarət olduğundan xəbərdar oluruq.

Tərcümədilinin zənginləşməsinə kömək etməkdən əlavə, tərcümə zamanı həmin xalqın dini, etik və estetik dəyərləri ilə də tanış olmağımız da rol oynayır. Ümumiyyətlətərcümədünyagörüşümüzün formalaşmasında, həmin xalqlara məxsus adət ənənələri, yeni mədəniyyətlərli öyrənməyimizdə mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətləhər hansısa tərcüməyəbaşlamazdan öncə mövzu ilə bağlı müəyyən məlumat toplamaq şərtdir. Nəqədər zəngin söz ehtiyatına malik olmağımızdan asılıolmayaraq, yenə də bəzi hallarda, elə sözlər olur ki onlar heç bir lüğətdə qeyde dilmir buna görə də tapılması çətinləşir. Bu cür sözlər mənasıtapılmaz sözlər adlanırki, həmin sözləri mətnə uyğun tərcümə edirik.

Tərcümə tələbərin oxuyub anlamanı inkişaf etdirməsinə yardımcı olur. Hərhansı bir mətni tərcümədən öncə onu diqqətlə oxuyub, cümlə quruluşuna diqqət etməli və düzgün şəkildə ana dilinə çevirməliyik.

Tərcümə dil öyrənmənin şüurlu prosesidir. Tərcümə öyrənənin tam inteqrasiyasını tələbedir. Bu prosesində 2 fəaliyyət növü var. Birinci fəaliyyət onu məxəz dildə anlamaq, ikincisi isə onu hədəf dildə düzgün ifadə etmədir.

Müasir dövrümüzdə xarici dilin öyrənilməsi ən vacib amillərdən sayılır. Dil öyrənilməsi insanların təkcə elmi biliklərə yiyələnməsi deyil, həmdə onun tətbiq edilməsi ilə yanaşı bizim dünyagörüşümüzün, həyata baxışımızın artmasında yaxından iştirak edir. Ölkəmizdə dövlətimizin xarici dilin öyrənilməsinə ayırdığı xüsusi diqqətin nəticəsidir ki, tərcümə sahəsi bu qədər inkişaf edib. Xarici dil bizə orta məktəbdən tədris olunduğundan digər ölkələr haqqında anlayışlarımız artır, mədəniyyətimiz formalaşır, lüğətimiz zənginləşir. Xarici dilin öyrənilməsində tərcümə digər xalqlarla və dövlət qardaşlıq əlaqələrin genişlənməsinə gətirib çıxarır. Xarici dilin öyrənilməsində tərcümənin rolu iqtisadi, mədəni sahələrdə xalqların bir birinə yaxınlaşması və vəhdətini təşkil edir. Bir sözlə demək olar ki, xarici dilin öyrənilməsində tərcümə ölkələrarasında təhsildə tərəqqiyə, ticarətin, mədəniyyətin artmasına səbəb olur.

**Dənziyeva Könül,**
**baş müəllim**
**Tağızadə Ülvi,**
**Magistr**
**Lənkəran Dövlət Universiteti**
**ülvi.tagizade70@gmail.com**

## Bağlayıcı, ədat və şəkilçilərin fərqləndirilməsi yollarının tədrisi

Məktəblərdə şagirdlərlə iş aparmağın ən effektiv və səmərəli yolu fəal-interaktiv təlim metodudur. Bu metod vasitəsilə şagird artıq didaktiv təlimin mənfi cəhəti kimi passiv dinləyici, informasiya qəbul edən rolundan çıxır və informasiya mübadiləsinin aktiv iştirakçısına çevrilir. Müəllim isə öyrədən yox, istiqamətləndirən funksiyasını yerinə yetirməklə şagirdlərin müstəqil düşünmə qabiliyyətlərinin inkişaf etdirilməsinə və şəxsi mülahizələrinə söykənmələrinə rəvac vermiş olur. Fəal-interaktiv təlimin başlıca mexanizmləri kimi problemli vəziyyətin yaradılması, dialoq və əməkdaşlıq şəraitinin yaradılması, şagirdin tədqiqatçı, müəllimin bələdçi funksiyasını icra etməsi, psixoloji dəstək və s. misal göstərmək olar. Fəal-interaktiv təlim şagirdə yönəlmiş, inkişafetdirici, qabaqlayıcı qrup təlimidir və bu təlim şagirdlərdə əməkdaşlıq etməyi, başqalarının fikrinə hörmət bəsləməyi, dinləmək qabiliyyətini, öz mülahizələrini izah etməyi, tənqidi təfəkkürü, məntiqi təfəkkürü və s. inkişaf etdirir.

Azərbaycan dilinin tədrisi zamanı, xüsusilə, omonimlik təşkil edən ədat, bağlayıcı və bəzi şəkilçilərin tədrisi əsnasında şagirdlər müəyyən çətinliklərlə üzləşirlər, belə ki, sözügedən mövzuda bu gün nəinki şagirdlər, hətta bəzi yetkin fərdlər də çətinlik çəkməkdədirlər. Eyni sözün həm bağlayıcı, həm ədat, həm şəkilçi olması onun öyrənilməsini, düzgün şəkildə və yerində işlədilməsini və düzgün yazılmasını çətinləşdirir və bu məsələ qrammatikamızın ən vacib problemlərindən biri hesab olunur. Məlumdur ki, “da$^2$”, “ancaq”, “ki” ədatları həm də bağlayıcı kimi işlənir, lakin bunlar arasında ən çox dolaşıqlıq yaradan “da” ədatıdır ki, həm ədat, həm bağlayıcı, həm də şəkilçi kimi işlənə bilir. Sözü düzgün işlətmək və ya işlədilən sözün hansı

köməkçi nitq hissəsinə aid olduğunu bilmək üçün ilkin olaraq təməl qrammatik biliklər tələb olunur. “Da”, “də” ədat və bağlayıcı olduqda ayrı, yerlik hal şəkilçisi olduqda isə sözə bitişik yazılır. Sözün hansı qrammatik vahid olduğunu ayırd etmək üçün isə ona sual vermək, həmçinin, məzmununa diqqət yetirmək kifayətdir. Məsələn, söz “kimdə”, “nədə” və “harada” suallarına cavab verirsə, deməli yerlik hal şəkilçisidir. Söz birgəlik və iştirak mənasında işlənmişsə, deməli, bağlayıcıdır. Yox, fikri qüvvətləndirmək üçün işlənmişsə və onu cümlədən çıxarmaqla ümumi məzmun itmirsə, deməli, bağlayıcıdır.

Ədat, bağlayıcı və şəkilçiləri fərqləndirmək üçün fəal-interaktiv təlim prosesində müəllim əvvəlcə sinifi fəallaşdırır və şagirdlərin diqqətini sözügedən məsələyə cəlb edir. Kimin bu fərqləndirməni daha yaxşı bacardığını əvvəlcədən şagirdlərdən soruşur və onların verdiyi cavablar əsasında şagirdləri müəyyən qruplara ayırır. Ədat, bağlayıcı və şəkilçi ola bilən sözlər haqqında məlumat verərək şagirdləri həvəsləndirir və onları “kiçik tədqiqat” işinə cəlb edir. Hər birinə oxşar məzmunda tapşırıqlar verərək şagirdlərin biliyi müəllimin bilavasitə didaktik rolu olmadan, müstəqil şəkildə “kəşf edərək” öyrənmələrinə şərait yaradır. Məsələn, müəllim üç qrupa ayırdığı şagirdlərin hər birinə aşağıdakı cümlələrdə işlənmiş “da” sözünün hansı köməkçi nitq hissəsi olduğunu tapmağı tapşırır:

1. “Norveç də, İsveç də Skandinaviya ölkələridir.”
2. “Sən dərsə onsuz da gəlmisən də, indi nə üçün narahatsan?”
3. “Səkinədə olan məlumata görə, sabah hava isti olacaq.”

Misallar nümunə xarakteri daşıyır, həm bağlayıcı, həm ədat olan “ki”, “ancaq” sözləri də tədqiqata cəlb oluna bilər. Yuxarıdakı misallardan sonra, müəllim yekun bir tapşırıq olaraq aşağıdakı eyni bir cümlədə işlənmiş “da”ların hansı nitq hissəsi olduqlarını soruşa bilər:

“Rusiyanın şimal ucqarlarında da hava çox soyuqdur da!”

Şagirdlər onlarda olan informasiya əsasında yuxarıdakı məsələləri ayrıca qruplar şəklində həll edirlər və öz nəticələrini elan edirlər. Məlumdur ki, birinci misalda “də” bağlayıcısı”, ikinci misalda “də” ədatı, üçüncü misalda “də” şəkilçisi işlənmişdir. Şagirdlər öz cavablarını elan etdikdən sonra qruplararası müzakirələr başlayır və ümumiləşdirmələr aparılır. Müəllim yekunda şagirdlərdən son misaldakı nümunələri izah etməyi, sonra isə özləri müstəqil nümunələr gətirməyi istəyir və nəticə etibarilə, şagirdlərdə yaradıcı tətbiqetmə keyfiyyəti formalaşır. Dərsi düzgün başa düşməyən şagirdlər üçün müəllim izahatlar aparır və konkret bir məkanda olmağı bildirən “da”nın yerlik hal şəkilçisi olduğunu və sözə bitişik yazıldığını, növbəti “da”nın birgəlik bildirdiyini və bağlayıcı olduğunu, sondakı “da”nın isə fikri qüvvətləndirmək üçün işləndiyini və onu ixtisar etdikdə cümlənin məzmunun itmədiyini başa salır. Şagirdlər öz nümunələrində fikirlərini əsaslandırırlar və beləliklə, müstəqil şəkildə bağlayıcı, ədat və şəkilçiləri fərqləndirməyi öyrənir və tətbiq edirlər. Sonda aparılan qiymətləndirmə şagirdləri gələcək interaktiv dərslər üçün həvəsləndirir və motivasiyaları yüksəlir. Beləliklə, fəal-interaktiv təlim vasitəsilə öyrənilən biliklər daha yaddaqalan, daha məzmunlu və ümumiləşdirici olmaqla şagirdlərin gələcək inkişafına töhfə verir.

**Əliyeva Sevər,**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**sevarnurullayeva@mail.ru**

## Azərbaycan ədəbiyyatında postmodernizm Kamal Abdullanın “Yarımçıq əlyazma” əsəri əsasında

Son illərdə postmodernizm termini geniş yayılmış istilahlardan biridir. Lakin bu terminin özünə münasibətdə də fikir ayrılığı mövcuddur. Tədqiqatçıların bir qismi postmodernizmi tamamilə rədd edir, bu istilahın ədəbiyyata aid olmadığı fikrini irəli sürürlər. Araşdırıcıların bir

qismi üçün isə ədəbi bədii yaradıcılığda rast gələn bütün yenilikçi fikir və düşüncənin postmodernizm kimi dərk olunması qənaətbəxşdir.Oğuz eli tayfalarının əməllərini özündə xroniki ardıcıllıqla əks etdirən Türk epopeyası olan orta əsr Kitabi Dədə Qorqudunu özünün çıxış nöqtəsi kimi qəbul edən prof.Kamal Abdulla burada "Dədə Qorqud" hekayətlərinin ilk və yarımçıq layihəsini icad edib. Bu kitab Dədə Qorqud adlı bir Ozan tərəfindən Oğuz elindəki xainlərin iç üzünün ifşa olunması ilə bağlı aparılan tədqiqatın hesabatı xarakterini daşıyır. Bu isə , öz növbəsində, XVI əsrdə mövcud olan Səfəvilər dövlətinin banisi və hökmdar şairi Şah İsmayıl Xətaiyə aid başqa bir hekayə ilə sıx əlaqədardır.

Postmodernist sənət çoxyönlü, dağınıq və ziddiyyətlidir. Onun özəlliyi ondadır ki, o sənətdə əvvəllər rast gəlinməyən xüsusi oyun tipidir ki,belə ki, bu romanlarda sonluq naməlumdur və ənənəvi romanlarda olan sonluğu görmək olmur. Hadisələrin yekunu oxucunun beynində bitir. Postmodern əsərlərdə ənənəvi romanlardan fərqli olaraq, süjet kollaj və montaj prinsipləri ilə seçilir.

Postmodern əsərlərdə forma sabitliyi olmur və buna görədə postmodern əsərlərdə fərqli ədəbi növlərdən istifadə olunur. Yəni postmodern əsərlərin daxilinə gözlənilmədən lətifə, esse və s. kimi ədəbi janrlar daxil ola bilir. Postmodern roman ədəbi disturları inkar edir və sərbəstliyə meyl edir, üstünlük verir. Ədəbiyyatda, sənətdə və digər sahələrdə müasirlik, orijinalliq postmodernlə sinonim səciyyəsi daşıyır.

Bu əsərlərdə həqiqi həyatda qarşılaşan şəxslərlə xəyal dünyasında olan və nağıl qəhrəmanlar- mifik əsərin içində yer ala bilir. Düzdür bu qəhrəmanlar burada öz olduqları kimi deyil müəllifin öz yaradıcılığı tərəfindən çıxış edir.

Amerikada yaranmış və sonradan Avropada inkişaf etmiş postmodernizm son 10 ildə Azərbaycana gəlib çatmışdır. Postmodernizm sənətdə daha çox dağıdıcılıq missiyasını yerinə yetirir.

Bugün postmodernizm anlamı termin çərçivəsindən çıxıb və ədəbiyyatda deyil, bütün mənəvi həyatımızda onun bir çox bölmələrinin fəal iştirakçısı olmuşdur.

Görkəmli dilçi, amma eyni zamanda bədii yaradıcılıqla yaxından məşqul olan Kamal Abdulla 2004-cü ildə özünün “Yarımçıq Əlyazma” əsərini təqdim edir ki, bu da Azərbaycanda postmodern əsərin yaranışının əsasını qoyur.

Bu roman ədəbi aləmdə əks səda doğurdu və bu gündə istər xarici istərsə də daxili mətbuatda muzakirələr getməkdə davam edir. Çoxlu rəylər yazilmiş bu romana A. Hacılı belə munasibət bildirir: Dünya ədəbiyyatında bu əsərin meydana gəlməsi mif və eposun bədii təfsirinə cəhdin bir nümunəsi kimi qiymətləndirirdi. Anarın isə bu əsərin meydana gəlməsinə sevinir amma onu narahat edən bir məsələ vardır ki, o da bu haqda belə yazır: O burada qəhramanların bayağılaşdığını söyləyir bununla barışmaq istəmir. O söyləyir ki, heç bir qorqudsevərdən bunu gözləmək olmazdı, çünki K. Abdulla özü qorqud tədqiqatçılarından biridir. Beləki biz bilirik ki .Əslində Dədə qorqud ağıllı, kamil hər kəsə yaxşı məsləhət verən biridir. Amma burada o, yazar, katib soz düzəldən də deməzdim bir növ ara məsləhətçi obrazında çıxış edir. Romanda Dədə Qorqud mifi pozulur, dağılır onu ağsaqallıq qocalıq yükündən azad edir və bizdən birinə çevirir.

Postmodern romanda baş qəhrəman tarixi şəxsiyyət vəya mifoloji nümunələr əsasındayaranır. Qəhrəmanlar tarixi şəxsiyyətlər prototiplər obrazların yaradılması üçün istifadə olunur. Burada tarixi şəxsiyyət ikinci dərəcəli obraz yaratmaq üçün istifadə olunur.

Kamal Abdullanın yaratdığı əsərdə Şah İsmayıl obrazı ikinci dərəcəli obraz kimi nəzərə çarpır. Əsərdə iki Şah İsmayıl var. Biri həqiqi digəri isə Şah İsmayıl Xızır obrazında. Həqiqi Şahı Şahi mərdan onu göylərə çağırır yalançı Şah İsmayıl isə qalır onun səltənətinə malik olur. Bu tarixi fakt deyil amma postmodern əsər olaraq interpretasiya nəticəsi olaraq dekonstruksiyaya uğrayir.

Bu əsər meydana gələndə bəziləri hətta bu əsərin başqa bir K.Abdulla tərəfindən yazıldığını söyləyirdilər.

Amma ədəbiyyatında öz qaydaları var, onun da özünə aid qanunları var. Burada Qazan, Beyrək Dədə Qorqud kimi obrazların tam fərqli şəkildə götürülməsi heçdə o demək deyil ki, K.

Abdulla anti dədəqorqudçudur və real dastanı belə tədqiq edir. Qeyd etdiyimiz kimi bizim igidlik rəmzi olan Beyrək burada qorxaq, öz sözü olmayan bir qəhrəman kimi verilib. Bu roman helə postmodern romanın özüdür.

Bugün qərb ədəbiyyatında heç də yeni olmayan bu cərayan Azərbaycan ədəbiyyatı üçün yeni, hələ öz yerini tutmayan öz qabında olmayan bir termindir.

Kamal Abdullanın "Yarımçıq Əlyazma" romanı postmodernizmin poetikası ilə birbaşa səslənən əsər olduğu üçün onu Azərbaycan ədəbiyyatında yeni postmodernist roman kimi qəbul etmək olar. Əsərin əvvəli Dədə qorqudun adıyla başlayır. Və o əsərin mərkəzi simasıdır.

"Yarımçıq Əlyazma" əsərinin sujetində qədim əlyazmanın elmi iş olaraq oxunuşu Milli əlyazmalar Fondunun orta əsrlər şöbəsində, üzlərini toz basmış köhnə və yeni əlyazmaların yığıldığı kitab rəflərinin yanında baş verir. Romanda əlyazmaların saxlanılması, kataloqun dəqiq nömrəsi hətta əlyazmanın dəqiq oxunuşu üçün təmin etməsi təqdim olunur. Roman güya Gəncə zəlzələsindəndir. Şərqşünas xanım onu oxuduqdan sonra orada heç zəlzələdən məlumat yoxdur deyir.

Əsərin əvvəlində oxucu-təhkiyəçi epik qeydlərin qəhrəmanının və ehtimali müəllifin-rəvayətçinin-öncəgörün və müqəddəs insanın adını məlum edir. Onun adı Qorqud Ata və ya Dədə Qorquddur, özü də dastanda, daha geniş götürsək, yarımçıq əlyazmada eləcədə, "Yarımçıq əlyazma"da mərkəzi surətdir. Bunu da demək olar ki, Kamal Abdullanın romanı faktiki olaraq qədim epik-mifik ənənə ilə onun müasir «dekonstruksiyası» arasındakı qarşıdurmaya problematika ünsürü daxil edir.

Əsərin əvvəlində belə bir xatırlatma var, "Əlyazma" yarımçıqdır. Lakin əlyazmanın digər əlyazmalardan fərqi ondadır ki, bu əlyazmanın əvvəli də, sonu da natamamdır. Natamamlıq nədir?

Natamamlıq postmodern əsərdə mütəmadi olaraq rast gələn cəhətlərdən biridir. Və onun özünəməxsus xüsusiyyətlərindən biridə odur ki, bu natamamlıq hesabina biz oxuduğumuz mətni daha da zənginləşdirə bilirik. Çünki yarımçıq qalan fikirlər bəzən bunu etməyə bizə şərait yaradır, bəzən isə fikirlər yarımçıq olaraq qalır və sonluq açılmamış, müəmmalı şəkildə bitir.

**Feyziyeva Ruxsara,**
**dosent**
**Əhmədov İsmət,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**ismetehmedov65@gmail.com**

## Orfoqrafik çalışmalar və onların xarakteri

Şagirdlərə orfoqrafik vərdişlərin aşılanması məqsədilə bir sıra müxtəlif xarakterli çalışmalardan istifadə olunur. Həmin çalışmaları müvafiq olaraq aşağıdakı növlərə ayırmaq mümkündür.

1. Orfoqrafik təhlil. Bu təhlil öz məzmununa və xarakterinə görə digər (fonotik, morfoloji, sintaktik) təhlillərdən fərqlənir. Doğrudur, fonetik və qrammatik təhlillər də məktəblilərdə orfoqrafiya üzrə bacarıq və vərdişlər formalaşır. Lakin orfoqrafik təhlildə başlıca məqsəd sözlərin yazılış qaydalarının öyrədilməsidir. Orfoqrafik təhlil şifahi və yazılı aparılır. Yazılı təhlildə çox vaxt sərf olunduğundan, qabaqcıl müəllimlər onun şifahi formasına daha çox üstünlük verirlər. Təcrübə göstərir ki, əksər sözlərdə izaha ehtiyacı olan bir və ya bir neçə orfoqram olur. Məsələn, iştaha sözünün yazılışında izaha ehtiyacı olan orfoqram birdir.

2. İzahlı yazı. Bunu metodik ədəbiyyatda bəzən kommentarili yazı da adlandırırlar. İzahlı yazıya 2-ci sinifdən başlamaq faydalıdır. Bu məqsədlə sinifə, məsələn, belə bir cümlə təqdim oluna bilər: Müəllim radioda şairin çıxışını dinlədi.

Şagirdlər cümləni səsiz oxuyurlar, sonra onlardan biri sözləri aramla deyir və izah edir: Cümlə müəllim sözü ilə başlanır. Bu sözün ilk hərfi böyük yazılır. Müəllim sözü [m:əllim] kimi tələffüz edilir. Radioda sözü kök və şəkilçidən ibarətdir: radio-da. Bu söz cümlənin ikinci sözüdür. 4 hecalıdır: ra-di-o-da. Radioda şəklində yazılır, [radiyoda] kimi tələffüz olunur. III söz olan şairin sözünün kökü şair, -in isə şəkilçidir. Həmin sözün yazılışı şairin, tələffüzü isə [şayirin] şəklindədir. Yazılışı izah olunacaq sözlər və onu aydınlaşdıracaq şagird əvvəlcədən müəyyənləşdirilir. Səhvə yol verən məktəblilər başqaları ilə əvəz olunur.

Orfoqrafik çalışmalar xarakterinə görə müxtəlif olur. N.S.Rojdestvenski onun üç qrupunu göstərir:

- şagirdlərin dərketmə xarakterinə görə;
- yerinə yetirilərkən iştirak edən analizatorların xarakterlərinə görə;
- dərsin məqsədinə görə.

Şagirdlərin dərketmə fəaliyətinin xarakterinə görə çalışmalar üç qrupa ayrılır: analtik, sintetik, analtik- sintetik.

a) Analtik çalışmalar. Analtik çalışmalar dedikdə, orfoqrafiyanın asan və möhkəm mənimsənilməsi üçün qrammatik - orfoqrafik təhlilə geniş yer verilən çalışmalar nəzərdə tutulur. Orfoqrafik təhlil, üzərindən köçürmədən əvvəl və ya sonra təhlil, seçmə, xəbərdarlıqlı və izahlı imlalar belə çalışmalardır.

b) Sintetik çalışmalar. Sərbəst üzündən köçürmə, suallara cavab, yaradıcı və yoxlama imla, ifadə və inşalar belə çalışmalardır. Sintetik çalışmaların köməyi ilə şagirdlər əvvəllər öyrəndikləri qaydalar üzərində bir növ məşq edir, həmin qaydaları bir mövzu ətrafında birləşdirirlər.

c) Analtik-sintetik çalışmalar. Sübut etməklə müşayiət olunan qrammatik - orfoqrafik təhlil - tərkib tapşırıqlı cümlə tərtibi, imla, ifadə və inşa yazıb lazımi orfoqramın altından xətt çəkmək, əşya şəkillərinin altında adlarını yazmaq, mətndə buraxılmış sözləri, sözlərdə buraxılmış hərfləri yerinə qoymaq, tutuşdurma və təsnifdən istifadə etmək və.s belə çalışmalardır.

Həm təhlil, həm də tərkibin elementlərini birləşdirən çalışmalar da yaxşı nəticə verən orfoqrafik çalışmalardır. İmla yazıldıqdan sonra lazımi orfoqramların altından xətt çəkilərsə, şagirdlər əvvəlcə tərkib, sonra isə təhlil əməliyyatını yerinə yetirmiş olurlar.

Yerinə yetirilərkən iştirak edən analizatorların xarakterinə görə çalışmaları dörd qrupa ayırmaq olar:

1. Görmə qavrayışına əsaslanan çalışmalar
2. Eşitmə qavrayışına əsaslanan çalışmalar
3. Kinestetik qavrayışa əsaslanan çalışmalar
4. Müxtəlif təsəvvürlərə əsaslanan çalışmalar

Dərsin məqsədlərindən asılı olaraq orfoqrafik çalışmaların aşağıdakı növləri vardır:

Sorğu prosesində istifadə olunan çalışmalar. Bu tip çalışmalarda şagirdlər əvvəlcədən təhlil olunmuş cümləni yazı taxtasına və ya dəftərə yazır, sonra bu və ya digər orfoqramın nə üçün belə yazdığını izah edirlər. Bu, keçilmiş materialın möhkəmlənməsini izah edir. Sorğu aparmaq üçün hər bir şagirdin fərdi xüsusiyyətini nəzərə almaqla kartoçkaların hazırlanması məsləhət görülür. Kartoçkalar yalnız zəif və qüvvətli şagirdlər üçün tərtib edilir. Orta səviyyəlilər dərslikdəki çalışmaları yerinə yetirirlər. Kartoçkalar orfoqrafik vərdişlərin möhkəmlənməsini təmin etməklə yanaşı, onların necə mənimsənilməsini yoxlamağa da xidmət gösfərir.

Yeni materialın mənimsənilməsinə xidmət edən çalışmalar. Yeni materialın izahı prosesində keçirilən qrammatik - orfoqrafik qaydaya aid yazi taxtasında və ya dəftərdə misallar yazılır. Onlara əsasən induktiv yolla nəticə çıxarılır, qayda formalaşır. Şagirdlər həmin sözləri cümlədə işlədirlər.

Elə çalışmalar da var ki, ev tapşırıqları ilə əlaqədardır. Ev tapşırıqlarını dərslikdəki bu və ya digər çalışmanın yerinə yetirilməsi ilə məhdudlaşdırmadan yaradıcı işlərlə əlaqələndirmək lazımdır.

**Həsənova Könül,**
**doktorant**
**AMEA Nəsimi adına Dilçilik İnstitutu**
**hasanovaa.konul@mail.ru**

# "Tiflis əyalətinin müfəssəl dəftəri" və "Ağcaqala" etnotoponimlərinin tarixi-linqvistik təhlili

Dilçiliyin müstəqil bir elm kimi inkişafında onomastik tədqiqatların əhəmiyyəti olduqca böyükdür. Dilin lüğət tərkibində xüsusi yeri olan onomastik leksikanın dərindən araşdırılması, tarixi-linqvistik təhlili xalqımızın dil və tarixinin çox mürəkkəb və zəruri məsələlərinin öyrənilməsinə kömək edir. Dildəki hər bir xüsusi ad-onomastik vahid ictimai-tarixi inkişafın məhsuludur. Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlar, tarixin canlı şahidləridir. Bu baxımdan Azərbaycan dilçiliyində toponimlərin areallar və etnik tərəfdən tədqiqi və təhlili ən aktual məsələlərdəndir. Toponimlərin əksəriyyəti Azərbaycan xalqının mədəniyyətinə, tarixinə dair mənbələrdə öz əksini tapıb. Bu mənbələrin tədqiq və təhlil olunması xalqın tarixi, təfəkkürü və sosial şəraiti ilə əlaqədar məsələlərin açılmasına kömək edir, bununla yanaşı müəyyən dil vahidlərinin formalaşması ilə bağlı fikir söyləmək imkanları yaranır. Tarixi mənbələrdə qeydə alınmış toponimlərin hamısı barədə təbii ki, ətraflı araşdırmalar aparılmamışdır. Konkret mənbələrdə qeydə alınmış toponimlərin araşdırılması bu cəhətdən dilçiliyimiz üçün olduqca əhəmiyyətlidir.

Azərbaycan xalqına məxsus toponimlərin qeydə alındığı mərhələlərdən biri də 1723-1728-ci illərdə tərtib olunmuş "Tiflis əyalətinin müfəssəl dəftəri"dir. Toponimlərin qeydə alındığı konkret mənbələr, eləcə də "Tiflis əyalətinin müfəssəl dəftəri" üzrə aparılan araşdırmanın aktuallığı ondadır ki, bir çox adlar vaxt keçdikcə dəyişir, yaddaşlardan tamamilə silinir. Onların mənbələr əsasında tədqiqi və təhlili toponimlərin tarixilik baxımından öyrənilməsi üçün çox vacibdir.

Mənbəyə əsasən, Osmanlı dönəmində Tiflis əyalətinin aşağıdakı inzibati vahidlərdən ibarət olduğu qeyd edilir:

Borçalı nahiyəsi, Tumanis nahiyəsi, Dəmirçihəsənli nahiyəsi, Somxit livası, Taşır nahiyəsi, Pətək nahiyəsi, Ağcaqala livası, Qazax livasına tabe olan dörd nahiyə-İncə, Çuvar, Axstav və Türk nahiyələri. Bununla yanaşı bu dövrdə Qazax bölgəsi dörd nahiyədən ibarət ayrıca inzibati vahid olaraq "liva" ("sancaq") statusu ilə Tiflis əyalətinin tərkibində yer aldığı bildirilir. Bunların içərisində Ağcaqala nahiyəsi böyük bir ərazini əhatə edir. Bu baxımdan da Ağcaqala nahiyəsinə daxil olan tayfa adlarının tədqiqi və təhlilini məqsədəuyğun hesab edirik.

1728-ci ildə tərtib olunmuş "Dəftəri-müfəssəli-Tiflis"də Ağcaqala nahiyəsinə daxil olan tayfalar aşağıdakı kimi göstərilmişdir:

Qaral oymağının Böyük Qaçağan camaatı, Orta Qaçağan camaatı, Hacılı camaatı, Kiçik Qaçağan camaatı, Qılıclı qışlağı, Kohalı camaatı, Təkəri oymağının Quşçular camaatı, Qurdlar camaatı, Böyük Heydərli camaatı, Kiçik Heydərli Qışlağı, Yaraqlı qışlağı, Qaracanlı qışlağı, Qazmalı qışlağı, Qaramanlı camaatı, Ağməhəmməd qışlağı, Ağməhəmməd (digər adı Pirvəli) oymağının Mehanə camaatı, Şeycalı camaatı, Şəmdinli camaatı, Saatlı camaatı, Kiçik Saatlı camaatı, Saral oymağının Həzrətli camaatı,Sübhan camaatı, Sücəddinli camaatı, Heydərəli camaatı, Korlar camaatı, Zəngərə camaatı, Ərəbli oymağının Mahmudlu camaatı, Ziyaqocalı camaatı, Pəhləvanlı camaatı, Seyidqocalı camaatı, Böyük Ulaşlı, Orta Ulaşlı və Kiçik Ulaşlı camaatı, Nurbəndi camaatı, Bozanlı camaatı, Aşıqlı camaatı, Çubuqlura camaatı, Soğanlı camaatı, Həsən Xacəli camaatı, Qaraboya kəndi ,Yuxarı Qazankənd kəndi,Yeldəyirmanı kəndi, Ağbaba kəndi, Qabaxan kəndi, Heybanə kəndi, Qəribqaya kəndi, Artın kəndi, Əcabəy kəndi Qurma kəndi, Abdal kəndi, Küləbdi kəndi, Karrah kəndi.

Ağcaqala – Gürcüstan Respublikası Marneuli rayonu Quşçu kəndi yaxınlığında yerləşir. O zaman Borçalı sultanlığının mərkəzi sayılırdı. Tiflis quberniyasının Borçalı qəzasında (indiki

Marneuli rayonunda) Debeda çayının sağ sahilində xaraba qala adıdır. XVIII əsrdə qalanın adı ilə Tiflis əyalətinin bir nahiyəsi də Ağcaqala adlanırdı. Qədim gürcü mənbələrində XV-XVIII əsrlərə aid hadisələrdə adı çəkilir. Vaxuştinin yazdığına görə, həmin qala Sultan Yaqub tərəfindən tikilib. I Şah Abbas onu gürcü hökmdarı Georgidən almış və borçalıları yerləşdirmişdir. Həmin müəllifə görə keçmişdə Berduc adlanmışdır. Gürcü mənbələrindəki Berduci çay adı da bu qalanın adı ilə bağlıdır.

Xülasə: Bütün toponimik adlar müasir dövrümüzə ilkin formasında gəlib çatmamışdır. Bu adların bir qismi fonomorfoloji cəhətdən dəyişikliyə uğramış, bir qismi də öz formasını tamam dəyişmişdir. Həm ilkin formasını saxlayan, həm də fonomorfoloji cəhətdən dəyişən toponimlərin linqvistik təhlili xüsusi əhəmiyyətlidir. İlkin variantını saxlayan toponimlərin təhlilinin əhəmiyyəti ondadır ki, onların öyrənilməsi həm də quruluş baxımından yeni tipli olan söz köklərinin araşdırılması prinsipi ilə üst-üstə düşür. Bu tip toponimlərin təhlili həm də müvafiq söz köklərinin öyrənilməsi deməkdir ki, bu da ilkin söz köklərinin tədqiqinə aid metodologiyanın prinsipcə zənginləşməsinə və dərinləşməsinə zəmin yaradır. Məqalədə bu haqda geniş danışacağıq.

**Həsənova Sədaqət,**
**professor**
**Səfərova Zeynəb,**
**müəllim**
**Bakı Slavyan Universiteti**
**zeyneb.isali@gmail.com**

## R.Rza yaradıcılığında poetik dil problemi haqqında

Rəsul Rza yaradıcılıq fəaliyyətinə başladığı ilk gündən etibarilə özünəməxsus – bənzərsiz poetik deyim tərzi ilə yetişib formalaşmağa başlamışdır. Onun bədii məqsədə xidmət etməyən fikrə, sözə,ifadəyə rast gələ bilmərik. "Hec kimə bənzəməyən Rəsul" un (Abbas Zamanov) ifadə tərzi, fərdi üslubun poetik abı-havasını yaratmışdır. R.Rzanın yaradıcılığında diqqəti cəlb edən əsas xüsusiyyətlərinindən biri də sözə yeni poetik məna vermə məziyyətidir. Yaradıcılığında heca vəzninə də rast gəldiyimiz R.Rza əsaəsən sərbəst vəzndə yazdığı şeirlərlə Azərbaycan poeziyasına möhürünü vurmuşdur. Sənətkar bu vəzndə yazdığı şeirlərdə sərbəst şəkildə sözləri lakonik halda istifadə etmişdir.

Fikrin poetik, obrazlı şəkildə təsvir etmək söz ustalarının qarşısında duran ən çətin və məsuliyyətli vəzifələrdən biridir. Əsil şeir yaratmaq- obrazlılıqdan irəli gəlir. Hər qurulan düzgün ifadəli cümlədə müəyyən məna, müəyyən fikir ifadə olunmalıdır. Bu ifadəliliyi, dolğunluğu sənətkarın yaratdığı sözlər və ifadələrlə mümkündür.R.Rza qələminin cıxan fikirlər, bənzəyən və bənzədilən arasında daim əlaqə olur.Bu əlaqəni nəzmlə ifadə etmək kifayət etmir. Bu və ya digər əşya və ya hadisənin müəyyən xüsusiyyətini əks etdirməyə çalışır. Dilin poetik imkanlarından istifadə edərək yeni üslubda nümunələr yazırdı.

Azərbaycan ədəbi dilində obrazlılığın yaratmağın müxtəlif imkanları var. Bu obrazlılğın yaratmaq sənətkar bacarığından asılıdır. Xüsusilə, R.Rzanın yaratdığı, işlətdiyi bədii təsvir və ifadə vasitələri öz yenili ilə diqqəti cəlb edir. Yaratdığı epitetlər, metaforalar müəllifin məqsədinə, qayəsinə çox uyğundur. "Onun hərdən qərib axşam qaranlıqlarında evimizin qabağındakı axan çayın həmahəng olaraq mızıldadığı şeir parçalarının böyük Füzulinin kədər və möhnət dolu sətirləri olduğunu, Natəvanın şeirləri olduğunu mən sonradan başa düşdüm." Buradakı "qərib axşam qaranlıqlarında"," kədər və möhnət dolu sətirləri" ifadələr şeirimizdəki alışılmış təsvir vasitələrindən fərqli R.Rza qələminə xas ifadələrdir. Yazıçının kiçik yaşlarından dərindən xalq yaradıcılığına yiyələndiyi zamandan qəlbində şeirə oyanan hiss get-gedə qüvvətlənmiş və çox tez zamanda şeir yazmaq həvəsi oyatmışdır.

R.Rza yaradıcılğında diqqəti cəlb edən xüsusiyyətlər biri də yazdığı cümlələri az sözlə dərin və əhatəli, yeri gəldikdə, poetik dərinliyi ilə ifadə etməsidir. O, dilimizin qanunlarından kənara cıxmayaraq yeni söz yaratmaq, onları poeziyaya gətirmək üçün şeir yolunu seçmişdir. R.Rza toxunduğu hər mövzunun bədii həlli üçün yeni ifadə və təsvir yaratmışdır. Bədii lövhələrlə təsvir etdiyi mənzərələri bir-birini şairanə əvəz edir. R.Rza poeziyasında tez-tez təkrar olunan motivlər bədii-estetik əhəmiyyət kəsb etdiyi üçün nəzərə çarpır.

Yeri gəldikdə xalq şeiri və ədəbiyyatımızın imkanlarından geniş istifadə edərək yeni çalarlarla orijinal nümunələr yaratmışdır. R.Rza şeirlərini oxuyarkən ilk növbə nəzərə çarpan misra daxilindəki sözlərin quruluşu, ahəngi,bölgü və qafiyəsi, təsvir və ifadə vasitələri özünü biruzə verir, məqsədə uyğun təkrarlar fərdi mahiyyət daşıyır. Bu xususiyyətlər R.Rza poeziyasında şeirin məna və məzmununu əlvanlaşdıran, cilalayan ədəbi dil vasitəsidir. N.Hikmətin sözləri desək," bu xususiyyət Azərbaycan poeziyası üçün zənginlikdir, yenilikdir."

"R.Rzanın şeirlərində millilikdən beynəlmiləlçiliyə doğru irəli və geri yönəlmiş iki müxtəlif, lakin bir-birini tamamlayib müəyyən edən istiqamətdə öz ifadəsini tapır.O, nədən yazırsa yazsın, hansı bəşəri hissləri yaşayırsa yaşasın, bəzən kiçik bir detalla, bəzən də assosiativ şəkildə öz milli mənsubiyyərini verir."Yazıçı xüsusi dəsti-xətti ilə insanlara xas olan xüsusiyyətləri öz fərdi uslubunun imkanları ilə əks etdirir. Həmin fikirlərin, duyğuların carçısına çevrilir.

R.Rza XX əsrin ortalarından başlayaraq dilimizin qorunması uğrunda hərtərəfli təhlillər aparmışdır. Hər şeydən öncə, ana dilinin lüğət tərkibinin öz daxili imkanları hesabına zənginləşməsinə çalışmışdır. O, istər bədii əsərlərində, istərsə də elmi-siyasi cıxışlarında başqa dillərdən alınma sözlərin işlənməməsinə xüsusi fikir verirdi. R.Rza öz yazılarında bu haqda xüsusi qeyd etməsə də, yaradıcılığında aydın hiss olunurdu. Dilçiliyin elə bir şöbəsi yoxdur ki, şairin diqqətindən kənarda qalsın. Yeri gəldikdə, hadisələrin ekspressiya ilə təsvir etmək üçün üslubi məqsədindən asılı olaraq hətta yeni söz və ifadələr yaratmışdır.

Dildə təmizlik və sadəlik məsələsi Rəsul Rzanın daha çox narahat edən və önəm verdiyi məsələlərdəndir. Şairin yaşadığı dövrdə bəzi adamların ərəb və fars dillərinin təsiri ilə mübarizə pərdəsi altında dilimizi anlaşılmaz sözlərlə doldurulmasına Rəsul Rza mənfi münasibət ifadə etmiş, yüz illərlə dilimizdə vətəndaşlıq qazanan, dilimizin fonetik-qrammatik qayda-qanunlarına uyğunlaşmış alınmaları məqbul hesab etmiş, dilimizin ruhunu saxlayan bütün leksik-qrammatik vahidlərin normal və gərəkli olduğunu əsaslandırmışdır.

R.Rzanın mülahizələrində dilçiliklə bağlı məsələlərə o qədər həssaslıq, məsuliyyət hissi ilə yanaşmışdır ki, bunun müqabilində də qələm sahibləri də eyni həssaslığı, eyni məziyyəti göstərməyə çalışmışdılar. R.Rza dilin taleyini təkcə dövrün ziyalıları deyil, xalqın dili olduğu üçün xalqı da dili qorumağa çağırmışdır.

R.Rzanın dövrü mətbuatda çap olunan qəzet jurnalların tənqid etməsi səbəbsiz deyildi. Tərcümələrin Azərbaycan dilinin təbiətinə uyğun gəlməyən, fərqlənən və başqa dillərin söz sırasına uyğun gələn tərcümələri kəskin tənqid atəşinə tuturdu. Rus dilində yazılmış bir əsərdəki bir bədii parçadakı söz sırasını eyni ilə saxlayıb, tərcümənin bütün qaydalarına riayət etməklə onu Azərbaycan dilinə çevrilməsindən alınan tərcüməni əsla qəbul etmirdi. "Dili bu hala salan yoldaşlar ancaq yazı dilimizi uzaqlaşdırmaqdan başqa bir iş görə bilməzlər.Dili xalqda ayırmağa heç bir kəs müvəffəq ola bilməz. Heç bir zaman bizim kolxozcu fəhlə bu dillə danışmamışdır və danışmayacaqdır."

R.Rzanın xalqın dilinə dərindən bələd olan bir sənətkar kimi həmin qiymətli və zəngin qaynağın bütün yaruslarına aid anlam və gözəlliyi ilə diqqəti çəkən faktorlardan biridir. Bunlardan istifadə edərək ümumxalq danışığı ilə yazılı dil arasındakı məsafənin azalmasına səbəb olmuşdur. Bu baxımdan ümumxalq dilin bir qolu olan dialektlərə yüksək münasibət göstərmiş, dialektləri dilin təbiiliyini artıran, milliliyi gücləndirən bir fakt olaraq əsərlərin bədii keyfiyyətinə müsbət təsir edən vahidlər kimi dəyərləndirmişdir.

Yaradıcılığına bu əsas istiqamətdə davam və inkişaf etdirən yazıçı əsərlərində daha çox danışıq dilinə məxsus külli miqdarda müxtəlif məzmunlu sözlər vardır ki, bu da əsərlərə sadəlik, təbiilik gətirir, ifadə vasitələrinə və üslubi imkanları zənginləşdirir. Bu qəbil sözlər sadə,

düzəltmə, mürəkkəb sözlərdən, frazeoloji vahidlərdən ibarətdir. R.Rzanın dilində işlədilən istər sadə, istər düzəltmə, istərsə də mürəkkəb sözlər xalq məişəti ilə bağlı anlayışları ifadə edən sözlərdir.

R.Rzanın bu fikirləri indi də öz aktuallığını itirməmişdir. Dövrün mühüm vəzifələri arasında dayanan məsələləri dilin daxili imkanları hesabına inkişaf etdirmək, ana dilinin bütün zənginliklərini üzə çıxararaq işlək vəziyyətə salmaq diliçiliyin başlıca məqsədidir.

**İbrahimova Leyla,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**Ileyla_88 list.ru**

## Atalar sözləri və məsəllərin dilin frazeologiyasının zənginləşməsində rolu

Atalar sözləri və məsəllər şifahi xalq ədəbiyyatının qədim janrlarındandır. Atalar sözləri xalqın zəngin həyat təcrübəsi əsasında gəldiyi qənaətləri dəfələrlə sınaqdan keçirilmiş həqiqətləri əks etdirən yığcam və dərin mənalı sözlərdir.

Şərq xalqlarının dilində dilin gülzarı, ipə-sapa düzülməmiş incilər, yunanlar və romalılarda hakim fikirlər, italyanlarda xalq məktəbi, ispanlarda ruhun təbiəti, ingilislər və fransızlarda təcrübənin barı, ruslarda ibrətamiz söz, qanadlı söz, qızıl söz adlandırılan atalar sözləri əsrlər boyu heç bir yazıya alınmadan, nəsillərdən-nəsillərə keçərək sanki xalqın şüurunda şifahi şəkildə yaşamaq üçün yaradılmışdır. El nümunəsi sayılan hər bir atalar sözü müəyyən məqsədlə yarandığı kimi müəyyən ideyanın təlqini, hər birində xalqın təfəkkürü, adət-nənələri ilə bağlı olan böyük bir hadisəyə işarə olunur. Atalar sözləri ədəbiyyata və hətta məcmuələrə daxil edilməzdən əvvəl xalq dilində uzun müddətli inkişaf yolu keçmişdir. Həyat problemlərinə əsaslanaraq, atalar sözləri vəziyyətdən nəticə çıxarmaqda, qərar qəbul etməkdə və ya işin gedişatını təklif etməkdə, bizə yardımçı olur. Atalar sözlərində qədimdən bəri insanların həyat, təbiət haqqındakı təcrübələri, bilik və sınaqları qısa və bədii şəkildə ifadə edilərək zəmanəmizə qədər gəlib çıxmışdır. Ona görə də atalar sözü və məsəllərdə xalq həyatının, xalq tarixinin bütün dövrlərinə aid əlamətlər yaşamaqdadır. Həmçinin atalar sözləri böyük və kiçik çətinliklərin həlli üçün təsəllidir və seçim ediləndə bir bələdçidir. Ümumi şəkildə desək atalar sözləri məxsus olduğu xalqın tarixboyu təcrübəsinin bədii ifadəsdir. Bu funksiyalar ümumilikdə atalar sözlərini digər dil vahidlərindən fərqləndirir.

Atalar sözləri təkcə məzmun, məna baxımından deyil, eyni zamanda forma, quruluş baxımından da zəngin, rəngarəndir. Belə ki, o, ideya cəhətdən şifahi ədəbi dilimizi zənginləşdirdiyi kimi, eyni zamanda yazılı ədəbi dilimizin də formalaşmasında da mühüm rol oynayır. Belə ki, nitqimiz müxtəlif aspektlərdən zənginləşdirən atalar sözləri bir növ nitqimizdə aksiom rolunu oynayır. Həmçinin təkcə dilə məna özəlliyi deyil, eyni zamanda forma özəlliyi də gətirmiş olur. Bu səbədən atalar sözlərinin dilimizin frazeologiyasının zənginləşməsində də müstəsna xidməti vardır. Belə ki, dilimizdəki atalar sözü və məsəlləri obrazlılığa görə iki qrupa ayırmaq mümkündür:

1.Obrazlılar

2.Obrazlı olmayanlar

Obrazlı xarakter daşıyan atalar sözləri bədii təsvir, obrazlı düşüncə, məcazi məna ifadə olunan paremioloji vahidlərdir. Məhz frazeoloji vahidlərin müəyyən bir də qismi atalar sözü və məsəllərin bir hissəsinin atılaraq işlədilməsi əsasında formalaşmışdır. Xalq şairimiz Səməd Vurğunun yaradıcılığından bir neçə nümunəyə diqqət yetirək:

Namərdlik eyləməz halal süd əmən

və ya

Budur Bəxtiyarı yandıran budur
Zamanın dərdini zaman unudur.

və yaxud

Gözündə parlayır qaynaq bulaqlar
Könül duyduğunu xatirə saxlar

Bu misralarda da ifadə olunan atalar sözlərinin bir hissəsinin atılaraq işlədilməsi nəticəsində məhz halal süd əmmək, zamanın dərdi, könül duymaq frazeoloji vahidləri yaranmışdır.

Obrazlıq xüsusiyyəti daşımayan nəsihət məzmunlu atalar sözlərinin müəyyən qismi ümumi şəxsli sadə cümlə quruluşundadır. Bunların həqiqi mənaya malik olanlarının bəzisi məcazi mənada işlədilməklə və quruluşca da frazeoloji vahidə çevrilmişdir. Məsələn:

El gücü-sel gücü, dəstəbədəstə,
İgidlər yeridi qaçaqlar üstə

və ya

Qədrini bilməyən kəndli qardaşım
Azca aşım- demiş –ağrımaz başım

yaxud

Nökərdən şah olmaz!-deyərək getdi
Qarışıb tünlüyə gözümdən itdi.

Bu misralarda el gücü-sel gücü, azca aşım, ağrımaz başım, nökərdən şah olmaz ifadələri də həqiqi mənaya malik olsalar da məcazi mənada işlədilməklə və quruluşca da frazeoloji vahidə çevrilmişdir.

Beləliklə, aydın olur ki, atalar sözü və məsəllər əsasən dəyişməz halda, yəni dildəki sözlər və frazeoloji vahidlər kimi hazır şəkildə işlədiklərindən frazeoloji vahidlərlə ortaqlı əlamətə malikdir, yəni atalar sözlərinin müəyyən bir qismi məna və quruluşca dəyişdirilərək nitq və ya dil vahidi səciyyəsinə salınmışdır. Məhz belə xüsusiyyətə malik olanlar dilimizin frazeoloji sisteminin zənginləşməsində mənbə rolunu oyanayır.

Göründüyü kimi atalar sözləri təkcə dilimizdə nitqimizin daha canlı, sərrast və təsirli olması üçün bir vasitə deyil, eyni zamanda dilimizin lüğət tərkibinin zənginləşməsinin bir özəlliyi, vasitəsidir. Məşhur rus yazıçısı M. Qorkinin sözləri ilə desək “Ən böyük hikmət sözün sadələyindədir. Atalar sözü və məsəllər həmişə qısa olur, lakin onlarda tam kitablar dolusu ağıl və hiss vardır”.

**İsmayılova Afaq,**
**dosent**
**Cahangirli Məleykəxanım,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**jahangirova@outlook.com**

## Bədii tərcümədə xüsusi adların transpozisiyası

Transpozisiya üsulunda tarixilik əsas götürülür. Transpozisiya ondan ibarətdir ki, müxtəlif dillərdə formaca fərqlənən, amma ümumi linqvistik mənşəyə malik olan xüsusi adlar bir-birinin tərcüməsində istifadə olunur. Transpozisiya üsulundan tarixi adların, müxtəlif dinlərdə, o cümlədən “İncil” ilə bağlı adların, eləcə də monarxların adlarının tərcüməsində istifadə olunur. Onlar vaxtilə yazılış və oxunuşlarından fərqli şəkildə rus dilinə köçürülmüş, sonra da həmin şəkildə Azərbaycan dilinə keçmişdir.

Məsələn: Charles – Karl, George – Georq, William – Vilhelm, James –Yakov. Bilirik ki, xristianların müqəddəs kitabı olan "İncil"də sadalanan bir sıra adlar müxtəlif dillərdə fərqli şəkildə verilir:

Məsələn: Mary – Maria – Məryəm, Jesus –İisus –İsa, Abraham – Avraam – İbrahim, Moses – Moisey – Musa, Yozef –Djozef – Yusif, Jacob – Yakob – Yaqub və s. Hətta müxtəlif dillərdə eyni məna daşıyan adlar da var: Allahverdi – Theodore – Boqdan – Fedor və s.

İngilis dilindən bu cür adları tərcümə edərkən "İncil"dəki adları adi adamların adları ilə eyniləşdirmək olmaz.Kalka tərcümə dilində bilavasitə uyğunluğu olmayan dil vahidləri üçün tətbiq edilir. Kalkaetmə söz və ya ifadələrin tərkib hissələrinin tərcümə edilən dilin uyğun elementləri ilə çevirilməsi zamanı söz və ya söz birləşmələrinin səs tərkibinin deyil, kombinator tərkibinin yenidən əks etdirilməsidir.

Bədii tərcümədə, ümumiyyətlə, tərcümədə milli özünəməxsusluğun daşıyıcısı olan xüsusi adların əhəmiyyəti böyükdür. Şübhəsiz, ingilis dilindən Azərbaycan dilinə və ya Azərbaycan dilindən ingilis dilinə tərcümələr zamanı tərcümə mətnindəki xüsusi adların verilməsində yuxarıda bəhs olunan tərcümə metodlarından ya ayrı-ayrılıqda, ya da onların kombinasiyasından istifadə olunur. Ancaq bu yolla Azərbaycan xüsusi adları Qərb oxucusuna və ingilis xüsusi adları Azərbaycan oxucusuna çatdırılır.

Beləliklə, məlum olmayan xüsusi adların çox vaxt orijinaldakı çaları əks etdirməsi, anlaşılmazlıq yaratmaması üçün bəzən izahata ehtiyacı olur. Bəzi tərcüməçilər bu üsuldan istifadə edir, hətta bəziləri buna əhəmiyyət vermirlər. Fikrimizcə, tərcümədə, xüsusilə bədii tərcümədə konkret məna çaları yaradılmasına xidmət edən xüsusi adların müəyyən hallarda şərh edilməsi vacibdir.

**İsmayılova Afaq,**
**dosent**
**İmanzadə Turanə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**turaneimanzade@gmail.com**

## İngilis dilində toplu isimlərin tədrisi metodikası

İngilis dili dünyada ən çox maraq göstərilən dillərdən biridir. Hal-hazırda geniş miqyasda tədris olunur. Əvvəllər ikinci dil kimi öyrənilirdi,bunun da əsas məqsədi qarşılıqlı ünsiyyəti təmin etmək idi. Müasir zamanda İngilis dili birinci dil səviyyəsində və professional şəkildə tədris olunduğundan artıq dil öyrənənlər dilə tam şəkildə, doğma daşıyıcı kimi yiyələnirlər.İngilis dilinin tədrisi prosesində tarix boyu müəyyən problemlər olmuşdur. Hər dövrün özünəməxsus çətinlikləri olur. Bu çətinliklər xüsusən də İngilis dilini xüsusi məqsədlərlə öyrənmə prosesində özünü göstərir.

Azərbaycan dilində olduğu kimi İngilis dilində cəmlik kateqoriyası vardır. Cəmlik kateqoriyası isimlərin sonuna "-s;-es" artırmaqla düzəlir.Məs: humans, guys, ladies, bodies, və s.

Bəzi isimlər varki, bu qaydaya tabe olmur cəmi kökündən dəyişir. Məs: louse-lice, ox-oxen, goose-geese, və s.

Azərbaycan dilində elə isimlər də var ki, onların məzmununda çoxluq, topluluq anlayışı var. Belə isimlər toplu isimlər adlanır. Məsələn: el, xalq, kütlə, camaat. qoşun, sürü, ilxı. dəstə, partiya və s.Toplu isimlərlə əlaqədə olan xəbər təkdə işlənir. məsələn: El yaylağa köçür. və s. Müasir İngilis dilində də toplu isimlər mövcuddur. Dilimizdə olduğu kimi İngilis dilində də bu isimlərə heç bir şəkilçi artırmağa ehtiyac yoxdur. İngilis dilində toplu isimlər geniş və maraqlı mövzulardan biridir. Toplu isimlər aşağıdakılardır:

- police(polis)
- Goods (mal-əmtəə)
- people(xalq)
- clothes(paltarlar)
- poultry (ev quşları)
- vermin(ziyanvericilər)
- clergy (ruhanilər)
- alms (sədəqə)
- personel (heyət)
- cattle (mal-qara)
- stairs (pilləkənlər)
- earnings(qazanc,mənfəət)
- wages (maaş)
- contents (mündəricat)
- aborigines (yerlilər) və.s

Topluluq bildirən isimlər özlərində iki yarımqrupa bölünür: konkret əşya bildirənlər (goods, stairs, clothes, və s.) və mücərrəd məfhum bildirənlər (earnings,contents, və s.)

Elə toplu isimlər varki bəzən tək formada da işlənir. Bu hal cümlədə ifadə etdiyi mənadan asılıdır. Wagessözü bu qəbildəndir. Məs: a living wage, a minimum wage vəs.

People ismi cəmlik şəkilçisi "–s" qəbul edərək cəmlənə bilir. Məs; There are 4 peoples in our country. – Bizim ölkəmizdə 4 xalq var. Burada people sözü "xalq" mənası ifadə etdiyi üçün cəm şəkilçisi qəbul etmişdir.

Different peoples live in Azerbaijan. –Azərbaycanda müxtəlif xalqlar yaşayır.

People are here. – Camaat burdadır.

Hər iki nümunəyə nəzər saldıqda aydın şəkildə iki cümlə arasındakı fərqi görə bilərik. Birinci cümlədə müxtəlif xalqlardan, ikinci cümlədə isə bir xalqdan bəhs edilir.

**İsmayılova Esmira,**
**dissertant**
**Lənkəran Dövlət Universiteti**
**esmira.ans@mail.ru**

## Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması ana dilli yaradıcılığının zirvəsidir

XX əsr Cənubi Azərbaycan ədəbiyyatının ən böyük şairlərindən olan Məhəmmədhüseyn Şəhriyarı bütün dövrlərin böyük sənətkarı adlandıra bilərik. Şəhriyar əsərlərinin böyük hissəsini farsca yazmasına baxmayaraq, məhz Azərbaycan dilində yazdığı əsərləri onu dünya miqyasında tanıdıb və şeir xiridarlarına sevdirə bilib. Bu sevginin mənbəyi isə ürəkdən yazılması, dərin səmimiyyəti, yüksək şeiriyyəti və doğma yurda bağlılıq hissləridir.

M.Şəhriyar irsinin tədqiqatçıları, biliciləri "Heydərbabaya salam" poemasını bədii məziyyətlərinə, ədəbiyyata və ədəbi mühitə təsirinə görə şairin anadilli yaradıcılığının şah əsəri hesab edirlər. Ustad sənətkarın anadilli yaradıcılığının tədqiqatçılarından olan doktor Yusif Gədikli M. Şəhriyarı hər şeydən əvvəl, Heydərbaba şairi adlandıraraq yazırdı: "Şəhriyar 92 şeirdən birini türk dilində yazmasaydı belə (buraya "Heydərbabaya salam" poemasının II hissəsi də daxildir) yalnız "Heydərbabaya salam" poemasının I hissəsi ilə ədəbiyyat tarixində layiq olduğu yeri alacaqdı. Çünki, "Heydərbabaya salam"ın I hissəsi istər sənət baxımından, istərsə də Cənubi Azərbaycanda türkcə yazmaq qadağan olunduğu bir vaxtda, istərsə də Oğuz

coğrafiyasında yaratdığı ədəbiyyat dalğası baxımından dünyada bənzəri olmayan abidəvi bir əsərdir".

Şairin "Heydərbabaya salam" poemasını anasının" oğlum, sənə böyük şair deyirlər, ancaq sən necə yazırsan ki, mən başa düşmürəm" deməyinə görə yazıldığı iddia edilir. Əsərdəki dərin lirizm, səmimiyyət, yurd sevgisi, doğmaların ehtiramla anılması söylənilənlərin doğru olmaq ehtimalını artırır. İlk baxışdan adi məişət poeması təsiri bağışlayan, bir yazarın keçmiş xatirələrinin təsviri sayıla biləcək əsəri oxucuya bu qədər doğmalaşdıran nədir? "Heydərbabaya salam"a oxucu sevgisinin sirri nədədir? Tədqiqatçı alim H. Billuri araşdırmasında bu suala belə cavab verir: "Şair xalqı ilə doğma ana dilində dərdləşir. Onların dərd-sərinə ortaq olmağa, bu dərdlərə çarə arayıb axtarmağa çalışır. Şəhriyar xalqının ən böyük dərdi olan ayrılıq, dərbədərlik dərdinə ürəkdən acıyır. Xalqının başına ayrılıqdan nələr gəldiyini dərindən duyub başa düşən şair, hər şeydən əvvəl, öz xalqını birliyə çağırır":

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı.
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar.

Şəhriyar bir şair kimi nəyə qadir olduğunu bu əsərdə tam gücü ilə göstərə bilib. Yaradıcılığının dönüş nöqtəsi hesab edilən poemanın təsir gücü isə, hər şeydən əvvəl, həyatiliyindədir. "Heydərbaba" həyatın tam göstərən güzgüsüdür: çoxu ağlamaqdır, bəzən də gülmək. Amma necə ki, "Moliere" bəzi komediyalarında tragediya kənarından keçir, "Heydər baba"nın gülməsi də həmişə göz yaşıyla bərabərdir". Müasir İran ədəbiyyatının tədqiqatçılarından olan İ. Qasemi əsəri belə dəyərləndirir. İ. Qasemi poemanı tədqiq edərkən yazır: "Oxucu Azərbaycanın ən uzaq kəndlərində yaşayan sadə, yaşlı kişi və qadınlardan eşitdiyi sel kimi axan sözlərlə üz-üzə qaldıqda, yetəricə təəccüblənir".

M. Şəhriyarın anadilli əsərlərinin toplandığı son nəşrlərdən biri olan "Əbədiyyət gülüyəm mən" toplusunda "Heydərbabaya salam" poemasının birinci hissəsində 76, ikinci hissəsində 46 bənd verilib. Bu bəndlərin hamısı birlikdə kamil bir əsər kimi poemanın vəhdətini təmin etməklə yanaşı, həm də hərəsi ayrılıqda bitkin bədii vahid təsiri bağışlayır.

Diqqət edək:

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qar-bacanı döyəndə,
Qurd keçinin Şəngülüsün yeyəndə
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb ondan sonra solaydım.

və ya

Biçin üstü sünbül biçən oraqlar ,
Elə bil ki, zülfü darar daraqlar,
Şikarçılar bildirçini soraqlar,
Biçinçilər ayranların içərlər,

Kənd həyatını bundan təsirli, bundan dolğun, həm də sadə necə təsvir etmək olar?

Cənubi Azərbaycanın ədəbiyyatşünas alimi Nüsrətullah Fəthi Ataşbak " Heydərbabanı yad edərkən" adlı kitabında "Heydərbabaya salam" poemasından aldığı təəssürat haqqında yazır:" Əsəri ilk dəfə oxuyanda ağladığıma baxmayaraq, ikinci və üçüncü dəfə oxuyanda da bərk mütəəssir oldum. Burada mən öz ömrümü, həyatımı, ürək ağrılarımı, uşaqlıq, gənclik illərimi görür, sanki onları yenidən yaşayırdım".

Qeyd edək ki, Azərbaycan ədəbiyyatında dağlara müraciətlə yazılmış yüzlərlə bədii əsər mövcuddur. Klassik ədəbiyyatda və sonrakı çağdaş ədəbiyyatımızda dağa xitabən əsərlərin yazılmasının səbəbləri müxtəlif olsa da, məqsəd birdir- vətənsevərlik! M. Şəhriyar özü bu əsərini nə üçün məhz dağa müraciətlə yazılmasının səbəbini belə izah edir: "Dağ göylərə yaxındır. O təbiətin şah əsərlərindən biridir. Dağ tarixin əbədi olaraq görən açıq gözüdür. O, vətəndə baş verən hadisələri seyr edərək öz sinə dəftərinə yazır. Şairin göylərə qalxan nalələrini əks etdirib bütün yer üzünə yayaraq hamının qulağına çatdırmağı təkcə o bacarır. Sənətkarın təbi və hümməti ilə dağlar arasında yaxınlıq və doğmalıq var".

Şəhriyar bu poemanın nəşrinə yazdığı müqəddimədə "Heydərbabaya salam" poemasını öz qəlbinə ən çox yaxın olan əsər sayır, onun saflığını dağların sinəsini yarıb çıxan bulaqların şəffaflığına bənzədir, gələcəkdə də ana dilində böyük həvəslə yazıb-yaradacağını bildirir. Əsərin son bəndi gələcək nəsillərə, azəri övladlarına bir öyüd-nəsihət ruhundadır:

Heydərbaba, alçaqların köşk olsun,
Bizdən sonra qalanlara eşq olsun,
Keçmişlərdən gələnlərə məşq olsun,
Övladımız məzhəbini danmasın,
Hər içiboş sözlərə aldanmasın!

Akademik Bəkir Nəbiyev "Heydərbabaya salam" poemasını Azərbaycan ədəbiyyatında hadisə sayaraq yazır: "Bu bir həqiqətdir ki, "Heydərbabaya salam əsəri ədəbiyyatımızın şedevrlərindən biri olmaqla qalmayıb, bütünlüklə Azərbaycan bədii təfəkkürü sahəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu poema İranda şahlıq rejiminin, Azərbaycanda şəxsiyyətə pərəstiş əhval-ruhiyyəsinin tilsiminə düşmüş şeir üçün bir növ "İsrafilin suru" rolunu oynamışdır".

Zamanın fövqündə dayanan, məkan, sərhəd tanımayan söz inciləri sırasında M. Şəhriyarın "Heydərbabaya salam" poemasının da öz yeri var.

Bir sazlı, sözlü Şəhriyar var imiş,
Odlar sönüb, onun odu sönməyib,
Fələk çönüb, onun çarxı dönməyib.-

deyən böyük şair, Azərbaycan xalqı yaşadıqca, yaratdığı nadir sənət inciləri ilə birgə yaşarı olacaq.

**Kərimova Validə,**
**doktorant**
**Xəzər Universiteti**
**kerimovavalide@yahoo.com**

## Noam Xomskinin sintaktik təlimində üst qat təhlili

Noam Xomski XX əsrin ən nüfuzlu dilçilərindən və bu gunədək dilçilik nəzəriyyəsinin öndərlərindən biri hesab olunur. Alim öz unikal dilçilik fəlsəfəsi və geniş marağa səbəb olmuş Transformasyon Generativ Qrammatika (TGG) nəzəriyyəsi ilə məşhurlaşmışdır. Xomskinin sintaksis haqqında erkən əsərlərinin konseptual əsasları filosoflar arasında həddən artıq böyük nüfuza malik idi. "Sintaksis nəzəriyyəsinin aspektləri" əsərində göstərildiyi kimi, qrammatika iki səviyyəyə bölünür: - qrammatikanın strukturunun kontekst-sərbəst ifadələrinin prekursiv

qaydaları ilə yaranan alt səviyyə və bu qaydaların tətbiq edilməsi vasitəsi ilə transformasiyanın alt strukturundan əldə edilmiş üst səviyyə.

Generativ qrammatikanın sintaktik tərkib hissəsi sonsuz bir (A, Ü) cütü müəyyən edir, burada A alt strukturdur və S üst strukturdur; qrammatikanın şərhli komponentlərinin semantik göstəricisi A-dır (yəni alt qat), fonetik göstəricisi isə Ü-dür (yəni üst qat). Alt və üst strukturları ilə bağlı qaydalar, yəni "qrammatik transformasiyalar", təfərrüatları ilə araşdırılmış və ətraflı izah olunmuşdur. Görünür, həm alt struktur, həm də üst struktur mənanın müəyyənləşdirilməsində böyük rol oynayır. Alt struktur mənanın müəyyənləşdirilməsinə daxil olan predikasiya, modifikasiya və s. qrammatik əlaqələri təmin edir. Digər tərəfdən, fokus və presupozisiya məsələləri, mövzu və şərhlər, məntiqi elementlər və pronominal istinadlar qismən üst strukturu ilə müəyyən edilir. Əslində, "məna göstəriciləri" və ya "semantik göstəricilər" anlayışı özü olduqca mübahisəlidir. Qrammatik mənanın müəyyənləşdirilməsi və "praktik düşüncələr", "fakt və inam məsələləri" və "ifadənin məzmunu" arasında kəskin fərq qoymaq mümkün deyildir.

Beləliklə, dilin qrammatikası səs və mənanın xüsusi konjugasiyasını müəyyən edən qaydalar sistemidir. O, sintaktik, semantik və fonoloji komponentlərdən ibarətdir. Sintaktik komponent müəyyən mücərrəd obyektləri müəyyən edir. Semantik və fonoloji komponentlər tamamilə təfsir olunur. Birincisi, alt strukturun köməyi ilə semantik şərh verilir; ikincisi, üst strukturun köməyi ilə isə fonetik şərh verilir. Belə ki, qrammatika ümumiyyətlə semantik və fonetik şərhlərdən ibarətdir və komponentin qaydalarına əsaslanaraq, cütlənmiş alt və üst strukturları müəyyənləşdirir.

**Mehdiyeva Aysel,**
**dissertant**
**Lənkəran Dövlət Universiteti**
**mysel.lsu@yahoo.com**

## Azərbaycan və İngilis dillərində metafora haqqında müxtəlif fikirlər

Dildə işlədilən sözlər həm həqiqi, həm də məcazi mənada işlənə bilir və bu iki məna arasında müəyyən əlaqə vardır. Bu əlaqə əsasında da söz həqiqi mənasına əsasən məcazi mənada işlədilir, buradan da yeni məna çalarları yarada bilir. Sözlərin məcazi mənada işlədilməsinin bir şəkli də metaforadır. Əksər insanlara görə metafora şair, yazıçı, başqa sözlə, yaradıcı insanlar üçün bir vasitədir. Çox az insan bizim metaforik ifadələrdən gündəlik nitqimizdə istifadə etdiyimizdən xəbərdardır. Tədqiqat işində 2500-il əvvəl yaşamış Aristotelin "Poetika" əsərindən başlayaraq müxəlif dövrlərə aid yazılmış əsərlərdə metaforalar haqqında qeyd olunmuş fikirlər araşdırılmış və müqayisə edilmişdir.

Metafora haqqında ilk elmi fikir e.ə. IV əsrdə yaşamış qədim yunan filosofu və alimi Aristotelin "Poetika" əsərində qeyd olunmuşdur. Aristotel ilk dəfə olaraq metaforalara elmi şəkildə yanaşaraq onların ətraflı təsvirini vermişdir. O qeyd edirdi ki, metafora bir əşyaya başqa bir əşyanın malik olduğu adın verilməsindən ibarətdir ki, burada köçürmə ya cinsdən növlərə, yaxud növlərdən cinsə qədər, ya da ki növlərdən növlərə qədər ola bilir, daha çox oxşarlıq zəminində qurulur. Məşhur Sovet dilçilisi, leksikoloqu İ.V.Arnold metaforaya bu izahı vermişdir: metafora oxşarlıq əlaqələndirilməsinə əsaslanan adın köçürülməsidir və bu, əslində gizli bir qarşılaşdırmadır, yəni müqayisədir. Məsələn, hiyləgər adam tülkü kimi adlandırılır.

Alman dilçisi H.Paul qeyd edir ki, metaforalar oxşarlıq və ya müqayisənin çox müxtəlif növlərinə əsaslana bilər, məsələn, forma oxşarlığına: head of a cabbage-kələmin başı,the teeth of a saw-mişarın dişi. Bu oxşarlıq funksiyaya əsaslana bilər: the head of the school-məktəbin başçısı, the key to the mystery-sirrin açarı. Oxşarlıq mövqe ilə də daşınıla bilər: foot of a page-

səhifənin ayağı. Metaforik köçürmənin çoxsaylı halları zaman və məkan arasındakı oxşarlığa da əsaslana bilər: long distance-long speech-uzun məsafə-uzun çıxış.

Azərbaycan dilçiliyində də metaforalara bəzi yanaşmalar mövcuddur. Bu yanaşmalar daha çox metaforalara Aristoteldən bu günümüzə kimi gəlib çıxan ənənəvi yanaşmalara əsaslanır. Görkəmli Azərbaycan dilçisi Afad Qurbanov "Müasir Azərbaycan ədəbi dili" kitabında qeyd edir: Əşya və hadisələrin oxşarlığı əsasında yaranan məcazlara metafora deyilir; məsələn:

Səhərdir... Darayır saçlarını gün,
Tərləyir Qafqazın qarlı dağları (S.V.)

Bu misalda günün saçlarını daraması, dağların tərləməsi metaforadır. Bunun ikisi də canlılara məxsus əlamətlərdir. Afad Qurbanov metafora məsələsinə yanaşarkən onun bədii ədəbiyyatın ifadə vasitəsi olması fikrini irəli sürmüş və metaforaların dildəki və nitqdəki daha geniş funksiyası və rolunu gözdən qaçırmışdır.

Z.Verdiyeva, F.Ağayeva, M.Adilovun müəllifləri olduğu "Azərbaycan dilinin semasiologiyası" kitabında metafora haqqında yazılır: Metafora əşya və hadisənin daxili və xarici bənzərliyinə məna köçürülməsidir. Ən geniş yayılmış bu çoxmənalılıq növündə bənzər əşya və hadisələr eyni sözlə adlanır. Deməli, metafora bənzərlik üzrə məna köçürülməsidir. Alman dilçisi H.Paul kimi qeyd etdiyimiz müəlliflər də metaforanı oxşarlığın müxtəlif növlərinə görə əsaslandırmışlar.

H.Ə.Həsənov "Müasir Azərbaycan dilinin leksikası" kitabında sözün həqiqi və məcazi mənaları mövzusuna toxunur. Sözlərin metafora yolu ilə də məcazi mənada işlədildiyini qeyd edir: sözün məcazi mənasının işlənməsi və onun başa düşülməsi üçün həqiqi məna əsas olmalıdır. Sözü eşidən hər kəs əvvəl onun həqiqi mənasını, sonra məcazi mənasını dərk edir. Məsələn, tülkü sözü müəyyən bir heyvanın adıdır.

Biz Azərbaycan dilçiliyində metafora mövzusuna digər yanaşmaları da göstərə bilərik. Lakin Azərbaycan dilçilərinin əksəriyyəti metaforaya şair, yazıçı, başqa sözlə, yaradıcı insanlar üçün bir vasitə kimi yanaşır, əksər izahlar arasında oxşarlıqlar, köçürmələr, müqayisələr üzərində qurulmuş bir-biriylə bağlı olan sözün həqiqi və məcazi mənası arasındakı ortaq cəhəti görürük. Amma dilçilərin əksəriyyəti dili bəzəməklə, dilin metafora vasitəsilə poetik təsvirini verməklə metaforaların funksiyalarını və rolunu məhdudlaşdırmışlar.

XX əsrin sonlarına doğru analitiklər Corc Lakof və Mark Consonun tədqiqatları ilə metaforanın mənasını, işlənməsini, funksiyasını, rolunu geniş şəkildə ortaya qoydular və sübut etdilər ki, metaforalar gündəlik dilimizdə hərtərəfli, zəruridir. Onlar yazırlar: Metafora əksər insanlar üçün poetik (bədii) təsəvvür və linqvistik inkişafdır, təkcə dilin xüsusiyyəti kimi tədqiq olunur, amma bizim fikrimizcə, əksinədir, metafora bizim gündəlik həyatımızda təkcə dildə deyil, fikir və hərəkətlərdə də geniş yayılmışdır. Onların fikrincə, bizim adi anlayış sistemimiz belə metaforikdir və metaforalar bizim necə qavramağımızı, necə düşünməyimizi və nə etməyimizi təşkil edir.

Beləliklə, güclü ənənəvi nəzəriyyənin bütün aspektlərini əlaqəli və sistematik üsulla dəyişdirən metaforaya yeni baxış 1980-cı ildə "Metaphors we live by" adlı tədqiqat əsəri ilə Corc Lakof və Mark Conson tərəfindən ortaya qoyuldu. Onların konsepsiyası metaforanın koqnitiv dil nəzəriyyəsi kimi tanınmaqdadır. Lakof və Conson əminliklə göstərdi ki, metafora həm düşüncəmizə, həm də gündəlik dilimizə geniş formada nüfuz etmişdir. Koqnitiv dilçilik nəzəriyyəsində metafora bir konseptual sahənin digər bir konseptual sahə baxımından başa düşülməsi kimi müəyyənləşdirilir. Beləliklə, Aristotelin dövründən təxminən 2500 il ərzində alimlər fərz edirdilər ki, metafora sadəcə mənası olan bir sözün ikinci bir məna verə biləcəyi bir dil məsələsidir. Lakin 20-ci əsrin son yarısında bu fikrin səhv olması Corc Lakof və Mark Consonun əsərində göstərildi. Metaforanın empirik tədqiqatı konseptual metafora nəzəriyyəsi kimi tanınaraq metaforanın tədqiqatının əsasında durdu. Hazırda Zoltan Kovesçi, Raymond Gibbs, Fokonye və Törner, Greydi kimi bir sıra müasir dilçilər də metafora məsələsinə aid müxtəlif problemləri konseptual yöndən tədqiq etməkdədirlər.

**Məmmədova Günel,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**gunel2017m@gmail.com**

## Dilçilikdə gender tədqiqatları haqqında

Müasir qlobal dünyada humanitar elmin yeni istiqaməti sayılan gender tədqiqatları get-gedə genişlənir. Belə tədqiqatlarda cəmiyyətdə kişi və qadına münasibəti, bu və ya digər cinsə mənsubluğu ilə əlaqədar fərdlərin davranışı, kişi və qadınlara xas olan keyfiyyətlər barədə stereotip təsəvvürləri müəyyənləşdirən, bir sözlə, problemi bioloji cins sferasından sosial həyat və mədəniyyət sahəsinə aid edən sosial və mədəni faktorlara diqqət yetirilir. Gender tədqiqatları aşkar şəkildə interdissiplinar (fənlərarası) xarakter daşıyır, çünki gender sosial, mədəni, psixoloji və insanla bağlı digər proseslərin ümumi kompleksi olaraq milli-etnik dil şəxsiyyətinə və onun davranışına təsir edir ki, bunun əsasında kişilik və qadınlıq təbii faktor kimi deyil, mədəniyyət konsepti kimi nəzərdən keçirilir. Bu cəhətdən gender təkcə fəlsəfə, sosiologiya, psixologiya və s. elmlər üçün deyil, həm də dilçilik üçün böyük maraq kəsb edir.

Dilçilik tarixində belə bir fikir mövcuddur ki, dil və cinsin əlaqəsi ilk dəfə antik dövrdə nəzərdən keçirilmişdir. Qeyd olunur ki, isimləri ilk dəfə e.ə. V əsrdə Protaqor tərəfindən cinslərə bölünmüşdür və sonralar əsrlər boyu tədqiqatçılar sözlərin hansı xüsusiyyətinə görə cinslərə bölündüyünü müəyyən etməyə çalışmışlar. Sözlərin cinsə mənsubluğu ilə bağlı aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, qədim zamanlarda istifadə olunan peşə adlarının əksəriyyəti kişi cinsinə aid olmuş, sonradan müəyyən şəkilçilərin köməyi ilə həmin ismin qadın cinsi düzəldilmişdir. Bu yalnız peşə adlarında deyil, eyni zamanda cəmiyyətin müxtəlif sahələrinə aid olan sözlərdə belə olmuşdur. Tədqiqatçılar hansı səbəbdən bəzi xüsusiyyətlərin yalnız qadına, güclü anlayışların isə kişilərə, aid edilməsinin səbəbi müəyyən edilməyə çalışmışlar. Yeni doğulmuş körpənin cinsini bildirərkən nəyə görə mavi rəng oğlana, çəhrayı rəng isə qıza aid edilir. İngilis dilindəki doctor, actor, chair, person və s. sözlər deyilərkən ilk növbədə ağlımıza kişi cinsi gəlir, bəs bu fikirləri bizim beynimizdə nə formalaşdırır? Hansı səbəbdən Azərbaycanca bəşəriyyət, insanlıq, ingiliscə mankind, rusca человечество, almanca Menschheit, ispanca humanidad, fransısca humanité və s. kimi sözlər barədə danışılarkən ilk təsəvvürə gələn kişi cinsi olur, baxmayaraq ki, alman, ispan və fransız dillərində həmin sözlər qadın cinsinə aiddir.Tədqiqatçılar sadalanan bu və digər halların səbəblərini üzə çıxarmağa, müəyyən etməyə çalışmışlar. Uzun zaman dildə qrammatik cinsin mövcud olmasının əsas səbəbi olaraq bioloji cinslə qrammatik cinsin nisbəti, əlaqəsi olması kimi başa düşülmüşdür və bunun əsasında simvolik-semantik nəzəriyyə formalaşmışdı. Lakin sonralar cins kateqoriyasının mövcud olmadığı dillər elmə bəlli olanda, həmin nəzəriyyə ciddi tənqid edilsə də, belə bir fakt dəyişməz olaraq qaldı ki, qrammatik cins kateqoriyası sözün dərk edilməsinə təsirini göstərir. Bu o demək idi ki, qadın cinsinə aid sözlərə qadınlıq səciyyəsi, kişi cinsinə aid sözlərə kişilik səciyyəsi aid edilirdi.

Simvolik-semantik nəzəriyyənin tərəfdarlarından olan Y.Qrimm, V.fon Humboldtun dövründən gender tədqiqatları başqa istiqamətdə və formada aparılırdı. XX yüzilliyin əvvəllərindən dildə cinsin inikası mövzusu O.Yespersen, E.Sepir, F.Mautner kimi tədqiqatçı alimlərin diqqətini cəlb etmişdir. Onların əsərlərində dil cəmiyyətlə və həmin cəmiyyətdə mövcud olan insanla əlaqədə nəzərdən keçirilirdi. Bu dövrdə alman, ingilis, fransız kimi Avropa dillərinin kişi və qadın variantları arasında fərqliliklər tədqiq edilməyə başlandı. F.Mautner alman dilində genderlə bağlı fərqləri sosial və tarixi səbəblərlə izah edirdi. O, qadın və kişi davranışının xüsusiyyətlərini üzə çıxarmaqla onların qender variativliyini də sosial faktorlarla bağlı olduğunu göstərirdi (Mauthner F. Beiträge zu einer Kritik der Sprache. 3. Auflage. Stuttgart: Berlin, 1921. Band 1). Hindu dillərində sosial identikliyi, cins və statusu əks etdirən dil fərqlərini tədqiq etmiş E.Sepir onların əsasında, ilk növbədə, fonetika və morfologiyanın dayandığını göstərirdi (Sapir E.

Male and female forms of speech in Yana // Donum natalicium schrignen / ed. by St. W. J. Teeuwen. Nijmegen – Utrecht, 1929. p. 79-85.). O.Yespersen qadınları dildən istifadədə daha mühafizakar olduğu qənaətinə gəlmişdi. Miqrantların dilləri üzərindəki müşahidələri əsasında O.Yespersen belə qənaətə gəlmişdi ki, qadın söyüşdən istifadəyə meyilli deyil. (Jespersen O. The Woman // The Feminist Critique of Language. Ed. By D. Cameron. London, 1998. P. 225-241.)

Qadın və kişi nitqinin öyrənilməsinə aid bəzi tədqiqatlarda qadınlardan hansı davranış formalarının gözləndiyi öz əksini tapmışdır. Burada qeyd edilirdi ki, kişilərin nitqi mükəmməl və qüsursuz olduğu üçün onların çıxışına daha çox üstünlük verilir, qadınlar isə çox zaman arxa planda qalırlar, çünki onların nitqi qeyri-təbiidir. Hətta Goddard və Pattersonun 2000-ci ildə yazdıqları əsərdə yazır ki, kişilərin nitqinin və davranışlarının müşahidəyə ehtiyacı yoxdur. Onların nitqi tamamilə qüsursuzdur (Goddard A., Patterson L. Language and Gender. London: Routledge, 2000).

Amerika tədqiqatçısı R.Lakoff qadın və kişi dilinin əsas fərqlərini 1975-ci ildə yazdığı əsərdə təfərrüatlı şəkildə təqdim etmişdir (Lakoff R. Language and Woman's Place // Language in Society, Vol. 2, No. 1 (Apr., 1973), pp. 45-80// https://web.stanford.edu/class/linguist156/Lakoff_1973.pdf.) O qeydə aldığı söhbət və dialoqları araşdırmaqla belə bir nəticəyə gəlmişdir, qadınların nitqi düşünüldüyü kimi qüsurlu deyildir. Sadəcə olaraq qadın və kişilərin nitqlərində fərqliliklər vardır. Lakoff daha sonra kişilərin danışıq zamanı hansı üsullardan istifadə etmklə üstünlük əldə etmələtinin səbəblərini müəyyənləşdirmişdir və aydın olmuşdur ki kişilər dialoq zamanı interruption –dan daha çox istifadə edirlər, yəni qarşısındakının nitqini kəsərək, özləri fikir söyləyir , beləliklə də öz fikilərini təsdiq etdirməyə çalışırlar.

M. Brown 1980-ci ildə yazdığı əsərində qeyd edirdi ki, qadınlar danışıq zamanı daha nəzakətli, dinləmə qabiliyyətləri daha yüksəkdir və onlar vulqar terminlərdən daha az istifadə edirlər. 1990-cı ildə Tannen bu araşdırmanı daha da dərinləşdirmiş və müəyyən etmişdir ki kişilər danışarkən qarşı tərəfdən hörmət gözləyir və nitqləri bölünərkən reaksiyaları mənfi olur.

Nəticə olaraq qeyd etmək olar ki, dilçilikdə gender faktorunun rolu böyükdür və müxtəlif dövrlərdə aparılan tədqiqatlar bunu əyani şəkildə göstərir. Onu da qeyd etmək lazımdır ki, dünya dilçiliyində müxtəlif ölkələrdə aparılan gender tədqiqatları mədəni, sosial və siyasi inkişaf səviyyəsi baxımından müxtəlif olduğuna görə eyni də deyildir. Heç şübhə yoxdur ki, dünya dillərində gender tədqiqatlarını uzun inkişaf tarixi vardır və müasir humanitar-linqvistik düşüncənin perspektivli istiqaməti kimi diqqəti cəlb edir.

**Məmmədova Nərmin,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**ele.eliyev@gmail.com**

## Müstəqillik dövrü Lənkəran ədiblərinin yaradıcılığında uşaq ədəbiyyatı

Azərbaycan ədəbiyyatının əsas tərkib hissəsini təşkil edən uşaq ədəbiyyatı bütün dövrlərdə öz inkişaf xətti ilə diqqət çəkir. İstər yazılı, istərsə də şifahi xalq ədəbiyyatında fərqli formaları ilə qarşılaşdığımız uşaq ədəbiyyatının özünəməxsus çalarlarına müstəqillik dövründə Lənkəran ədəbilərinin yaradıcılığında da kifayət qədər rast gəlirik. Təbii ki, uşaqların təlim- tərbiyəsi, bədii zövqünün formalaşmasında uşaq ədəbiyyatının müstəsna əhəmiyyəti vardır. Həmçinin milli ədəbiyyatımızın müstəqil sahəsi olan uşaq ədəbiyyatı kiçik yaşlı məktəblilərin, yeniyetmələrinzehni qabiliyyətinin güclənməsinə də xidmət göstərir.Əlbəttə ki, uşaq yazıçısı öz oxucuları ilə dil tapmağı bacarmalı, uşaq təfəkkürünə və marağına cavab verən əsərlər yazmalıdır. Müstəqillik dövrü Lənkəran ədəbi mühitinə nəzər saldığımız zaman yazarların dilinin əvvəlki dövrlərə nisbətən klassik ifadələrdən - ərəb və fars mənşəli sözlərdən nisbətən azad olunduğunu müşahidə edirik. Bu da uşaq ədəbiyyatının inkişafına təkan verən amillərdən biridir.

Müstəqillik dövründə Lənkəran ədiblərinin bir çoxunun yaradıcılığında biz bu tələblərə cavab verən əsərlərlə qarşılaşırıq.

Lənkəran ədəbi mühitində hətta daha çox yaradıcılığında qəm – kədər motivləri üstünlük təşkil edən Aliyə Seyidqızının yaradıcılığında belə nikbin ruhlu uşaq şeirlərinə rast gəlirik. Buna misal olaraq ədibin "Balaların balasıdır nəvələr", "Nurlan", "İsmayılın ad günü", "İlahi! Bu uşaq haçan böyüyər " və s. bu kimi şeirləri göstərə bilərik. Müstəqillik dövrü Lənkəran ədəbi mühitində öz klassik ruhu ilə seçilən Mirhaşım Talışlı da uşaq ədəbiyyatına biganə qalmamışdır. Onun uşaqlar üçün yazdığı "Məktəbdə görüş", "Uşaq ili – 2009-cu il", "Qaranquş", "Ördək balaları", "Uşaq qəzet oxuyur", "Əlvida uşaq bağçası", "Bu bağça", "17 saylı uşaq bağçasında", "Sabahın igidləri", "Qış gəldi", "Uşağın yolu" və s. kimi şeirlərini misal göstərə bilərik.

Lənkəran ədəbi mühitində uşaq ədəbiyyatının inkişafı baxımından Əli Nasirin yaradıcılığı daha fərqlidir. Belə ki, onun "Balaca tənbəl", "Dəcəlin aqibəti", "Karusel", "Bəs kiminlə oynayım?", "Ağ cücəm", "Tuk-tuk", "Gilas", "Ay nənə" və s. bu kimi uşaq şeirləri, "Kəlbətinin dərdi", "Ağcaqanad", "Özündənbəy qurbağa", "Artıq tamah", "Nəğmə gözəl nəğmədir", "Siçanın arzusu", "Müftəxor sərçə", "Çəpgözün yuxusu" adlı təmsilləri, "Axı mən məktəbliyəm?!" adlı novellası,"Yuxu" adlı bir pərdəli uşaq pyesi uşaq ədəbiyyatının maraqlı nümunələrindəndir. Həmçinin Əli Nasir uşaq folklorundan bəhrələnib onun maraqlı nümunələrindən istifadə edərək uşaq ədəbiyyatını fərqli şəkildə zənginləşdirmişdir. Belə ki, şifahi xalq ədəbiyyatının yanıltmac, tapmaca, nağıl kimi janrlarından faydalanan ədib uşaqlar üçün çox gözəl nümunələr yaratmışdır. Məsələn,ədibin:

Qara qara qarğa qondu,
Qarda qara qarğa ondu.
Qara qarda qarğa qovdu,
Qara, qarda bu nə ovdur?

tipli yanıltmacları uşaqların nitqinin inkişafında müstəsna əhəmiyyətə malikdir. Həmçinin ədib zehni inkişafı sürətləndirən tapmacalara da yaradıcılığında kifayət qədər yer verib :

Nə kitabdır, nə dəftər,
Gah sevincdir, gah kədər.
Var qəribə hikməti,
Yazılır sinəsinə,
Biliklərin qiyməti.

Bölgə yazarlarından Vaqif Cavadovunda yaradıcılığında uşaq ədəbiyyatının nümunələrinə kifayət qədər rast gəlirik. Onun "Arzuya, bax, Arzuya", "Altıyaşlılara", "Ulu nənəmiz deyək", "Paltosunu çıxarar", "Körpələrlə gülürəm", "Nazlama" və s. kimi uşaq şeirləri bu qəbildəndir.

Uşaq ədəbiyyatının özünə xas xüsusiyyətlərindən biri də maarifçilik ideyalarının təbliği, vətənə, elə, obaya bağlılığı, tariximizi, milli - mənəvi dəyərlərimizi özündə inikas etdirməsidir. Təbii ki, uşaqların, yeniyetmələrin bu ruhda böyüməsində ədəbiyyatın, xüsusilə də uşaq ədəbiyyatının müstəsna əhəmiyyəti vardır. Müstəqillik dövrü Lənkəran ədiblərindən bir çoxunun, xüsusilə də Məsudi Dövranın yaradıcılığında biz ədəbiyyatın tərbiyəvi əhəmiyyətinin, öyrədici xüsusiyyətinin, gənc nəslin bu ruhda böyüməsinə xidmət etdiyinə şahid oluruq. Şairin "Ana dili" şeirində doğma dilə bağlılığı da məhz bu ruhda yazılan şeirlərsilsiləsindəndir :

Nənədir, babadır bu dil,
Boş qalmaz yuvadır bu dil,
Mahaldır, obadır bu dil,
Vətənə, elə gəlmişəm.

Məsudi Dövranın hələ uşaqlıq illərində, V sinifdə oxuduğu zaman atasına həsr edərək qələmə aldığı "Vətən xilaskarı " şeiri də uşaq ədəbiyyatının nadir incilərindəndir:

Atam Vətən üçün çarpışan zaman
Üstünə cummuşdur bir dəstə alman.
Polad sinəsini vermiş irəli
Qanlı yara almış əyilməz əli.
Lakin itirməmiş atam özünü
Düşmənə zilləmiş o mərd gözünü
Yaralı əlinə tüfəng almış o,
Ulduzlu tüfəngi işə salmış o.
Sən ey rus süngüsü, rus tüfənglisi
İmtahan etmişdir sonuncu cəngi
Səhərin dan yeri ağardığından
Arada başlanmış süngü davası
Dolmuş meyitlərlə alman yuvası.

Göründüyü kimi müstəqillik dövrü Lənkəran ədəbi mühitində uşaq ədəbiyyatının özünəməxsus inkişaf xətti sezilir. Bölgənin fərqli koloridinə yeni çalar qatan uşaq ədəbiyyatı ədiblərinin yaradıcılığına da xüsusi abu – hava verir. Görkəmli fransız mütəfəkkiri JozefJubert demişdir: "Uşaqların nəsihətdən çox yaxşı nümunəyə ehtiyacı var". Düşünür ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində yazıb yaradan ədəbilərin yaradıcılığında xüsusi yer tutan uşaq ədəbiyyatından gətirdiyimiz nümunələr də məhz bu qəbildəndir.

**Qəribli İslam,**
**professor**
**Muradzadə Sevinc,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**sendi1302@gmail.com**

## Ümumtəhsil məktəblərində bədii əsərlərin tədrisi yolları

Azərbaycan ədəbiyyatının ümumtəhsil məktəblərində tədrisi çox mühüm və önəmli məsələdir. Yuxarı yaşlı məktəblilər və yaxud gənclər orta məktəbin son siniflərində müxtəlif sənətə və yaxud ixtisasa yönəlir və yaxud ali məktəbə hazırlaşırlar. Onlarda hadisələrə aydın münasibət bildirmək, azad fikir yeritmək vərdişi formalaşır. Bədii əsərlərin tədrisi və mənimsədilməsi də bu məqsədə xidmət edir. Bəşəriyyətin problemlərini, düşüncə tarixinin salnaməsini özündə əks etdirən ədəbiyyat gənc yaşlarında şagirdlərin təfəkkürürnün formalaşmasına, şəxsiyyət olaraq yetişməsinə, cəmiyyətdə öz yerini tutacaq fikirlərlə çıxış etməsinə böyük təsir göstərir.

Bədii əsərləri başa düşmək, mənimsəmək üçün nədən başlayıb, nə ilə bitəcəyini təsəvvür etmək olduqca vacibdir.

Şagirdlərin yaş səviyyəsi nəzərə alınaraq V sinifdən başlayaraq şifahi xalq ədəbiyyatı və folklor ruhlu nümunələr, bədii parçalar, hər bir janrın özünəməxsus xüsusiyyətləri barədə yığıcam nəzəri məlumatların verilməsi zəruri sayılır.

Ümumtəhsil məktəblərində ədəbiyyatın tədrisinin önündə duran əsas məqsədlərdən biri də şagirdlərdə oxu vərdişinin təkmilləşdirilməsidir. Bədii əsər üzərində işdə onun obrazlılığını öyrədilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, V-IX siniflərdə də oxunun müxtəlif formalarından istifadə olunur. Fərdi oxu, dramatik oxu, kollektiv oxu növləri şagirdlərin ifadəli oxu vərdişinin formalaşmasında mühüm rol oynayır.

Bədii mətnləri yadda saxlamaq V-IX sinif şagirdləri üçün çətin məsələdir. Buna görə də şagirdlərin yaş səviyyəsini nəzərə alaraq bədii əsərləri tədris etmək mühüm şərtdir.

İnteraktiv təlim metodu ilə təşkil olunmuş dərs yeddi mərhələdən ibarət olaraq mənimsədilməyə başlanır. Müəllimin diqqət etməsi gərəkən nüanslardan biri şagirdin oxuduğu

əsəri düzgün qavraya bilməsindədir. Buna görə də istər nəzm, istərsə də nəsr nümunələri şagirdlərin ifadəli oxusundan sonra sual-cavab üsulu ilə tamamlanmalıdır.

Nəzm əsərlərinin tədrisi zamanı ilk müəllimin ifadəli oxusu məqbul sayılır. Belə ki, şagirdlər intonasiya, vurğu və digər mühüm məqamları tutaraq, öz oxusuna tətbiq etməyə çalışmalıdırlar. Bu da əsərin düzgün oxunub-anlaşılmasına yardımcı olacaqdır.

Müəllim bədii əsərlərin təhlili işində də sinifin səviyyəsini diqqət mərkəzində saxlamalıdır. Təhlil zamanı aşkarlanmalı və şagirdlərin hafizəsində möhkəmləndirilməli bir neçə məqam vardır: a) Yazıçı bədii əsərdə nə haqqında danışır; b)Danışdığı ilə nə demək istəyir; c) Danışdığını necə deyir.

Bunlardan da ədəbiyyatşünaslıq anlayışları meydana çıxır: a) yazıçı nə danışır – məzmun; b) nə demək istəyir – ideya; c) hansı vasitələrlə deyir – bədii sənətkarlıq məsələsi.

Bədii əsərin tədrisi zamanı janr xüsusiyyətləri ilə bağlı məlumat vermək əsas şərtlərdən biridir. Eyni zamanda diqqət edilməli olan digər məsələlərdən biri də, bədii əsərin təhlili zamanı məzmunla forma arasındakı münasibətin öyrədilməsidir.

Aşağı siniflərdən başlayaraq başqa fənlərdə olduğu kimi, ədəbiyyat dərslərində də elmi terminlərin ifadə etdiyi, bildirdiyi mənanı şagirdlərə məntiqin tələbləri əsasında izah etmək, düzgün formalaşdırmaq ən ciddi metodik tələbdir.

Beləliklə, biz ədəbiyyat dərslərində tədrisin bəzi məsələləri haqqında bilgilər verməklə bunların tədris prossesində necə əsaslandıracağımızı qısa şəkildə şərh etdik. Hesab edirik ki, təlim prossesində bu məsələlərin elmi əsaslarla və pedaqoji ustalıqla yerinə yetirilməsi tədrisin keyfiyyətini yüksəldən amillər olacaqdır.

**Rzayeva Aynur,**
**dissertant**
**Lənkəran Dövlət Universiteti**
**mrs.rzayeva@list.ru**

## Bədii mətnlərdə koherensiya və praqmatika

Mətnyönümlü və dialoqyönümlü yanaşmalarda istifadə olunmuş informasiyanın araşdırılması məqsədilə, mətnin təsvirinə fikir verək. Təsviri mətnin yazarı ilk öncə mətnin mövzusu və onu nəzərdə tutulan oxuculara necə təsvir və izah etməyin metodu ilə başlayır. Planın materialının və detallarının seçilməsi alt mövzularda iyerarxik və ardıcıl təsvir olunmalıdır. Daha sonra isə mətnə və ya dialoqa informasiya ötürən və axtaran arasında vasitə kimi yanaşılır. Təsviri nəsr üçün əsas prinsip koherensiyadır və tədqiqatçılar əsas fikri ona yönəltmişlər. Hətta təsviri mətnin yazarı özü də oxucunun diqqətini cəlb etmək məqsədilə suallar və fikirlər yönəldə bilər. Koherensiya mətni formalaşdıran cümlələr arasında məntiqi-semantik əlaqə hesab olunur. Dialoqlarda müəllifin niyyəti əsas rola sahibdir. Amma niyyət həmişə yazarın fərdi ifadə vasitəsi çərçivəsində modelləşir.

Mətn daxilində istənilən əlaqə-cümlələr, abzaslar və dialoqlarda növbələr, tabesiz və tabeli mürəkkəb cümlənin hissələri sturukturla eyni deyil. Struktur, əlbəttə ki, birləşdirici əlaqədir, beləliklə də tabesiz və tabeli mürəkkəb cümlələr arasında koherentlik mövcuddur. Cümlələr mətn yaratdığından bütün mətnin hissələrini ifadə edir. Müəllif cümlənin ortasında istənilən yerdə fikri dayandıra bilməz, belə ki, bu struktur yarımçıq fikrə gətirib çıxaracaq və nəticədə koherentlik pozulacaqdır. Bu struktura Hamletin nitqində də rast gələ bilərik. Then I will come to my mother by and by-they foo! me to the top of my bent-I will come by and by or, more conversationally.

Müəllif niyyəti və ya praqmatika sintaksis və semantikadan sonra mətn dilçiliyində üçüncü əsas komponent hesab olunur. Məlum olduğu kimi praqmatika daha çox semiotika və dil nəzəriyyəsi üzərində qurulmuşdur. Biz deyə bilərik ki, praqmatika təbii dildən bəhs edir. Əgər mətn sadaladığımız sintaktik, semiotik və praqmatik prizmalardan təhlil olunsa, sintaksis nəyin

nə ilə ifadə olunduğunu, semantika onun mənasını, praqmatika isə mətndə nə olduğunu təmsil edəcəkdir. Digər sözlə, praqmatika dilin hərəkətlə bağlı olan bölməsidir. XX əsrin 60-ci illərində Austin və Searle praqmatikanı həm də nitq aktı adlandırmışlar. Nitq aktı danışanın kommunikativ situasiyanın xüsusi növünün təbii dildə necə yerinə yetirilməsidir. Belə situasiya kontekst (context) adlanır. Bu o deməkdir ki, nitq aktı yalnız "danışıq" və "məna" deyil, həmçinin nitqin kimlər arasında istifadə olunmasıdır. Praqmatika kontekstə uyğun nitq aktı tələb edir. Hərəkətlərin kontekstə uyğunluğu nitq iştirakçılarının "danışan" və "dinləyənin" ( "speaker" and "hearer") olduğu situasiyadan asılı olur. Bu xüsusiyyətlərinə görə nitq aktı koqnitiv(cognitive) və sosial (social) olur. Bu xüsusiyyətlər bir tərəfdən bilik, inanc və seçimdən asılı olduğu halda, digər tərəfdən nəzakət və məcburiyyətdən asılı olur. Beləliklə, cümlədə məsləhət xarakterli fikri ifadə edərkən onu dinləyici üçün pozitiv tərzdə ifadə etməliyik. Məsələn, You would better take this medicine cümləsində better sözü praqmatik baxımdan seçim (preference) ifadə edir. Onu digər vasitələ must modal feili ilə əvəz etsək, bu zaman məsləhət (advice) ifadə olunacaqdır.

Qarşılıqlı sistemli şəkildə əlaqələndirilmiş linqvistik nəzəriyyə morfo-fonoloji, leksik, sintaktik, semantik və praqmatik quruluşuna görə əlaqələdir. Yəni diskurs və ya mətn səs, forma, məzmun və hərəkətlərdən (aktlardan) ibarət vəhdət təşkil edir. Cümlələr sadalanan iyerarxik strukturla birləşərək diskurs və ya mətn yaradır. Nitq aktları istər monoloji istərsə də dialoji nitqdə ardıcıllıqla işlədilir.

Mətn daha qlobal mənaya malik, mətnin mövzusunun intuitiv məzmunu üçün makro-strukturlu mənanın eksplisit formasıdır. Mətndə nitq aktlarının ardıcıllığı bütünlüklə praqmatik makro strukturun eksplisit formalarını yaradan qlobal nitq aktını formalaşdırır. Beləliklə, biz bir kəsə məsləhət verərkən nəinki bir cümlə, onu daha böyük bir mətnlə çatdıra bilərik. Bu halda, bütöv bir cümlə verilən məsləhətin qlobal sosial mənasını əks etdirir. Belə qlobal nitq aktının qrammatik bazası semantik makro-struktura malikdir.

O.Henrinin The Skylight Room hekayəsində aşağıdakı nisbi əvəzliklə əlaqələndirilmiş mürəkkəb cümləyə fikir verək. Mrs.Parker's manner of receiving the admission was such that you could never afterward entertain the same feeling toward your parents, who had neglected to train you up in one the professions that fitted Mrs. Parker's parlors. Burada budaq cümlədəki fikir bədii diskurs üçün xarakterik olan mürəkkəb təyinlərdən istifadə olunmuşdur. Koherentlik nitq aktının rasional kompleksidir. Buna ən yaxşı nümunə sual- cavab şəklində olan cümlələr cütlüyü ola bilər. Əgər sual verilsə, onun cavabı müəyyən situasiyadan doğan məcburiyyətdən yaranır. Eyni hekayədə dialoji nitqdə olan koherensiya xüsusiyyətlərinə fikir verək. -"What room? Cried the doctor in a terrible voice, to which Mrs. Parker was a stranger."-"The Skylight room. It-" Verilmiş dialoq hissəsində bədii mətn üçün xarakterik olan ellipsis qrammatik koheziya vasitəsi kimi mətnin koherentliyinin formalaşmasına kömək edir. Burada məhz kontekstə uyğun cavab verilməsi mətnin məntiqilik xüsusiyyətindən və ya koherentliyindən asılıdır. Əks halda mətn Enkvistin (1989) qeyd etdiyi kimi mətn koherentlik olmadan söz yığımından ibarət olardı.

**Səfərli Elşad,**
**dosent**
**Ağazadə Söylü,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**soyluagazed168@gmail.com**

## Abbasqulu Ağa Bakıxanovun maarifçilik ideyaları

Azərbaycan maarifçiliyi özünün bütün inkişafı boyunca sadə və zəhmetkeş xalqın, millətin ideologiyası olaraq qalır və əsasən onun mənafeyini xidmət edir. Doğrudur, maarifçiliyin ilk təşəkkül dövründə, erkən Azərbaycan maarifçiləri çar mütləqiyyəti əleyhinə açıq və müstəqil

mübarizə aparmadıqları kimi, sadə insanların və kəndli hüququnu da bilavasitə açıq müdafiə etməmişlər. Lakin buradan onların mütləqiyyət tərəfdarları olmaları nəticəsi çıxarılmamalıdır. Köhnə həyata, cəhalətpərəstliyə və fanatizmə qarşı mübarizə, qadın hüququnu müdafiə etmək, yeni həyat arzuları, elm və maarif uğrunda çalışmaq, qabaqcıl ölkələrin mədəniyyəti səviyyəsinə qalxmaq, geridə qalan ucqar Azərbaycanı mütərəqqi ölkələrin mədəniyyəti yoluna çəkmək, şəxsiyyət azadlığı və s. bu dövr Azərbaycan maarifçilərini maraqlandıran əsas məsələlərdən biridir.

A.Bakıxanovun elmi, fəlsəfi və bədii yaradıcılığı XIX əsrin birinci yarısında feodalizmin tədricən sarsılmağa üz qoyduğu və kapitalizmin ünsürlərinin yenicə yaranmağa başladığı dövrdə təsadüf edir.

Bir sıra tətqiqatçılar o cümlədən Sona Vəliyeva azərbaycançılıq ideyasının formalaşmasında maarifçilik fəlsəfəsinin mühüm rol oynadığını, maarifçilik fəlsəfəsi ilə bağlığını qeyd edirlər. Professor Qoşqar Əliyev həmçinin azərbaycançılığın müəllimlərin vəzifəsi şagirdlərə yalnız təlim-tərbiyə vermək deyil, həmdə onları azərbaycançılıq ruhunda yetişdirməkdir. Dərs yükünün çox olduğu bir zaman da şagird vaxtının çoxunu məkdəbdə keçirir. Bunu müəllimlərin əlinə düşən bir fürsət kimi qiymətləndirirəm. Müəllim- şagird münasibətində biliklərin tədrisi müəllimdən böyük ustalıq tələb edir. Müəllim proqramda tədris olunan mövzunu şagirdə elə çatdırılmalıdır ki, əsas məqsəddən uzaqlaşmasın, hər bir mövzunu şagirdə elə çatdırmalıdır ki, əsas məqsəddən uzaqlaşmasın, hər bir mövzunu tədrislə əlaqələndirə bilsin.

Maarifçilik- bilik və mədəniyyətin ötürülməsi, yayılması ilə əlaqədar fəaliyyətdir. Bizim maarifçilərimizin əsas məqsədi bu olmuşdur. A. Bakıxanovun təmsilləri , "Nəsihətnamə"si , əsl tərbiyə verən əsərləri məktəblərdə tədris olunmağa layiqdir. 8-ci sinifdə onun "Hikmətin fəziləti" mənzum hekayəsi tədris olunur. Bakıxanov bu hekayəsində hər kəsi hünərli, yaxşı, həqiqəti söyləyən, ədalətli olmağa səsləyir. Hekayənin şagirdlərə mənimsədilməsi müəllimdən ustalıq, məharət tələb edir.

Onun "Tülkü və qoyun" təmsilində tülkünün timsalında hiyləgər insanlar, qoyunun timsalında isə gücsüzlər göstərilir.

"Qurd və ilbiz" təmsilində müəllif bir almanın içində qurd olduğunu təsvir edir almanı yerə atır.

Qurd əvvəlcə nalə çəkir, sonra sağ qaldığını görüb qürrələnir. Özünü qəhrəman adlandırır. Bu vaxt qınına sığınmış bir ilbiz ona baxırdı. Qurd lovğalanaraq ona deyir ki, yaxın gəlsin. Onun sayəsində küləkdən qorunar . Lakin ilbiz yerindən tərpənmir. Bu vaxt daha güclü külək əsir. Böyük bir alma ağacdan ilbizin başına düşüb onu öldürür. Nəticə çıxır ki, öz yurduna sığınmaq yersiz ölümdən yaxşıdır. Yersiz öyünmək, şöhrət, qürur onu məhv edir.

"Yersiz iftixar" təmsilində küdü dəni Çinar altına düşür. Bir il içində ona sarmaşaraq Çinarı da keçir. Başlayır yersiz lovğalanmağa. Bu əsərdə başqasının kölgəsində yaşamaq, təvazökarlıqdan uzaq durmaq pislənir.

"Bakıxanovun Dua və təvəkkülü" mənzum hekayəti də çox maraqlıdır. Maarifçilik ideyalarının davamı və insanın ağlından istifadə etməsinin önəmi əsərdə özünəməxsus yer tutur.

Abbasilər zamanı Bağdadda bərk quraqlıq başlayır. Qadınlar, kişilər səmaya əl açıb dua etməyə başlayırlar. Bu vaxt divanə Bəhlul adlı bir gənc gəlir.onlara gecə dua etməyin daha sərfəli olduğunu deyir. Çünki gecə sakitlik olur və dualar daha təsirli olur. Buna inanırlar, gecə səhraya üz tuturlar. Yolları bağ yanından keçir. Bəhlul qapını döyür. Qapıya çıxan bağbana niyə bağı sulmadığını soruşur. Bağban cavabında deyir ki, heç kim onun işini ondan yaxşı bilə bilməz. Bəhlul o dəm üzünü camaata tutub deyir:

Bu bağbandan ibrət alın, de məgər,
Allah bilmir işini bağban qədər.

Sonda ibrətlik bir misrayla Qüdsi sözünü tamamlayır:
Nə təvəkkül bacarırıq dünyada,
Nə də ağıl gəlir bizə imdada.

"Xeyirli işin faydası"nda cavan bir əmir görür ki, qoca bağında qoz əkir.Gülərək qocaya deyir ki, onsuz da o ağacın xeyrini görmək üçün başqa ömür lazımdır. Qoca cavana başa salır: "Başqaları əkdi yedik nə olar?"

Yaxşılığın budur rəsmi dünyada
Yaxşılıq et səni salsın el yada.

Cavan əmir onun sözlərini xoşlayır.Neçə dinar çıxarıb ona bağışlayır.

El üçün kim girişirsə bir işə,
Özü dəxi xeyir görər həmişə.

Bakıxanovun nəsihətləri, öyüdləri onun dünyasının zənginliyinə sübutdur. Onun hər əxlaqi fikri, nəsihəti illər keçməsinə baxmayaraq, gənclərlə birlikdə hər yaşın nümayəndəsinə doğru yolu göstərmək baxımından əhəmiyyətlidir.

**Tahirov İlham,**
**professor**
**Cahangirli Zabitə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**zabita.jahangirli@outlook.com**

## Müxtəlif sistemli dillərdə rəng semantikası

Dilçilik elmində mühüm yer tutan nəzəriyyələrdən biri olan sahə nəzəriyyəsi dil sistemini müxtəlif şaxələrə bölərək onun daha dərindən öyrənilməsinə xidmət edir. Sahə nəzəriyyəsinə əsasən hər bir dil üçün səciyyəvi olan anlayışlardan biri də sözün semantikasıdır. Dilin qavranılma və mənimsənilmə prosesində özünəməxsus rolu olan semantik məna özünü dilin bütün səviyyələrində göstərir. Semantikanı dildə aid olduğu mənaya uyğun şəkildə qruplaşdırmaq mümkündür: hərəkət semantikası, zaman semantikası, ad semantikası, əlamət semantikası və s. Bu məna qruplaşmaları istənilən dil üçün səciyyəvi əlamət hesab oluna bilər. Əlamət semantikasının bir növü də rəng semantikasıdır. Rəng semantikası dildə mövcud olan bu və ya digər rəngin mənasını, onun ifadə etdiyi ilkin və bəzən də bu ilkin mənadan əmələ gələn törəmə mənasını izah edərək onun semantik cəhətdən malik olduğu funksiyanı öyrənən bir sahədir.

Dildə mövcud olan hər bir rəng daşıdığı ilkin mənadan əlavə müvafiq törəmə mənalara da malik ola bilər. Həm Azərbaycan həm də ingilis dilində mövcud olan rəng adlarına nəzər yetirsək,onların daşıdığı rəngin adından əlavə başqa semantik mənalara da malik olduğunu görmək olar. Belə törəmə mənaların hər iki dildə ekvivalent olan və ekvivalent olmayan məqamlarını aşkarlamaq mümkündür. Məsələn "qara" rəng hər iki dil sistemində tünd rəngi adlandırmaqla yanaşı bu sözün "mənfi, bəd" kimi mənaları da var. Azərbaycan dilində hər hansı bir mənfi, xoş olmayan bir mənanı bildirmək üçün "qara xəbər", uğursuz taleni adlandırmaq üçün "qara bəxt" ifadələrindən istifadə olunur. Təsadüfi deyil ki, ingilis dilində "black" ("qara") sözünün Azəbaycan dilində yuxarıda qeyd olunan "qara xəbər", "qara bəxt" kimi söz və ifadələrin mənaları ilə ekvivalentlik təşkil edən "black news", "black fortune" kimi ifadələrin mövcud olduğunu görürük. Bununla yanaşı, yuxarıda qeyd etdiyimiz kimi, həmin sözlərin mənalarının ekvivalent olmayan məqamlarına da hər iki dildə rast gəlmək mümkündür. Azərbaycan dilində saflıq, dürüstlük mənasında işlədilən "üzüağ" ifadəsinin ekvivalenti ingilis dilində mövcud deyil və həmin məna başqa izahedici, təsviredici söz və ya birləşmələrlə, məsələn, "irreproachable", "blameless", "guiltless" və s. sözlərlə ifadə edilir.

Ümumiyyətlə, rəng adlarının ifadə etdiyi mənalar mövcüd olduğu dilə xas olub həmin dilin daşıyıcısı olan xalqın mədəni dəyərlərindən aslıdır. Məsələn həm ingilis mədəniyyətində, həm də

Azərbaycan mədəniyyətində “ağ” rəng xeyir, xoşbəxtlik, həyat sevinci, təmizlik, məsumluq rəmzi olduğu halda, bu rəng bir sıra Şərq ölkələrində, o cümlədən Yaponiya, Çin və Hindistanda matəm və təhlükəni bildirir. Mədəni dəyərlərin bu cür müxtəlifliyi özünü həmin dilin müvafiq sahələrinə təsir etdiyi kimi, məhz bu sahələrdən biri kimi çıxış edən semantik məna anlayışına da təsir etmişdir.
Təbii ki, hər bir rəng adının təmsil etdiyi sahədə nüvə semi ilkin məna formatında təmsil olunur və bununla yanaşı onun nüvə zonasını əhatə edən potensial semlər də denotativ mənaya əsaslanan məcazi, törəmə mənalar şəkilində mövcud olur. Ona görə də rəng bildirən sözlərin semantikasını konkret rəng semantik sahəsi daxilində öyrənmək əhəmiyyətlidir.

**TahirovİIham,**
**professor**
**Cəfərzadə Nərgiz,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**missdaffodil96@gmail.com**

## İngilis dilində gələcək zaman məsələsinə dair

Nitq fəaliyyətimizdə zaman kateqoriyası üç formada təzahür edir: keçmiş (mövcud olmuş), indiki (mövcud olan) və gələcək (mövcud olmayan). Gələcək zaman mövcud olacağına inandığımız məfhumdur. Yəni bilavasitə inkişaf prosesi ilə bağlıdır.

Prof İ. Tahirov qeyd edir ki, “Azərbaycan və ingilis dillərində gələcək zaman çox geniş ifadə vasitələri sisteminə malikdir. Həmin ifadə vasitələri üçün məna cəhətdən qeyri-yekcinslik və müxtəlif planlılıq xarakterikdir. Hadisənin gələcək sferasına aid edilməsində istifadə edilən ifadə vasitələrinin rəngarəngliyi onların təsnifatını xeyli çətinləşdirir. Azərbaycan dili üçün burada mübahisəli məsələlər olmasa da, ingilis dili üçün bunu demək mümkün deyildir. Gələcək zamanın ifadə vasitələri sisteminin müxtəlif şəkildə təsnif edilməsi bu məsələni bir qədər də çətinləşdirir. Bundan əlavə, ingilis dilinin zaman sisteminə həsr olunmuş tədqiqatlarda gələcək zamanı, ümumiyyətlə, zaman paradiqmasınınbir üzvü olaraq qəbul etməyən fikirlərə də rast gəlmək olar”.

İngilis dili qrammatikasına həsr olunmuş bir sıra əsərlərdə aydın şəkildə görə bilərik ki, gələcək zaman məfhumunun qrammatik zaman kateqoriyası kimi mövcud olub olmamasına şübhə ilə yanaşılır. İngilis dilində gələcək zamanın mövcudluğu uzun müddət mübahisə doğuran məsələlərdən biri olmuşdur. Bəzi dilçilər ingilis dilində keçmiş sadə və indiki sadə zaman formalarını qəbul edərək gələcək zamanın mövcudluğunu inkar edirdilər.

İrtenyevanın fikrincə, zaman sistemi iki hissəyə bölünür: keçmişə aid zamanlar və indiyə aid zamanlar. Onun bu yanaşması zamanların üçqat bölgüsünün (keçmiş,indiki,gələcək) ikiqat bölgüyə (keçmiş, indiki) azaldılmasını iddia edir . Gələcək və keçmişə nəzərən gələcək zaman formaları müvafiq olaraq indiki və keçmiş zaman formalarının bölgüsünə aid edilirdi. Bununla belə gələcəyi ayrı bir vaxt olaraq ləğv etmək daha ətraflı əsaslandırma tələb edir.

Rus dilçisi V.L.Kauşanskaya “will” feilini həm köməkçi, həm də modal feil kimi qəbul edir . Ənənəvi qrammatikaya əsaslanaraq onlar gələcək zamanın 8 ifadə yolunu göstərirdilər. Onlar qeyd edirdilər ki, köməkçi feil kimi “will” birinci səxsin tək və cəmindən başqa bütün şəxslər üçün gələcək zaman formalarını düzəldir. Bundan əlavə onlar “shall”, “will” formalarını modal feil kimi tədqiq etmiş və onların müxtəlif mənalarını vermişlər. Dilçilikdə “shall”, “will” formalarının qısaldılmış forması olan “’ll” haqqında müxtəlif fikirlər mövcuddur. Qrammatik kateqoriyanın bir hissəsi olaraq qrammatik mənanın ifadə vasitələri iki qrupa bölünə bilər:

1.sintetik yollar (affikslər-suffiks, prefiks, infiks)

2.Analitik yollar (köməkçi fellər, sözönülər, artikllar)

Azərbaycan dilçisi O.Musayev qeyd edir ki, bu yolların hər biri tədqiqat obyekti kimi götürülə bilər. Bu baxımdan o, sintetik və analitik yollar arasındakı qarşılıqlı əlaqəni öyrənmişdir. O.Musayev hesab edir ki, "sculan" və "willan" qədim ingilis dilində leksemlər kimi, orta dövr ingilis dilində shall', 'will' formasında gələcək zaman ifadə edən köməkçi feil kimi, müasir ingilis dilində isə "'ll" affiksinə cevrilmişdir. O.Musayevin bu fikrində ziddiyyət vardır, çünki, 'll qrammatik şəkilçi hesab oluna bilməz. Qrammatik şəkilçi qrammatik məna ifadə edən qrammatik formadır. Zaman kateqoriyası ifadə edən şəkilçi ismə, yaxud əvəzliyə deyil, məhz feilə qoşulmalıdır. Sözsüz ki, 'll köməkçi feillər olan "shall" "will"dən törənmişdir. Lakin bu şəkilçi deyil, had-'d, have-'ve, it is-it's və s. hallarda olduğu kimi, qısaldılmış formadır. Bütün qrammatik şəkilçilər aid olduqları söz kökünə artırılır. Məsələn: open+ed, open+s, open+ing

Ümumiyyətlə, feilə heç bir şəkilçi apostrofla birləşmir.

Yuxarıda qeyd etdiyimiz kimi, gələcək zamanın qeyri-mövcudluğu ilə bağlı mübahisələr Azərbaycan dili üçün xarakterik deyildir. Burada gələcək zaman sahəsinin nüvəsini morfoloji komponent olan feil zamanları təşkil edir. Azərbaycan dilində gələcək zaman iki forma ilə təmsil olunur: qəti gələcək zaman (-(y)acaq$^2$ şəkilçisi ilə düzələn forma), qeyri-qəti gələcək zaman (-(y)ar$^2$ şəkilçisi ilə düzələn forma).

B.A.İlyiş ingilis dilində gələcək zamanın qeyri-mövcudluğu iddiasını rədd etmiş bu məsələyə öz fikrini bildirmişdir. Onun fikrincə shall və will feilləri bəzi kontekstlərdə iradə arzu ifadə etsələr də, onlar gələcək məna çalarını azad və sərbəst ifadə etməyə qabildirlər.

**Tahirov İlham,**
**professor**
**Hüseynova Nigar,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**nigarhuseyn196@mail.ru**

## Kütləvi informasiya vasitələrinin insan həyatında rolu

Kütləvi informasiya vasitələri (KİV) informasiyanın kütləyə çatdırılması vasitəsi olub müasir sivilizasiyanın ən xarakterik cəhətlərindən biridir. KİV kütləvi kommunikasiyanı ötürmək üçün hər hansı bir mühit olaraq, müəyyən zaman müddətində insanların dünyada baş verən hadisələr haqqında məlumat ala bilməsinə şərait yaradan faktordur.

İndiyə qədər kütləvi informasiya vasitələri ilə bağlı araşdırmalara əsasən onların inkişaf mərhələləri müəyyən edilmişdir. Həmin inkişaf mərhələlərini keçməklə səkkiz KİV industriyası meydana gəlmişdir: kitab, qəzet, jurnal və səsyazmalar, radio, kino, televiziya və internet.

İlk kütləvi informasiya vasitəsi qəzetlərdir. İlk qəzet b.e.ə. 59-cu ildə Romada nəşr olunan kağızda əl ilə yazılmış "Günün hadisələri" adlı vərəqə hesab olunur. Qəzetlər, radio və televiziyada gedən xəbərlər xülasəsindən fərqli olaraq, baş vermiş hadisələr haqqında daha ətraflı və dolğun informasiya təqdim etmək imkanına malik olub, daha çox hadisə və xəbərləri əhatə etmək iqtidarındadır. Hal-hazırda ən məşhur milli regional qəzet Manchester Guardian kimi tanınan "The Guardian"ingilis qəzetidir. Bəzi mənbələrdə jurnal və qəzet anlayışları eyniləşdirilsə də, onlar bir-birindən tamamilə fərqlənirlər. Ən ucuz kütləvi informasiya vasitələri hesab olunan jurnallar əvvəlki dövrlərdə qəzetlərdən və kitab tacirlərinin kataloqlarından təşkil olunurdu. Hazırda jurnallar sadəcə gündəlik baş verən və tez-tez dəyişən hadisələrin işıqlandırılması ilə məşğul olmur. Onlar həftəlik, aylıq dövrü əhatə edən zaman çərçivəsində baş vermiş hadisələri dərindən təhlil edirlər. Jurnallar uzun müddətli istifadə üçün nəzərdə tutulur, bu səbəbdən də onlar daha qalın cildə malik olur və daha keyfiyyətli kağızda çap edilirlər.

Keçən yüzillikdə meydana gələn ən müasir kütləvi informasiya vasitələri radio və televiziyadır. Televiziya, kürsüdən ayrılmadan dünyanın müxtəlif nöqtələrində baş verən

hadisələri görüntülü və səsli şəkildə insanların evlərinə çatdıran populyar və cəlbedici kütləvi informasiya vasitəsidir.Hazırda ən geniş yayılan kütləvi informasiya vasitəsi radiodur. Radionun geniş yayılma səbəbi onun yığcamlığı və asanlıqda bir yerdən başqa yerə daşına bilməsidir.

Hal-hazırda dünya üçün yeni anlayış olan internet ən çox istifadə olunan kütləvi informasiya vasitələrindən biridir. Bu gün onlayn media üçün ənənəvi qəzetlərdə özünü göstərən redaksiya anlayışının bir qədər məhdud qavranılması, internetin zəruriliyini bir daha vurğulamış olur. İnternet, lazımi materialların asanlıqla əldə edilməsi, mediada oxucunun oxuduğu yazıya dərhal reaksiya verməsi üçün şərh yazmaq istəyini asanlaşdırmağa xidmət edir.

KİV böyük auditoriya üçün nəzərdə tutulan mediadır. Adətən kütləvi informasiya vasitələri ölkənin əksər əhalisini əhatə edən böyük bir bazar üçün çalışır.

Kütləvi informasiya vasitələri qlobal miqyaslı sənaye statusunda fəaliyyət göstərməkdən əlavə, həm də xüsusi demoqrafik qruplar üçün yerli media regional səviyyəli xəbər maraqlarında cəmlənərək daha az əhalisi olan əraziləri əhatə edir. Hazırda ölkəmizdə KİV-lə əlaqələr üzrə müxtəlif məlumat bankları yaradılır, qəzetlərdə insan hüquqları mövzusunda dərc edilmiş yazıların monitorinqi keçirilir, müvafiq tədbirlər görülür.

İnsanlar kütləvi informasiya vasitələrinin sadəcə xəbər mənbəyi olduğunu düşünsələr də, KİV həmçinin televiziya şouları, kitab və kino kimi əyləncəni də özündə ehtiva edir. Eyni zamanda bu vasitələr təbiətcə təhsili də özündə birləşdirir və ictimai yayımlanan stansiyalar timsalında əhalini təhsil proqramları ilə təmin edir.

Siyasi kommunikasiya təbliğatı da ehtiva etməklə KİV vasitəsilə yayılır. Beləliklə, KİV insan cəmiyyətinin tənqidi bir hissəsidir və onu anlamaq əhali və mədəniyyətin başa düşülməsi üçün əsas açardır. Kütləvi informasiya vasitələrinin köməyilə insanlar qlobal bir toplumda birləşir, özlərinin düşüncələrinin asanlıqla yaymağa şərait yaranır. Bu gün Azərbaycan KİV-i müasir informasiya cəmiyyəti quruculuğunda milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi dəyərlərin qorunub saxlanmasında mühüm rol oynayır və ictimai fikrin formalaşmasında əhəmiyyəti getdikcə artır.

## TARİX, FƏLSƏFƏ VƏ PEDAQOGİKA BÖLMƏSİ

**Abduləzizov Mehman,**
**dosent**
**Babayev Araz,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**mentor.muellim@gmail.com**

### Yeni qiymətləndirmə texnologiyaları

Müasir dövrdə ümumtəhsil məktəblərində pedaqoji fəaliyyətin tənzimlənməsində mühüm amillərdən biri də bu prosesin qiymətləndirilməsi və optimallaşdırılması imkanlarının zəruriliyidir.

Yeni təlim texnologiyalarını müasir pedaqoji proses təcrübəsinə gətirməklə yeniləşən cəmiyyətin prinsiplərinə uyğun modern inkişaf nəzəriyyələrinin aktuallığı da bir daha artırır. Bu cəhətdən yeni təlim texnologiyaları olan kompüterdən istifadə, interaktiv metod, interaktiv təlim, interaktiv dərs nümunələrinin təkmilləşdirilməsi istiqamətində yeni pedaqoji təfəkkürlə düşünmək lazımdır. Xüsusən hazırda ümumtəhsil məktəblərində müəllim və şagird əməkdaşlığına xidmət edən kooperativ təlim, şagirdlərdə tədqiqatçılıq səriştəsini artıran tədqiqat üsullu təlim, təlim prosesində problemli situasiyanı (vəziyyəti) müəyyənləşdirən təlim, proqramlaşdırılmış təlim, yəni qabaqcadan proqnozlaşdırılacaq ideyaların maşınlı və maşınsız əməliyyatlar yolu ilə mənimsədilməsi təlimi və nəhayət, layihə əsaslı təlim növlərindən istifadə etməklə daha təkmil və mürəkkəb proseslərə şans yaratmaq mümkün olur. Bütün bunlar ümumtəhsil məktəblərində şagirdlərin təlim əməyini maksimum səviyyədə diferensiallaşmasına və inkişafına kömək edir.

Eyni zamanda müasir təlim texnologiyalarının nəzəri aspektlərini o cümlədən inkişaf konsepsiyalarının elmi metodik zəmindən pedaqoji fəaliyyətin məcrasına gətirmək imkanları da nəzərə alınmalıdır.

Beləliklə, ümumtəhsil məktəblərində son nəticə olaraq təlim texnologiyalarının tətbiq imkanları, nəzarət, qiymətləndirmə, yoxlama və müşahidə məqamları ilə nəzərdən keçirilməlidir. Hazırki şəraitdə pedaqoji fəaliyyətin məzmun dəyərlərini onun metodologiyasını, metodlarını, təşkili formalarını, yeniləşən digər texnologiyalarını cəmiyyətin sosial iqtisadi tələblərinə müvafiq qurmaq lazımdır. Bu prosesdə həm texnoloji biliklərin həm də şagirdlərin yaradıcı təfəkkürünün, məntiqi və tənqidi təfəkkürünün işə salınmasının da vacib xüsusiyyətləri nəzərə alınmalıdır.

Bütün bunlar belə bir məntiqi əsasla ümumiləşdirilir:

1. Müasir pedaqoji texnologiyalardan yəni kompüter, interaktiv metodlardan, internet sistemindən, təlim prosesində istifadə imkanları mənimsəmə keyfiyyətinin səmərililik dərəcəsini yüksəldir.
2. Ümumtəhsil məktəblərində yeni pedaqoji texnologiya nümunələrindən faydalanmağın elmi nəzəri və metodik əsaslarını bilməklə müəllim fəaliyyətinin psixoloji məntiqi təfəkkürü təkmilləşir.

Yeni texnologiya həm də şagirdlərin təlim prosesində optimal şəraitdə qısa zaman kəsiyində biliklənməyə, təhsillənməyə və inkişaf irəliləyişinə müsbət təsir göstərmiş olur.

Bunu isə bizdən həyatın özü tələb edir.

**Abduləzizov Mehman,**
**dosent**
**Məmmədova Lalə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**lale545@mail.ru**

## Pedaqoji tədqiqatda riyazi metodlardan istifadənin üstün cəhətləri

Pedaqoji tədqiqat zamanı əldəedilmiş faktları obyektiv surətdə araşdırmaq, təhlil etmək, ümumiləşdirmək, materialları kəmiyyət baxımından işləmək, müəyyən olunmuş xassənin, xüsusiyyətin tipik olduğunu sübut etmək məqsədilə riyazi statistik metodlardan istifadə olunmasına üstünlük verilir. Kəmiyyət metodları dedikdə, pedaqoji eksperimentin nəticələrini müəyyənləşdirmək məqsədilə istifadə olunan tətbiqi riyazi statistikanın ayrı-ayrı metodlarının tətbiqi başa düşülür. Kəmiyyət metodları ehtimal məntiqindən və ehtimal modellərindən istifadə etməklə pedaqoji tədqiqatın inandırıcılığını təmin etməyə imkan verir. Müasir dövrdə pedaqoji-psixoloji tədqiqatlarda kəmiyyət metodlarının tətbiqinin aşağıdakı istiqamətlərini fərqləndirmək olar:

- Təsviri statistika (toplanmış materialların qruplaşdırılması, kəmiyyət təsviri və onların qrafik əks olunması);
- Statistik nəticə (əvvəlcədən müəyyən edilmiş komponentlərin yoxlanması);
- Eksperimentin planlaşdırılması(komponentlər arasında səbəb əlaqələrini müəyyənləşdirmək və yoxlamaq).

Müasir dövrdə kəmiyyət metodları pedaqoji-psixoloji elmlərin bir çox sahələrinə sürətlə nüfuz edir, riyazi metodların pedaqogika və psixologiya elmlərinə tətbiqi yolları daha dərindən öyrənilir. Elmin ənənəvi "qeyri-riyazi" sahələrinə riyaziyyatın nüfuz etməsi elmi biliklərin inkişafının qanunauyğun hadisələrindəndir. Bu, həm də elmlərin inkişafında yeni keyfiyyət mərhələsidir.

Pedaqoji tədqiqatda kəmiyyət metodlarından istifadə olunması ilk növbədə:

a) öyrənilən pedaqoji hadisələrdə, faktlarda baş verən keyfiyyət dəyişikliklərini dəqiqləşdirməyə;
b) öyrənilən hadisələr, faktlar arasındakı kəmiyyət asılılıqlarını təyin etməyə imkan verir.

Kəmiyyət metodlarının əsas üstünlüyü pedaqoji qanunauyğunluqları üzə çıxarmağa, elmi cəhətdən dəqiq ifadə etməyə şərait yaratmasındadır.

Pedaqoji tədqiqatda kəmiyyət metodlarından əsasən iki istiqamətdə istifadə olunur:

- müşahidə və eksperimentlərin nəticələrini izləmək məqsədilə;
- təhsil-tərbiyə prosesini diaqnostlaşdırmaq, proqnozlaşdırmaq, müasirləşdirmək, kompüterləşdirmək məqsədi ilə.

Pedaqoji tədqiqatda istifadəsi faydalı olan riyazi metodlar çoxdur. Lakin pedaqoji problemlərin öyrənilməsində ən çox istifadə edilən kəmiyyət metodları aşağıdakılardır:

- Qeydə alma metodu.
- Ranqlaşdırma metodu.
- Reytinq metodu.

Qeydə alma metodunun mahiyyəti ondan ibarətdir ki, pedaqoji prosesin qiymətləndirilməsi üçün tələb olunan komponentlər əvvəlcədən müəyyən olunur və kəmiyyət göstəricilərinə görə hesaba alınır. Alınmış məlumatlar təhlil edilir və konkret təkliflər verilir.

Ranqlaşdırma (nizamlama) metodunun mahiyyəti tədqiqatlar nəticəsində alınmış nəticələri sıraya düzmək, ardıcıllıqla göstərməkdən ibarətdir. Ranqlaşdırma – toplanmış faktların müəyyən kriteriyalar, parametrlər əsasında ardıcıl göstərilməsi prosesidir. Bu, öyrənilən və qiymətləndirilən prosesdə əsas komponentlərin vacibliyinə görə artması, yaxud azalmasını aşkarlamağa və əyani şəkildə göstərməyə imkan verir.

Reytinq (qiymətləndirmə)metodunun mahiyyəti pedaqoji prosesin ayrı-ayrı əlamətlərinin rəqəm göstəriciləri ilə əvəz edilməsindən ibarətdir. Öyrənilən əlamətlər rəqəm göstəriciləri ilə ifadə olunduqda müəyyən qanunauyğunluqlar aydın surətdə nəzərə çarpır.

Qeydə alma, ranqlaşdırma, reytinq metodlarının pedaqoji proses və hadisələrin, habelə təhsil müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsində istifadəsi zamanı bəzi hallarda problemin həlli onun formal riyazi qoyuluşundan kənara çıxır. Bu səbəbdən də ekspertlərin xidmətindən istifadə olunur və bu metodlar bütövlükdə metodları ekspert qiymətləndirmə adlanır.

**Abduləzizov Mehman,**
**dosent**
**Zərbizadə Nigar,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**nigar.zerbizade@mail.ru**

## Optimal təlim mühitinin yaradılmasında müəllim peşəkarlığının rolu

Təhsil cəmiyyətin hər bir üzvünü əhatə etdiyi üçün şagirdlər, valideynlər və bu sahə ilə əlaqəsi olan digər insanlar müəllim fəaliyyətinə böyük maraq göstərir. Siyasətçilər, alimlər, tədqiqatçılar, məmurlar, müxtəlif təşkilatlar, assosiasiyalar, ümumiyyətlə, ictimai rəyə təsir göstərən hər bir qrup və təbəqə müəllim fəaliyyətini diqqət mərkəzində saxlayır. Onların hər birinin özünəməxsus fikir və gözləntiləri var. Çünki, müəllimlik son dərəcədə fərdi peşədir. Çox vaxt biz müəllimləri məsuliyyətlilik, operativlik, qərəzsizlik, ədalətlilik, təşəbbüskarlıq, orijinallıq, səriştəlilik, intellektuallıq və s. kimi şəxsi keyfiyyətlərinə görə xatırlayırıq. Müəllimin imici sosial və mədəni baxımdan formalaşır və bir mədəniyyətdən, bir nəsildən, cəmiyyətin bir qrupundan digərinə ötürülür və nisbətən dəyişir. Onun fəaliyyətinə dair müxtəlif fikirlər bu gün yaşadığımız multimədəni cəmiyyətdə durmadan formalaşır.

Müəllim fəaliyyətinin əsas aspektlərindən biri sinifdə təlim mühitinin yaradılması və idarə olunmasıdır. Fəaliyyətin əvvəli avtomobilin idarə olunmasına bənzəyir. Eyni vaxtda bir neçə fəaliyyətin təşkili: yola nəzarət, güzgüyə baxmaq, mexanizmin dəyişdirilməsi və s. Bir müddət keçdikdən sonra bu fəaliyyət artıq mexanki şəkildə şüuraltı həyata keçir və davranışın bir hissəsinə çevrilir. Təcrübəli müəllimin sinifdə həyata keçirdiyi fəaliyyətin əksəriyyəti qeyri-ixtiyari baş verir. Bu səbəbdən çoxları nəyi necə etdiklərini və uğurun səbəbini izah edə bilmirlər. Bu, ”müəllim olmurlar-müəllim doğulurlar” və “heç kim sizə necə öyrətmək lazım olduğunu deyə bilməz” – kimi yalnış fikirlərə əsas verir. Çoxları bu peşəyə bir sıra üstünlüklərlə gəlirlər. Misal üçün, səs tembri, gözəl nitq, təşkilatı bacarıqlar və s. Bununla yanaşı öyrənilməsi lazım olan bir sıra ümumi bacarıq və üsullar var ki, müəllimin onları bilməsi və təlim-tərbiyə prosesində tətbiq etməsi sinfin səmərəli idarə olunmasını mümkün edir. Sinfin və təlim mühitinin idarə olunması məsələləri çox vaxt davranış məsələləri ilə əlaqələndirilir. Əlbəttə, şagirdlərin təlimə marağını artırmaq, onları həvəsləndirmək üçün müəllim səmərəli strategiyalardan istifadə etməlidir. Burda Rocersin bir fikrini xatırlamaq yerinə düşər: ”Təlim bəzən qeyri müvafiq şəraitdə təşkil olunur: balaca otaqlar, narahat mebellər, hərəkət etmək üçün 45 dəqiqə vaxt, 20-25 nəfər, bəzən hətta özlərini burada görmək belə istəməyən fərqli və unikal şagirdlər. Bu halda niyə müəllimin rolu dəyişməz olaraq qalmalıdır?”

Müəllimin əsas rolu, vəzifəsi müxtəlif inkişaf səviyyəsi və fərdi xüsusiyyətləri olan şagirdləri təlim prosesinə cəlb edərək sinifdə əlverişli təlim mühiti yaratmaqdan ibarətdir. Bu məqsədlə hər bir dərs diqqətlə planlaşdırılmalı və ona məsuliyyətlə hazırlaşılmalıdır. Bunun üçün dərsin hər mərhələsi ölçülüb-biçilməlidir. ”Müəllim üçün qaranlıq olan şagird üçün zülmətdir”– fikri bu zaman yada düşür. Əlbəttə, suallar, gözlənilməz vəziyyətlər hər bir dərsdə qaçılmazdır. Lakin qarşıya çıxan sual və problemlərin əksəriyyəti əvvəlcədən gözlənilən olduğu üçün onların həlli də qabaqcadan planlaşdırıla bilər. Peşəkar müəllim sinifin, şagirdlərin səmərəli idarəolunması məqsədilə təlim və əməkdaşlıq üçün maksimum şərait yaratmalıdır. Burada bir sıra məsələlər nəzərə alınmalıdır:

1.Fəaliyyət növlərinin, tapşırıqların hazırlanması;
2.Lövhənin, materialların, mətnlərin və s. hazırlanması;
3.Vaxtdan səmərəli istifadə;
4.Şagirdlərin sinfə cəlb olunması;
5.Uyğunlaşma, diferensiallaşma, əlavə imkanların müəyyən olunması, müxtəlif materiallardan istifadə;
6.Mümkün problemlərin müəyyən edilməsi, proqnozlaşdırılması, müasir texnologiyalardan, elektron lövhələrdən istifadə edilməsi, ev tapşırıqlarının hazırlanması, şagirdlərin qruplara bölünməsi və s.

Müəllimin şagirdlər, valideynlər, iş yoldaşları, məktəb rəhbərliyi qarşısında müəyyən öhdəlikləri vardır. Peşəkar müəllim digər fənlərə dair biliklərə malik olmalı, şagirdləri intellektual cəhətdən inkişaf etdirməli, sinifi səmərəli və obyektiv idarə etməli, şagird fəaliyyətini çevik və dəqiq qiymətləndirilməlidir. Eyni zamanda monitorinq aparmalı, şagirdlərdə davranış qaydalarını formalaşdırmalı, onların maraq, meyl, tələbat və fərdi xüsusiyyətlərini nəzərə almalı, mənəviyyatını zənginləşdirməli, onları məktəbin ictimai həyatında fəal iştiraka sövq etməlidir.

Peşəkar müəllim necə olmalıdır? Müəllimin peşəkarlığına hər bir şagirdin fərdi cəhətlərinə diqqət edilməsi, yeni mövzunun əvvəlkinin əsasında izah edilməsi, mövzular arasında əlaqənin qurulması, inteqrasiyanın təmin olunması, şagirdlərin bilik və bacarıqlarının səviyyəsinin nəzərə alınması və s. aiddir. Müəllimin peşəkarlığının ən əsas xüsusiyyəti şagirdlərin səviyyəsindən asılı olmayaraq, onların inkişafını təmin etməkdir. Öptimal təlim mühitinin yaradılması və təlimin səmərəli yollarının müəyyən edilməsi müəllim peşəkarlığının əsasını təşkil edir. Şagirdlərin səviyyəsinə uyğun seçilən və tətbiq edilən üsul təlim prosesində daha çox səmərə verir.

**Bəşirov Vidadi,**
**dosent**
**Heydərov Fəqan,**
**magistr**
**Lənkəran Dövlət Univeristeti**
**faqan.heyderov.88@mail.ru**

## Məktəbdaxili idarəetməyə verilən müasir pedaqoji tələblər

Təhsil cəmiyyətin,şəxsiyyətinformalaşmasında vəinkişafında mühüm rola malikdir.Müasir dövrdə hər bir ölkənin inkişaf səviyyəsi həmin ölkənin təhsil sisteminin inkişaf səviyyəsi ilə ölçülür.İnformasiyalar əsri adlanan bir əsrdə gənc nəsil yüksək biliyə , texnoloji bacarığa, səriştəyə, dünyagörüşə malik olmalıdır.

Təzənin tez köhnəldiyi bir dövrdə müasir standartlara cavab verən təhsil sisteminin formalaşdırılması ölkə,cəmiyyət üçün çox vacibdir. Ölkəmizdə təhsil sistemi strateji əhəmiyyətli prioritet bir sahədir.Təhsil sisteminin inkişafı ilə əlaqədar təhsil islahatları, yeni təhsil konsepsiyası, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası qəbul olunmuşdur. 19 iyun 2009 cu ildə yeni Təhsil Qanunu Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul olunmuş,5 sentyabr 2009 cu ildə qüvvəyə minmişdir.Azərbaycan Respublikasının təhsil sistemi Azərbaycan Respublikasının Təhsil Qanunu ilə tənzimlənir. Azərbaycan Respublikasının Təhsil Qanununda deyilir ki, hərtərəfli biliyə, bacarığa malik, milli və ümumbəşəri dəyərlərə sadiq gənc nəsil yetişdirmək təhsil sistemimizin qarşısına qoyulan məqsəddir.

Təhsil sisteminin hərəkətverici qüvvəsi digər təhsil pillələri üçün baza rolunu oynayan ümumitəhsil məktəbləridir.Son illərdə cəmiyyətin məktəbə qarşı maraq və baxışı dəyişmişdir. Müasir cəmiyyətdə məktəb uşaqların təhsil almaq hüquqlarını təmin etməklə yanaşı, şagirdləri vətənpərvər ruhda formalaşdırmaq, şagirdlərdə problemli vəziyyətdən çıxmağı aşılamaq, onları həyata hazırlamaq və onların hərtərəfli inkişafına nail olmaq vəzifələrini yerinə yetirir. Ümumitəhsil məktəblərində təhsilin inkişafı səriştəli təhsil verənlərlə yanaşı məktəbdaxili idarəetmədən də asılıdır.Buna görə də məktəbdaxili idarəetmədə artan tələbat, müasir inkişaf

nəzərə alınmalıdır.Son dövrdə təhsilin məzmunu və təhsil texnologiyaları sahəsində yenilənmələraparılsada idarətmə sahəsində problemlər hələ də çoxdur.Bu da pedaqoji prosesə xidmətdə, əməyin elmi təşkilində qarşıya çıxan problemlərin vacibliyini sübut edir. Müasir dövrdə məktəbdaxili idarəetmə xüsusi çəkiyə malikdir. Məktəbdaxili idarəetmənin nəzəri səviyyəsini elmi biliklər təşkil etsə də bunun üçün elmi biliklər kifayət etmir.

Müasir dövrdə məktəbdaxili idarəetməyə qoyulan vacib pedaqoji tələbləri aşagıdakı kimi sadalaya bilərik:

Demokratik ruhlu,humanist gənc nəsil yetişdirmək üçün ilk növbədə idarəetmədə açıqlığı təmin etmək,hər bir şagirdin maraq və meyillərini nəzərə almaq,məktəbdaxili idarəetməyə cəmiyyət, valideyn və şagirdləri cəlb etmək və onların bu işdə fəaliyyətini stimullasdırmaq və artırmaq;

İKT dən,yeni təlim texnologiyalarından,istifadəni genişləndirmək;

Kolegial idaretmə,müxtəlif situasiyalarda qərar qəbul etmək;

Səbirli və dözümlü olmaq;

İnteqrasiya əsrinə uyğun olaraq elmi pedaqoji yeniliklərlə daim taniş olmaq,dövrü mətbuatı daim izləmək;

Pedaqoji analiz,təhlil və keyfiyyətli,obyektiv monitorinq və qiymətləndirmənin təşkili və aparılması;

Ölkə daxilində qabaqcıl məktəblərin iş təcrübəsi ilə tanış olmaq, onlarla müntəzəm əlaqəyaratmaq;

Xarici təhsilmüəssisələri ilə əlaqəyaratmaq,onların təhsil müəsissələrinin idarəolunmasi ilə tanış olmaq, onların mütərəqqi cəhətlərini maksimum səviyyədə mənimsəmək və yerli şəraitə uyğun olaraq onu tətbiq etmək;

Təhsilin qabaqlayıcı xarakterini təmin etmək;

Uşaqların təkcə məktəb partası arxasında 5-6 saat təlimlə məşğul olması onların tam bir vətəndaş kimi,hərtərəfli biliyə malik şəxsiyyət kimi formalaşması demek deyil.Bunun üçün kitabxanalarla,muzeylərlə,istehsal muəssisələri ilə əlaqə qurmaq və vaxtaşırı ekskursiyalar təşkil etmək;

Məktəblərdə şagird özünüidarə orqanları yaratmaq;

Müntəzəm olaraq fəaliyyətində fərqlənən şagird və müəllimlərin işini dəyərləndirmək və onların işini stimullaşdırmaq;

Şagirdlərin yaradıcılıq qabilliyətini üzə çıxarmaq üçün müxtəlif mövzularda sərgiləri təşkil etmək;

Bütünbunlar sosial iqtisadi həyatındemokratikləşdirilməsi,humanistləşdirilməsi yolunda cəmiyyətin vacib tələbi, qazanılan uğurlu naliyyətləridir. Həmin problemin gələcək perspektivlərini müəyyənləşdirməklə biz davam edən təhsil islahatlarına böyük töhfə vermiş olarıq. Bunu isə bizdən həyatın özü tələb edir.

**Əliyev Afiq,**
**dosent**
**Bayramova Ülkər,**
**dissertant**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**Xəzər Universiteti**
**qi.afiq1958@gmail.com**
**ubayramova@khazar.org**

## İnteqrasiya mühitində Azərbaycan ali təhsilində innovasiyalar

Bu gün ölkəmizin ictimai həyatında, o cümlədən təhsil sahəsində baş verən dəyişikliklər qlobal dünyanın ümumi tələbatından irəli gəlməklə yanaşı, müstəqil Azərbaycanda inkişafyönümlü fəaliyyətlərin nəticəsi kimi meydana çıxır. Qloballaşan dünyanın tələblərinə

uyğun təhsil sistemi formalaşdırmaq ölkənin beynəlxalq rəqabətliliyini şərtləndirən əsas amillərdəndir. Belə bir mükəmməl təhsil sisteminin formalaşması isə bu sahədə çalışan təhsil işçilərinin qarşısına ali təhsildə yeni pedaqoji texnologiyalar, distant təhsil, elektron təhsil kimi innovativ yanaşmalardan səmərəli istifadə olunması kimi zəruri vəzifələr qoymuşdur.

XX əsrin sonlarında dünya təhsil sistemlərində bir çox fundamental dəyişikliklər baş verdi. Bunlardan biri və ən innovativ olanı da 1999-cu ildə Avropa Birliyi ölkələrində Boloniya Deklarasiyasının imzalanması oldu. Boloniya Deklarasiyasının imzalanması ilə Boloniya prosesi başladı ki, bu da Avropa ölkələri ilə yanaşı dünyanın bir çox ölkələrinin təhsilinə öz təsirini göstərdi. Mütəxəssislərin fikrincə, Boloniya Deklarasiyası Avropa əməkdaşlığının gücləndirilməsi və Avropa Ali Təhsil sisteminin cəlbediciliyini artırmaqla qloballaşmaya cavab vermək məqsədi ilə bir sıra könüllü öhdəliklərdən ibarətdir.

Boloniya prosesi dərəcə və kreditlərin müqayisəedicilik, uyğunluq, rəqabətəqabillik və ötürücülüyünü özündə əks etdirir. Avropa Ali Təhsil Məkanının məqsədi bütün Avropada ali təhsilin bir-birinə uyğunlaşdırılmasıdır, lakin bu bütün milli təhsil sistemlərinin hamısını bir sistemin altında birləşdirmək deyildir.

Boloniya prosesinin imzalandığı gündən bu günə qədər keçən müddət göstərir ki, bu proses nəinki Avropa ölkələrinin təhsil sistemində, həmçinin dünyanın bir çox ölkələrinin təhsil sistemlərində köklü dəyişikliklərə səbəb oldu. Crosier və Parvevanın fikrincə, Boloniya prosesinin Avropadan kənarda ali təhsil siyasətinə olan təsirini daha böyük regional əməkdaşlıqların yaranmasına səbəb olan bir neçə nümunə ilə təsvir etmək olar. Bu regional harmonizasiyaya kredit sisteminin yaradılması, keyfiyyətin təminatı sistemi, diploma əlavələrin verilməsi və birgə tədqiqat qruplarının yaradılmasını Boloniya prosesinin səmərəli təsiri nəticəsi kimi göstərmək olar.

Novakovskaya yazırdı ki, Avropa ali təhsil məkanının yaradılmasının əsas məqsədi Avropanın qədim universitet ənənələri əsasında yaradılmış, Avropa əmək bazarı üçün bilikli və yüksək səviyyədə hazırlanmış mütəxəssislər yetişdrmək idi. Bundan əlavə universitetlərə də şərait yaradılırdı ki, onlar öz tələbələrini cəlb etmək üçün mübarizə aparsınlar. Müəllif həmçinin qeyd edir ki, "Avropa" termini burada mərkəzi rol oynayır. Əslində isə söhbət Avropa Birliyinin tamamilə inteqrasiyasından gedir, hansı ki, bura üzv olan bütün dövlətlərin vətəndaşları bərabər imkanlarla təmin olunsunlar, Avropa ali təhsil müəssisələri və tədqiqat mərkəzləri razılaşdırılmış birgə işlə daha keyfiyyətli məşğul ola bilsinlər.

Azərbaycan Respublikası Boloniya prosesinə 2005-ci ildə rəsmən qoşulmuş oldu. Ölkədə ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanına inteqrasiyası prosesini sürətləndirmək məqsədilə "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda 8 istiqamət üzrə islahatların aparılması müəyyənləşdirilmişdir:

- Ali təhsilin normativ hüquqi bazasının yeniləşdirilməsi;
- Ali təhsilin məzmununun və təlim texnologiyalarının təkmilləşdirilməsi;
- Ali təhsil müəssisələrinin strukturunun və onun bütövlükdə idarə olunması sisteminin müasir tələblər baxımından modernləşdirilməsi;
- Ali təhsildə keyfiyyətin təmin olunması;
- Ali təhsildə kadr hazırlığı;
- Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin müasir tələblərə uyğun qurulması;
- Ali təhsilin maddi-texniki bazasının müasir tələblərə uyğun qurulması;
- Ali təhsilin iqtisadiyyatının yeni mexanizmlərinin yaradılması və tətbiqi.

Boloniya prosesinə qoşulmaqla Azərbaycan ali təhsilində köklü dəyişikliklər baş verdi. Ali təhsildə distant təhsil, texnologiyalı təhsil və elektron təhsil kimi innovativ təhsil metodları tətbiq olunmağa başladı. Əslində biz bunlara "metod" yox, "vasitə" və ya "üsul"deməyimiz daha düzgün olardı. Çünki, adıçəkilən təhsil formaları təhsilin texnologiya vasitəsilə və yeni üsullarla verilməsini təmin edir ki, biz də bunu çox doğru olaraq Azərbaycan ali təhsilində innovasiyalar adlandıra bilərik. Qeyd olunan təhsil formaları hazırda ölkəmizdə geniş tətbiq olunmasa da,

onların universitetlərdə tətbiqi getdikcə genişlənir və bu innovasiayalardan istifadə edən müəllim və tələbələrin sayı artmaqdadır.

Qeyd etmək lazımdır ki, Boloniya prosesinə keçidlə əlaqədar ölkəmizin ali təhsil strukturunda və standartlarında dəyişiklik edildiyi kimi, həmçinin innovasiyaların yaranmasına və təhsildə istifadəsinə optimal şərait yarandı.

**Əliyev Afiq,**
**dosent**
**Paşayeva Şəbnəm,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**pasayeva_sebnem@mail.ru,**
**qi.afiq1958@gmail.com**

## Pedaqoji prosesdə monitorinq və qiymətləndirmənin əhəmiyyəti

Pedaqoji proses öyrədən və öyrənən arasında baş verən məqsədyönlü, qarşılıqlı, məhsuldar bir prosesdir. Pedaqoji proses məhsuldar proses olmaqla yanaşı eyni zamanda təlimdə, təhsildə, tərbiyədə şəxsiyyətin inkişaf prosesinin vəhdətidir. Çünki pedaqoji proses öyrənənlərlə öyrədənlər arasında qarşılqlı əlaqə, münasibət yaradır, onların inkişaf etməsi üçün vahid bir proses kimi təsir göstərir. Pedaqoji proses zamanı öyrətməklə yanaşı, şəxsiyyətlərarası münasibətlərin, əlaqələrin inkişafı da özünü göstərir. Pedaqoji prosesin təşkili zamanı cəmiyyətin, dövlətin mənafeyi nəzərə alınmalıdır. Pedaqoji prosesdə monitorinq və qiymətləndirməyəpedaqoji prosesin onun ayrı-ayrı sahələrinin keyfiyyətinin öyrənilməsinin, korreksiya edilməsi və nəticə əldə edilməsinin başlıca ölçü vahidi kimi baxılmalıdır. Ümumiyyətlə, biz monitorinq və qiymətləndirmə anlayışı haqqında danışarkən ona, yalnız öyrənənlərin təlim prosesi zamanı materialı necə mənimsəməsinin müəyyən edilməsi və nəticələrin qiymətləndirilməsi vasitəsi kimi baxmamalıyıq. Eyni zamanda monitorinq və qiymətləndirmə prosesinə şəxsiyyətin, cəmiyyət və dövlətin inkişaf tendensiyalarınıuğurlu edən amil kimi baxmalıyıq.

Qiymətləndirmə daha geniş məfhumdur. O, sosial aləmdə, cəmiyyətin istənilən sahəsində müxtəlif şəkildə istifadə olunur. Qiymətləndirmə fəaliyyətin dəyəri haqqında fikir yürütmək və inkişaf istiqamətlərini müəyyən edib diaqnoz qoymaq, məqsədə nail olmaq yollarını tapmaqdır. Monitorinq zamanı elmi-metodik işlərin səviyyəsi, kollektivin inkişafı, məktəbin maddi-texniki və maliyyə təminatı, məktəbin ailə və ictimaiyyətlə əlaqəsi məsələlərinin gedişatı öyrənilir. Pedaqoji prosesdə monitorinq və qiymətləndirmənin əhəmiyyətindən danışdıqda bilməliyik ki, monitorinq təlimdə, ümumiyyətlə isə təhsildə müsbət dəyişikliklərin aparılmasında uğurlu nailiyyətlərin əldə edilməsində,keyfiyyətin yüksəldilməsində başlıca amil kimi çıxış edir. Eyni zamanda monitorinq və qiymətləndirmə pedaqoji proses və onun ayrı-ayrı sahələrinin fəaliyyəti üçün qərarların qəbul edilməsi və fəaliyyətini nəzarətdə saxlanılmasının təmin olunması məsələlərini özündə əks etdirir.

Pedaqoji prosesin tərkib hissələrində monitorinq və qiymətləndirmə aparılan zaman öyrənənlərin bilik, bacarıq və vərdişlərinin hansı səviyyədə olduğu, ümumilikdə tədrisin keyfiyyəti, təhsil müəssisələrinin rəhbərlərinin, müəllimlərinin, təlim-tərbiyə prosesinin vəziyyəti haqqında obyektiv məlumat verməsi, diqqətdə saxlanılması, pedaqoji prosesdə bu ardıcıllığın sistematik olaraq təhsilin keyfiyyətinin müasir standartlara uyğun yüksəldilməsinə şərait yaradır. Bunlar arasında başlıca fərq ondadır ki, monitorinq prosesinin gedişatına müəyyən qədər dəyişiklik etmək olar, lakin qiymətləndirmə prosesi zamanı hər hansı fəaliyyət təsirini müəyyənləşdirmək üçün monitorinq prosesi zamanı alınan nəticələri gözləmək və onları yalnız növbəti tədris ilində tətbiq etmək olar. Monitorinq və qiymətləndirmə prosesinin səmərəli olması əsasən pedaqoji və idrak fəaliyyətin vəhdətindən, pedaqoji prosesin baş verdiyi şəraitdən asılıdır.

Monitorinq və qiymətləndirmə sistemli, məqsədyönlü istifadə olunmadığı zaman pedaqoji prosesdə, ümumilikdə təhsil müəssisəsində keyfiyyət göstəricisi aşağı düşür. Bunu nəzərə alaraq təhsilin keyfiyyətinin daha uğurlu, şəffaf, obyektiv olması üçün təlim-tərbiyə müəssisəsinin gələcək fəaliyyətinin istiqamətini düzgün təyin etmək üçün monitorinq və qiymətləndirmənin pedaqoji prosesdə həyata keçirilməsi zərurətə çevrilməlidir.

Pedaqoji prosesdə monitorinq və qiymətləndirmə aparılan zaman məzmunda bəzi neqativ halların aradan qaldırılması, müasir standartlara, normalara, tələblərə uyğun olması halları onun əhəmiyyət göstəriciləridir. Monitorinq və qiymətləndirmətəlim prosesinin gedişatına, inkişafına, təlim zamanı müəyyən nəticələrin əldə edilməsi, toplanılması və təhlilinə yekun olaraq nəticələrin qiymətləndirilməsinə şərait yarada bilən əsas meyar kimi düşünülməlidir.

**Əliyev Afiq,**
**dosent**
**Məhərrəmova Ruhəngiz,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**qasanova.77@list.ru**

## İbtidai sinif şagirdlərinin idrak fəaliyyətinin yüksəldilməsi yolları

Müasir dövrdə orta ümumtəhsil məktəblərində müəllimlərin pedaqoji təcrübəsində müşahidə olunan əlamətlərdən biri də şagirdlərin idrak fəaliyyətinin nəzərə alınmasıdır. Fəal (interaktiv) təlim müasir təhsil prosesinin ən aparıcı istiqamətlərindən olub, şagirdlərdə müstəqil növ fəaliyyətə meyli gücləndirir. Yəni şagirdlərin təlim prosesində tədris bacarıqları ilə yanaşı, onların idrak bacarıqları da müasir pedaqoji tələblər əsasında təşkil olunmalıdır. Şagirdlərin bilik mənimsəmə keyfiyyətinin səmərəliliyini yüksəltmək üçün idrak əməliyyatlarında (qavrama, anlama, mühakimə, ümumiləşdirmə, təsnif etmə, müqayisə aparma və s.) biliklənmə səviyyəsi yaradıcı təfəkkür əsasında qurulmalıdır. Bu barədə pedaqoji ədəbiyyatda yazılır: “Fəal (interaktiv) təlim müasir tədrisin başlıca vəzifələrindən biri olan “öyrənməyi öyrətmək” prinsipinə yönəlmiş bilikləri müstəqil əldə etməyə imkan yaradır. Fəal təlimin nəticəsində şagirdlərdə bilikləri daha müstəqil, sərbəst qavrama və mənimsəmə, məntiqi, tənqidi və yaradıcı təfəkkür, habelə problemlərin həlli və qərar qəbul edilməsi, nəzəri və praktiki məsələlərin əlaqəli qavrayışı üzrə və elmi-tədqiqat vərdişləri, geniş dünyagörüşü formalaşdırılır, qarşılıqlı hörmət hissi və əməkdaşlıq vərdişləri aşılanır”.

Dərsin təhsil məqsədinin həm tədris situasiyası, həm də nəzarət və qiymətləndirmə prosesləri şəraitində həyata keçirilməsi xüsusilə önəmlidir. Bununla dərsin inkişafetdirici məqsədinin bilavasitə həyata keçirilməsi nəzərdə tutulur. İdrak proseslərinin inkişafı bu baxımdan başlıca rol oynayır. İbtidai təhsil mərhələsində şagirdlərin bacarıq və vərdişlərinin formalaşdırılması istiqamətində hafizəni aktivləşdirməklə bərabər, təmrinlər (çalışma və tapşırıqlar) sistemindən istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olmaq olar.

Hazırda təlim prosesində lazım olan elmi məlumatlar verilməklə birgə, şagirdlərdə müşahidəçilik, müstəqil və tənqidi düşünmək və s. kimi idrak qabiliyyətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Müstəqil şəkildə öyrənməkdən ötrü şagirdlər ən əvvəl qarşılarına müəyyən məsələlər qoymalı, həmin məsələlərin həlli yollarını, üsullarını tapmaq bacarığına malik olmalıdırlar. Bunun üçün isə şagirdlərdə dərin müşahidəçilik, məsələnin mahiyyətinə varmaq qabiliyyəti inkişaf etdirilməlidir.

Beləliklə, idrak paradiqmalarından (nümunələrindən) ibtidai siniflərdə həm tədris, həm də təlim bacarıqlarının təşkili prosesində müasir, yeni pedaqoji təfəkkür imkanlarından faydalanmaq olar. Şagirdlərin bu cür idrak fəaliyyətinə rəhbərlikdə ibtidai sinif müəlliminin novator, orijinal metod və vasitələrdən istifadə etməsi də zəruridir. Bu cəhətdən orta-ümumtəhsil məktəblərində

şagirdlərin, ali məktəblərdə isə gələcəyin ibtidai sinif müəllimləri olacaq tələbələrin idrak fəaliyyətini təmin edən müəllimin pedaqoji taktından, ustalığından asılı olan üstünlüklər də çoxdur.

Yaradıcı müəllim ibtidai siniflərdə təhsil alan şagirdlərin öyrənmə fəaliyyətində bilik mənimsəmə səviyyəsinin yüksəldilməsi üçün idrak əməliyyatlarını (qavrayış, anlama, möhkəmləndirmə, tətbiqetmə kimi) öz fəaliyyətində tətbiq edə bilər. Lakin müəllim təhsilin keyfiyyətini yüksəltmək üçün təkcə şagirdlərin idrak fəaliyyətini aktivləşdirməklə kifayətlənmir, eyni zamanda onları (nəzəri təfəkkürü, eləcə də müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, təsnifat, tədris əməliyyatları, intellektual hisslər, bərpaedici təxəyyül, yaradıcı təxəyyül, anlama, nitq, materialı öz sözləri ilə nəql etmə, ağlın keyfiyyətləri, tənqidi təfəkkür, ağlın çevikliyi) müəyyən sistemlə inkişaf etdirir.

Alınan nəticə isə ondan ibarətdir ki, ibtidai sinif şagirdlərinin idrak maraqları ustad müəllim tərəfindən nəzərə alınarsa, bu zaman şagirdlərdə müstəqil növ fəaliyyətə alışma səyi yüksəlir. Onların nitq, təfəkkür və düşüncə tərzində müsbət iradi-mənəvi keyfiyyətlər formalaşır.

**Ayəddin Əliyev,**
**dosent**
**Nəzərova Səkinə,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**sekinenezerzade@gmail.com**

## Ana dili dərslərində müasir təlim texnologiyalarından istifadə imkanları

Ölkəmizdə həyata keçirilən derektiv sənədlərdə təlim prosesində yeni pedaqoji texnologiyalarından istifadə etməklə dərsin səmərəliliyinin artırlması ilə bağlı fənn müəllimləri qarşısında ciddi vəzifələr qoyulur. Bu vəzifələrin həlli üçün isə fənn müəllimlərindən yeni pedaqoji texnologiyaların gücündən hərtərəfli istifadə etməyi bacarmaq tələb olunur. Çünki fənn müəllimləri XXI əsrin astanasında yeni nəslin təlim, təhsil və tərbiyəsi ilə məşğul olurlar. XXI əsirin nümayəndələri isə köhnəlmiş təlim ənənələrini qəbul etmir, təhsil steriotiplərinə yox deyirlər. Hansı ki bu  steriotiplərdən uzaqlaşmayan müəllimləri uşaqlar, şagirdlər, tələbələr qəbul etmək istəmirlər.

Təhsil qanunu tövsiyə edir ki, təhsilin tərbiyələndirici, tərbiyənin təhsilləndirici, hər ikisinin öyrədici xarakteri hər an müəllimin diqqətində olmalıdır. Dahi pedaqoqların fikirincə, texnologiya ümümi halda təlim və təhsilin ən yeni, ən səmərəli, ən ardıcıl ümumi pedaqoji metodlarından, prinsiplərindən, tələblərindən, innovativ əsaslarından, əyani texniki vasitələrindən günün tələbləri səviyyəsində istifadə etməklə yüsək hazırlığa malik olan nümunəvi, mənəvi-əxlaqi normaları özündə əks etdirən şəxsiyyətin yetişdirilməsini özündə səciyyələndirən, elmi, nəzəri və praktik cəhətdən əsaslandırılmış fəaliyyət sistemlərindən ibarətdir. Deməli, müasir təlim texnologiyaları fənn müəllimləri tərəfindən modernləşdirilmiş ümumi pedaqoji üsul və vasitələrin novatorluq səviyyəsində tətbiq olunan fəaliyyət növləridir.

Prof. Y. Kərimov müasir təlim texnologiyalarindan istifadənin üstün cəhətləri haqqında belə yazır: “Müasir təlim texnologiyalarindan istifadə etməklə dərs prosesinə tədqiqat xarakteri verilir, şagird isə tədqiqatçıya, təlimin subyektinə çevrilir. Yeni təlim metodlarının ən üstün cəhətlərindən biri də onların mütəhərrik  və konservatizimdən uzaq olmasıdır. Bu da ən zəif, sakit, utancaq, melanxolik tipli şagirdlərin aktivləşməsinə gətirib çıxarır”.

Əsasən istehsal prosesi üçün səciyyəvi olan texnologiya sözü XX əsrin sonu XXI əsrin əvvəllərindən pedoqoji terminologiyalar ailəsinə daxil olaraq pedaqoji texnologiyalar şəklində işlənmişdir. Ümumiyyətlə, texnologiya bir anlayiş olaraq pedoqoji termin kimi təhsil və pedaqoji proses mühitinə XX əsrin sonlarında daxil olmuş və XXI əsrin ilk onilliklərində Azərbaycan pedaqoji ədəbiyyatında papulyarlaşmağa başlamışdır. Pedaqoji texnologiya anlayışı üç aspektdə təqdim oluna bilər:

- Elmi pedoqoji texnologiya: pedaqogika elminin məqsədləri, məzmunu və təlim metodlarını öyrənib işləyən və pedaqoji prosesi layihələşdirən bir hissəsi kimi.
- Prosessual - təsviri: təlimin planlaşdırılmış nəticələrinə nail olmaq üçün alqoritm prosesi məqsəd, məzmun və vasitələrin cəmi kimi.
- Prosessual - təsirli: texnoloji proses kimi butun şəxsi, instrumental və metodoloji vasitələrin fəaliyyəti.

Yeni təlim texnologiyaları bir sıra xüsusiyyətləri ilə ənənəvi təlim metodlarından fərqlənir:şagirdlərin tədqiqat fəaliyyətinə cəlb edilmələri, müəllim tərəfindən problemli şəraitin yaradılması, biliklərin şagirdlər tərəfindən müstəqil əldə edilməsi və s. Qeyd edilən xüsusiyyətlər bəzi ənənəvi təlim metodlarında da olmuşdur, lakin yeni təlim metodları bütövlükdə göstərilən xüsusiyyətlərə əsaslanır.

Müasir pedaqoji texnologiyalardan (kompüterdən istifadə, internet sistemindən faydalanmaq, interaktiv təlim metodları ilə işqurmaq) istifadə pedaqoji proses təcrübəsində ən önəmli məsələlərdən biridir. Xüsusən kiçik yaşlı məktəblilərlə aparılan dərslərdə həm təlim, həm də tərbiyə xarakterli tələbləri icra edərkən fəal interaktiv metodlardan birmənalı olaraq istifadə olunmalıdır.

Ana dili dərslərində bu işin tətbiq imkanları daha geniş və tutumludur. Şagirdlərin həmin fənn üzrə dərslərdə mənimsədiyi bilik, bacariq, vərdiş və mənəvi keyfiyyətlər ənənəvi metodlarla yanaşı yeni təlim texnologiyalarından istifadənin də əsasını qoyur. Xüsusən fənlərarası və fəndaxili əlaqənin gücləndirilməsində ana dili dərslərində müasir metodlarla iş qurmağın səmərəli nəticələri barədə müvafiq ədəbiyyatda xeyli sayda məlumat vardır. Lakin ana dili təlimi üçün müəyyənləşdirilən tədris və idrak bacarıqlarının əlaqəli şəkildə tam halda vəhdət tapmasına aid elmi axtarışlara ciddi ehtiyac duyulur. Bu cəhətdən ibtidai sinif şagirdlərinin iti düşüncəsi, yaddaşı, hafizəsi və digər iradi-mənəvi xüsusiyyətləri müəllim tərəfindən yeni təlim motivasiyası kimi nəzərdə tutulmalıdır.

Şagirdlərin ana dili dərslərində şəxsiyyət kimi formalaşmasına təsir göstərən müxtəlif növ fəaliyyət proseslərində interaktiv, yəni ən fəal bacarıq və səylərini yüksəltmək üçün yeni pedaqoji texnologiya nümunələrindən istifadədə, fəal təlimə qovuşmaqda və internet təcrübəsindən faydalanmaqda bu yeniliklər işə salınmalıdır.

Beləliklə, ana dili dərslərində interaktiv metodlardan faydalanmağı zəruri edən mühit yaradılmalıdır. Bu cəhətdən ustad müəllim illüstrativ materiallardan, sxem və cədvəllərdən istifadə etmək yolu ilə əyaniliyin anlayişa xidmət etməsi kimi təlim prinsiplərindən də yeri gəldikcə istifadə etməlidir. Ana dili dərslərinin təlim prosesində nəzərdə tutulan təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici vəzifələri də yeni pedaqoji texnologiya nümunələri ilə möhkəmləndirməlidir.

**Əliyev Ayəddin,**
**dosent**
**Qafarlı Asiman,**
**magistr,**
**Lənkəran Dövlət Universiteti**
**qafarliasiman@mail.com**

## Nitq inkişafı üzrə işin mahiyyəti

Ümumi mədəniyyətin tərkib hissələrindən biri, bəlkə də birincisi nitq mədəniyyətinə malik olmaqdır. Nitq inkişafı dedikdə hər şeydən əvvəl şəxsin öz fikrini aydın, səlis, yığcam və ardıcıl şəkildə ifadə etməsi nəzərdə tutulur. Bunun üçün isə danışan ilk növbədə veriləcək informasiyanı yaxşı mənimsəməlidir ki, onu dil cəhətdən doğru, rabitəli şəkildə ifadə edə bilsin. Deməli, rabitəli nitq məzmunun özünə müvafiq forma ilə ifadə edilməsindən ibarətdir.

Rabitəli nitqə müəyyən tələblər verilir:

1. Material müəyyən məntiqi ardıcıllıqla ifadə edilməlidir. Fikrin ardıcıllığı pozulduqda nitqdəki rabitə də pozulur və qarşıdakı şəxs çətinliklə başa düşür.
2. Nitq dolğun olmalıdır. Şagird dildən öz fikrini başqalarına çatdırmaq, eləcə də digərlərinin fikrini başa düşmək üçün istifadə edir. Əgər fikir aydın deyilsə, o, qarşıdakı şəxsə lazımınca çatdırılmırsa, deməli, material mənimsənilməmişdir. Bunu nəzərə alaraq, hər şeydən əvvəl, haqqında danışılacaq material yaxşı mənimsənilməlidir.
3. Nitqə verilən tələblərdən biri də budur ki, şagird hazır kitab cümlələrindən istifadə etməsin, fikrini aydın, müstəqil şəkildə ifadə edə bilsin.

Rabitəli nitq şagirdin müstəqilliyini, yaradıcılıq meylini inkişaf etməlidir. Bu iş ibtidai siniflərdən səmərəli təşkil olunarsa, məqsədə daha tez çatmaq mümkündür.

İbtidai siniflərdə nitq inkişafı prosesendə ifadə və inşaların müstəsna rolu vardır. Burada təsvir xarakterli inşalardan, ifadənin geniş və yığcam növlərindən istifadə daha önəmlidir.

Metodik ədəbiyyatda tövsiyə olunur ki, şagirdlər, haqqında danışdıqları və yazdıqları obyekti iki cəhətdən düzgün dərk etməlidirlər. Onlar mövzunu və məqsədi başa düşməli, bu iki anlayışı qarşılıqlı əlaqədə verməyi bacarmalıdırlar. Bu ona görə əsas götürülür ki, şagirdlər çox zaman mövzudan kənara çıxır, əsas mətləbi unudur,nəticədə, obyekt haqqında ətraflı və vacib olan məlumatı verə bilmirlər.Bu kimi nöqsanları aradan qaldırmaq üçün şagirdlərə xüsusi çalışmalar verilməlidir. Məsələn,belə çalışmaların bir qısmına dıqqət edək:

- verilmiş mətnə müvafiq ad verin.
- mətindən onun məzmununu daha dolğun əks etdirən cümlələr seçin və s.

Bundan əlavə,inşa yazıların bir qisminin müzakirə edilməsi də yaxşı nəticə verir. Müəllim müzakirə üçün seçdiyi inşalarda artıq sözləri seçməli, onların artıqlığının səbəbini izah etməlidir. Bu iş əksinə də aparıla bilər. Yəni mətndə bəzi söz və ya cümlələrin işlətməyin zəruriliyini əyani şəkildə şagirdlərə çatdırmalıdır.

Şagirdlərin müşahidəçilik qabiliyyətlərini inkişaf etdirmək üçün onlarabelə bir maraqlı, cəlbedici tapşırığın verilməsi məqsədəuyğundur: Səhər məktəbə gedərkən yolun üstündə olan evlərdən birinə nəzər sal və bu evin əlamətlərini yadda saxla. Sonrakı günlərdə müşahidəni davam etdir. Hər gün yeni əlamətlər tapmağa çalış. Sinifdə isə mən sənə həmin evin əlamətlərini sözlə canlandırmağı tapşıracağam.

Müşahidələr göstərir ki, inşa və mühakimələrdə uşaqlar fikri düzgün ifadə edə bilməmək, sübut etmək üçün lazımi faktları seçə bilməmək kimi nöqsanlara yol verirlər. Odur ki, mühakimə xarakterli inşalarda şagirdlər hər hansı bir hökmə aid nə üçün? və ya niyə? suallarına cavab tapmağa alışdırılmalıdır. Məsələn, şagird "Mən bədii əsər oxumağı sevirəm" hökmünü verirsə, həmin hökmü əsaslandırmalı, bədii ədəbiyyatın insan həyatındakı rolunu, əhəmiyyətini açmalı, lazımi nəticələr çıxarmağı bacarmalıdır. Yalnız bundan sonra biz şagirdin öz fikrini sübut etdiyini, lazımi nəticəyə məhz özünün təfəkkürü, tədqiqatçılığı ilə gəldiyini müəyyənləşdirə bilərik.

Müasir dərs yeni texnologiyaların tətbiqini tələb edir. Odur ki, şifahi və yazılı nitqi inkişaf etdirmək üçün müxtəlif əyani vasitələrdən, şəkillərdən, çalışmalardan, yeni təlim üsullarından, əyləncəli qrammatik oyunlardan istifadə olunmalıdır. Praktik işlərə daha çox yer ayrılmalıdır. Çünki praktik işlər tədris işinin rəngarəngliyini, nəzəri məlumatların möhkəmləndirilməsini, şagirdlərin nitq qabiliyyətlərinin inkişafını təmin edən əsas vasitədir. Əks halda verilən nəzəri məlumatlar, bilgilər lazımi effekt verməz. Şagird kitabdan asılı qalar.

Praktik məşğələlər, əsasən, aşağıdakı istiqamətlərdə aparılsa, yaxşı olar:

1. Müxtəlif növlü yaradıcı imla yazılarının yazılması (əsasən təhsilin ilk məthələsində)
2. Şəkil üzrə inşaların yazılması
3. Mətnin ifadəli oxunuşu
4. İfadə yazıların yazılması
5. Sərbəst mövzular əsasında inşaların yazılması
6. Şeir parçalarının əzbərlənməsi və onların məzmununun yazılması.

**Əliyev Ayəddin,**
**dosent**
**Vəliyeva Ruqiyyə**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**ruqu.95@mail.ru**

## Oxu təliminin ümumi məsələləri

Ana dilinin tədrisinin qarşısında duran mühüm vəzifələrdən biri də oxu təlimi ilə bağlıdır. Çünki şagirdin oxusu nə qədər qüsurlu olarsa, onun digər fənləri mənimsəmə faizi də bir o qədər qüsurlu olar. Ana dili digər fənlər üçün bir növ açar rolunu oynayır. Bu işin səmərəli təşkili isə şagirdlərin intellektual və emosional inkişafına, həmçinin müxtəlif fənlər üzrə biliklərin dərindən və şüurlu mənimsənilməsinə güclü təsir göstərir. Bu iş ibtidai siniflərdən düzgün, səmərəli təşkil olunmalıdır. Oxu təlimi şagirdlərin nitqiniinkişaf etdirir, söz ehtiyatını artırır, onlarda bir sıra bacarıqlar da formalaşdırır.

Şagirdlərin təlim nəticələrini yüksəltmək üçün müvafiq strategiya, metod və üsullardan istifadə etmək, mətnin oxusunu düzgün təşkil etmək çox vacibdir.

Kiçik məktəbyaşlı uşaqların mütaliəsində hazırlıq, başlanğıc, əsas mərhələləri xüsusilə fərqləndirmək lazımdır. Qeyd etməliyik ki, hazırlıq mərhələsində çətinliklər çox olur. İş kitabxana və kitabla tanışlıqdan sonra başlanır. Şagirdlər zəif oxu texnikasına malik olduqları üçün kitabxanadan aldıqları sevimli kitabları hər zaman həvəslə oxumurlar. Bu dövrdə əsas vəzifə şagirddə kitaba maraq tərbiyə etməkdən ibarətdir. Hazırlıq və başlanğıc mərhələsində aparılan iş ibtidai siniflərdə inkişaf etdirilir, ucadan ifadəli oxu iş üsulu kimi əsas götürülür. Əsas mərhələdə isə şagirdlər müstəqil oxu üçün ədəbiyyatın növləri ilə tanış olur, arzu və marağına müvafiq ədəbiyyat seçməyi öyrənirlər.

Tədqiqatlar göstərir ki, oxu savadına yiyələnmək mürəkkəb prosesdir. Bu iş uzunmüddətli, gərgin əmək tələb edir. Yalniz düzgün planlaşdırılan oxu təlimi nəticəsində uğur qazanmaq olar. Ümumiyyətlə, müəllim prosesin müvəffəqiyyətli keçməsi üçün aşağıdakı məsələlərə diqqət verməlidir:

1. Sözlərdəki səsləri fərqləndirmək;
2. Təkcə hərfləri deyil, səsi də qavramağı öyrənmək, hərf birləşməsini görmək və ona uyğun lazımi səsin tələffüzünü dəyişmək;
3. Sözdəki sözləri bütöv şəkildə tələffüz etmək;
4. Sözü tanış olan hər hansı əşya, hərəkət, əlamətin ifadəsi kimi başa düşmək.

Göründüyü kimi, oxu texnikası eşitməyə, görməyə, tələffüzə, təhlilə, sözün mənasına əsaslanan bir prosesdir.

Oxumağa yeni başlayan şagirdin oxu texnikası təcrübəli oxucununkundan fərqlənir. Çünki təcrübəli oxucunun görmə sahəsi, daha konkret desək, “oxu sahəsi” geniş olur. Onlar oxu zamanı gözlərini sətir boyu gəzdirərək yalnız bir neçə dəfə fasilə edirlər. Mətn asan olduqda isə fasilələr azalır, görmə sahəsinə daxil olan hərlərin sayı artır. Bəzən sürət o qədər çox asan olur ki, insan oxuduğunun məzmununu dərk edə bilmir. Şagirdlər isə bəzən nəinki hərfləri, hətta hecaları da birləşdirməklə çətinlik çəkir, sözün mənasını tam anlaya bilmirlər.

Məlum olduğu kimi, oxunun qarşısında 4 mühüm tələb qoyulur:

1. Oxunun şüurluluğu 2.Oxunun sürəti 3.Oxunun düzgünlüyü 4.Oxunun ifadəliliyi.

Dörd tələbdən biri pozulursa, normal oxudan danışmaq olmaz. Çünki bu 4 tələb bir-biri ilə çox möhkəm bağlıdır.

Oxunun düzgünlüyü sözləri təhrif etmədən, heca və səsləri buraxmadan oxumaq, sözlərin vurğusunu düzgün işlətmək və vurğusuna görə sözün mənasının dəyişməsinə yol verməmək, orfoepik qaydalara riayət etmək, sözləri və cümlələri təkrarlamadan oxumaqdır. Təcrübə göstərir ki, oxunun pozulması hallarına ibtidai siniflərdə daha çox təsadüf olunur. Metodistlər bunun

səbəbini sözlərin düzgün qavranılmaması ilə bağlayırlar. Bu, həqiqətən belədir. Uşaq ona tanış olmayan, mənasını bilmədiyi sözü oxumaqda çətinlik çəkir. Çünki oxumağa yeni başlayan şagirdlər sözü adətən daxil olduğu cümlədən kənarda dərk edirlər.

Düzgün oxunun mühüm şərtlərindən biri də oxunun sürətinin tənzimlənməsidir. Burada müəllim çətin sözləri əvvəlcədən yazı taxtasına yazmaqla təhlil etmək, həmin sözləri hecalara bölüb xorla oxutdurmaq, mətni şagirdlərə yenidən oxutmaq və s. kimi çalışmalar gözəl nəticə verə bilər. Mütəxəssislər sürətli oxu texnikasının mənimsənilməsində vərdişin rolunu olduqca yüksək qiymətləndirirlər. Odur ki, müəllim şagirdləri oxuya alışdırmaqla bunu onlarda vərdiş halına gətirməlidir.

Pedoqoji ədəbiyyatda, mətbuatda interaktiv təlim metodlarından da geniş söhbət açılır. Yeni təlim metodlarından istifadə şagirdlərin dərsdə passivliyinin qarşısını alır, şüurlu mənimsəməyə şərait edir. Nəticədə, təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil bilik almağı, fərdi inkişaf etmək bacarığı tərbiyə edir. Bu gün şagirdlərin oxu mədəniyyətinin yüksəldilməsi üçün böyük imkanlar var. Müasir təlim texnologiyalarından istifadə etməklə şagirdlərdə oxuya məhəbbət oyatmaq olar ki, bu da sonralar onlarda vərdiş halına keçər.

**Əliyev Əlirza,**
**dosent**
**Ağazadə Şəlalə,**
**Magistr**
**Lənkəran Dövlət Universiteti**
**ağazadə@painter_90**

**Ümumitəhsil məktəblərinin Azərbaycan dili dərslərində metaforaların ədəbi-bədii materiallar əsasında şagirdlərə çatdırılması yolları**

Dilimizdə leksik-semantik baxımdan xüsusi mövqedə duran metafora ən mühüm bədii ifadə vasitəsi olub, xarici aləmin əşya və hadisələri arasında bu və ya digər bənzərlik əsasında meydana gəlir. Metaforalar dilimizdə zənginlik və rəngarənglik baxımından da mühüm əhəmiyyət daşıyır. Məhz buna görə ümumitəhsi məktəbinin Azərbaycan dili və Ədəbiyyat tədrisi proqramlarında bu mövzuya xüsusi yer verilmişdir. Mövzunun tədrisi zamanı ilk öncə interaktiv təlim əsasında motivasiya qurmaq məqsədilə həmin sinfin dərsliklərindən seçdiyim aşağıdakı bədii nümunələri şagirdlərə təqdim edirəm:

İbn Yəmin: Get, gülüm, sonra məhəbbət edəriz. (H.Cavid) Qacar: Göylərdən ot töksün yere ruzigar. Yan, yan kömür olsun hər qaya, hər dağ. (S.Vurğun) Yaxşı, sus qoca köpək! (S.Vurğun) Şeyx: Ey böyük hökmdar! Ey ulu Qacar. Sizdəki qüvvətə baş əyir dağlar. (S.Vurğun) Xanəndə: Çəmənlər, yasəmənlər göz vurub min cilvə görsədir. (S.Vurğun) Buludlar kişnədi, göy qan ağladı (B.Vahabzadə) Həyata hamiləykən, ölüm doğdu o gecə. (B.Vahabzadə) Qızıl qərənfillər,qara bayraqlar, xalqın kədərinə birgə qan ağlar (B.Vahabzadə) Qırmızı güllələr uçdu havada (B.Vahabzadə) Daldı bir anlığa sükuta yer, göy (B.Vahabzadə) Fikirlərim pırtlaşdı, oldu düyün-düyün (R.Rza) Ağ geyinib təpələr, Bəxtiyar! (R.Rza).

Verilmiş nümunələrdə şagirdlər metaforanın müxtəlif növləri ilə tanış olurlar. Bundan sonra tədqiqatın aparılması məqsədilə metaforalar, onların əmələ gəlmə yolları, növləri və s. haqqında tərtib etdiyim suallar yazılmış kartoçkaları şagirdlərə paylayıram.

"Şahin"qrupu: Metafora nəyə deyilir?

"Sevinc"qrupu:Metaforanın ən sadə növü necə yaranır?

"Ulduz"qrupu:Canlılar cansız əşyaya məxsus səciyyələndirmə əsasında metafora yarana bilirmi?

"Günəş"qrupu: Mürəkkəb sözlərin yaranmasında metaforikləşmənin rolu varmı?

"Qartal"qrupu: Metaforalar nitq hissələri baxımından necə qrupa bölünür?

Məlumatın müzakirəsi və mübadiləsi mərhələsində verilmiş vaxt tamam olduqdan sonra şagirdlər növbə ilə suallara cavab verirlər.

Kartoçka1-"Şahin" qrupu: Metafora təkcə dilçilikdə deyil, ədəbiyyatşunaslıqda da işlədilir.Dərsin əvvəlində bədii numunələr tərkibində tanış olduğumuz metaforalar ən çəx məcazlıq ifadə edir. Bədii dildə metaforalar həm də üslubi mahiyyət daşıyır.

Kartoçka2-"Sevinc" qrupu: Dilimizdə bir çox ifadələr metaforik mənada işlədilir. Məsələn: qara qızıl (neft), ağ qızıl (pambıq), yaşıl qızıl (çay), sarı qızıl (buğda), mavi gəmi (pambıq yığan maşın) və s. Buradan belə nəticə alınır ki, metaforalar yalnız tək-tək sözlər şəklində deyil, söz birləşməsi formasında da mövcuddur. Belə ifadələr metaforik ifadələr adlanır.

Kartoçka3-"Ulduz" qrupu: Metaforalar məna köçürmələri əsasında yaranır. Daha doğrusu xarici aləmin əşya və hadisələri arasında bu və ya digər bənzərlik əsasında meydana gəlir. Məsələn: soyuq nəzər, dumanlı baş,dumanlı səhər. Bu birləşmələrdə canlılar cansız əşyalara məxsus əlamətlərlə səciyyələndirilir. Bəzən də cansızlar canlılara məxsus əlamətlərlə qeyd olunur. Məsələn: insan baş əyir,dağlar baş əyir.

Kartoçka4-"Günəş"qrupu: Metaforalar dilin zənginləşməsində mühüm rol oynayır. Belə ki, metaforalar nəticəsində dildə çoxlu mürəkkəb sözlər yaranır. Məsələn: gülbəniz, şirindil, fındıqburun, badamıgöz və s. Bundan başqa, dilimizdə bitki adları heyvan adları əsasında yaranır. Məsələn: kəklikotu, dəvədabanı, quşarmudu, quşəppəyi, quzuqulağı və s.

Kartoçka5-"Qartal" qrupu: Nümunələrdən aydın olur ki, metaforalar ismi və feili birləşmələr olmaqla iki yere bölünür: Qol-qanadım yanıma düşdü, caynağına keçmək, diş-dırnaqla qazanmaq metaforaları ismi metafora; mırtıldamaq, banlamaq, kişnəmək, yırğalamaq metaforaları isə feili metaforalardır. Bundan əlavə,insanın səciyyəvi keyfiyyətləri və xüsusiyyətlərini göstərmək üçün heyvan adları metaforik formada işlədilir. Məsələn: Tülkü(hiyləgər) dovşan(qorxaq) aslan(qoçaq) pələng(igid) və s.

Şagirdlərin cavabları əsasında ümumiləşdirmə aparıram və yekunda şagirdlərə bir daha çatdırıram ki, metafor sözün məcazi mənası əsasında meydana çıxır. Metafora nitqin obrazlı vahidi kimi bədii təsvir vasitəsi olaraq dildə müxtəlif üslubu rəngarənklik yaradır.

Beləliklə, Azərbaycan dili dərslərində ədəbii-bədii materiallar əsasında metaforaların öyrədilməsi tədrisdə xüsusi əhəmiyyət kəsb edir. Burada bir tərəfdən uşaqlar həm dil materiallarını əyani şəkildə bədii nümunələr əsasında öyrənir, digər tərəfdən isə bir növ fənlərarası əlaqlər təmin olunur.

**Əliyeva Kəmalə,**
**dissertant**
**Xəzər Universiteti**
**k.aliyevaugur@gmail.com**

## Xüsusi qayğıya ehtiyacı olan uşaqların yaşıdları ilə birgə təhsilinin vacibliyi

Müasir dövrdə təhsil sistemində aparılan islahatların nəticəsi olaraq müxtəlif ləngiməsi olan uşaqların təlim alması aktuallıq kəsb edir. Tarixi baxımdan baxdıqda xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim alması əvvəllər sadəcə onlar üçün ayrılmış xüsusi məktəblərdə mümkün olmuşdur. Zaman keçdikcə onların cəmiyyətə inteqrasiya edə bilməsi üçün ümumtəhsil məktəblərində yaşıdları ilə birgə təhsil almaları vacib hesab olmuşdur. Məhz bu yanaşmanın sayəsində onların öyrənmə prosesi sürətlənmiş, yaşıdlarından bir çox sahələrdə ( akademik, psixi inkişaf, sosial bacarıq, nitq bacarığı)geri qalsalarda, onlarla pedoqoq nəzarəti altında birgə olmaq xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusilə sosial inkişafını dəstəkləmişdir.

Bu baxımdanda uşaqlar sosial bacarıqları mənimsəyib həyat şəraitinə daha yaxşı adaptə ola bilər və bu sayədə həm valideynlərin , həmdə uşaqların həyatında müsbətə doğru dəyişikliklər baş verər.

Məktəb mühitinin hər iki tərəf üçün vacibliyi :

1. İlk növbədə cəmiyyətin müxtəlif məhdudiyyətli uşaqların varlığından , onlarında hüquqlarının olmasından xəbərdar olması
2. Uşaqların xüsusi bacarıqlarının üzə çıxarılması( rəsm, musiqi, idman, əl bacarıqları və s)
3. Öyrənmə bacarıqlarının artırılması, müxtəlif peşə məktəblərinə yönləndirilməsi
4. Məktəbdə təşkil olunan tədbirlərə cəlb olunaraq birgə fəaliyyət qaydalarının öyrənilməsi
5. Digər uşaqlarda şəxsiyyətin əsas başlıca xüsusiyyəti olan empatiya hissinin formalaşması, yardımlaşma və paylaşma kimi xüsusiyyətlərin inkişaf etməsi.

Yuxarıda sadalananlardan aydın olur ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlar yaşıdları kimi məktəbdə təhsil almalıdır. Nəzərə aldıqda ki, Autizm Spektr Pozuntusu kimi geniş yayılma sıxlığına malik xəstəliklərin ( son araşdırmalara görə hər 68 uşaqdan bir) dayanmadan artması müasir dövrün qlobal probleminə çevrilib. Qarşısı alına bilməyən bu "epidemiya" günbəgün artır. Bu uşaqları cəmiyyətimizin bir hissəsi olaraq təcrid etmədən , təlim prosesində müxtəlif bacarıqlara yiyələndirərək yenidən qazanmaq mümkündür.

Ümumiyyətlə təlim prosesi davamlı xarakter daşıyır. Yəni yaşından asılı olmayaraq psixi inkişafı yaşıdlarından geri qalan uşaqların təlim prosesi məktəblə və məktəb dövrü ilə məhdudlaşa bilməz. Bu uşaqlar bütün həyatları boyu təlim almalı, ev şəraitindədə öyrənməyə davam etməlidirlər. Məlum olduğu kimi bu uşaqlar başqalarının hiss və emosiyalarını anlamaqda öz düşüncələrini ifadə etməkdə, davranışlarının başqalarına necə təsir edəcəyini anlamaqda və söhbətə qoşulmaqda çətinlik çəkirlər. Bu baxımdan təlim prosesindəki fəaliyyətlər uşağın emosional inkişafınada zəmin yaratmış olacaq.

Bildiyimiz kimi autizmli uşaqların spesifik davranışları vardır. ( irəli geri yellənmə, əlləri bir birinə çırpma və s). Bu davranışlar onların sosial cəhətdən qəbul olunmalarına mane olur. Bu cür istənilməyən davranışlar təlim sayəsində azala bilir.

İnsanların cəmiyyət içində müstəqil yaşaya bilmələri, həyat standartlarını artıra bilmələri əsasən qurduqları insanlararası münasibətlərə bağlıdır. Məhdudiyyəti olan, yada olmayan bütün şəxslər cəmiyyətdə uyum içində yaşaya bilmələri onların sahib olduqları sosial bacarıqlarla yaxından bağlıdır. Təhsil həm sosial bacarıqları , həm də akademik bacarıqları dəstəkləyİr.

McFalla görə sosial bacarıqlar insanın cəmiyyət qarşısındakı öhdəliklərini yerinə yetirmək məqsədilə göstərdiyi davranışlardan ibarətdir. Akademik bacarıqlar isə uşağın biliklərindən ibarətdir.Hansı tərəfdə baxarsaq baxaq məktəb, pedoqoji mühit bu uşaqlar üçün əvəzolunmazdır. Onların cəmiyyətə inteqrasiya ola bilməsi, ətrafdakı insanlar tərəfindən qəbul olunması sadəcə fasiləsiz təlim sayəsində mümkündür.

**Feyziyeva Ruxsara,**
**dosent**
**Əlizadə Məhəmməd,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**mahammad.aliyev.1992@mail.ru**

## Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində Ana dili dərsində dil qaydalarının qrammatik oyunlarla tədrisi

Ana dili təliminin ümumi məqsədlərindən biri də şagirdlərin intellektual səviyyəsini inkişaf etdirməkdir. Deməli, ana dili fənni eyni zamanda şagirdlərin intellektual linqvistik inkişafını (həm təfəkkür, həm də nitq baxımından) təmin etmək vəzifəsini həyata keçirir. Bu vəzifə əvvəlcə

dilin sahələri (fonetika, leksika, söz yaradıcılığı, morfologiya, sintaksis) üzrə konkretləşsə də, sonralar hər bölmənin daxilində onun (dilin müəyyən sahəsinin, bölməsinin) özü yenidən təhlil olunur.

Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində ana dili təliminin yuxarıda qeyd etdiyimiz xüsusiyyətlərini kiçik yaşlı şagirdlərə əyləncəli qrammatik, didaktik, intellektual oyunlar şəklində tədris etdikdə bu biliklər şagirdlər tərəfindən daha tez, möhkəm və asan qavranılır. Oyun elə bir təlim növüdür ki, şagirdlər aktiv və yaradıcı şəkildə dil qaydalarını və normalarını həm mənimsəyir və həm də praktik olaraq tətbiq edirlər.

Dərs zamanı qrammatik (öyrədici) oyunlardan istifadə şagirdlərdə yaddaş, diqqət və təfəkkürün inkişafına kömək edir.

Hər bir didaktik oyun müəyyən qaydaya tabe olmaqla oyunun məzmunu, əyləndirici xüsusiyyətləri ilə əlaqədardır. Eyni zamanda oyunun qaydaları uşaqların bu prosesdəki davranışını tənzimləyir, normallaşdırır. Mövcud qaydaların şagirdlər tərəfindən mənimsədilməsi və onların düzgün tətbiqi özünənəzarət və qarşılıqlı nəzarət vərdişlərinin tərbiyə olunmasına təsir göstərir.

Aşağıda təklif olunan bir neçə qrammatik, intellektual oyun sinfin səviyyəsinə uyğun təşkil olunarsa, nəzərdə tutulan şagird nailiyyətlərinin tez və asan qazanılmasına kömək edə bilər.

Stolüstü didaktik oyunlar erkən yaşlardan nümayişetdirici təfəkkürə əsaslanır. Bu oyun prosesində şagirdlər praktik fəaliyyətdə əşyalarla deyil, onların şəkildəki əkslərini mənimsəməklə biliklərini möhkəmləndirirlər. “Cüt şəkillər”, “söz-loto”, “domino”, “kubiklər”, “xanaqraf” və “doqquzdaş” kimi oyunlar kiçik yaşlı şagirdlərin söz ehtiyatının zənginləşdirilməsində əvəzedilməz vasitələrdir. Onların bəzilərinə diqqət edək.

“Doqquzdaş” oyunu yalnız məktəbdə deyil, evdə, valideynlərin iştirakı ilə də oynanıla bilər. “Doqquzdaş” sinif şəraitində oynanılarkən şagirdlər iki və daha artıq qrupa bölünürlər. Oyunda tərəflərinə hərflər yazılmış kiçik kublardan-zərflərdən istifadə olunur. Kubun altı tərəfi olduğundan burada 54 (9x6) hərf iştirak edir. Azərbaycan əlifbasında 32 hərf olduğundan dilimizdə daha çox işlənən hərflər (əsasən saitlər) bir neçə kubda təkrarlanır. Müəllim və şagirdlərdən biri kubları müəllim masasının üstünə atır. Üstə düşən hərflər yazı taxtasında yazılır. Bu hərflərin köməyi ilə daha çox söz düzəldən qrup oyunda qalib gəlir.Bu kubları şagirdlər müəllimin köməyi ilə kartondan və ya qalın kağızdan düzəldə bilərlər.Hərflərin kublar üzrə aşağıdakı kimi paylanması tövsiyə olunur:

| | | |
|---|---|---|
| 1.B,Ş,D,T,X,I | 4.U,E,Ə,İ,O,A | 7.A,Ə,E,K,F,İ |
| 2.A,O,E,U,Ə,İ | 5.Ç,P,G,M,N,R | 8.D,C,G,V,X,B |
| 3.Ü,H,S,E,K,İ | 6.Z,J,E,Ö,Y,Q | 9.S,Ə,L,N,P,T |

“Söz-loto” oyununu sinifdə cütlərə bölünərək oynamaq daha məqsədəuyğundur.Hər cütlüyə altıxanalı kart verilir. Hər xanada müəyyən bir məna qrupunun adı yazılır: məsələn: “quş”, “geyim”, “əmək aləti”, “meyvə-tərəvəz” və s. Müəllimin masası üzərinə müxtəlif varlıqlar çəkilmiş şəkillər qoyulur. Şagirdlərdən biri masaya yaxınlaşıb bir şəkil götürür və orada təsvir olunmuş varlığın adını ucadan deyir: məsələn; “kirpi”. Bu zaman kartında “vəhşi heyvan” xanası olan cüt deməlidir: “məndə”. Şəklin adını deyən şagird ona yaxınlaşıb həmin şəkli verir. Cütlük həmin şəkli kartdakı müvafiq xanaya qoyur və həmin cütlükdən bir nəfər masaya yaxınlaşıb başqa şəkli götürür. Beləcə, cütlərdən birinin kartındakı xanalar dolana qədər oyun davam edir. Qeyd etməliyik ki, “vəhşi heyvan” xanası başqasının da kartında ola bilər. Lakin şəkli hamıdan tez “məndə” qışqıran cütlük əldə edir.

Şagirdlərin nitqinin inkişafında şifahi qrammatik oyunların da böyük əhəmiyyəti vardır. Bu tip oyunlar şagirdlərdə eşitmə diqqətini, nitqin səslərini dinləmək bacarığını formalaşdırır, səs birləşmələrini və səsləri təkrar etməyi öyrədir.

Şifahi oyunlarda şagirdlər pedaqoji münasibətdə çox qiymətli olan hiss, duyğu və həyəcana, başqasının dərdinə şərik olmaq vərdişlərinə yiyələnirlər.

Şifahi didaktik oyunlardan biri olan “Kim daha cəld?” oyunu IV sinifdə Ana dili dərsində aşağıdakı kimi istifadə olunur:

Lövhədə “atlaz, qar, daş, bahar, şaxta, qış, yel” sözləri yazılır. Müəllim əlindəki topu şagirdlərdən birinə atır və bu sözlərdən birini deyir. Sonra topu başqa şagirdə atıb daha bir söz deyir. Bu qayda ilə oyun davam edir. Bir sözdə bir neçə hərf dəyişdirməklə bir neçə dəfə yeni söz də yaratmaq olar. Məsələn; qar-tar-bar-var-nar-yar, yel-bel-sel, atlaz-atlas, taxta-şaxta, çay-yay, qış-xış, sarı-qarı, maşa-paşa.

Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində Ana dili dərslərində qrammatik və intellektual oyunların təşkili müəllimin şəxsi bacarığı, dünyagörüşü və istedadından asılı olaraq müxtəlif və maraqlı fantaziyalara əsaslanmalıdır.

**Feyziyeva Ruxsara,**
**dosent**
**İbişova Şəhla,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**sehlaibisova@mail.ru**

## İbtidai siniflərdə rabitəli nitqin inkişafı problemləri

Məlum olduğu kimi, bu gün ana dili təliminin qarşısında duran mühüm vəzifələrdən biri də şagirdlərin rabitəli nitqin ininkişafı məsələlərinə yeni dövrün tələbləri səviyyəsində yanaşmaqdır. Odur ki, ibtidai sinif şagirləri ilə aparılan didaktik işin tətbiqinə aid məsələləri qabartmaq, praktikada tətbiq olunmaq üçün elmi cəhətdən əsaslandırılmış tövsiyələr irəli sürmək çox vacibdir. Bu zəmində ibtidai siniflərdə rabitəli nitqin aşağıdakı problemləri üzərində işləmək daha önəmlidir:

- Birincisi, təlim prosesində rabitəli nitq vərdişlərinin aktivləşdirilməsi;
- -İkincisi, rabitəli nitqin inkişafı üzrə yeni bilik, bacarıq, vərdişlər sisteminin intensivləşdirilməsi.

Aşağı siniflərdə Ana dili dərslərində ibtidai sinif müəllimlərinin işi bu problemlərlə də bağlı olmalıdır.Şagirdlərdə rabitəli nitq vərdişlərini formalaşdırmağın xüsusiyyətlərini və bu keyfiyyətləri mənimsədən ayrı-ayrı fənlərin tədrisi zamanı müəllimlərin fərdi hazırlığına və maraqlarına nəzər yetirmək olduqca vacib məsələdir.

Rabitəli nitqə verilən tələbələrdən biri də odur ki, şagird hazır kitab cümlələrini əzbərləməsin, fikrini müstəqil, sərbəst şəkildə ifadə edə bilsin. Onun yazısında, danışığında öz üslubu, öz nəfəsi, öz ruhu hiss olunsun.

Rabitəli nitqdə nitq məzmunca dolğun olmalıdır. Çalışmaq lazımdır ki, şagird haqqında danışacağı materialı yaxşı mənimsəsin. Eyni zamanda şagirdin danışdığı material müəyyən məntiqi ardıcıllıqla ifadə edilməlidir. Fikrin ardıcıllığı pozulduqda nitqdəki rabitə də pozulur və dinləyən şəxs danışanı çətinliklə başa düşür. Nitq qrammatik və üslubi cəhətdən düzgün qurulmalı, leksik cəhətdən zəngin olan cümlələrlə ifadə olunmalı, hər bir sonrakı cümlə əvvəlki ilə müəyyən məntiqi və sintaktik əlaqəyə girməli, onun mənasını açmalı, tamamlamalıdır. Rabitəli nitqin dolğun və səlis olması, şagirdin əsas və ikinci dərəcəli hadisələri bir-birindən ayıra bilməsi, mühüm əhəmiyyəti olan məsələləri ön plana çəkə bilməsi ilə bağlıdır. Çünki bəzən şagird hadisənin ümumi inkişaf xəttində əsas yer tutan məsələni unudur, az əhəmiyyəti olan məsələlər üzərində dayanır ki, bu da mənasız uzunçuluğa, fikrin zəif və natamam ifadə olunmasına gətirib çıxarır.

Müəllim çalışmalıdır ki, şagird hazır kitab cümlələrini əzbərləməsin. Şagirdin fikrini müstəqil, sərbəst şəkildə ifadə edə bilməsi vacib məsələ hesab olunur. M.İ.Kalinin hazır kitab cümlələri ilə danışan şəxslər haqqında demişdir: “Sizin düşüncəniz işləmir, yalnız diliniz işləyir”. “Hələlik siz öz dilinizlə deyil, özgə dili, hazır cümlələrlə danışmağa çalışırsınız. Sizin

çıxışlarınızla öz fikriniz, canlı fikir büruzə verilmir. Sizin nitqiniz insanı qızdırmayan ay işığına bənzəyir. Öz cümlələrinizi özünüz qurmalısınız”.

Dünya şöhrətli alim N.Tusi də danışıq etikası haqqında qiymətli sözlər demişdir: Şagirdlərə az, səlis, rabitəli danışmağı, susmağı, soruşanda cavab verməyi, böyüklərə qulaq asmağı öyrətməli, nalayiq sözlər, söyüşlər, yersiz kəlmələr işlətmədən utandırmalı, gözəl, zərif, xoş kəlamlardan istifadə etdikdə isə tərifləməli, belə danışığa adət etməyə hüsnrəğbət oyatmalıdır. Özünə, müəllimə, özündən yaşca böyük olanlara hörmət və xidmət etməyi bilməlidir.

Rabitəli nitq bilik mənimsəmədə aparacı rol oynayır. Odur ki, pedaqoji proses təcrübəsində ibtidai sinif müəllimlərinin bu sahədə mövcud iş üsullarını təkmmilləşdirmək, yaradıcı fəallığı inkişaf etdirmək, tədris prosesində rabitəli nitq bacarıqlarını möhkəmləndirmək sistemli metod və vasitələrdən faydalanmaqla sinifdə innovasiya mühitini formalaşdırmağa, qabaqcıl metodik təcrübəni öyrənməyə, ümumiləşdirməyə və yaymağa aid müxtəlif kontekstdən olan elmi-metodik və nəzəri ədəbiyyatlarda əksini tapan yeni iş üsulları ilə işləməyin didaktik əsaslarını bilmək və onun tətbiqi yollarını üsul və vasitələrini işə salmaq dövrün, məktəb həyatının əsas tələbidir.

Prof. Bəşir Əhmədov tədqiqatlarında çox haqlı olaraq göstərir ki, “Nitq məzmunca dolğun olmalıdır. Şagird dildən öz fikrini başqalarına çatdırmaq, eləcə də başqalarının fikrini başa düşmək üçün istifadə edir. Fikir olmayan yerdə, onu ifadə etməyə ehtiyac da olmaz; yəni dil də olmaz. Bunu nəzərə alaraq, hər şeydən əvvəl, şagirdin haqqında danışacağı materialı yaxşı mənimsəməsinə çalışmaq lazımdır. Şagirdin danışdığı material müəyyən məntiqi ardıcıllıqla ifadə edilməlidir. Fikrin ardıcıllığı pozulduqda nitqdəki rabitə də pozulur və dinləyən şəxs danışanı çətinliklə başa düşür”. Odur ki, ibtidai siniflərdə rabitəli nitqin inkişafı üsulları yeni, modern imkanlarla əhatə olunmalı, rabitəli nitqin inkişafının yeni dəyərləriylə möhkəmləndirilməlidir.

Nitq inkişafı üzrə iş digər fənlərin tədrisi prosesində , sinifdənxaric məşğələlərdə də təşkil edilməlidir. Nitq inkişafı üzrə iş kompleks şəkildə aparılmalıdır. Bu prosesdə mümkün qədər müxtəlif, rəngarəng üsul, vasitə və priyomlardan istifadə olunmalıdır.

Konkret olaraq söyləyə bilərik ki, ibtidai siniflərdə şagirdlərin həm şifahi, həm yazılı nitqinin formalaşmasında onların fəaliyyət məhsulları olan inşa və ifadə yazılarında bu təlim keyfiyyətini əməli və təcrübi istiqamətdə təkmilləşdirməyi həm müəllimlərdən, həm də şagirdlərdən qabaqcıl, novator vasitə kimi istidafə etməyi zəruri edir.

**Hüseyn Fəxrəddin,**
**dosent,**
**Əbilova Nəzakət,**
**baş laborant**
**Lənkəran Dövlət Universiteti**
**n.ibadova@mail.ru**

## Şeyx Zahid Gilani və Xəlvətilik

Xəlvətiyyə təriqəti Azərbaycanda təşəkkül tapmış və daha sonra Şimali Afrikadan Balkan yarımadasına qədər islam dünyasının müxtəlif bölgələrində yayılmış ən böyük sufi təriqətlərindən biridir. X əsrdə Əbdülqahir Sührəverdidən etibarən təşəkülə başlamış xəlvətilik sufi məktəbinin əsası Lənkəranlı İbrahim Gilani və Şirvanlı Ömər Xəlvəti tərəfindən qoyulmuşdur.

“Xəlvətilik” nədir?

Xəlvətilik öz adını ərəb sözü olan “xəlvət”dən götürüb.

Xəlvət – insanların görmədiyi, gizlin, yalnız qala biləcəyin yerdir. Xəlvətə çəkilmək, Yaradanla baş-başa qalmaq İslamdan öncə də mövcud olmuşdur. Hələ Məhəmməd peyğəmbərin gənc yaşlarında Hira mağarasına – xəlvətə çəkilərək saatlarla, bəzən günlərlə Tanrını düşünməsi haqqında qaynaqlar var.

Xəlvətilik dini düşüncədə və davranışda yüz illər öncədən var olan xəlvətə çəkilmə metoduna dayanaraq meydana gəlmişdir. Xəlvətiliyin ən böyük özəlliyi bu təriqətin bütünlüklə Azərbaycan türkləri tərəfindən yaradılması, inkişaf etdirilməsi və yayılmasıdır. Bu təriqətin Azərbaycan sınırlarını aşaraq bir çox ölkələrdə tanınması və yayılması da ünlü Azərbaycan sufisi Seyid Yəhya Bakuvinin çalışmaları sonunda gerçəkləşmişdir. Sırf Türk –İslam sufi cərəyanı kimi meydana gələn Xəlvətiliyin digər özəlliyi isə sünniliyin və şiəliyin sintezi kimi çıxış etməsi olmuşdur. Bu təriqətdə həm sünnə, həm də İmam Əli və əhli-beyt sevgisi təbliğ edilir.

Tədqiqatçılar Xəlvətilik təriqətinin inkişaf prosesini tarixi olaraq dörd hissəyə bölürlər:

1. Əbülqahir Sührəverdidən – İbrahim Gilaniyə qədərki dövr (X-XIII əsrlər)
2. İbrahim Gilanidən-Ömər Xəlvətiyə qədərki dövr (XIII-XIV əsrlər)
3. Ömər Xəlvətidən-Seyid Yəhya Bakuviyə qədərki dövr (XIV-XV əsrlər)
4. Seyid Yəhya Bakuvidən sonrakı dövr (XV əsrdən sonrakı dövr (yayılma və şöbələşmə dövrü))

Xəlvətiyyənin bir təriqət kimi yaranma tarixini İbrahim Zahid Gilaniyə (ö. 700/1301) qədər aparıb çıxarmaq mümkündür. Zahidiyyə təriqətinin qurucusu olan bu böyük sufi yaşadığı dövrdə Azərbaycanın, xüsusilə də Şirvan və Ərdəbil bölgələrinin dini həyatında olduqca böyük təsirə malik olmuş, hətta Şirvanşah Axsitan belə onun təriqətinə üzv olmuşdur. Zahid Gilani irşad fəaliyyətləri üçün bir çox mürid yetişdirmişdir. Lakin bu müridlərin içərisində iki şəxs xüsusi əhəmiyyətə malik olmuşdur. Bunlardan biri səfəviyyə təriqətinin qurucusu olan Şeyx Səfiyyəddin Ərdəbili, digəri isə xəlvətiyyənin qurucusu olan Ömər Xəlvətinin əmisi Əxi Məhəmməd Xəlvəti (ö. 780/1378-79) olmuşdur. Ömər Xəlvəti də öz əmisi Əxi Məhəmməddən təsəvvüf yolunu öyrənmişdir. Deməк ki, həm səfəvilk, həm də xəlvətilk zahidiyyədən törəyən iki qardaş təriqət olmuşdur. Belə ki, İbrahim Zahid Gilani Əbun Nəcibin tələbəsi olan Sədi Şirazinin müridi olmuşdur. Hər ikisinin silsiləsi Şeyx Zahid Gilanidə birləşən və bu baxımdan iki qardaş təriqət olan səfəviyyənin Şeyx Zahiddən Şah İsmayıla, xəlvətiyyənin isə təriqətin ikinci piri olan Şeyid Yəhya Şirvaniyə qədər olan şeyxlərinin də demək olar ki, hamısı azərbaycanlıdır. Qeyd olunduğu kimi xəlvətiyyənin qurucusu (birinci piri) Ömər Xəlvəti hesab olunur. Mənbələrdə onun tam adı Siracuddin Ömər ibn Əkmələddin Gilani Lahici Xəlvəti kimi keçir. Şirvanın qabaqcıl sufi ailələrindən omuşdur. O, ilk təhsilini atasından almış, daha sonra Xarəzmə gedərək əmisi Əxi Məhəmməd ibn Nur Xəlvətidən təsəvvüf yolunun incəliklərini öyrənmişdir. Əmisi vəfat etdikdən sonra onun yerinə təriqətin şeyxi olmuşdur. Ömər Xəlvəti yuxarıda da qeyd olunduğu kimi xəlvəti çox sevmiş və buna görə də onun qurduğu təriqətin adına bu ad verilmişdir. O, xəlvətə çəkildiyi müddət ərzində Allahın yeddi adı ilə (La ilahə illallah, Allah, Hu, Haqq, Həyy, Qəyyum, Qəhhar) zikir edərdi. Bu zikir ənənəsi ondan sonra bəzi digər təriqətlər tərəfindən də mənimsənilmişdir. Xəlvətiyyənin qurucusu Ömər Xəlvəti olsa da, təriqəti sistemləşdirən və intişar tapmasını təmin edən əsas şəxsiyyət Seyid Yəhya Bakuvi Şirvani olmuşdur. Məhz buna görə də o, Xəvətiyyənin ikinci piri sayılır. Xəlvətiyyənin yaranması və inkişafı dörd əsas mərhələyə bölünür: 1. Üsul mərhələsi. Bu mərhələ Əbun-Nəcib Sührəverdidən İbrahim Zahid Gilaniyə qədər olan dövrü (X-XIII əsrlər) əhatə edir. 2. Təriqətləşmə mərhələsi. Bu mərhələ İbrahim Zahid Gilanidən təriqətin qurucusu Ömər Xəlvətiyə qədərki dövrü (XIII-XIV əsrlər) əhatə edir. 3. Təkamül mərhələsi. Bu mərhələ Ömər Xəlvətidən Seyid Yəhya Şirvaniyə qədərki dövrü (XIII-XIV əsrlər) əhatə edir. 4. Yayılma və qruplaşma mərhələsi. Xəlvətiliyin inkişaf seyrindəki sonuncu mərhələ olan bu mərhələ Seyid Yəhya Şirvanidən sonrakı dövrü əhatə edir. Xəlvətiyyə təriəqtinin əsasları bunlardır:

1. La ilahə illəllah ilə zikr etmək.
2. Allahın yeddi adının (Əsmai-səbə) zikri ilə məşğul olmaq.
3. Qəlbin saflaşmasını və pisliklərdən təmizlənməsini təmin etmək.

Yuxarıda da qeyd olunduğu kimi, Allahın yeddi adının (Əsmai-səbə) zikr edilməsi xəlvətilikdə çox geniş yayılmışdır. Bunlar la ilahə illəllah, Allah, Hu, Həqq, Həyy, Qəyyum, Qəhhar adlarıdır. Bu zikir şəkli ilk dəfə İbrahim Zahid Gilani tərəfindən tətbiq edilmişdir. Ondan əvvəl süluk Allahın üç adı ilə edilirdi. Lakin xəlvətiliyin müxtəlif qollarının zikirlərində bu adlara bəzi başqa adlar da əlavə edilmişdir.

Yuxarıda deyilənlərə əsasən, belə bir nəticəyə gəlmək mümkündür ki, xəlvətilik sırf Azərbaycanda qurulmuş bir təriqət olmaqla, Azərbaycanla məhdudlaşmayaraq Balkan yarımadasından Şimali Afrikaya qədər bütün İslam dünyasına da buradan yayılmışdır.

**Hüseynova Ülkər,**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**ulker.huseynova08@gmail.com**

## 1920-ci il Gəncə üsyanı Rusiya Dövlət Hərb Arxivinin sənədlərində

XX əsr Azərbaycan tarixinin mühüm hadisələrindən biri 1920-ci ildə Cümhuriyyətin süqutundan sonra sovet işğalına qarşı Azərbaycanın müxtəlif bölgələrində - Gəncədə, Qubada, Lənkəranda, Astarada, Zaqatalada, Nuxada və başqa yerlərdə baş vermiş üsyanlardır. Bu üsyanlar arasında həm davamlılığına, həm də mütəşəkkilliyinə görə Gəncə üsyanı xüsusi yer tutur.

Sovet tarixşünaslığı Gəncə üsyanı da daxil olmaqla bu xalq üsyanlarını əksinqilabi qüvvələrin hərbi müqaviməti, onların amansızcasına yatırılmasını isə bannditizmlə mübarizə kimi qələmə vermiş, bu üsyanların baş vermə səbəblərini, onların iştirakçılarına qarşı tətbiq edilmiş qeyri-insani tədbirlərin forma və üsulları haqqında əsil həqiqətləri saxtalaşdırmışdır.

Yalnız Azərbaycan müstəqilik əldə etdikdən sonra sovet işğalına qarşı müqavimət hərəkatı haqqında dərin tədqiqatlar aparmaq üçün obyektiv şərait yaranmışdır. Təəssüf ki, indiyə qədər Gəncə üsyanını geniş araşdırıldığı əsər yazılmamışdır. 2010-cu ildə mərhum Xanlar Bayramovun "Gəncə üsyanı. 1920. Sənədlər və materiallar" adlı kitabı bu baxımdan xoş istisnadır. Publisistik üslubda yazılmış bu əsərdə müəllif əsasən memuar xarakterli mənbələrdən istifadə edərək Gəncə üsyanı ilə bağlı bir sıra məsələlərə öz münasibətini bildirmişdir. Kitabda üsyanın səbələri, gedişi, üsyan iştirakçıları haqqında qısa məlumatlar verilmiş, bu zaman 1937-ci ildə üsyanın yatırılmasında iştirak etmiş şəxslərin xatirələrinin saxlanıldığı ARDA-nın 267-ci fondunda saxlanılan və 1937-ci ildə üsyanın yatırılmasında iştirak etmiş şəxslərin xatirələrinin toplandığı 25-ci işdən və AR MTN fonunda mühafizə olunan "Kirovabad rayonunda vətəndaş müharibəsi hadisələrinin şərhi" adlı sənəddən yararlanmışdır. Lakin bu sənədlərin tərtib edildiyi dövrü və siyasi şəraiti nəzərə alsaq onların qeyri-obyektiv səciyyə daşıdığına əmin olmaq olar.

Buna görə də Gəncə üsyanının (eləcə də digər üsyanların) obyektiv öyrənilməsi üçün əlavə arxiv sənədlərinin və materiallarının araşdırılması, öyrənilməsi və dövriyyə gətirilməsi mühüm əhəmiyyət kəsb edir. Lakin çox təəssüf ki, bu sənədlərin əksəriyyəti xarici ölkələrin arxivlərində saxlanılır.

Bu baxımdan Rusiya Dövlət Hərb Arxivinin fondlarında saxlanılan sənədlərin müstəsna əhəmiyyəti vardır.

RDHA-nin 195-ci fondunun müxtəlif işlərində Gəncə üsyanının baş verməsi, gedişi, iştirakçılarının tərkibi, sayı, yatırılmsı haqqında zəngin sənədlər qorunub saxlanılır. Bu sənədlər xarakter etibari ilə məlumatlardan, teleqramlardan, əmrlərdən, yazışmalardan, hərbi vəziyyəti və əməliyyatın gedişini əks edirən hesabatlardan ibarətdir.

Fondun sənədlərinin təhlili sübut edir ki, üsyanı yatırmaq üçün XI Qırmızı ordunun rəhbərliyi ən təcrübəli hərbi hissələri cəlb etmişdi. Buraya 32, 7, 20 diviziyaların seçmə birlikləri daxil idi.

Arxiv materialları üsyanın mayın 25-dən başlayaraq iyunun 4-ə dək davam etdiyini təsdiqləyir.

Sənədlərdən bəlli olur ki, üsyanı nəyin bahasına olursa olsun yatırmağı qarşılarına məqsəd qoymuş işğalçılar bunun üçün ən qəddar, insanlığa sığmaz vasitələrə əl atmışdılar. XI ordunun komandanı Levandovski 20-ci diviziyanın rəisi Velikanova əmrində istənilən üsulla üsyanı yatırmağı, üsyançıları mühasirədən buraxmamağı, bütün üsyançıları məhv etməyi, evləri və mənzilləri dağıtmağı əmr edirdi. O artilleriyadan istifadə edərək bütün şəhəri dağıtmağı əmr

etmişdi (RDHA, f.195, s.3, iş 232, v.94-95).

Fondun sənədləri (f.195, s.3, iş 275, iş 28 və s.) üsyanda Gəncə əhalisinin və bir çox ətraf kəndllərin əhalisinin əksəriyyətinin qoşulduğunu, sovet qoşunlarına qarşı şiddətli müqavimət göstərdiyini, onlara qarşı divan tutulduğunu təsdiqləyir.

Sənədlərdən birində yazılıb ki, 18 diviziya tərəfindən 200 üsyançı doğranmışdı. Qırmızı qvardiyaçıların hiddəti o qədər idi ki, hətta əsir götürmə halı belə olmamış, təslim olanlar da qılıncdan keçirilmişdi (f.195, s.3, iş 27, v.54-55)

RDHA-nin sənədləri Azərbaycanın digər bölgələrində baş vermiş üsyanlar və etirazlar haqqında da tədqiqatlar aparmaq baxımından əvəzedilməz mənbələrdir.

**İsmayılov Arif,**
**dosent**
**Ağayeva Küşvər,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**kuşhu.2019@mail.ru**

## Riyaziyyat dərslərində məntiqi və əyləncəli məsələlərdən istifadənin təlim marağına təsiri

İbtidai siniflərdə Riyaziyyat fənninin tədrisi prosesində məsələ həlli mühüm yer tutur. Məsələ həllı müstəqil təfəkkür növlərindən biridir. Riyaziyyat dərslərinin daha səmərəli və yadda qalan keçməsi üçün müəllim şagirdlərin maraq dairələrinə uyğun məntiqi və əyləncəli məsələlərdən istifadə etməlidir.İbtidai siniflərdə şagirdlərin müşahidəçilik qabiliyyətinin və təfəkkürün inkişafına aid tapşırıqlara daha geniş yer verilməli, bunun üçün müşahidə, müqayisə, təhlil, tərkib, ümumiləşmə, təsnif tələb edən və məntiqi məsələlərə aid çalışmalar verilməlidir. Seçilmiş məsələlərin həlli şagirdlərin yaradıcı, intellektual qabiliyyətlərinin və məntiqi düşünmə bacarıqlarının inkişafına kömək edir. Məntiqi məsələlər şagirdlərdə məntiqi düşünmə bacarığının inkişaf etdirilməsində, riyazi görüşlərinin daha da genişləndirilməsində və gündəlık həyatda ətraf mühitin qanunauyğunluqlarını daha inamla dəyərləndirilməsində,onlarda intellektual səviyyənin artırılmasındamüstəsna rol oynayır, araşdırma və düşünmə qabiliyyətlərinin daha da inkişaf etməsinə səbəb olur.

İbtidai siniıflərdə məntiqi məsələlərin həllinə xüsusi əhəmiyyət vermək lazımdır. Çünki bu, şagirdlərin sonrakı siniflərdə ümumiləşdirmə - mücərrədləşdirmə qabiliyyətini inkişaf etdirmək üçün mühüm vasitədir. Bu mühüm işi lazımi səviyyəyə qaldırmaq üçün sinif müəllimlərinin riyazi-məntiqi hazırlığına xüsusi diqqət verilməlidir. Eksperimental məsələlər sistemində ibtidai siniflərdə məntiqi çalarlara aid nümunələr göstərilməlidir. Aşağıdakı kimi məsələlərin də III-IV siniflərdə icrası onların məntiqi düşünmə qabiliyyətini ınkişaf etdirmək üçün çox faydalıdır:

175-dən sonra gələn 56 dənə ardıcıl tək ədədin sonuncusu neçə edər? İnduktiv mühakimə ilə şagirdlər müəyyən edirlər ki, 2-ci ədədi almaq üçün birinciyə 1x2, üçüncünu almaq üçün 2x2, sonuncunu almaq üçün isə 2x55-i əlavə etmək lazımdır. Deməli, axtarılan ədəd 175+(2x55)=285-dir).

III-IV siniflərdə riyaziyyata marağı artırmaq və onların riyazi hazırlığını təmin etmək üçün əyləncəli və ya maraqlı məsələlərdən istifadə olunmasının böyük əhəmiyyəti vardır. Bu mərhələdə elə şərait yaratmaq lazımdır ki, şagirdlər qarşıya çıxa biləcək çətinlikləri müstəqil şəkildə aradan qaldırmaqla irəli sürülmüş məsələni həll edə bilsinlər.

Pedaqoji, psixoloji və metodik baxımdan yüksək qiymətləndirilən əyləncəliliyin məqsədi şagirdlərin diqqətini cəlb etmək, gücləndirmək və onların düşüncəsini fəallaşdırmaqdan ibarətdir. Bu tipli çalışmalar şagirdlərin əqli qabiliyyətini inkişaf etdirir,diqqəti və yaddaşı məşq etdirməklə təkmilləşdirir, təfəkkürünü inkişaf etdirir və şagirdlədə fənnə maraq yaradır. Əyləncəli məsələləri iki qrupa bölmək olur:

-həllinin çox sadə və qeyri-adiliyi ılə seçilən məsələlər;

-maraqlı məzmuna malik olmaqla, məntiqi mühakimə tələb edən məsələlər.

III-IV siniflərdə ikinci növ məsələlərin həlli prosesində şagirdlər riyazi isbatın elementləri ilə tanış olur, riyazi təklifi əsaslandırma bacarıqlarına yiyələnirlər. M.Y.Şuba əyləncəli məsələlərə aşağıdakıları daxil edir:

- məsələnin ifadə forması;
- məsələnin süjeti;
- məsələnin illüstrativ materialının əyləncə xarakterı daşıması.

Riyaziyyatdan məntiqi və əyləncəli məsələlərin əksəriyyəti standart olmayan məsələlərdir. Standart və standart olmayan məsələlərə müxtəlif təriflər verilsə də, onların hamısı mahiyyətcə eyni məna daşıyır:

1) Məsələ həlli üsulu şagirdlərə qabaqcadan məlum olan hərhansı alqoritmə əsaslanırsa, buna standart məsələ deyilir.
2) Məsələnin həlli üçün qabaqcadan məlum alqoritm yoxdursa, bəzi deduktiv yanaşmadan istifadə etməklə həll olunursa, buna standart olmayan məsələ deyilir.

Öz orijinallığı, maraqlı və həll metodu ilə seçilən əyləncəli məsələlər uzun müddət şagirdlərin yaddaşında qalır və bu tip məsələlərə daha çox maraq göstərilir. Məsələn, “Qayıqda çayın bir sahilindən o biri sahilinə tülkü, toyuq və dən keçirmək lazımdır. Elə etmək lazımdır ki, tülkü toyuğu, toyuq isə dəni yeməsin. Bunu necə etmək olar?”. Bu məsələdəki situasiya şagirdlərin marağına səbəb olmaqla, müxtəlif həll variantlarını tapmaq imkanı verir. Şagird məsələnin ən əlverişli və səmərəli həlli yolunu tapmaqla yanaşı, ciddi riyazi qaydaya əməl edir, həllin konkret alqoritmini müəyyən edir.

**Kazımov Kamran,**
**dosent**
**İbrahimova Cəmilə,**
**magistr**
**Lənkərab Dövlət Universiteti**
**kkamran@mail.ru**
**jameliaa@mail.ru**

## Tətbiq xüsusiyyətləri baxımından didaktik materialların seçim növləri

“Didaktika” termini pedaqogika elminə XVII əsrdə daxil olmuşdur. Didaktika yunan sözü olub, hərfi mənası “öyrədirəm” deməkdir. Bu termin ilk dəfə alman pedaqoqu Volfranq Ratke (1571-1635) və çex pedaqoqu Yan Amos Komenski (1592-1670) tərəfindən işlədilmişdir.

Pedaqogika sahəsində tədqiqatçıların fikirlərinə əsasən deyə bilərik ki, “Didaktika təlim və təhsil nəzəriyyəsi olub təlim prosesinin mahiyyətini, məzmununu, prinsiplərini, metodlarını, təşkili formalarını, habelə şagirdlərin təlim müvəffəqiyyətinin qiymətləndirilməsi məsələlərini, qanunauyğunluqlarını, müəllim və şagirdlərin fəaliyyətini, onların vəzifələrini, təlim prosesinin iştirakçıları kimi onların arasındakı münasibətləri öyrənir”. Didaktikanın qanunauyğunluqları bəşəriyyətin yiyələnmiş olduğu ictimai təcrübənin, bilik və bacarıqların yeni nəslə öyrədilməsində-təlim prosesində müəllimlərə vəşagirdlərə çox kömək edir.

Didaktikanın bir istiqamətini təşkil edən didaktik materiallar da tədrisdə mühüm rol oynayır. Didaktik materiallarmövzunun müxtəlif vasitələrlə daha asan qavranılmasını təmin edir. Didaktik materiallar tədris proqramında mövzuya görə müxtəlif növlərdə ola bilər. Bu fakta əsaslanaraq, didaktik materialların toplanmasının da əsas xüsusiyyətlərini ayırd etmək olar. Bura daxildir:

1)Materialın məzmunu. Dövlətin müvafiq tədris planına uyğun mövzunun mənimsənilməsinə və yaranan çətinliklərin aradan qaldırılmasına xidmət edən didaktik materiallar;

2)Materialın daxilində kommunikasiya formaları: əyani, yazılı, şifahi. Dərsliklər əyani kommunikasiya üçün ideal vasitədir. Dərsliklər rəngarəngdir, yaxşı-keyfiyyətli şəkillərlə zəngin və təmiz görünüşə malikdir. əyani göstərilən şəkillər şagirdlərin öyrənmə çətinliklərini azaldır. Dərsliklərdə yoxlanılmış əsas çatışmazlıqlardan biri onun ünsiyyətə xidmət etməkdən bir qədər uzaqlaşması idisə, hal-hazırda kurikulum sisteminə əsasən tərtib olunmuş dərsliklərdə bu problemlər öz həllini tapmışdır. Belə ki, müasir ibtidai sinif "İngilis dili" dərsliklərinə salınan tapşırıqlar 4 dil bacarığının ilkin səviyyədə inkişafına xidmət edir. Onu da qeyd edək ki, ibtidai siniflər üzrə istifadə olunan şifahi nitq materialları sırf kommunkiativ məqsədli dil didaktikasının əsasını təşkil edir.

Didaktik materiallar əsasən aşağıdakı xüsusiyytələr nəzərə alınmaqla toplanılır.

2) əsas anlayışların izahına xidmət etməsi;
3) yaddaşı möhkəmləndirməsi;
4) diqqət və fikrin cəmləşdirilməsinə yönəlir;
5) təsəvvür və yaradıcılığı genişləndirir;
6) motivasiyanın yaradılmasına xidmət edir.

Bütün bu deyilənləri ümumiləşdirib didaktik materialların aşağıdakı növlərini ayırd etmək olar:

1) motivasiya yaradan didaktik materiallar.
2) anlayışların izahı üçün istifadə olunan didaktik materiallar;
3) diqqət və fikri cəmləşdirən didaktik materiallar;
4) yaddaşı möhkəmləndirmək üçün istiafdə olunan didaktik materiallar;
5) məntiqi təfəkkür, təsəvvür və yaradıcılığı genişləndirən didaktik materiallar;

İbtidai siniflərdə ingilis dilinin tədrisi ibtidai sinif şagirdlərinin yaş dövrünə uyğun şəkildə aparılır. Həmin dövrdə şagirdlər daha çox təqlid etməklə öyrənirlər. Xarici dil tədrisində tətbiq olunan didaktik materiallar –oyunlar, fəaliyyət növləri, əyani vasitələr –realia, şəkillər, söz-didaktik materiallar ola bilər.

Didaktik materialların şəkil formaları daha yaxşı qavramanı təmin edir. İbtidai sinif yaş dövrü daha çox rəngarəngliyə meyilli olduğu üçün tədrisdən daha çox şəkillərlə öyrənirlər. Məsələn, "Fəsillər" mövzusunu öyrədilməsində 4 fəslin əks olunduğu şəkillərin təqdimi onların marağına səbəb ola bilər. Çünki mütləq surətdə bəziləri yayda dənizi, bəziləri qışda qarı, bəziləri yazda göyqurşağı, kəpənək və gülləri, bəziləri isə payızda xəzan yarpaqları ilə oynamağı, rənglərini ayırmağı sevirlər. Şəkil tipli didaktik mteriallar öz növbəsində əsas anlayışları izah etməyə və yaddaşı möhkəmləndirməyə yönələn əsas əyani vasitələrdir. Qeyd edək ki, qədim dövrlərdə də ilkin əlaqə saxlama vasitəsi–yazı üçün lazım olan məlumatın və ya anlayışın özünün əks olunduğu şəkillərdən istifadə olunurdu və bu piktoqrafik yazı adlanırdı. Bu zaman keçdikcə mərhələlərlə söz yazıya keçməyə başladı. Söz-didaktik materialları özündə söz-oyunları, sözlərin izahı, səsləndirilməsi, təkrarı və s. mərhələlərini birləşdirir. Burada şəkil materiallarından fərqli olaraq təqlidetmə mühüm rol oynayır. Adı çəkilən materiallar lüğətin tədrisi zamanı istiafdə olunur.

Sözlərin tədrisi mərhələsindən sonra onların birləşmə şəklində işlədilməsi, söz birləşmələrinin düzəldilməsi prosesi başlayır. Əsas nitq hissələri kimi ibtidai siniflərdə sadə sözləri təqdim edilən isim, sifət, say, əvəzlik, feil öyrədilir. Amma bu proses sadəcə olaraq çalışmalar və praktiki tətbiq nöqteyi nəzərindən baş tutur. Qrammatik materialın nəzəri şəkildə təqdim olunmasına yol verilmir.

Öyrədilmiş tək-tək sadə sözlər birləşmələr şəklində təqdim edilir. İlk olaraq şəxs əvəzlikləri və isimlər daha asan qavranılır və onların daxil olduğu birləşmələr əyani didaktik materiallarla tədris olunur.

İsmin öyrənilməsi ibtidai siniflər üçün başqa əsas nitq hissələrinin qavranılmasından daha rahatdır. İsmin tədrisi üçün mühüm vasitələrdən biri ibtidai sinflər üçün nəzərdə tutulmuş xarici dildə olan kitablardır. Bunun üçün I-IV sinifləri əhatə edən kitablar daha əlverişlidir: həmin kitablara misal olaraq Robin Pulverin "Nouns and verbs: Have a field day", Patrisiya Bayersin "One sheep, two sheep: A book of collective nouns" və s. kitablarını misal göstərmək olar.

Didaktik materialların seçim növlərinin ayırd edilməsi, həm dərsin mərhələri, həm Blum taksonomiyasına əsasən biliyin qavranılma səviyyələri, materialların mövzuları və tədrsi proqramındakı mövzuların strukturuna uyğun baş tuta bilər. Keçiriləcək mövzu üçün mərhələ və səviyyələr üzrə ən optimal didaktik materialın seçimi dərsin keyfiyyətli tədrsinə şərait yaradır.

**Məmmədov Arif,**
**professor**
**İbrahimov İman,**
**magistr**
**Lənkəran Dövlət Universiteti**
**iman.ibrahimov@bk.ru**

## Tarix dərslərində xəritələrlə iş

Müəyyən zaman daxilində baş verən tarixi hadisələr həm də məkan baxımından əhəmiyyətlidir. Buna görə də hadisələrin hansı ərazidə baş verdiyini bilmək çox vacibdir. Hadisələrin hansı tarixi ərazidə baş verməsi haqqında izahlar, əyani materiallar, xəritələr təhsilalanların tarixi prosesləri daha yaxşı qavramasına və yaddaşın güclənməsinə yardımçı olur.

Dərs prosesində adı çəkilən dövlətlərin hansı ərazidə yerləşdiyini, onların coğrafi mövqeyini göstərmək, miqrasiya proseslərini izləmək,ölkələrin sərhədlərini,şəhərləri və ticarət yollarını, şərti işarələrlə göstərilmiş döyüş, üsyan yerlərini, yürüşlərin istiqamətini və öyrənilən dövrə aid hadisələrin daha dolğun formada izlənilməsində xəritələrdən istifadənin əhəmiyyəti böyükdür. Mövzuların dərsliklərdən oxunması ilə yanaşı,həm də onların kontur xəritələrdə şagirdlər tərəfindən işlənilməsi qavramanın keyfiyyətini daha da artırır. Bu, həm də hadisələrin hansı şəraitdə inkişaf etdiyi mühit haqqında təsəvvür yaratmaq baxımından qiymətlidir. Buna görə də, tarix dərslərində xəritələrdən istifadə etmək vacibdir.

Xəritələr tarixi hadisələrin inkişafını izləməklə yanaşı, onları anlamağa, tarixi əlaqə və qanunauyğunluqları açıb göstərməyə imkan verir. Tarix materialının təkcə şərh edilməsində deyil, həm də təhlili və ümumiləşdirilməsində istifadə olunan xəritələr hadisələrin aydınlaşdırılmasına da xidmət edir. Bu xüsusiyyətinə görə xəritələr 4 qrupa bölünür:

1)Xəritələr vasitəsilə hadisələrin tarixi səbəb əlaqələrini açıb göstərmək.

2)Xəritələr vasitəsilə tarixi proses və hadisələri izləmək.Məsələn:dərs zamanı dünya müharibəsinin gedişatını xəritə vasitəsilə izləyə bilərik.

3)Xəritələr öyrənilmiş materialların təhlili və ümumiləşdirilməsini və tarixi ikişafın qanunauyğunluqlarını açıb göstərməyə kömək edir. Məsələn: Misir, Mesopotamiya, Çin və bu ərazilərin qədim əkinçilik məskəni olduğunu, həmçinin qədim quldar dövlətləri olduğunu qeyd edə bilərik.

4)Tarixi xəritələr tarix dərslərinin möhkəmləndirilməsində böyük rol oynayır. Məsələn: müəllimin divar xəritəsində göstərdiyini təhsilalanlar həm də evdə olan vəsaitlərdən izlədikdə bilikləri yaddaşında möhkəmləndirir. Beləcə tələbələrdə bu tip biliklər formalaşır.Daha sonra isə şifahi sual cavabla bu biliklər tam yadda qalır.

Xəritələrlə işləyərkən bir sıra məqamlar vardır ki, bunlara diqqət etmək olduqca vacibdir. Bu zaman ən başlıca məsələ bir dövrə aid xəritənin başqa dövrə aid dərslərdə istifadə olunmasına yol verilməsinin qarşısının alınmasıdır. Çünki hər dövrə aid xəritələrin öz xüsusiyyətləri vardır. Buna görə də eyni xəritədən müxtəlif dövrlərdə istifadə etmək düzgün deyil. Məsələn :XVI əsrin hadisələri haqqında dərsin XVIII əsrin xəritəsi üzrə aparılması ciddi yanlışlıqdır. Tarix xəritəsi mövzunun aid olduğu dövrə aid olmalıdır.

Yeni dövrü öyrənməyə başlayarkən həm də yeni xəritədən istifadəyə başlanılır. Bu zaman yeni xəritə ilə tanış olmağın ən yaxşı yolu tələbələrin diqqətini onlara yaxşı tanış olan obyektlər üzərinə yönləndirməkdir. Daha sonra isə bu obyektlərlərdən istifadə etmək lazımdır.

Bəzən hər dövrə aid xəritələr, lazım olan vəsaitlər olmur. Lazımi xəritələr olmadıqda dərs zamanı kontu xəritələrdən istifadə etmək olar. Bu da dərsin keyfiyyətini artırmaqla yanaşı, həm də onun qavramansını asanlaşdırır.

**Məmmədov Zaur,**
**elmlər doktorluğu üzrə dissertant**
**Lənkəran Dövlət Universiteti**
**mammadovzaur@mail.ru**

## Azərbaycan Respublikasının YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri (1991-2018)

Respublikamızın dövlət müstəqilliyi bərpa edildikdən sonra beynəlxalq birliklərə və təşkilatlara inteqrasiya olunması, iqtisadi və mədəni əlaqələrin yaradılması beynəlxalq münasibətlər tarixinin öyrənilməsi üçün əlverişli imkanlar yaratmışdır. Yaranmış bu şəraitdən dəyərləndirərək Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığının obyektiv olaraq təhlil süzgəcindən keçirilməsi, dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi üçün düzgün nəticələr çıxarılması tarixçilərimizin qarşısında duran əsas vəzifələrdən biridir. Bu baxımdan BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESCO ilə əməkdaşlığı Azərbaycan Respublikasının xarici siyasətində mühüm yerlərdən birini tutur.

YUNESKO dünyanın təhsil, elm, mədəniyyət, informasiya vəkommunikasiya sahəsindəki əməkdaşlıqlarının ən böyük hökumətlərarası forumudur. Hazırda YUNESKO 195 ölkə və 10 Assosiativ Üzvdən ibarətdir. Həmçinin aparıcı dövlətlərarası təşkilatlarla (ATƏT, Afrika Birliyi Təşkilatı, Ərəb Dövlətləri Liqası, İSESKO, TÜRKSOY və s.) da geniş əlaqələrə malikdir. Bu məqsədlə Azərbaycan Respublikasının YUNESKO ilə əlaqələrinin əsas istiqamətlərini və inkişaf dinamikasının araşdırılması xüsusi aktuallıq kəsb edir.

Problemin aktuallığı həm də onunla bağlıdır ki, aparılan araşdırma Azərbaycanın YUNESKO ilə əməkdaşlığının əsas forma və istiqamətlərini, onların məzmununu açıb göstərməyə, perspektivlərini müəyyənləşdirməyə imkan verir.

Mövzunun aktuallığını şərtləndirən əsas cəhətlərdən biri də onun indiyə qədər elmi-siyasi ədəbiyyatda ayrıca tədqiqat obyekti olmamasıdır. Buna görə ciddi araşdırmalar tarixi təcrübənin öyrənilməsinə, əməkdaşlığın perspektivlərini müəyyənləşdirən tədqiqat işlərinin aparılmasına ehtiyac var.

Tədqiqatın xronoloji çərçivəsi 1991-2018-ci illəri əhatə edir. Bu xronoloji çərçivənin seçilməsinin bir sıra səbəbləri vardır. Belə ki, müstəqilliyimizin bərpasından sonra Azərbaycan-YUNESKO əməkdaşlığı genişlənmiş, Respublikamız müstəqilliyini bərpa etdikdən sonra 3 iyun 1992-ci il tarixində YUNESKO-ya üzv qəbul edilmişdir.1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyevin Fransa Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev YUNESKO-nun baş direktoru Federiko Mayorla görüşmüşdür. Azərbaycan Respublikasının I vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan-YUNESKO münasibətləri ən yüksək inkişaf səviyyəsində yüksəlib. 1995-ci ildən etibarən, rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil edilməklə, xanım Mehriban Əliyeva ölkəsinin mədəni irsinin təbliğinin, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərmişdir. Cənab Prezidentin müvafiq fərman və sərəncamları nəticəsində ikili əlaqələr davamlı inkişaf etməkdədir. Bu məqsədlə qarşıya qoyulan problemin araşdırılması üçün aşağıdakı istiqamətdə tədqiqatın aparılması qarşıya qoymuşdur:

1. Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlığın tarixinin araşdırmaq;
2. İkili əməkdaşlığın hüquqi bazasını təhlil etmək;
3. Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərin tədqiqi

4. YUNESKO-nun Konvensiyalarına Azərbaycan Respublikası qoşulmasının beynəlxalq münasibətlərdə rolu
5. YUNESKO-nun alt-qurumlarında Azərbaycanın təmsil olunmasını təhlil etmək
6. Təhsil, elm və mədəniyyət sahələri üzrə əməkdaşlığın araşdırılması
7. YUNESKO-nun Xoşməramlı səfirinin fəaliyyətinin tədqiqi
8. Heydər Əliyev Fondu və YUNESKO arasında əməkdaşlıq çərçivəsində imzalanmış sazişlərin təhlili
9. Layihələr üzrə işlərdə birliktə iştirak

YUNESKO- nun dünya mədəniyyətlərinin inkişafı yolunda ortaya çıxan problemlərin həllində rolu danılmazdır. Təşkilat özünün bir sıra sənədlərində xüsusilə "Dözümlülük prinsipi haqqinda bəyannamə", "Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya" larında mədəniyyətlərin bərabərliyi prinsipinə münasibətdə qlobal konsensusa əsaslanaraq mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin vahid standartlarını işləyib hazırlamışdır. Bu istiqamətdə Azərbaycan Respublikası YUNESKO tərəfindən imzalanmış sənədləri təsdiqləmiş, bu məqsədlə ölkə prezidenti müvafiq fərman imzalamış, ölkəmizdə bir sıra tədbirlər təşkil olmuş və müvafiq işlər görülmüşdür.

O, BMT və onun ixtisaslaşmış qurumları ilə sıx əlaqədədir. Həmçinin aparıcı dövlətlərarası təşkilatlarla (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, ATƏT, Afrika Birliyi Təşkilatı, Ərəb Dövlətləri Liqası, İSESKO, TÜRKSOY və s.) da geniş əlaqələrə malikdir. Eyni zamanda, YUNESKO yüzlərlə qabaqcıl beynəlxalq və qeyri-hökumət təşkilatları ilə fəal əməkdaşlıq edir.

Azərbaycan XX əsrin 60-cı illərindən Sovet İttifaqının tərkibində olarkən YUNESKO-nun fəaliyyətində aktiv iştirak etmişdir.

YUNESKO-nun Parisdəki baş qərargahında "Azərbaycan xalçaları" (1981), "Azərbaycan əlyazmaları" (1985), Londonda isə YUNESKO-nun himayəsi altında "Bakının memarlığı" (1985) sərgiləri keçirilmişdir. 1984-cü ilin noyabr ayında YUNESKO-nun baş qərargahında Azərbaycan Dövlət Rəqs ansamblının çıxışı olmuşdur.

**Azərbaycan Respublikası ilə əməkdaşlıq.** Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 3 iyun 1992-ci il tarixində YUNESKO-ya üzv qəbul edilmişdir.1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyevin Fransa Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev YUNESKO-nun baş direktoru Federiko Mayorla görüşmüşdür.

**YUNESKO baş direktorlarının Azərbaycana səfərlərinin xronologiyası.**
**YUNESKO-nun Xoşməramlı Səfiri xanım Mehriban Əliyevanın fəaliyyəti**
**Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq əhəmiyyətli tədbirlər**
YUNESKO və Azərbaycan arasında imzalanmış sənədlər

**Baxşıyev Əliağa**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**
**Səttarov Anar,**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**baxşıyev@box.az**
**anarsattarrov92@gmail.com**

## Ümumtəhsil məktəblərinin tarix dərslərində tarixi mənbələrdən istifadənin metodları

1999-cu ildə ölkə Prezidentinin Fərmanı ilə "Azərbaycan Respublikasında Təhsil haqqında İslahat Proqramı" təsdiq edilmişdir.

Bu islahatın mühüm istiqamətlərindən biri də təhsilin məzmununun təkminləşdirilməsindən və yeniləşdirilməsindən, dünya təhsil sistemi səviyyəsinə çatdırılmasından ibarətdir.

Əsasən 2004-cü ildən etibarən ölkəmizdə ardıcıl həyata keçirilən məzmun dəyişiklikləri pedaqoji prosesin sistemli planlaşdırılmasını nəzərdə tutan kurikulum islahatları şəklində reallaşır. Kurikulum islahatlarının nəticəsi olaraq ümumtəhsil məktəblərinin tarix dərslərində tarixi mənbələrdən istifadənin yeni metodları, üsulları, imkan və yolları yaranmışdır.

Digər fənn kurikulumları kimi, ümumtəhsil məktəblərinin tarix dərslərində tətbiq olunan yeni üsul və vasitələr müasir təhsil konsepsiyasına əsaslanır. Bu yanaşmaya görə şagird məktəbdə tədris olunan tarix fənni vasitəsilə müxtəlif tarixi mövzular və sahələr üzrə seçilmiş mənbənin məzmununu öyrənməli və tətbiq etməyi bacarmalıdır. Bu o deməkdir ki, şagirdlər tarixə aid mənbə ilə tanış olur, onun məzmununu öyrənir və tarix təliminin fasiltasiya qaydalarına uyğun şəkildə tədris olunmasında yaxından iştirak edirlər.

Ümumtəhsil məktəblərinin tarix dərslərində tarixi mənbələrdən istifadənin digər imkan və yollarının tətbiq edilib mənimsənilməsində inteqrativ kurikulum metodlarından istifadə edilə bilər. Tarix təlimi zamanı Azərbaycan və ümumi tarix kursunun inteqrativ kurikulum qaydaları aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

- təlimin fəal cəlbedici və əyləncəli olması;
- çoxlu hissələrə bölünməməsi;
- məzmununun sadə, əhatəli və anlaşıqlı olması;
- eyni konsepsiyanın iki müxtəlif fəndə öyrənilməsi;
- təlimin müxtəlif mərhələlərinin əlaqələndirilməsi;
- yüksək nailiyyət səviyyəsinin və intelektual bacarığın inkişafının stimullaşdırılması;
- şagirdlərdə tədqiqatçılıq, müstəqillik və yeni tədris texnologiyalarından istifadə bacarığının formalaşdırılması.

Fəal- interaktiv təlim metodlarının xarakterik xüsusiyyətləri passiv təlim üsullarından fərqli olaraq daha mükəmməldir, müəllim və şagirdlər bir-biriləri ilə qarşılıqlı əlaqədə birgə fəaliyyət göstərirlər. Burada şagird passiv dinləyici deyil, dərsin fəal iştirakçısıdır, müəllim – şagird bərabər hüquqlu tərəfdaşdırlar.

Müasir dərs modelinin əsasını təşkil edən fəal və interaktiv metodlarının tarix dərslərində təlimi və tətbiqi bərabər hüquqlu olsa da, eynilik təşkil etsə də müsbət əhəmiyyətə malik fərqli metodları da vardır. “İnteraktiv” latın sözü olub “qarşılıqlı fəaliyyət”, “qarşılıqlı əlaqəyə əsaslanan” mənasını verir. İnteraktiv metod fəal təlimdən fərqli olaraq, təlim prosesində təkcə müəllimlə şagird arasında deyil, habelə şagirdlərin özləri arasında dominant rolunu oynayır. İnteraktiv tarix dərslərində müəllimin rolu şagirdlərin fəaliyyətini dərsin məqsədlərini həyata keçirilməsinə istiqamətləndirməkdən ibarətdir. Burada müəllim fasiltator, şagird tədqiqatçı rolunda olur. Problem-situasiyanın yaradılmasından sonar tədqiqata cəlb olunmuş şagirdlər mənbələri tənqidi cəhətdən qiymətləndirir, nəticələr çıxarmağı və onları əsaslandırmağı, müqayisələr aparmağı, mövqeyini müdafiə etməyi bacarır. Bununla da şagirdlərin yerinə yetirdiyi interaktiv tapşırıq və çalışmalar dərsin əsasını təşkil edir.

Tarix fənn kurikulumunun tədrisində müxtəlif iş formaları, üsul və vasitələri vardır.

İş formaları – kollektivlə iş, fərdi iş, qruplarla iş, cütlərlə iş, xəritələrlə iş, zaman oxu üzərində iş, illustirasiya üzərində iş və s.

Üsul və vasitələr–beyin həmləsi, BİBO-bilirəm/istiyirəm bilim/öyrəndim, anlayışın çıxarılması, Venn diqaramı, ziqzaq, karusel, akvarium, insert, diskussiya, layihə hazırlığı, mühazirə, sorğu vərəqələri və müsahibə, işgüzar hay-küy, debat, rollu oyunlar, mənbənin öyrənilməsi üzrə dərslər və s.

Göstərdiyimiz iş formalarından, üsul və vasitələrdən istifadə etmək də ümumtəhsil məktəblərinin tarix dərslərində tarixi mənbələrin öyrənilməsi üzrə bir modeli göstərək:

Şagirdlərə müəyyən mövzu üzrə mənbələr kompleksinin öyrənilməsi əsasında müstəqil şəkildə dərsliyin bir paraqrafını və ya kiçik bir hissəsini yazmaq təklif olunur.

1. Müəllim dərsin mövzusunu, problem söyləyir və tapşırığı izah edir.
2. Şagirdlər kiçik təlim qruplarına bölünürlər və ilkin məlumatların tədqiqi əsasında lazım olan material seçirlər.

Beləliklə,tarixi mənbənin öyrənilməsi və şagirdlər arasında tarixi hadisənin müəyyənləşdirilməsi olduqca vacib əhəmiyyətə malikdir. Məhz buna görə şagirdlərə tarixi faktların təhlili, təsnifatı və sistemləşdirilməsi üsullarını, onların ümumləşdirilməsini və öz mövqeyinin əsaslandırılmasını öyrənməyə imkan verir. Belə dərslər tarixi mənbələr üzərində şagirdlərin tədqiqat fəaliyyətini formalaşdırır.



Konfrans materialları Lənkəran Dövlət Universtetinin
mətbəəsində çap olunmuşdur

Yığıma verilmişdir: 20.12.2018
Çapa imzalanmışdır: 25.12.2018
Kağızın formatı: $64 \times 84^{1/8}$
Çap vərəqi: 22 c.v., tiraj: 120
Çap ofset üsulu ilə.

Ünvan: Az 4200, Lənkəran səhəri, General Həzi Aslanov xiyabanı 50
Tel: (+994) 25-25-5-25-21
e-mail: elmi_tezis@lsu.edu.az
www.lsu.edu.az